

İTKİN GƏLİN



BİRİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Bu kitabı sənə, sənin gəncliyinə, gözəlliyinə və böyük məhəbbətinə dərin minnətdarlıq duyğuları ilə həsr edirəm, mənim əvəzsiz ömür-gün dostum.

Müəllif

Günəş, zirvəsində yay-qış qar ağaran Ağ dağın arxasında yenicə gizlənir, şər yavaş-yavaş qarışırdı. Uzaqda, göylərə dirənmiş kimi görünən dağın nəhəng, tutqun kölgəsi hələ də aydın seçilirdi. O, ancaq bir azdan qaranlıqlar içərisində əriyib gündüzlər adamı valeh eləyən əzəmətini itirəcək, sabah dan yeri ağaranadək gözə görünməyəcəkdi.

Ağ dağ gündüzlər məğrur görkəmi ilə gözləri oxşayırdısa, gecələr, qaranlığın qucağında gizlənəndən sonra da soyuqluğu ilə öz varlığını hiss etdirirdi: axşam düşən təki şaxtasını, ayazını üzüaşağı — bir-birindən azca aralı yerləşən kəndlərin üzərinə səpələyir, mülayim bahar gecələrini, hətta isti yay axşamlarını belə soyudub buza döndərirdi. Yaz öz ilıq nəfəsilə yeri-yurdu isidəndən ta yayın axırınadək ağ dağın qarları əriyib selə-suya dönür, kəndlərin yaxınlığından burula-burula axıb gedən Daşlı çayı ilə qıjıltı, hay-haray sala-sala uzaqlara—susuz səhralara, bomboz çöllərə axıb getsə də, dağın başındakı qurd salmış qar qurtarmaq bilmir, bəyaz örpək altında yuxuya getmiş torpaq günəş üzünə, bahar nəfəsinə həsrət qalırdı.

Dəli-dolu Daşlının uzaq, tutqun şırıltısı cəmi-cümlətanı səksən səkkiz irili-xırdalı damdan ibarət olan Ədnan kəndinə bəzən layla çalır, bəzən də dağlardan, qayalardan qoparıb gətirdiyi iri daşları şaqqıldada-şaqqıldada adamların yuxusuna haram qatır, camaatı vahiməyə salırdı. Sahilə yaxın yuxarı kəndləri, daş görpüləri gətirdiyi vaxtlar da az olmurdu. — Ədnan camaatı dəfələrlə çayın qırağından, gilə-palçığa batmış, parça-parça olmuş neçə meyit tapmış, sahibi peyda olanacan «əma-

nəti dəfn»[1] eləmişdi. Belə hallar əsasən yazbaşı, dağların qarı təzə-təzə əriməyə, güclü selləmə yağışlar yağmağa başlayanda olurdu. Yayda isə sanki çayın hirsi-hikkəsi yatır, quzuya dönür, dar məcrasına sığınıb həzin nəğməsini oxuya-oxuya axıb gedirdi.

Ədnan kəndi çayın sol döşündə salınmışdı. Orda-burda, gildən, palçıqdan tikilmiş irili-xırdalı evlərin dövrəsinə hündür, hörmə hasarlar çəkilmişdi. Yaşıl meyvə bağları, gömgöy üzümlüklər, əkin-biçin torpaqları camaatın yeganə ruzi mənbəyi idi. Hər kəsin özünə görə, kiminin az, kiminin çox, bir parça torpağı, mal-qarası vardı. Əlbəttə, bu, kəndin köklü-kötüklü sakinlərinə aid idi. Gəlmələr özünə kənarda balaca daxmalar tikib yerlilərin qapısında nökərçilik, icarədarlıq eləyirdilər. Bunlar əsasən qəryədar[1] Qulamın, kənd imamı Seyid Həsənin həyət-bacasında, təsərrüfatında çalışırdılar. Qalan camaat özü əkir, özü biçir, dövlətin vergisini, qəryədarın, imamın payını, xumsünü[3], zəkatını[4] verəndən sonra, yerdə qalan taxılını, meyvəsini, üzümünü, kişmişini istədiyi kimi sərf eləyirdi. İl faraş gələndə Ədnan camaatı torpağının məhsulundan vilayət mərkəzinə, Süleymanşəhrə satmağa da aparırdı. Əlbəttə, bu, nadir hallarda olan hadisə idi.

Mal-qara, qoyun-quzu örüşdən gəlmiş, kəndi səs-küy başına götürmüşdü. Bərk keçən qışın dəhşətli soyuğunun büküb-burub yumağa döndərdiyi adamların qırışığı açılmış, bozarıb-saralmış üzlərdə şadlıq, qızartı əmələ gəlmiş, uşaq da, böyük də gümrahlaşmışdı. Bu gün qışın son, baharın ilk gününün görüşüb ayrıldığı gün idi — novruz bayramı axşamı, gecə ilə gündüzün bərabərləşdiyi gün idi. Qış son nəfəsini çəkir, sovuşub getmək istəmir, bahar isə öz qüdrətini göstərirdi.

Ədnan kəndində də əziz bahar bayramını qarşılamaq üçün ciddi hazırlıq görülmüşdü. İmkanı olan qoyun kəsmiş, olmayan plov qazanını asıb dəmə qoymuşdu. Pəncərələrin ağzına səmənilər düzülmüş, içinə yer-yemiş yığılmış sinilərin böyrünə rəngbərəng şamlar yapışdırılmışdı. Kimi təzə bayram paltarı, kimi də bayır-bacaqlığı olmadığından köhnəsini yuyub-qurutmuş, yırtıq-söküyünü yamamış, əyninə geymişdi.

---

[1] Əmanəti dəfn — müvəqqəti dəfndir. Meyitin sahibi tapılandan sonra onu aparıb öz vilayətində—yaşadığı yerdə dəfn edir. (Qeydlər müəllifindir.)
[2] Qəryədar — kəndxuda.
[3] Xüms — gəlirin beşdə biri.
[4] Zəkat — dini vergi.

Küçələrdə, evlərin qabağında tonqal yandırıb üstündən atılan, «ağırlığım-uğurluğum burda qalsın» deyən, lopa yandırıb göyə atan kənd uşaqlarının səsi hələ də eşidilirdi.

Əyninə uzun tuman geyib başına çarqat atmış, ovcunun içinə xına qoymuş Səbihə arvad axşamın düşdüyünü hiss edib evdə qərar tuta bilmir, tez-tez doqqazın qabağına çıxıb oğlunun yoluna baxırdı, Yusifdən əsər-əlamət görməyib təzədən həyətə qayıdır, eyvanda oturaraq səssiz-səmirsiz nəsə düşünən kiçik oğluna — Elməddinə üz tutub deyirdi:

— Ürəyim hövlümdən az qalır ağzıma gəlsin. Bu uşaq hayanda qaldı, bala?!

Elməddin fikrini cəm eləyib bir yerdə dayana bilməyən nigaran anasına baxır, onu təskin eləmək üçün:

— Gəlib çıxar, darıxma, ana, —deyirdi.

— Axşam düşdü. Özü də bilir ha. bayram axşamıdı bu gün. Külfət gərək bir yerdə olsun. Yox, uşağın başında bir iş var ki, gəlib çıxmadı. Yusif harda olsa, özünü bayrama evə yetirərdi. Həmişəki kimi.

Elməddin anasına cavab vermir, öz daxili aləminə qapılıb susur, arvad səsini alçaldıb dodaqaltı mızıldamağa başlayır, doqqazın ağzına gedib artıq nurunu itirməkdə olan gözlərini azca əvvəl malqaranın tozanaqladığı yollara zilləyir, ürəyində danışırdı.

Yusif Səbihənin ilki idi. Oxumamışdı, o vaxt kənddə məktəb yox idi. Açılanda isə onun məktəb yaşı çoxdan keçmişdi. Atası Səlim kişi vərəm xəstəliyindən öləndən sonra o, evin yeganə, ağlıkəsən başıpapaqlısı olduğuna görə ailənin bütün ağırlığı Yusifin boynuna düşmüş, Süleymanşəhrdə atasından qalan «çubfüruş»[1] dükanında odun-kömür, şalban satmağa, günlərini şəhərdə keçirməyə başlamışdı. Evi də bu dükan idi, iş yeri də. Atasından qalan bir dəst yorğan-döşəkdə yatır, elə burada da yeyib-içirdi. Ayda, iki ayda bir dəfə üç-dörd günlüyə kəndə gəlir, anasını, qardaşını görür, xırda-para xərclik verir, yenə şəhərə qayıdırdı. Beş ildən çoxdu ki, o, Süleymanşəhrdə yaşayırdı. Enlikürək, boylu-buxunlu bir cavan olmuşdu—atası Səlim kişi kimi bığ qoyur, çərs[2] çəkirdi. Yusif bir növ evdən, kənddən uçub getmişdi; onun yenidən ailəyə, kəndə qayıdacağına Səbihə arvadın ümidi azalmışdı. Bu müddət ərzində o, analıq mehrini-məhəbbətini yanındakı oğluna—

[1] Çubfüruş — odun, kömürsatan.
[2] Çərs — göy rəngli məstedici tütün.

Elməddinə salmışdı. Səbihənin ağır günləri artıq dalda qalmışdı. — Oğlanlarının ikisi də böyüyüb qazanc gətirən olmuşdu. Elməddin on ikinci sinfi bitirəndən sonra təhsilini davam etdirmək üçün çox can atmışdısa da, maddi imkanları olmadığına görə, bu arzusunu ürəyinin dərinliklərində həmişəlik dəfn edib, qəryədar Qulamın yanında katib-münşi vəzifəsində işə düzəlmişdi. Yaxşı xətti olması onun dadına çatmışdı. Hər gün bir neçə saatlığına qəryədar Qulamın yanına gedir, lazımi sənədləri tərtib edir, hökumətin vergisini verənlərin adını siyahıya yazır, vilayət mərkəzinə — Süleymanşəhrə, hakimə və qaziyə göndərilməli məktubları xoş xətlə yazır, qəryədar Qulama ucadan oxuyur, kişi ağ, uzun saqqalına sığal çəkə-çəkə barmağındakı üzük-möhrlə təsdiq edəndən sonra onları namərəsana[1] verib şəhərə göndərirdi. Evə gələndən sonra bağ-bağçada işləyir, yer şumlayır, boş saatlarını da vaxtilə mərkəzə köçüb getmiş müəlliminin ona bağışladığı kitabları oxumağa sərf edir, şəkillər çəkirdi.

Səbihə onun şəkil çəkməsini xoşlayırdı. Bir də görürdün Elməddin xəmir yoğuran, tikiş tikən, paltar yuyan, keçi sağan anasının şəklini bir vərəq kağızda çəkib özünə göstərir, gülə-gülə soruşur:

— Bu kimdi, ana?

— Bıy, ay uşaq, bu mənəm ki? — deyə ana rəsmə diqqətlə baxır, sevinc hissilə əlavə edirdi, — gör necə də oxşayır ey, sən allah.

Elməddinin iyirmi iki yaşı üç ay bundan qabaq tamam olmuşdu. O, sir-sifətdə Yusifə çox bənzəyirdi—ikiyə bölünmüş bir alma kimi. Amma bir az arıq-arğaz idi, rəngi də solğuntəhər görünürdü. Ciddi, az deyib, az danışan, nəsə həmişə fikirli-qayğılı görünən bir cavan idi. Əynindəki köhnə büzmə, genbalaq tumban[2], başına doladığı parça-papaq onu adi kənd adamına oxşadırdı.

Elməddini indi Yusifin gəlib çıxmaması az maraqlandırırdı. Ona görə yox ki, qardaşını sevmirdi. Yox, o, qardaşını çox istəyirdi, anası qədər istəyirdi. Ancaq bu saat onun barəsində düşünə bilmirdi. Çünki fikri tamam ayrı adamın yanında idi: o indi sevincin qanadlarında göylərdə uçurdu. İyirmi üç illik həyatına xəyalən nəzər salır, heç vaxt indiki kimi sevinmədiyini xatırlayıb yerə-göyə sığmırdı. Bəlkə bu, baharın gəlişindən doğan sevinc idi? Bu gün o, çoxdan bəri gözaltı elədiyi qızı üzü açıq, yaxından görmüş, gəlmə kəsmiş, hətta novruz bayramını da təbrik eləmişdi. Qızın dayısı, kənddə dükandar

[1] Namərəsan — məktubdaşıyan.
[2] Tumban — ağ parçadan tikilmiş gen şalvar.

adı ilə məşhur olan Həzrətgül axşam namazını qılmağa gedəndə Əfsanəni dükanda qoymuşdu. Şam almaqdan daha çox, Əfsanəni görmək ümidi ilə evdən çıxmış Elməddin gözləmədiyi halda qızla — gecə-gündüz onu düşündürən, gözəl, uzun qatlama kirpikli qara gözlərini, ağ, xallı üzünü heç vaxt unuda bilmədiyi Əfsanə ilə üzbəüz dayananda sinəsində ürəyi quş kimi çırpılmışdı. Heyran baxışlarını onun ağ sifətinə zilləyib mat-mat baxmış, buraya nə üçün gəldiyini də yadından çıxartmışdı. Elməddinin hisslərini, duyğularını yaxından-uzaqdan başa düşən Əfsanə şirin bir təbəssümlə ona gülümsünmüş və onu xoşbəxt eləmişdi.

Əfsanənin on altı yaşı təzəcə tamam olmuşdu. On il əvvəl Həzrətgülün qonşu kənddə yaşayan bacısını, iki bacısı uşağını və yeznəsini sel aparmış, dayısıgilə gəzməyə gəlmiş Əfsanə isə sağ qalmışdı. Atasının, anasının, iki qardaşının faciəsini anlamayan altı yaşlı qızcığaz Həzrətgülün evinin bir güncünə qısılıb yaşamış, darıxanda, ata-anası yadına düşəndə gözlərinin yaşını gildir-gildir töküb «məni evimizə aparın» — deyə fəryad eləmişdi. Ancaq onun ah-naləsi, yalvarışları nə dayısının, nə də dayısı arvadı Xədicənin ürəyini «yumşaltmamışdı». Əsl qəziyyədən, böyüyüb ağlı kəsəndə xəbərdar oldu. Bunu ona Həzrətgülün böyük qızı Rəxşanə söylədi. Soyuq bir qış günündə. Ailəsinin başına gələn fəlakəti düşünür, yanaqları aşağı ixtiyarsız yaş axırdı. Ötən illəri o, ümidlə yaşamışdı; atası, nəhayət, bir gün onun dalınca gələcəkdi. Gəlməli idi. Hələ imkanları yoxdu yəqin. Amma bütün bu ümidlər bu gün alt-üst olub dağıldı, sapı qırılmış mirvari kimi. Atası da, anası da, qardaşları da — onun üçün bu gün öldülər; həmişəlik. Əfsanə tövlədə başını bulaya-bulaya yem yeyən, fınxıran qoyun-keçinin arasında ona görə ağlayırdı. Bu, təkcə bir də heç vaxt görə bilməyəcəyi əzizləri üçün axıdılan göz yaşı deyildi, bu, həm də indiyə qədər ürəyində yığılıb qalmış nisgilin, əzab-əziyyətin ağrısı-acısı idi ki, gözlərindən axırdı.

Əfsanə Xədicə arvadın zülmlərinə dözə-dözə böyümüşdü. O, burada bacı qızı yox, qulluqçu olmuşdu. Bir tikə vaxtından sil-süpür, yır-yığış etmək, mal-qara qabağına getmək, onları yemləmək, paltar yumaq, su gətirmək işini boynuna götürmüşdü. Əlbəttə, öz xoşuna yox. Xədicənin ağzından çıxan sözü yerinə yetirməyəndə şillə, kötək, yumruq yediyi vaxtlar az olmamışdı.

Əfsanə bütün yetimlər kimi böyümüşdü. Döyülə-döyülə, söyülə-söyülə, ağlaya-ağlaya. Həzrətgülün böyük qızları ərə getmişdi. Əfsanənin yaşıdı Süsən bu evdə onun yeganə həmdəmi olmuşdu.

Anası Əfsanəni döyəndə çox vaxt Süsən araya girir, ya da əti kəsilirmiş kimi haray-həşir qoparır, anasına mane olurdu. Süsən məktəbə gedəndə Əfsanəni də özü ilə aparmaq istəmişdi, ancaq Xədicə qoymamışdı. Həzrətgül də ağzına su alıb durmuşdu. Beləliklə, Əfsanəyə yetimliyin birinci böyük zərbəsi dəymişdi. Ancaq Süsənin gizli səyi — tələşı nəticəsində Əfsanə də az-maz yazıb-oxumağı öyrənmişdi. Süsənlə Əfsanənin arasındakı yaxınlıq doğma bacı münasibətinə oxşayırdı.

Həzrətgül Süsəni də keçən yay ərə vermişdi. Daha doğrusu, onu yayı dağda, qışı aranda olan bir kişinin gözəllikdə Əfsanəyə bənzəyən qızı Nazəninlə dəyişmişdi. Obaya yolu düşən Həzrətgül Nazənini görüb-bəyənmiş, nəyin bahasına olursa-olsun qızı almaq qərarına gəlmişdi. Qızın atası Əhədulla qırx-qırx beş yaşlı dul bir kişi idi. Ailənin bütün işi, gücü, biş-düşü Nazəninin boynunda idi. Ona görə Əhədulla qızını hələ heç kəsə vermək istəmirdi. Bu məsələ ortalığa çıxanda Nazəninin gözəlliyindən məst olmuş Həzrətgül qızı Süsəni ona verməyə razı olduğunu bildirmiş, Əhədulla bu fikri bəyənmiş və hətta çox xoşhal olmuşdu. Beləliklə, Süsən — Əfsanənin yeganə həmdəmi və rəfiqəsi bu evdən uçmuş, həmişəlik getmişdi. Əvəzində isə Nazənin gəlmişdi. İki yaş Əfsanədən böyük olan Nazənin də xoşbəxtlikdən, Əfsanə ilə tez dostlaşmışdı. Əlbəttə, yaşı qırxı çoxdan adlamış, qocalığa üz qoyan Xədicə Nazənin gələndən sonra bir az da quduzlaşmışdı. Nazənini görməyə gözü yox idi. Amma dözməkdən ayrı çarəsi vardımı? Onun getdikcə əriyib qocaldığını görən Əfsanənin ürəyindən tikan çıxırdı. Xədicə isə zülmünü daha da artırırdı. Bu minvalla kimsədən xoş söz eşitmədən, nəvaziş görmədən, bir gözü ağlar, bir gözü gülər böyüyüb qızlar bulağından su içmişdi. Əfsanə— topuqlarını döyən yoğun, qara hörükləri, mütənasib bədəni, qara, uzun, qatlama kirpikli qara gözləri, xallı dodağı, xumar baxışları olan bu qız cır-cındır paltar geyinsə də gözəl idi.

Elməddin hər gün səhər onların evinin yanından keçib işə gedər, bu yolla da geri qayıdardı. Son vaxtlar Əfsanə onun rahatlığını, şirin yuxusunu əlindən almış, ürəyini indiyəcən hiss etmədiyi şirin duyğularla doldurmuşdu. Qəlbini gizli bir həsrət yandırıb-yaxırdı. Onu görməyən gün Elməddin aram ola bilmirdi: hərdən yolda, suya gedən, ya sudan gələn Əfsanə ilə rastlaşanda oğrun-oğrun baxışır, kimsənin görə bilməyəcəyi təbəssümlə gülümsünürdülər. Elməddinin məftun baxışları altında qızarıb-allanan Əfsanə tutaş kirpiklərini qara gözlərinin üstünə endirirdi. Kəlmə kəsməmiş, bir-birini sevdik-

lərini dilə gətirməmişdilər. Ancaq baxışları çox şey demişdi. İlk məhəbbətin, ilk dilsiz, gözəl duyğuların toxumu hər iki ürəkdə cücərmiş, hər ikisinin şirin yuxusuna haram qatmış, hər ikisini xəyalpərvər eləmişdi.

Bu evdən getməyi Əfsanə necə də arzulayırdı. Ruhunu, ürəyini, varlığını məngənə kimi sıxan bu mühitdən uzaqlaşmaq nə qədər də gözəl olardı. Nə yaxşıki Süsən varmış, nə yaxşı ki Nazənin varmış, yoxsa Əfsanənin ürəyi partlardı. Əgər elə bir gün gələcəkdisə, o gün Əfsanənin ömrünün ən xoş günü olacaqdı. İndi bu xoş, füsunkar bayram axşamında Həzrətgülün dükanı qabağında üz-üzə dayananda Elməddin ani sarsıntıdan özünə gəlib Əfsanənin üst-başına fikir vermişdi: həmişə geydiyi, çox güman ki, Süsəndən qalmış paltar çirkli və yamaqlı idi. Yuyulmamışdı da. «Gərək dəyişəyi olsun ki, yuya bilsin, — Elməddin ürəyindən keçirtmişdi, — yetimlik belədi, uzü qara olsun yetimliyin. Valideynlərindən biri sağ qalsaydı, kəndin qənirsiz gözəli Əfsanə də tərtəmiz, təptəzə bayram paltarı geyinərdi. Həzrətgül ona dayılıq yox, ağalıq eləyib. Əfsanə bu evdə boynubükük bənövşə kimi böyüyüb. İnsafsızlar, heç olmasa bayramda onun barəsində düşünəydilər!»

Elməddin çox namünasib yerdən başlamışdı:

— Həzrətgül yoxdu?!

Əfsanə incə bir təbəssümlə qımışıb:

— Görürsən ki, yoxdu, — demişdi, — nə lazım idi?!

— Şam... — deyə Elməddin özünü doğrultmağa çalışmışdı.

Əfsanə üç dənə şamı kağıza büküb Elməddinə uzatmışdı. O isə, sanki indi xatırlayıbmış kimi, utancaq gözlərini Əfsanənin fənər işığında rəngdən-rəngə düşən sifətində gəzdirib titrək səslə:

— Sənin novruz bayramını təbrik eləyirəm, Əfsanə, — demişdi. — Təzə ildə xoşbəxt olasan.

— Sağ ol, Elməddin. — Qız müxtəsərcə cavab vermişdi.

— Mənə bir dənə də qırmızı şam ver, Əfsanə.

— Bir dənə də?

— Hə.

— Üç nəfər deyilsiniz bəs?!

— Mənim ürəyimdə bizim ailəmiz dörd nəfərdi, Əfsanə. Bu, sənin şamındı. Bu gecə evimizdə sənin də şamını yandıracağam, onun şöləsinə baxıb sənin haqqında, gözlərin haqqında fikirləşəcəyəm, Əfsanə.

Əfsanə pul kimi qızarıb başını aşağı dikmişdi. Dinib-danışmağa heyi-hərəkəti yox idi. Bədəni od tutub-yanırdı. Şamı Elməddinə sarı uzadanda əlinin əsdiyini hər ikisi gördü. Bu, onların ikisinə də çox şey söyləyirdi.

Həyətdən Həzrətgülün öskürək səsini eşidən Elməddin Əfsanəyə həsrətlə baxıb gözlərilə vidalaşaraq evə yollanmışdı. Küçələrdən, dalanlardan necə keçdiyini xatırlaya bilmirdi. Uça-uçamı gəlmişdi? Yaxud, bu yuxu idi? Həqiqiliyi ilə xəyal olması heç vaxt bilinməyəcək bir yuxu?

Üç şamı anasına verib həyətə çıxan Elməddin bax, buna görə yerə-göyə sığmırdı. Gah fit çalır, gah köhnə divanlardan əzbərlədiyi şerləri dodaqaltı zümzümə edirdi. Novruz bayramı axşamı Elməddin özündən də, bayramdan da, indiyə qədər nəsə gecikmiş böyük qardaşından da çox, Əfsanə haqqında, onun adına yandıracağı, indi qoynunda gizlətdiyi qırmızı şam haqqında düşünürdü. Onun qarşısında indi bircə maneə var idi; qardaşı Yusif evlənməmişdi. Mövcud adətənənəyə görə böyük qardaşı dura-dura kiçik qardaş qabağa düşüb evlənə bilməzdi. Bu, ən azı hörmətsizlik, saymazlıq hesab olunurdu.

«Niyə evlənmir, bilmirəm. Xeyir işi olub qurtarsaydı, mənə də yol açılardı. Mən ondan qabaq evlənə bilmərəm. El-oba mənə gülər. Yusifin üzünə necə baxa bilərəm. Bizim də qəribə-qəribə adətlərimiz var!» — deyə düşünən Elməddin ulduzlu göylərə baxır, hər şey ona olduğundan daha gözəl, daha cazibədar görünürdü. Ömründə ilk dəfə idi ki, insan hisslərinin belə nəhayətsiz, tələtümlü olduğunu dərk edir və ilk dəfə özünün insan yarandığına sevinirdi.

Səbihənin fikri-zikri Yusifin yanında olduğundan kiçik oğlunda əmələ gələn qaynamanı, narahatlığı görə bilmirdi.

Artıq küçələrdən əl-ayaq yığılmışdı. İndi yəqin hər evin adamı bayram süfrəsi başına yığışmışdı. Səbihə ümidini üzüb Yusifin dalınca söylənə-söylənə qazanı ocaq üstündən düşürdü, əyilə-əyilə, addımlarını tappıltı ilə ata-ata evə gətirdi. Evləri bir-birinin içinə açılan iki otaqdan ibarət idi. Həyətə üç dairəvi pəncərə açılmışdı. Palçıqdan suvanmış döşəməyə altdan həsir, üstündən palaz salınmışdı. Divarların dibi nəm idi, qaralmışdı və rütubət iyi içəri girən adamı o saat vururdu. Camaxatanda üç-dörd dəst köhnə yorğan-döşək, rəflərdə isə qab-qacaq gözə dəyirdi. Pəncərələrdən birinin ağzına Elməddin öz kitab-dəftərlərini yığmışdı. Stol yox idi, stul yox idi. Elməddin yazı yazanda ya üzü üstə uzanır, ya da dizinin üstünə kitab qoyub yazardı.

İçəri otaqda salınmış bayram süfrəsini pəncərə ağzına qoyulmuş çıraq işıqlandırırdı. Sinidə çaharməğz[1], ağlı-qırmızılı noğul, rəngli yumurta, xurma, iydə vardı. Üç şam böyrü üstə sininin qırağına qoyulmuşdu.—Elməddinin alıb gətirdiyi şamlar.

— Gəlmədi, ana, — deyə Elməddin anasına baxdı.

— Bir az da gözləyək, bala, bəlkə gəlib çıxdı. Onsuz tikəmiz ürəyimizi deşəcək.

Elməddin əl ataraq sinidən üç-dörd çaharməğz ləpəsi götürüb ağzına atdı...

Elə bu vaxt həyətdə ayaq səsi, kişi hənirtisi eşidildi. Ana da, oğul da demək olar ki, eyni vaxtda özlərini bayıra atdılar. Gələn Yusif idi. Çiynində heybə, əlində çamadan səkinin üstündə dayanmışdı.

— Haradasan, a bala? Yoluna baxmaqdan gözümüzün kökü saraldı. Bir az ertə, ya iki-üç gün qabaq gələ bilmirdin? Bayramdı axı?!

Yusif heybəsini, çamadanını yerə qoyub anasını, qardaşını qucaqlayaraq öpdü. Ayrı vaxt gələndə belə eləməzdi. Salamlaşar, haləhval tutar, soyunub əl-ayağını yuyar, təzə xəbərləri danışa-danışa, soruşa-soruşa çörəyini yeyərdi. Görünür, bayram əhvali-ruhiyyəsi ona da sirayət eləmişdi. Üzü tərtəmiz qırxılmış, qara, şəvə kimi cod bığı səliqə ilə düzəldilmişdi. Üz-gözündən şadlıq yağırdı. Təmiz geyinmişdi. Onun hisli-tozlu kömür dükanında işlədiyini fikrinə belə gətirməzdin. Girdə sifətini ət basmışdı.

— Bayramınız mübarək. Neçə-neçə belə bayramlar görəsiniz.

— Sənlə bahəm, bala.

— Sənlə birgə, ana.

İki yaş Elməddindən böyük olan, cüssədə, qamətdə pəhləvana bənzəyən, enlikürəkli, biləkli, bazburutlu Yusif Səbihə arvadla yanaşı duranda inanmazdın ki, o, bu arıq, çəlimsiz, ancaq dirigözlü Səbihənin oğludur.

— Ertədən çıxmışam, amma servis[2] şoğərib yolda xarab olduğuna görə xeyli yubandıq.

Yusifin gəlişi Səbihənin dinini-imanını özünə gətirmişdi. Cəld bir hərəkətlə aftafaya su töküb eyvana qoydu:

— Elmi, — o, kiçik oğlunu belə çağırırdı,—su tök, qoy qardaşın yuyunsun, yolun tozunu-torpağını üstündən töksün. Yusif əl-üzünü qurulayıb içəri girə-girə:

[1] Çaharməğz — qoz.
[2] Servis — avtobus.

— Kənddə nə var, nə yox? Öləndən-itəndən, ərə gedəndən, evlənəndən? — deyə xəbər aldı.

— Kənd gördüyün kənddi, heç bir dəyişiklik, yenilik yoxdu, köhnə hamam, köhnə tas. — deyə Elməddin izahat verdi — nə ölən var, nə itən, nə də ərə gedən!

Nə üçünsə, — Elməddin bunun səbəbini anlaya bilmədi, — Yusif taleyindən razı adamlar kimi gülümsündü və şəhərdən gətirdiyi heybəsini açıb ortalığa qoydu. Cücəgözü parçanı çıxarıb anasına verdi:

— Sənin üçün tumanlıq almışam. — Sonra qara bir ayaqqabı çıxartdı və qardaşının qarşısına qoydu: — bu da sənin payın, sağlıqla geyəsiniz!

— Sağ ol, qardaş!

— Payın çox olsun, bala. Allah canına sağlıq, cibinə bərəkət versin.

Elməddin ayaqqabını geyib otaqda var-gəl eləməyə başladı.

— Sıxmır ki? — Yusif soruşdu.

— Yox, elə bil ayağıma tikiblər!

Səbihə heybəni, çamadanı qabağına çəkdi:

— Bəs özünə nə alıbsan, ay oğul?

— Özümə? Özümə də bəzi şeyləri almışam.

Səbihə çamadanı açdı. Müxtəlif rəngli parçalar, corab, baş yaylığı, qadın ayaqqabısı... Bunları görəndə ana yanları qırışmış gözlərini geniş açıb xoşbəxtcəsinə gülümsündü.

— Fikrini başa düşdüm. Ağlına qurban olum, ay oğul. Ürəyimdən xəbər verdin. Daha vaxtındı.

Açıq-saçıq danışılmayan bu söhbəti Elməddin də başa düşdü. Demək, Yusif evlənmək istəyir. Demək, onun da arzusuna çatmağına az qalıb. Elməddinin sevincinin üstünə sevinc gəldi. O indi palçıq divarlı alaqaranlıq otağa sığışmırdı.

— Toyunda bir oynayacağam ki, gəl görəsən, qardaş. Gərək bir mağar qurum ki, Ədnan camaatı indiyəcən görməmiş olsun. Nəsilbənəsil unuda bilməsin, — deyə Elməddin gümrahlıqla sıxılıb-utanan qardaşının çiyninə əl vurdu.

— Sonra da səni evləndirəcəyəm, Elmi! — ana çoxdan bəri ürəyində gəzdirib dolandırdığı arzularına yavaş-yavaş çatdığını hiss eləyib sevindi, — bəs yaxşı heç demədin, kimi alırsan? Yəqin şəhərdən tapıbsan?

— Yox, elə öz kəndimizdəndir.

— Öz kəndimizdən?! — Elməddin səksəkə ilə xəbər aldı.

— Kimdi, bala?

Yusif ani olaraq cavabı ləngitdi, gah anasının, gah qardaşının üzünə baxdı. Səbihə dedi:

— Kənd imamı Seyid Həsənin qızıdır?

— Yox.

Elməddin xəbər aldı:

— Şirəlinin nəvəsidi?

— Yox, tapmadınız.

— Bəs kimdi?

Yusif başını aşağı salıb utana-utana yavaşcadan:

— Dükandar Həzrətgülün bacısı qızı! Əfsanə! — dedi. Əfsanə sözünü eşidəndə Elməddinin gözləri böyüdü, ağzını açıb nəsə demək istədi, ancaq səsi gəlmədi. Ürəyindən qopdu, boğazında haradasa ilişib qaldı.

Səbihənin çiçəyi çırtlamışdı:

— Ağlına qurban olum, oğul. Yaxşı yerə yıxılmısan. Qız qız deyil, qızıl parçasıdır. Gözəlliyinə söz ola bilməz, ağlı-kamalı, oturuşu-duruşu da ki, ağır. Bir yıxıq evin dirəyidi, oğul. İşdi-gücdü. Həzrətgülün evinin bütün dərdi-səri o yetimin boynundadı.

Elməddin söhbətin dalını eşitmirdi, qulaqları guruldayır, gözlərinin qarşısından cəmisi üç-dörd saat bundan qabaq görüşüb-danışdığı Əfsanə getmirdi. Elə bil, sinəsində nəsə qırılıb içinə düşmüşdü. Sanki didilib-parçalanmış ürəyindən qızıl qan axıb içini isidirdi. Ona elə gəlirdi ki, imdicə qızıl qan fəvvarə vurub bayıra çıxacaq, onu, ortalıqdakı bayram süfrəsini al rəngə boyayacaqdı. Anası da, qardaşı da heyrətlə soruşacaqdı: «Sənə nə oldu, Elməddin?»

O, var səsi ilə qışqırıb: «Yox, Əfsanəni mən sevirəm. O mənimdi, qardaş, ona göz dikmə. Buna o özü də razıdı. Bu fikirdən gəl daşın, qardaş» — demək istəyirdi, ancaq zərbə elə ağır və gözlənilməz idi ki, özündə nə taqət, nə də cəsarət hiss eləyirdi, boğazı qurumuş, dili təpimişdi. Ayrı adam olsaydı, Elməddin onun qabağına kişi kimi çıxar, öz məhəbbətini müdafiə elərdi. Ya bu yolda ölərdi, ya da arzusuna çatardı. Təəssüf, min təəssüf ki, Əfsanəni almaq eşqinə düşən yad deyildi. öz sevimli qardaşı idi.

Yaxşı ki bu ağır və heç vaxt unudulmayacaq dəqiqələrdə heç kəs onun üzünə baxmırdı, halındakı dəyişikliyi görmürdü, nə qədər qəribə olsa da, bu, onu belə ağır, qəmli vaxtda sevindirdi.

Danışa-danışa zəfəranlı plovu qablara çəkən Səbihə gözünü süfrədə gəzdirdi:

— Bəs şamları niyə yandırmırsan, Elmi? — dedi.

Elməddin adının çəkildiyini eşidib fikirli halda anasına baxdı, ancaq nə dediyini ayırd edə bilmədi.

Yusif kibritini çıxarıb şamları bir-bir yandıraraq sininin qırağına düzdü.

— Bu sənin, ana, bu da sənin, qardaş. Bax, bu da mənim. Elməddin cibindəki şamı xatırladı, alt-üst olmuş arzularını yad eləyib ürəyində Əfsanə ilə vidalaşdı.

Şamı — Əfsanənin adına aldığı şamı, ehmal bir hərəkətlə qoynundan çıxarıb süfrə qırağındakı kibriti götürərək yandırdı və Yusifin şamının yanında siniyə yapışdırdı və pıçıltıya bənzər bir səslə:

— Bu da Əfsanənin şamı! — dedi və çox böyük çətinliklə əlavə etdi. — Gəlinimizin!

İKİNCİ FƏSİL

Bahar öz qaranquşları ilə gəlmişdi. Alça, ərik ağacının ağlı-qırmızılı tumurcuqları çırtlamışdı. Torpaqdan ağ duman qalxırdı. Elə bil, qışın şaxtası, soyuğu buxarlanıb yerin canından çıxır, gün adamın canını qızdırırdı.

Camaat kəndin qırağına — düzənliyə axışmışdı. Yeniyetmələr yumurta döyüşdürür, aşıq atırdılar. Qoç vuruşduran, xoruz döyüşdürən, it boğuşduranların dövrəsinə dəstə-dəstə adam yığılmışdı. Bir yanda üç-dörd cavan güləşirdi.

Kənd əhlinin seyrəngaha çıxdığını bilsə də Həzrətgül balaca dükanını açıb döşəkçənin üstündə oturaraq cilqoza[1] çırtlayır, müştəri gözləyirdi. Gələn isə yox idi. «Bağlayıb gedərəm, birdən kiməsə bir şey lazım olar. Gələr, görər yoxam», — deyə düşünən kişi bayram günündə də özünün dediyi kimi «sehrli» dükandan çıxıb gedə bilmirdi. Gen-bol həyətdə günəvərə qoyulmuş taxtın üstündə səhər Əfsanəyə döşətdirdiyi xalça üzərində mütəkkəyə dirsəklənən Xədicə arvad ən yaxşı paltarını geyib, boyun-bağazını daş-qaşla bəzəsə də ovqatı təlx idi. Nə qədər çalışsa da sakit ola bilmir, ürəyi hövl eləyib

[1] Cilqoza — tum deməkdir.

ağzından çıxmaq istəyirdi. Toxtamaq istəyir, amma bacarmırdı. Bir ona bəlli idi ki, təzə gəlinin yanında özünü tox tutmaq, yalandan da olsa gülümsəmək Xədicəyə nəyin bahasına başa gəlirdi. Neçə ilin yastıq yoldaşı ona — vaxtı ilə bu evin yeganə xanım-xatın arvadı olan gülli-ixtiyar sahibi Xədicəyə «xəyanət» etmiş, bayram gecəsini təzə gəlinin yanında keçirtmişdi. Səhərəcən ilan vuran yatmışdı, Xədicə yox, yerinin içində azı min dəfə o tərəf – bu tərəfə çevrilmiş, ancaq aram ola bilməmişdi. Qısqanclıq hissi ona o qədər əzab vermişdi ki, gecənin bir aləmində ayağa durub baltadan, bıçaqdan götürüb Həzrətgüllə Nazənin yatan otağa keçməkdən, ərini də, «mələk palları geymiş o iblisi» də doğram-doğram eləməkdən özünü güclə saxlamışdı.

Gecə şam yeməyi yığışılandan sonra Nazənin yatan taxtın cırıltısı cəmi-cümlətanı beş-on dəqiqə gəlmişdisə də, sübhün gözü açılanacan Xədicə o məşum və dəhşətli səsi eşitmiş, yerinə qor dolmuş təkin çalıxıb-çapalamışdı. Neçə dəfə başını balışın altına soxmuş, qulaqlarına pambıq tıxamışdısa, o səs kəsilmək bilməmiş, beyninə, oradan da ürəyinə işləyib bütün mənliyini, heysiyyətini əzib-sıxmışdı. Qəribə idi ki, günün günortaçağı da — kişinin dükanda, Nazəninin isə gözünün qabağında, həyətdə gəzindiyini görə-görə o səs — taxtın cırıltısı qulaqlarından çəkilib getmirdi.

«Dünyada bundan böyük əzab olmaz, — fikirləşirdi, — ay allah, mən sənə neyləmişəm ki, məni dirigözlü oda yandırırsan, bu, sənin cəhənnəm odundan da pisdi, xudaya. Mən dəli olaram, mənə bu əzabı vermə» — düşünərək az qala ağlayırdı.

Ayrı vaxtlar Həzrətgül öz cavan və gözəl təzə arvadının yanında gecələyəndə arvadın o qədər eyninə gəlmirdi. «Təzə arvad şirin olar. Qoy getsin, hələ canı suludu, bir azdan deyərəm sənə, qoca köpək!» — deyə gah özünə təskinlik verir, gah da ərinin qarasınca deyinirdi. Ancaq bu gecə... İlk bayram axşamı idi ki, Həzrətgül onun yanında yatmamışdı. İyirmi beş il qabaq, həmin bu gecə ilk dəfə bir yastığa baş qoymuşdular. Hər il o ilk gecəni yad edir, xəyalın qanadlarında keçmişə gedib-qayıdırdılar, lakin bu gün... O ilk gecə yada düşmədi, xatirələr təzələnmədi. Xədicə buna yanıb-yaxılırdı, onun fikrincə, Həzrətgül gərək belə üzüdönüklük, bivəfalıq eləməyəydi. Yox, gərək eləməyəydi. «Qarnım üçün deyiləm, vallah, qədrim üçünəm. Dünyanın işi belədir. Deyirlər, təzə ay çıxanda köhnəsini doğrayıb ulduz qayırırlar. Yəni mən belə qocalmışam?! Yəni mən belə qocalmışam ki, Həzrətgül daha mənə sarı baxmaq istəmir? Səhər də heç yanıma gəlmədi, öldümü, qaldımı soruşmadı. Pulagir köpək, tezdən gedib şöngüyüb dükanda. Pul

qazanmaq həvəsi o boyda kişinin başını bağlayıb dükanın dirəyinə. Buna bax, — deyə Xədicə həyətdə toyuq-cücəyə dən səpən Nazəninin dalınca söylənməyə başladı, — səni görüm cavan öləsən, yasını saxlayım. Necə də sallana-sallana, əzilib büzülə-büzülə gəzir?! Ala ye, Həzrətgülün kiçik qızıynan yaşıdsan, gəlib ona arvad olubsan, atan yerində kişidi. Bir azdan təpənə döyə-döyə qalanda sənə deyərəm. Hələ ağzın isti yerdədi.»

«Nahaq yerə başmaq seyrinə çıxmadım, fikrim-zadım dağılardı»,— deyə düşünməkdən, ürəyində danışmaqdan yorulmuşdu. Birdən Xədicə dikələndə Əfsanəni Nazəninlə nə barədəsə danışıb gülən gördü, onsuz da qanıqara olan Xədicəni od götürdü. Gözünü yumub (adəti belə idi — hirslənəndə gözünü yumub danışardı) ucadan qışqırdı:

— Ay itin belindən gələn, sənə səhər demədim o qazanı sürt, təmizlə?! Adama sözü neçə dəfə deyərlər, ay yetimçə?!

Xədicənin səsini eşidən Əfsanənin gülüşü dodağında donub qaldı, başını aşağı salıb susdu. Nazənin Xədicənin cavabını qaytardı:

— Bu gün bayramdır, böyük xanım, sabah sürtər.

— Sən də onun ağzına dil vermə. Qoy işini görsün — deyə Xədicə yenə gözünü yumub qışqırdı.

— Bayramdı axı, böyük xanım.

— Ay onun bayramı qara gəlsin. Bayramdı, çörək də yeməsin də!!! Niyə tıxır bəs eşşək kimi?! Ködənini doldura bilir, amma işləyə bilmir?!

Danışığın faydasız olduğunu anlayan Nazənin daha dinmədi. Əfsanə dodaqları səyriyə-səyriyə:

— Bu arvadın əlindən lap cana gəlmişəm, bacı, — dedi, — gün çıxandan camaat yatana qədər bikar qalmıram, yenə bəsdi demir. Gecələr ağrıdan ayaqlarım zoqquldayır. Yata bilmirəm. Bir xaraba olsaydı, baş götürüb gedərdim, canım bu ifritənin əlindən qurtarardı.

— Bir allah bəndəsinə ərə gedərsən, öz əlin olar, öz başın.

— Eh, hanı məndə o bəxt? — O, ah çəkdi. — İstəyən olsa da verməzlər, mən getsəm bəs onun işini kim görər? Onda gərək nökər tutsunlar.

Yavaş danışırdılar. Xədicə qulağını ha şəkləyirdisə də, məsafə uzaq olduğundan onların nə danışdıqlarını eşidə bilmirdi; təkcə dodaqlarının tərpənməsindən bilirdi ki, Əfsanə nəsə danışır.

— Nə deyir, ay qız, o? — Ucadan qışqırdı.

— Heç nə, sənnən deyil, — Nazənin kəsəcə cavab verdi.

— Nə həddi var mənnən olsun. Dilini çəkib boynunun ardından çıxardaram.

Əfsanə lal-dinməz gedib iri plov qazanını ocağın üstündən düşürdü, tövlənin yanına gətirib qumla, yaş əski ilə hisini-pasını silməyə başladı. Əfsanə yorğundu, qollarında güc yox idi. İmkanı olsaydı, xəlvətə çəkilib doyunca yatardı. Qara gözləri qızarmışdı. Çünki gecəni pis yatmışdı. Elməddinin dünən axşamçağı dediyi sözlər şirin, unudulmaz mahnıya dönüb yadından çıxmırdı. Onların evində, süfrə qırağında onun adına yandırılan şam Əfsanənin fikrindən silinib getmirdi. Bəli, Elməddin onun adına bu gecə şam yandırmışdı. Ancaq burada — öz dayısı evində o, yaddan çıxmışdı, hamıya şam satan Həzrətgül bacısının yeganə yadigarı olan Əfsanəni unutmuş, adına şam götürməmişdi.

Gözlərinin önündə canlanan Elməddin dünənki sözlərini təkrar edirdi: daha yavaşdan. Heç kəs eşidə bilməsin deyə... «Bu sənin şamındı, Əfsanə. Bu gecə sənin üçün də evimizdə şam yandıracağam, onun şöləsinə baxıb sənin haqqında, sənin qara gözlərin haqqında düşünəcəyəm, Əfsanə!!!»

Yaxşı ki həyatda şirin xəyal varmış, insan özü-özüylə ürəyində, səssizcə danışa bilirmiş. Yaxşı ki insanı çətin dəqiqələrdə dözümlü edən, əlindən tutub naməlum gələcəyə çəkib aparan gözəl ümidlər varmış. Yoxsa yaşamaq na qədər müşkül olardı?! — Xoş xəyallar, əlçatmaz ümidlər Əfsanənin ürəyini ovundurur, dərdini azaldırdı. Özü də hiss eləmədən fikrində yaratdığı dünyaya uçub gedən qız, Xədicənin acılı-tikanlı sözlərini unudurdu, — onun yeni hədə-hərbəsini, latayırını eşidənə qədər!!!

Günortaya yaxın doqqazın ağzında üç çarşablı arvad göründü. Üzləri örtülü olduğundan yaxına gələnəcən kimliyini müəyyən etmək çətin oldu. Qabaqda yeriyən arvad xalça üstündə uzanıb diqqətlə onlara sarı baxan Xədicəni görüb çadrasını üzündən açdı və ancaq bu zaman Xədicə gələn arvadın Səbihə olduğunu bildi. Yanındakı arvadlar da evin kişisinin həyətdə olmadığını yəqin edib üzlərini açdılar.

Xədicə dərd-sərini unutmağa çalışaraq qalxıb Səbihəgili yaxşı, gülərüzlə qarşıladı:

— Xoş gəlib səfa gətiribsiniz!!

— Xoş günün olsun, ay Xədicə. Neçə belə bayramlar görəsiniz.— Qucaqlaşıb öpüşdülər. Xədicə onlara oturmaq üçün yer göstərdi. Bir küçədə yaşayırdılar. Arada xeyli məsafə olduğuna görə iki

ailə arasında gəl-get yox idi. Ancaq xeyirdən-xeyirə, şərdən-şərə bir-birinin qapısını açardılar. Buna baxmayaraq demək olardı ki, bu ailələr bir-birini yaxşı tanıyır, hörmət, ehtiram saxlayırdılar..

Gəlişlərinin məqsədi hələ məlum olmayan qonaqlar yenicə oturub yerlərini rahatlamışdılar ki, damın böyründən Nazənin çıxdı, qonaqları görüb üzünün-başının örtüyünü sahmana saldı, yaxın gələrək «xoş gəldin» elədi.

— Ay gəlin, xoş gördük səni. Necəsən, qızım? — deyə - Səbihə özünəməxsus bir mehribanlıqla Nazənindən soruşdu..

— Sağ ol, xala, yaxşıyam.

Səbihə ilk dəfə idi ki, Nazənini belə yaxından görürdü. Ona görə Nazəninin dolu, dağ havasından qızarmış yanaqlarına, nazik, alınma qaşları altında bic-bic parıldayan qonur gözlərinə, dolu sinəsinə diqqətlə baxır; «lap körpəymiş ki, bu yazıq?!» deyə fikirləşirdi. Əfsanə gələn arvadları — xüsusən Səbihəni tanıyanda ürəyi üşürgələndi, bədəni üçündu. Əlləri sustaldı.

«Bəlkə... hə... Deyəsən, Elməddin dünənki sözü boş yerə demirmiş. Görünür, evlərində söhbət olubmuş!» — deyə düşündü və sonra dərhal da öz-özünə etiraz etdi: «Bəlkə elə belə, bayramlaşmağa gəliblər. Karın könlündəki — buna deyiblər ha!»

Qız yavaşca sivişib tövlənin qırağına çəkildi ki, arvadlar onu görə bilməsin...

Əhval-pürsanlıq qurtarandan sonra araya ani sükut çökdü: Səbihə söz açmalı idi, ancaq nədən başlayacağını bilmirdi. Yanındakı arvadlar da çətinlik çəkirdilər. Xədicə isə özünə xas bir ayıqlıqla Səbihənin buraya nə üçün gəldiyini təxmin edib cavab hazırlayırdı. Onlar danışdıqca onun üçün daha çox imkan yaranırdı ki, yaxşı-yaxşı düşünsün, götür-qoy eləsin. «Əfsanədən sarı gəliblərsə... düz getsinlər. Biz hələ onu ərə vermirik. Vaxtı deyil, vəssalam. Onu versək, bəs bu boyda ev-eşiyin, həyət-bacanın işini kim görəcək? Mən? Bu Nazənin xanım? Yox, vermək olmaz!» — deyə o, özlüyündə qəti qərar çıxardıb üzünü Səbihəyə tutdu.

— Sizdən nə əcəb, ay Səbihə. Xeyirdimi barı?

— Xeyir olmamış nə olacaq, Xədicə — Səbihənin yanındakı kök, bığlı arvad ona qüvvət verdi:

— Xeyirdi, inşallah...

— Buyurun, — deyə Xədicə rahatlanıb qulaq asmağa hazır olduğunu bildirdi.

Səbihə yoldaşlarının üzünə baxdı. Boğazını arıdıb başlamaq istəyirdi ki, bığlı, pərtdəgöz arvad haraya yetdi:

— Səbihə siznən qohum olmaq istəyir, Xədicə. Əfsanəni...

Söhbət bura çatanda Nazənin hiss edilmədən qalxıb özünü Əfsanənin yanına verdi. Süst-süst qazan sürtən qızı sevindirmək üçün:

— Gözün aydın, ay Əfsanə! — dedi.

— Nə olub ki? — Əfsanə əl saxlayıb matdım-matdım Nazəninin üzünə baxdı.

— Sənə elçiliyə gəliblər...

Əfsanənin əlindən qaralmış əski parçası yerə düşdü. Solğun yanaqları qızardı. Güclə «kim üçün?» — deyə pıçıldaya bildi.

— Səbihənin oğlu üçün.

Əfsanə tutaş kirpiklərini aşağı endirdi. Ürəyinin guppultusu qulaqlarında səslənirdi. Bütün varlığı elə bil od içində yanırdı. İndiyəcən çəkdiyi sitəmlər, ağrılar-əzablar, yetimliyi bircə an içində unudulub xatirəsindən, yaddaşından silinib getdi. Sanki, illər boyu həbsxana güncündə yaşamış bir adamın azad olmaq məqamı çatmışdı. Qəlbi azadlığa çıxmaq, ciyərdolusu nəfəs almaq eşqilə sürətlə çırpınırdı.

— Bəs Xədicə nə dedi?—deyə Əfsanə ağlına gələn fikirdən sarsılmış halda qətiyyətsizliklə soruşdu.

Nazənin tələsdiyini, söhbətə axıracan qulaq asmadığını indi başa düşdü və dərhal arvadların yanına qayıtdı... O gələndə Xədicə deyirdi:

— Yox, bacım, onun hələ ərə gedən vaxtı deyil, Səbihə!! Nazəninin ürəyi qırılıb ayağının altına düşdü: «Vermək istəmir. Qızı bica yerindən elədim!» — deyə tələsdiyinə görə özünü danladı.

Səbihə Xədicəni inandırmaq üçün dilini işə saldı:

— Nəyi körpədi onun, Xədicə? Yetişmiş qızdı, maşallah, Məhəmməd peyğəmbərin dini-şəriətində deyilir ki, qızı papaqnan vurdun, yıxılmadı, ərə verə bilərsən. Gərək ki, Əfsanənin sinni on altını adlayıb, hə?.. Nazənin dəqiqləşdirdi:

— On yeddidi.

— Hə, ərlik qızdı. Elə biri sən özün, on dörd yaşında getməyibsən? Mən on üçdə getməmişəm?

— O düzdü, — Xədicə dəlilinin tutarlı olmadığını başa düşüb ayrı bəhanə axtarmağa başladı. Səbihə isə Davam edirdi:

— Ay qızım, sənin neçə yaşın var?! — deyə o, Nazəninə müraciət elədi.

— Mən on doqquzun içindəyəm.

— Əfsanədən cəmi-cümlətanı iki il böyük ola-olmaya?!

Nazənin darvazaya sarı baxanda gördü ki, Həzrətgül qapının ağzında dayanıb şəhadət barmağının işarəsi ilə onu yanına çağırır. Tələsik durub getdi. Fikirləşirdi ki, Xədicə qızın sahibi-ixtiyarı deyil. Arada Həzrətgül var. Bəlkə o, razılıq verəcək, yetim qızdı, niyə bu dörd divar arasında qalıb çürüsün.

— Kimdi o arvadlar? — deyə Həzrətgül Nazəninə gülümsər, mehriban bir nəzər salıb xəbər aldı. Onları gələndə görmüşdü, ancaq tanıya bilməmişdi.

— Səbihədi.

— Nə deyir?

— Əfsanə üçün elçiliyə gəliblər. Razılığımızı bilmək istəyir. Xədicə də...

— Nə deyir Xədicə, qız?

— Deyir ki, nə bilim uşaqdı, nədi. Vermək istəmir.

Çoxdan belə münasib bir adam gözləyən Həzrətgül bu xəbərdən sevindi. Bacısı qızı onun boynunda bir yük idi — gec-tez onu birinə verməli idi.

Özünün oğlu yox idi, yoxsa oğluna alardı, belə işli-güclü qızı əldən buraxmazdı. Amma nə etmək olardı. Yusif pis oğlan deyildi. Avara-avara kəzmirdi. Həzrətgülün özü kimi bir dükan açıb çaqçuqunu eləyir, gündəlik çörək pulunu çıxarırdı. Yusiflə qohum olmağın bir cəhəti də vardı ki, o, Həzrətgülə şəhərdə də xudmani bir dükan açmağa kömək eləyə bilərdi. Həm də Yusifdən əlli min, altmış min bu xeyir iş üçün qoparmaq olardı. — Bütün bu məsələləri fikrində götür-qoy eləyən Həzrətgül uca səslə Nazəninə söylədi:

— Nazənin, Səbihənin oğlu Yusif yaxşı oğlandı. — Sonra əlavə etdi:

— Get, deynən Həzrətgül razıdı. Nişanlarını göndərə bilərlər. Sinini də gətir, iki-üç pao[1] noğul töküm, ver aparsınlar. Səbihənin özünə də de ki, Həzrətgül əlli min rupi istəyir. Xoşudu, irəli dursun, hünəri çatmırsa, qızın adını dilə-dişə salmasın.

İyirmi dəqiqədən sonra Səbihə çadrasının altında gizlətdiyi sinini bərk-bərk tuta-tuta darvazadan çıxdı. Əfsanənin fikrini soruşan olmadı. Bunun onlar üçün bir əhəmiyyəti yox idi.

[1] Pao — bir girvənkə.

Kişinin razılığını əldə etməkdə Nazəninin xüsusi canfəşanlıq elədiyini görən Xədicə hirsindən-hikkəsindən partlayırdı. Nazənin qonaqları ötürüb qayıdanda Xədicə onun qabağını kəsdi:

— Getdin, kişinin beynini yedin, razılığını alıb dincəldin? Bəs indi bu evin işini kim görəcək?!

Nazənin onun əsl məqsədini indi başa düşərək qonur-gözlərini qıyıb cavab qaytardı:

— Evin işi var deyə, xalqın qızını dörd divar arasında çürüdəcəksən? Yarısını mən görərəm işin, yarısını sən. Bildin?!

Xədicə Nazəninin hədə-hərbəsi qarşısında mat-məəttəl donub qaldı. Qızı yerində Nazəninin ona belə sərt cavab qaytarması arvadın yeddi qatından keçdi. «Günah səndə deyil, o köpəkoğlu köpəkdədir, səni çıxardıb mənim başıma» — deyə ilan vurmuş kimi ufuldadı. Nazənin onun ufuldamağına, fısıldamağına əhəmiyyət verməyərək Əfsanəni şad xəbərlə sevindirməyə tələsdi.

Əfsanə ona sual dolu nəzərlərlə baxırdı.

Nazənin çatmamış söylədi:

— Xoşbəxt ol, Əfsanə. Razılıq verdi. Səadət də ən böyük kədər kimi, adamın dilini lal eləyə bilərmiş.

Əfsanənin sevincdən parıldayan qara gözləri gülürdü.

— Xədicə razılıq vermirdi. Dayına söylədim. Dedi ki, Xədicə qələt eləyir. Dedi ki, Yusif yaxşı oğlandır!

«Yusif» adını eşidən kimi Əfsanənin içində nəsə qırıldı. Elə bil, göylərdən, dağların başından onu üzüaşağı atdılar. Beynində ani bir fikir qığılcım kimi yanıb söndü: «Məni Yusifə veriblər!? Elməddinə yox, Yusifə!?» -İkicə saniyə gülümsünən qara gözlərdən ağ mirvari damcıları axırdı. Elməddin kimi, dərdini dilinə gətirə bilməyən Əfsanənin göz yaşlarını sevincə yozan Nazənin heç şey anlamadan soruşurdu:

— Mən Yusifi heç görməmişəm. Gözəl oğlandı?

— Sevindiyindən ağlayırsan? Yadımdadı, məni də o vaxt ağlamaq tutmuşdu. Hamı ərə gedəndə ağlayır.

Yetimlərin, binəsiblərin sevinci, vaxtsız düşən yaz qarı kimi tez əriyib tez də yox olur — onların nəsibi belədir...

***

İki qardaş nigarançılıq çəkirdi: onlar analarının yolunu intizarla gözləyir, yalnız bir məsələ barədə düşünürdülər: «Görəsən Həzrətgül qızı verəcəkmi?»

Yusif siqaretini sümürə-sümürə gəzinirdi. Vaxt ağır-ağır gəlib keçirdi, elə bil dəqiqələrin ucundan daş asılmışdı. Elməddinlə danışmaq, «vaxtı öldürmək» istəyirdi, ancaq Elməddin bağın başında çılpaq tənəklərin arasında nəsə itirmiş adam kimi o tərəf-bu tərəfə çovuyurdu.

Yusif fikirləşirdi: «Əgər verməsələr, onda necə olsun bəs?! Bütün kənddə xəcil olummu? Yox. Onda mən Əfsanəni götürüb qaçaram. Həzrətgülün elə qeyrəti yoxdu ki, qabağıma tüfənglə, xəncərlə çıxsın. Qorxaq kişidi». Tez-tez saata baxır, papirosu papirosun oduna yandırırdı.

Elməddin ziddiyyətli düşüncələr arasında çalıxıb çapalayırdı. «Kaş Əfsanəni verməyəydilər Yusifə», — deyə ürəyindən keçirirdi. Ancaq onu çox istəyən, ata kimi mehriban olan Yusifi həyətdə narahat-narahat addımlayan görəndə belə bir əndişəyə düşdüyündən xəcalət çəkirdi. «Yox, Yusif mənim qardaşımdı. Mən onun xoşbəxtliyini istəməliyəm. Əfsanəni ona verməsələr də, mən daha onun adını dilimə gətirə bilmərəm. Yusif, anam mənə nə deyər? Unutmaq lazımdı onu, birdəfəlik unutmaq. Bir daş altdan, bir daş üstdən. Yaxşı ki, heç kəs bilmir, yaxşı ki, bilmir!».

Nəhayət, Səbihə yanındakı arvadlarla doqqazın ağzında şadxürrəm göründü. Yusif diqqətlə anasının üzünə baxdı. Arvadın üzü gülürdü. Elməddin uzaqdan anasının Yusifi qucaqlayıb öpdüyünü, arvadların əlini sıxdığını görüb işin xeyirliklə qurtardığını o dəqiqə anladı. Elə bil, güclü bir əl ürəyini xışmalayıb sıxdı. Bir anlığa gözləri qaraldı, başı gicəlləndi. Boylu-buxunlu gilənar ağacına söykənib müvazinətini saxlamağa çalışdı.

«Hər şey bitdi. İndi... həmişəlik əlvida, Əfsanə!», — fikri beynini, ürəyini yandıra-yandıra keçib getdi.

Neçə dəqiqə beləcə, donmuş kimi heç nə düşünmədən dayandı, uzun, daxili çəkişmədən sonra nəhayət, qardaşlıq hissi Elməddinin əlindən tutub Yusifə sarı gətirdi. Qıçları taqətsizdi — dizləri əsirdi. İstəyirdi ki, yol uzansın, vaxt ötüşsün, ora çatana qədər özünü toplaya bilsin.

Yusifin gülər üzünü görüb gülümsünməyə çalışdı. Hətta, çox baha başa gəlsə də, gülümsündü də. Özünü şax tutub irəli yeriyərək Yusifin isti əlini sıxdı:

— Təbrik eləyirəm, qardaş!!! Xoşbəxt ol. Yusif papirosuna son qullabı vurub atdı və:

— Gün o gün olsun ki, mən də səni belə təbrik eləyim, Elmi!—dedi. Və bu sözləri elə səmimi, ürəkdən dedi ki, Elməddin qızarıb başını aşağı saldı, cavab vermədi.

Ömrünün bəlkə də ən şad gününü yaşayan Səbihə sinidən bir ovuc noğul götürüb Elməddinin ovcuna basdı:

— Ye, qardaşının şirnisidi, ağzın şirin olsun.

Elməddin ağzına bir noğul atdı... Amma... nədənsə o, noğulun şirinliyini hiss eləmədi. Noğulun dadı acıya çalırdı.

Yarım saat keçməmiş Nazənin gəlib çıxdı. Çadralı idi. Səbihə qabağına yeridi. Dil-ağız elədi:

— Sən olmasaydın, Xədicə işi dolaşdıracaqdı. Ömrün uzun olsun ki, əl tutub kişiyə dil yetirdin. Yusif, insafən, pis oğul deyil. Ağıllı-kamallı.

Nazənin çadranın toru arxasından kənarda dayanmış Yusifə nəzər saldı. Boy-buxunlu, üzü, ağayana duruşu gəlinin xoşuna gəldi. «Xoşbəxt oldun, Əfsanə», — deyə qızın nahaq yerə ağladığını düşündü. — «Belə oğlana gedən də ağlarmı, ay dəli?» — deyə ürəyində Əfsanəni məzəmmət elədi.

—Hə, vermək istəmirdi. — Nazənin dilləndi.

— Gəl otur, qohum — deyə Səbihə onu içəri dəvət elədisə də, Nazənin razı olmadı.

— Sini üçün gəlmişəm — dedi.

— Bu saat... — Səbihə içəri cumub paltarlıq parça, noğul tökülmüş sinini gətirdi və Yusifə işarə elədi:

— Gətir görək, a bala, puldan-paradan nəyin var?

Yusif irəli yeridi, cibindən minliklərdən, beş yüzlüklərdən ibarət xeyli pul çıxarıb Nazəninin əlindəki siniyə tökdü.

— Əlli mindi.

Elməddin səkinin üstündə dayanıb sinidə qalaqlanmış pullara baxırdı. Qırmızı beşyüzlüklər gözündə getdikcə daha da qızarır, şölə çəkib yanmağa başlayırdı.

«Əlli min... Əfsanəni əlli minə satdılar, əlli minə aldılar».

Səbihə ehmal bir hərəkətlə gəlağayını sininin üstünə çəkdi:

— Xeyir görəsiniz, qohum. Nazənin ucadan söylədi:

— Xoşbəxt olsunlar, qoşa qarısınlar, Səbihə xala. Elməddin ürəyində pıçıldadı: «Xoşbəxt olsunlar!..».

ÜÇÜNCÜ FƏSİL

İydə sovulmuşdu. Ancaq qollu-budaqlı ağacın əl-ayaq çatmayan nazik şaxlarının ucunda qalmış beş-altı iydə yeri-yurdu yandıran isti Gülüstan günəşi altında sarı kəhrəba dənəsi kimi parıldayırdı. İki boz sərçə cikkildəşə-cikkildəşə budaqdan-budağa atılır, iydələri dimdikləyir, həyətdə hökm sürən sükutu pozurdu.

Saplağından üzülmüş iydə dənəsi ağacın kölgəsində həsirin üstündə oturmuş, ovduq-doğrama düzəldən Əfsanənin qabağına tappıltı ilə düşəndə gəlin səksənən kimi oldu. Bıçağı kasanın içinə qoyub iydəni götürdü; iydənin göynəyini sərçələr yırtmışdı — qabığını soyub ağzına atdı. Yaxşı yetişmişdi, xarlanmışdı. Tumunu çıxartmamış biri də Əfsanənin önünə düşdü, gülümsünə-gülümsünə onu da götürüb yedi və başını qaldırıb iydə «göndərən» sərçələri görmək istədi, lakin sıx, bozumtul yarpaqlar arasında gözünə heç nə dəymədi. Həsirin üstünə süfrə salınmışdı. Göy soğan, üç-dörd göy xiyar, arpa unundan bişirilmiş təndir çörəyi, üç dənə kasa və qatıq küpəsindən qeyri ortalıqda bir şey yox idi.

Kasalara çörək, soğan-xiyar doğramış Əfsanə ağacın kötüyünə söykənmiş qulpu qırıq səhəngdən qablara su tökdü və taxta qaşıqla qatığı qarışdırmağa başladı.

Qatığı çaldıqca Əfsanənin sinəsi silgələnir, nazik arxalığının yaxasındakı ağ mis, gümüş pullar cingildəyirdi. Çadrası sürüşüb çiyninə düşmüşdü. Belə istidə çadra altında gəzib-dolanmaq özü də cəhənnəm əzabı idi. Əri, qaynı Elməddin evdə olmayanda, Əfsanə tor duvağı üzündən götürür, çiyinlərini açır, arxayın-asudə işini-gücünü görürdü. Həbsxana barmaqlığı kimi çal-keçir hörülmüş tor örtüyü üzündən kənar eləyəndə gözünün qabağında neçə saniyə çal-keçir millər oynaşır, ətrafındakı hər şey ona tora bürünmüş kimi görü-5nürdü. Az sonra isə, gözləri dincəlir, beynindəki gərginlik elə bil azalırdı.

Nahar hazır idi. Ancaq nə Səbihə, nə də Elməddin gəlib çıxmışdı. Arvad talvarın altında xəmir yoğurur, Elməddin isə bağın ayağında inək qoşulmuş xışla yer şumlayırdı.

— Xala, doğrama hazırdı.

— Nə deyirsən?! — o, dikəlib xəmirin üstünü basdırdı, əlini övkələyə-övkələyə ağacın altına addımladı.

— Deyirəm, yemək hazırdı, gəlin.

Səbihə əlini yuyub balağına sildi. Süfrənin qırağında oturdu.

— Elməddini də çağır, xala! Qoy o da gəlsin, çörəyini yesin.

— Özünün ağzın yoxdur? Çağırsana. Əfsanə astaca söylədi:

— Utanıram, xala.

— Nədən utanırsan, qız? — o, tikəsini tələsik udub davam etdi. — Qayın, ya qardaş. Heç tafoutu yoxdur. Üç aydı bu evdə gəlinsən, hələ də ağıllı-başlı evə, evin adamına isinişməmisən.

Əfsanənin üzündə xəfif qızartı əmələ gəldi. Başını aşağı salıb həsirin qırılmış sapının ucunu qurdalaya-qurdalaya fikirləşirdi: «İsinişməyibsən. Düz deyirsən, heç cürə isinişə bilmirəm. Neyləyim, bacarmıram. Nə qədər ki Xədicənin cəhənnəmində idim, uzaq, tutqun, şirin bir ümid ürəyimi isindirirdi ki, bir allah bəndəsi tapılacaq, məni əzablar, işkəncələr yuvasından qurtaracaq. Mən də insan kimi rahat nəfəs alacağam. Öz evim, isti ocağım olacaq. Oldu. Ancaq...»

Ay gədə heyyy, — deyə Səbihə kişi səsinə bənzər qalın səsilə Elməddini səsləyəndə Əfsanənin düşüncələrinin bağı qırıldı. — Gəl, çörəyini ye, inəkləri də burax otlasınlar. — Sonra səsini endirib astadan gəlininə söylədi: — Allah Məşədi Səlimin atasına min rəhmət eləsin, qəbrini nurla doldursun. Nə yaxşı ki bir parça torpağı bizim üçün qoyub getmişdi. Yoxsa mən iki uşaqla dörd divar arasında acından ölənin biri idim. Torpaq böyük nemətdi, qızım.

Gülüstanda kimin ki, torpağı var, acından ölməz. Bunu adam cavan olanda, torpağın əlinə göz dikməyənəcən başa düşmür. Sağmal inək kimi bir şeydi torpaq, qızım. Əgər Elməddinin cütə qoşduğu o inəkləri yemləməsək, altının zığını-zımrığını təmizləməsək, elə bilirsən bizə süd verər? Ay verdi ha. Bax, torpağa da gərək qulluq eləyəsən. Məşədi Səlimin kəlamı vardı, deyərdi: Torpaq deyər, öldür məni, dirildim səni.

Mənim uşaqlarım, — Allah-taala heç birini mənə çox görməsin, — atalarından miras qalan bu parça torpağa çox yaxşı, canı-dildən qulluq göstəriblər. İllah da ki, sənin Yusifin. Uşaqcığım qat-qat qabıq qoyub. Bir ayağı şəhərdə olsa da, canı torpağın yanında olub. Amma bu — gözlərini Elməddin işləyən tərəfə dolandırdı, — sən deyən də, quyruq ələ verməyib. Elə uşaqlıqdan fikri dağınıq, üzü bozdur. Şəkilzad çəkmək həvəsinə düşüb, olan-qalan ağlı da zay olub gedib. Bir də görürsən, tək-tənha girib evə, qabağına kağız-qələm qoyub nə isə çəkir. İnsafən, yaxşı şəkil çəkir. Elə oxşadır ki, ayağın yerə yapışır. Amma axır vaxtlar uşaq gözümə birtəhər dəyir?! Fikir veribsən heç!?

— Yox, — deyə Əfsanə doğramanı qarışdıra-qarışdıra cavab verdi. Ancaq yalan söylədiyini o dəqiqə hiss elədi. Elməddinin hərə-

kətlərindəki anlaşılmazlıq, üzündəki pərişanlıq, fikrindəki pəjmürdəlik Əfsanənin gözündən necə qaça bilərdi?! Elməddin Əfsanənin gözlərinin içinə baxa bilmirdi, çünki o nurlu, uzun kirpikli qara gözlər tor hörkü, tor barmaqlıq arxasında idi. Onları görmək olmazdı, onlara naməhrəm baxa bilməzdi — qaynı da olsaydı. O gözləri ancaq Yusif görə bilər, Yusif öpə bilərdi. Əfsanə ancaq və ancaq ona məxsusdu!

Amma Əfsanə tor barmaqlıq arxasından — qıyıq ucu boyda olan deşiklərdən Elməddini yaxşı görürdü. Üzündəki kədəri də, gözlərindəki sanki əbədilik silinib-getməyəcək qüssəni də, xəlvətdə özözünə pıçıldayan zaman asta-asta tərpənən qalın dodaqlarını da.

Əfsanə hələ Elməddinlə üzbəüz dayanıb kəlmə kəsməmişdisə də, onun vəziyyətini başa düşürdü. Bilirdi ki, Elməddin onun ucbatından belə pərişandı. Və bu, ona əzab verirdi. Bu əzabı Əfsanənin Həzrətgülün evində çəkdiyi sıxıntılarla əsla müqayisə etmək olmazdı: bu mənəvi əzab idi, ruhi sıxıntı idi.

— Hə, əşi, Elməddinin işi uzun dəsgahdı, — deyə Səbihə söhbətinin yersiz-yöndəmsiz olduğunu hiss eləyib sözünə xitam verdi, qaşığı doldurub ağzına apardı. Səbihənin qabaqda üç dişi qalmışdı. Əgər onlar olmasaydı, arvadın ağzı qəribə bir boşluğa oxşayardı. Qayınanasının dişlərinin vaxtından əvvəl çürüyüb-töküldüyünü bildiyinə görə Əfsanə onun xörəyinə-yeməyinə xüsusi diqqət verirdi. Çörəyin yumşağını Səbihənin qabağına qoyur, doğramasını yaxşıca qarışdırardı. Səbihə bunu gəlin gətirdiyi dördüncü günü, Əfsanə gərdəkdən çıxandan sonra özü tapşırmışdı: kənara çəkib oğlunun xasiyyətindən tutmuş, özünün dişlərinə qədər hər şey barədə ətraflı danışmış, öz tələblərini bildirmiş, «şərti şumda kəsmişdi ki, xırmanda yabalaşmasınlar».

— Bəs niyə yemirsən, qız?! — Sanki onun doğramaya əl vurmadığını indi görürdü.

— Yeyərəm də.

— Yoxsa Yusifsiz boğazından keçmir?!

Yusif evlənəndən iki həftə sonra Süleymanşəhrə getmişdi. Dükanı başsız qoymaq istəməmişdi. Ancaq hər həftə pəncşənbə günləri kəndə qayıdır, cüməni evdə keçirir, şənbə günü yenə şəhərə yola düşürdü.

— Gördün, mən sənə nə deyirdim? Deyirdimmi ki, öyrəşəcəksən? Yusif yaxşı oğlandı. Mən elə oğul böyütməmişəm ki, pis kişi olsun. Eynən rəhmətlik atasıdı, durub. Arvadcanlıdı. Məşədi Səlim də belə idi — ondan yerdən göyəcən razıyam. Bir dəfə də mənə gül-

dən ağır söz demədi rəhmətlik. Allah qəbrini nurla doldursun, bu dünyasından elədi, o dünyasından eləməsin. Məhəbbət-zad boş şeydi. hamısı sonradan peyda olur. Adam bir-birinə öyrəşir, isinişir. Mən özüm heç rəhmətliyin üzünü də görməmişdim, gəlin gətirdilər, — onda səndən də uşaq idim, — zifaf gecəsi kişinin üzünü gördüm. Sonradan öyrəşdik. Sən də heylə. Öyrəşibsən daha. Gözaltı fikir verirəm, Yusif şəhərdən qayıdıb gələndö sənin çiçəyin necə çırtlayır. Utanma, utanma, başını da aşağı salma. Biz də cavan olmuşuq, azdan-çoxdan bilirik.

Əfsanə deyib-danışmağı sevən qayınanasının açıq-saçıqlığından xoşlanmasa da, susub, qulaq asırdı. Acdığına görə yox, söz-söhbətə ara vermək üçün qaşığını götürüb naharını yeməyə başladı. Arxadan Elməddinin öskürəyini eşidəndə yönünü çevirib çadrasını düzəltdi. Elməddin özünü iydənin kölgəsi altına salıb nəfəsini dərdi. Anası tikəsini udub:

— Çalmanı başından aç, əl-ayağına su vur, yorulub həlak oldun! — dedi.

— İstidi, heç nəfəs almaq olmur, — deyə Elməddin çalmasını başından açdı, qara, yumşaq saçları alnına töküldü. Sifəti günün altında yanıb qaralmışdı. İstinin təsirindən qonur gözləri balacalaşmışdı. Şəvə kimi qara, seyrək bığının dibində, alnında tər damcıları görünürdü. Çömbəltmə oturub ayaqqabısını çıxartdı, səhənkcəni götürərək əl-üzünü yudu, ayağına su tökdü.

— Elə bil, adamın başının üstündə tonqal qalayıblar. Günün hərarəti adamın üz-gözünü qarsır. Ala inəyin dili bir qarış çıxmışdı.

Səbihə yelçəyilə üzünü yellədi:

—Ağacın altı sərindi, balam. Elməddin süfrənin qırağında oturdu. Elməddinin yanında çox az danışan Əfsanə sözə qarışıb asta səslə dedi:

— Nə yaxşı ki yay-qış başı qarla örtülü Ağ dağ varmış, yoxsa bu camaat cəhənnəm istisində təngnəfəs olub qırılardı.

Əfsanə düz deyirdi. İstidən nəfəsi tıncıxan adamın nəzərləri Ağ dağın zirvəsindəki qara sataşan kimi istər-istəməz canında sərinlik əmələ gəlir, ürəyinin hərarəti azalır, insan fikrən də olsa, özünü o xarlanmış qarların arasında hiss edərək azca toxtayırdı.

Elməddin doğramasının hamısını yemədi, qaşığı kasanın içinə qoyub kənara itələdi.

Bu, Səbihənin nəzərindən yayınmadı. Neçə vaxt idi ki, Elməddin nə naharını, nə şamını iştahayla yemirdi. Ən çox sevdiyi

doğramanı da axıracan yemədiyini görən Səbihə özünü saxlaya bilmədi:

— Nə olub, bala, niyə yemirsən? Gözümə bikef dəyirsən?

— Heç... — Elməddin mızıldandı. Səbihə əl çəkmədi:

— Yox, düzünü de görüm nə olub? Xəstə-zad deyilsən ki? Bəlkə bir şey olub, bizdən gizləyirsən?

— Heç nə olmayıb. — Elməddin kənara çəkilib kürəyini iydənin gövdəsinə söykədi, qıçlarını irəli uzatdı. — Yorulmuşam.

— Heç qabaqlar belə yorulmazdın. Gecə də, gündüz də işləyəndə bu cür əznik — halsız olmazdın. İndi sənə nə olub ki, günügündən arıqlayıb geri gedirsən?! Nə vaxtlı-vaxtında əməllicə yeyirsən, nə də yatıb dincəlirsən. Onsuz da yönlü-başlı bir şey yemirik ha. Pendir-çörəkdi, ovduq-doğramadı, göy-göyərtidi. Qardaşın şəhərdən gələndə bir-iki pao ət gətirdi-gətirdi, gətirmədi də ki heç. Belə getsə, dilim-ağzım qurusun, səni naxoşluq tapar.

Elməddin anasının dediklərini eşitmir, gözlərini Ağ dağın qarlı başına zilləyib düşünürdü... Nə düşündüyünü soruşsaydın, bəlkə də düz-ağıllı izah eləyə, cavab verə bilməzdi. Ona bircə bu aydın idi ki, ürəyində anlaşılmaz, dərin bir boşluq əmələ gəlib. Bu, həyatda ən qiymətli, ən əziz adamını, ömrünün ən gözəl çağını bihudə yerə itirmiş bir adamın ürəyində yaranmış boşluğa çox oxşayırdı və onu heç nəylə doldurmaq, təəssüfün sız-sız sızıldatdığı ürəyi heç nəylə ovundurmaq olmazdı. Elməddinin son vaxtlar cib dəftərçəsinə yazdığı şerlər də, mənsur parçalar da ah-nalə ilə dolu idi. Orada yaxşı, ürəkdən gəlmiş elə beytlər, misralar, parçalar vardı ki, onlar səni düşündürər, hələ ağladardı da.

Yaxşı ki, o, qəryədar Qulamın yanında işləyirdi, yaxşı ki bu torpaq, xış, şum varmış. Ürəyindəki ağrıları, intəhasız dərdlərini ancaq işləməklə dağıdırdı.

— Qardaşın gəlsin, get şəhərə, iki-üç həftə qal, bəlkə havan dəyişdi. Şəhər nə qədər olsa səsli-küylüdür, qeyl-qallıdı, fikrin-zadın dağılar. Kənd kimi cansıxıcı olmaz, — deyə Səbihə qayğılı-qayğılı danışırdı. Səbihənin ana ürəyiyananlığı ilə dediyi sözlər Elməddinin ürəyindən idi. Evdən uzaq olsaydı, bəlkə bu qədər də qüssə çəkməz, üzülüb-incəlməzdi. Əfsanəni görməz, onun qəmli gözlərinin dilsiz hekayətlərini, şikayətlərini hiss etməz, dost-doğma qardaşına anlaşılmaz qısqanclıq, həsəd və bəlkə də paxıllıq duyğusu ilə qovrula-qovrula baxmazdı. Var qüvvəsi ilə bu çirkin hissləri ürəyindən qovmağa çalışırdı. Ancaq...

Elməddin tilsimə düşmüşdü. Ayağı yer tutduqca buradan qaçıb-uzaqlaşmaq istəyirdi. Ürəyinin dərinliyində oturmuş əsil qardaş gecə-gündüz qulağına pıçıldayırdı ki, get, Elməddin, ata yurdundan, evindən uzaq ol, uzaq yaşa. Burada sən əzabdan, qüssədən özgə bir rahatlıq, sevinc görməyəcəksən. Çünki Yusif sənin qardaşındı, qardaş namusu bacı namusu kimi toxunulmazdır. — Belə deyən iyirmi üç il yaşamış, ağlı-qaralı gün görmüş, Səbihənin, Yusif və Ədnan camaatının yaxşı tanıdığı, ağıllı, ağırtəbiətli, qardaşcanlı Elməddin idi.

İkinci səs isə dənizin qoynunda, dumanlar arasında yanıb-sönən mayak kimi batıb-çıxır, sözündən, hikkəsindən dönmürdü: «Sənin Əfsanədən həmişəlik əlin üzülsə də, onu görmədən necə yaşaya bilərsən? Çadra altında da olsa, kölgə kimi, dilsiz-ağızsız, xəyal təki qabağında gəzib dolanmasa, yaşaya bilərsənmi? Sənə ondan heç nə lazım deyil, təkcə... varlığı, nəfəsi lazımdır. Özünü xoşbəxt hiss etməyin üçün elə təkcə bu da bəsdi sənə!!» — Belə deyən heç kəsin tanımadığı, oğlanın özü üçün də sirli-sehrli müəmmaya çevrilmiş aşiq Elməddin idi. Onu kimsə görməmişdi, qüvvəsinə, inadına kimsə bələd deyildi. Həmin ikinci Elməddinin son vaxtlar yeganə arzusu bu olmuşdu ki, gözəlliyi, ağıllılığı, işgüzarlığı ilə bütün kənd cavanlarının şirin istəyi olan uzun hörüklü üst dodağı qara xallı Əfsanəni evlərində görsün. Əfsanə onun nəfəsini, nəvazişini duysun. O Əfsanə ki, indiyəcən heç kəsdən xoş söz eşitməmiş, gülər üz görməmişdi. O Əfsanə ki, dayısının xanimanında sübhün gözü açılmamışdan gecə yarıdan keçənəcən ayaq üstə olmuşdur. Elməddin arzulayırdı ki, bax, bu Əfsanəni öz evində görsün; o, bu evin gəlini olsun, çırağını yandırsın.

Elməddin Əfsanəni öz evlərində gördü — ancaq öz arvadı kimi yox. O, Elməddinin ata yurdunun çırağını da yandırdı. Ancaq onun üçün yox, qardaşı üçün!!!

Bu onun ömür ağacına, arzularına vurulmuş ilk ağır və rəhmsiz zərbə idi. Toy gecəsini Elməddin unuda bilmirdi. Evə gəlin gəlirdi, qardaş toyu idi. Necə sevinməmək olardı?! O biri yandan da, Elməddin necə sevinəydi? Bir gözü ağlayırdı, bir gözü gülürdü onun o toy gecəsi! Hələ qardaşının şad günündə bütün iradəsini, qüvvəsini toplayıb gülümsünə-gülümsünə oynadı da toyda... Səbihənin qolundan tutub meydana çəkdi; ana-bala əl-ələ tutub qabaq-qənşər oynadılar. Hər ikisinin gözü yaşarmışdı. Ana sevincindən ağlayırdı, Elməddin...

Ədnan kəndinin camaatı, Süleymanşəhrdən toya gəlmiş təzə bəyin dostları əlbəttə, bunu ayrı-yerə yozdular və əsil səbəbini başa

düşmədilər; xeyir gündə atanın qabaqda olmaması ağır dərddi, buna ağlamaq olardı!

Elməddin olub keçənləri fikrinə gətirir, kimin günahkar olduğunu aydınlaşdırmaq istəyirdi. Əfsanə idimi günahkar? Onu vəfasızlıqda təqsirləndirmək olardımı? Əfsanə Elməddini sevirdi. Elməddin onu sevən kimi. Elməddin özü ağzına su alıb susduğu halda o, dilsiz-ağızsız, ixtiyarsız, yetim qız nə deyə bilərdi? «Mən Yusifə getmərəm, Elməddini sevirəm» — deməsi ən böyük qəbahət sayılardı. Həzrətgül onu əlləri ilə boğar, gecənin qaranlığında çayın coşğun sularına atardı. Həzrətgülün sözü Əfsanə üçün qanun idi: «öl-öl!», «qal-qal!».

Həm də Yusif əliboş irəli durmurdu. — Əlli min rupi ilə Həzrətgülün gözünü də, ağzını da asanlıqla bağlamaq mümkün idi.

Bəlkə günah Yusifdədi? Axı o, haradan biləydi ki, qardaşının gözü Ədnan kəndinin günüqara sonasındadır? Kim demişdi, kimdən eşitmişdi?! Elməddin bunu təklikdə belə dilinə gətirmişdimi? Yox.

Elməddin deyə bilməzdi ki, Yusif Əfsanəni sevib alıb? Xoşu gəlibmiş, pulu vardı — qabağa çıxıb onunla evləndi. Bəlkə... günah... Elməddinin özündə idi?

«Mən neyləyə bilərdim? Qabaqda Yusif vardı—onun üstündən necə adlayıb evlənə bilərdim? Gülünc çıxardı». Toydan sonra keçən ilk günlər dərdə dözə bilməyəcəyini güman eləyirdi. Elə bil, ürəyinin rişəsini qırmışdılar. Elə bil, ulduzlu-aylı göylərin altında həyatın sonu gəlib çatmışdı. Hava yox idi. Amma dözdü. Əzab çəkə-çəkə, xəlvətdə gözlərindən yaş axıda-axıda dörd aya yaxın idi ki, yaşayırdı.

İndi, bu, istisi ürək bişirən yay günündə Əfsanə onun yanında oturmuşdu, həzin və nisgilli səsini eşidirdi, nəfəsdən çox aha bənzəyən hənirtisini duyurdu. Bəli, o, Əfsanə ilə nə qədər yaxın idi — ilk sevgisi daşa dəymiş Elməddin üçün bu səadət deyildi, bəs nə idi? Eyni zamanda o, Əfsanədən nə qədər uzaq idi. Aman allah, nə qədər?!

DÖRDÜNCÜ FƏSİL

Artıq günün şaxı sınmışdı: bozumtul yarpaqlı iydə ağacının kölgəsi sürünüb yerini dəyişmişdi. Hava azca sərinimişdi. Səbihənin iki saat qabaq yoğurduğu xəmir «gəlmişdi». Arvad dizlərini yerə qoyub gündələyirdi. Hasarın dibindəki təndirin qırmızı, tüstüqarışıq alov dilləri burula-burula yuxarı qalxır, yanan çör-çöpün, ot-əncərin qaralmış-bozarmış xırda gülləri havada oynaşırdı.

Elməddin təzəcə payalarını basdırdığı çardağın üstündə dayanıb (elə bil, bu saat uçacaqdı) qamış döşəyirdi — altına odun-ocaq, tir-tikan yığmaq üçün. Yanacaq qışın yağışı-qarı altında qalıb çürüməsin deyə. Əfsanə tövlənin böyründə qalaqlanmış tikanı çardağın altına daşıyırdı. Heç kəs ona belə göstəriş verməmişdi — özü işləmək, evin işinə kömək etmək istəyirdi. Tikanların əlinin nazik dərisinə batdığı yerdən xırda-xırda qan qətrələri pırtlayıb çıxırdı. Göynərtisi ürəyini sızıldadırdı. Sanki əllərinin ikisini də biləkdən aşağı isti suyun içinə basıb pörşələmişdin — od tutub yanırdı. Dirəyin üstündən baxan Elməddinin gözü Əfsanənin qızarmış əllərinə sataşanda canıyananlıqla söylədi:

— Əllərin gör nə hala düşüb, Əfsanə?

Əfsanə əllərinin ikisini də irəli uzadıb diqqətlə baxdı, ancaq heç nə demədi.

— Göynədir, hə?!

— Göynədir...

— Sən daha dəymə, qalanını özüm daşıyaram...

— Az qalıb...

— Sənin üçün ağır olar!

— Olmaz.

— Dedim ki, əl vurmayacaqsan! — deyə Elməddin uşağına xeyirxah məsləhət verən ata kimi ərklə səsini qaldırdı. Əfsanə başını yuxarı qaldırıb tor örtük arxasından Elməddinə diqqətlə baxdı: Elməddin onun üzünü, gözlərini torun deşiyi boyda — parça-parça gördü və gəlin ciddi bir tərzdə soruşdu:

— Mənə yazığın gəlir?!

Elməddin dərhal cavab vermədi. «Mənə yazığın gəlir?» sözlərini ani olaraq götür-qoy elədi və ona elə gəldi ki, bu cümlənin əsl mənası söyləndiyi kimi deyil, bəlkə də, «məni çox istəyirsən?» — mənasına daha yaxındır?! Elməddin özü üçün mühüm bir nöqtəni aydınlaşdırıbmış kimi, əhvali-ruhiyyəsinə uyuşmayan tərzdə gülümsündü:

— Hə. Sənə... yazığım... gəlir!!

Əfsanə başını aşağı salaraq köksünü ötürdü və iti addımlarla tikan tayasına sarı yollandı. Tayaya çatanda susadığını hiss eləyib iydənin altına getdi, yarımçıq kasanı başına çəkib qurtaqurtla artıq isinmiş ayrandan içdi. Ayran xırda-nazik ağ sap kimi cəhənglərindən çənəsinə, ordan da boğazı aşağı axdı. Qayıdıb tikan tayasının yanına gəldi.

Elməddin düşündü: «İnadcıldır. Sözündən dönən deyil». Zahirən Elməddinə elə gəlirdi ki, onu düşündürən məsələlər barədə, məsələn, öz taleyi barədə Əfsanə əsla fikirləşmir. Ancaq Elməddin yanılırdı. Yusif onu almışdı. İnəyi, qoyunu necə sövdələşib alardılarsa, onu da eləcə almışdı. Həzrətgül isə dilsiz-ağızsız heyvandan satılmaq istəyib-istəmədiyini soruşmaq lazım olmadığı kimi, ondan da heç nə soruşmadan satmışdı. Sevmədiyi, xasiyyətini bilmədiyi Yusifə... Yusif zabitəli adam idi. Sözü bir dəfə deyərdi, — təkrar etməyi sevməzdi. Əfsanəyə olan mehribanlığını, səmimiyyətini gizli saxlardı. Ürəyində bəlkə də onu sevirdi, ancaq bunu büruzə verməməyə çalışırdı. Amma qəzəbi, hirsi o dəqiqə üzə çıxardı. Keçən müddət ərzində ərinin üzünü az-az görsə də xasiyyətinə xeyli bələd olmuşdu və bilirdi ki, onları ancaq ər-arvadlıq münasibətləri bir-birinə bağlayıb və bundan başqa arada heç nə yoxdur. Əgər sabah Əfsanənin başına bir fəlakət gəlsə... Yusif ah-uf eləmədən, göz yaşı tökmədən aparıb dəfn edəcək, qəbrinin üstündə ot bitməmiş, bədəninin istisi söyumamış təzə arvad almaq eşqinə düşəcək. Çünki ona arvad lazımdı. Bəli, Elməddin yanılırdı — tikan, daşıyan Əfsanə öz taleyi barədə düşünür, düşünürdü. Növbəti tikan şələsini götürəndə Əfsanənin gözünə beş dənə xırda, uzunsov, üstü çil-çil yumurta dəydi. Ömründə belə yumurta görmədiyindən tikan şələsini yerə qoyub çömbəltmə oturdu, onlara diqqətlə baxdı. Toyuq yumurtası deyildi, quş yumurtasına da oxşamırdı. Dikəlib Səbihəni səslədi:

— Xala, ay xala.

— Nədi, qız?

— Bura gəl, gör bunlar nəmənədi? Səbihə gəldi, baxan kimi dedi:

— İlan yumurtasıdı, qız. Burada ilan var, özü də qızıl ilandı deyəsən.

Əfsanənin rəngi avazıdı:

— Mən qorxuram, xala.

— Nədən, qız?

— Gəlib bizi vurar!

— İlan deyib, sən mənə dəymə, mən də sənə dəymərəm. Ancaq rəhmətlik kişi deyərdi, ilanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdırmayana lənət.

Araya sükut çökdü. Əfsanə tez-tez ətrafa baxınırdı. Sanki ilanın indncə haradansa gələcəyini, yuvasını dağıtdıqları üçün üstlərinə şığıyıb onlardan kimisə çalacağını gözləyirdi.

— Əzəkmi bu yumurtaları, xala?

— Yox, yox, qız. İstəyirsən yurdumuzu viran qoysun? Bircəciyimizi sağ qoymaz. Özü də qızıl ilan tək olmur, yeddi qardaş olur. Birini öldürdün, o biri intiqam alır. Gərək hamısını öldürəsən ki, bu dünyada arxayın yaşaya biləsən. Yoxsa gərək ömrün boyu səksəkədə olasan.

Səbihə seyrək qaşlarını çatıb ani fikirdən sonra:

— Bilirsən neylə? — dedi, — bunları ehmalca götür, apar qoy təzə tikan tayasının dibinə. Axtarıb tapar.

— Mən qorxuram.

— Ağciyər olma, qız.

— Vallah qorxuram, xala.

Qayınanasının təkidilə əti ürpəşə-ürpəşə Əfsanə yumurtaları ətəyinə yığıb tayanın dibinə qaçdı və Elməddinə heç nə demədən onları tikanın arasına qoydu. Əhvalatı sonra çardağın üstündə dayanıb işləyən Elməddinə söylədi. Əfsanənin daha əli işə yatmırdı. Canına qara-qorxu düşmüşdü.

Elməddin handan-hana dilləndi:

— Gərək əzəydiniz hamısını. Yumurtadakılar da çıxandan sonra ilan olacaq və həyətdə kəzib-dolanmaq olmayacaq. Onsuz da rahatlığımız yoxdu.

Son cümləsinin başqa məna verdiyinin fərqinə sonra vardı. Lakin gec idi — söz deyilmişdi. Əfsanə eyhamı dərhal başa düşdü. «Onsuz da rahatlığımız yoxdu.» Elməddin düz deyirdi. Əfsanə evə getdi, on dəqiqə keçməmiş eyvana çıxanda o, nagahani səslə:

— Ona bax, ona bax, — deyə az qala qışqırdı. Səsə Elməddin çöndü, Səbihə də boylandı. — İlana baxın, ilana...

O, əlini köhnə taya yerinə uzatmışdı.

Uzunluğu bir metrə çatan qırmızı ilan o tərəf, bu tərəfə çovuyurdu. Günəş altında kürədə yanıb qızarmış əyilib düzələn ox kimi parıldayırdı. İlan xırda, yaraşıqlı başını tez-tez yuxarı qaldırır, qara muncuğa oxşayan gözlərini geniş açaraq haça dilini çıxardıb fışıldayır, uçurulmuş yuvasını, aparılmış yumurtalarını axtarırdı. Boylanır, sonra yenə sinib ora-bura şütüyür, çalışıb-çapalayırdı. Hərəkətlərində, təlaşında itmiş balalarını axtaran ana həyəcanı vardı. İlan yəqin ki, onları görmürdü. Görsəydi, üstlərinə hücum çəkib çalar, hələ dünyaya gəlməmiş itkin düşən balalarının intiqamını alardı.

Sanki ilan dil bilirmiş.

Əfsanə deyirdi:

— Ay allahın heyvanı, yumurtaların ordadı, tikan tayasının dibindədi.

İlan eşitmir, anlamır, çırpınırdı: birdən iydə ağacının altına sürünməyə başladı. Süfrənin yığışdırılmadığını görəndə Səbihə özündən çıxdı:

— Min dəfə demişəm ki, çörəyi yediniz, süfrəni yığışdırın.

— Vaxt olmadı, — Əfsanə indicə bədbəxtlik üz verəcəkmiş kimi günahkarcasına astadan dilləndi.

İlan süfrənin qırağında toxdadı — ortalıqda olanları aydınca görmək istəyirmiş kimi, gündələnmiş quyruğunun üstündə mil durub başını qarmaq sayağı əyərək irəli uzatdı — baxdı, baxdı. Sonra qəti hərəkətlə yerə sinib içində ayran olan kasaya sarı süründü. Yenə başını azca qaldırıb kasaya boylandı. Və birdən ağzını kasanın qırağına atıb qəribə tərzdə çevrildi. Ağ qarnının altı göründü.

Zəhərini tökdü, — Səbihə dedi.

— Nə kinli şeymiş, şoqərib. — Əfsanə astadan dilləndi. Sonra ilan sürünə-sürünə, rahat olmuş təki süfrədən uzaqlaşdı. Ancaq yenə axtarırdı. Xeyli vurnuxandan sonra təzə tayaya sarı süründü.

— Tapacaq indi, — Əfsanənin üstündən elə bil, dağ götürüldü.

— Hə. Tapacaq. — Səbihə təsdiq elədi.

Axır ki ilanın gözü yumurtalarına sataşdı — onları salamat görəndə sevindiyindən rəqs edirmiş kimi, düyülmüş quyruğu üstə qalxıb sağa-sola yelləndi və sonra özünü havadan yumurtalarının üstünə atdı. Toxdadı.

Əfsanənin, Səbihənin və Elməddinin də ürəklərinin döyüntüsü azaldı. Sanki, böyük bir xata-baladan xilas olmuşdular.

İki-üç dəqiqə keçməmiş gözlənilməz bir hadisə də baş verdi. İlan yenə süfrəyə sarı süründü. Yenə hamı intizarla ilanın hərəkətlərinə göz qoymağa başladı. İlan bayaq zəhərini tökdüyü kasaya tələsik yanaşdı, ona dolanıb güclü bir təkanla kasanı aşırdı. Zəhərli ayran həsirin üstünə dağıldı. Sonra arxayın-arxayın öz təzə yuvasına sarı süründü.

Bu qəribə hadisə hamını düşündürdü. Çardaqdan düşüb anasıgilin yanına gəlmiş Elməddin fikirli-fikirli deyirdi:

— Sən demə, ilanın da ürəyi varmış! İlan da sevə bilirmiş, ilan də nifrət eləyə bilirmiş, ilan da intiqam hissi ilə yaşaya bilirmiş.

Əfsanə Elməddinin sözlərini eşidib içəri keçdi: birdən-birə ürəyini qəribə bir sıxıntı bürüdü. Təklik hissi...

Elməddin sanki onun dalınca içəri girib sözlərini təkrar edirdi:

«İlanın da ürəyi varmış. İlan da sevə bilirmiş, ilan da nifrət edə bilirmiş, ilan da intiqam hissilə yaşaya bilirmiş!!».

BEŞİNCİ FƏSİL

Kəndin kənarındakı düzənlikdə qırmızı lalələr açılmışdı. Göz işlədikcə hər yan sanki alışıb-yanırdı, sakit bir atəşlə yanırdı. Hərdən çırpınan bahar mehi çöllərin allı-güllü xalısını dalğalandırırdı.

Kömgöy çəmənlikdə ağır-ağır, tələsmədən addımlayan Elməddinin ayaqqabıları səhər şehindən islanmışdı. Ağ dağın zirvəsindən yenicə qalxmış Günəş hələ lalələrin xallı piyalələrindəki ağ mirvari danələrini ilıq nəfəsi ilə qurutmağa macal tapmamışdı.

Hava ətir qoxuyurdu — çöllərdən yaşıl ot, çiçək iyi gəlirdi; təbiət adamın üzünə gülürdü. Ancaq ürəyindən sanki daş asılmış Elməddin məst adamlar kimi hər şsyə biganə nəzərlərlə baxırdı. Arabir ayağı altında pırıltı ilə uçan torağaylar, meynələr[1] onu səksəndirir, fikirdən ayırırdı. Dünənki ilanı unuda bilmirdi. İlanın cəsarəti, fədakarlığı, kini və məhəbbəti barədə başqaları danışsaydı, bəlkə də inanmazdı, bunu uydurma, ya da nağıl — əfsanə hesab eləyərdi. Lakin özü görmüşdü və buna görə də inanmaya bilmirdi. İstər-istəməz Elməddin özünü o dilsiz-aqızsız ilanla müqayisə eləyirdi. İlan yuvasının dağıdıldığını görəndə əsl ilana dönmüşdü; yorulub-usanmadan yumurtalarını axtarırdı, tapandan sonra rahatlandı, kasaya tökdüyü zəhəri də dağıtdı. Bəs o, Elməddin, ya Əfsanə? Onlar ki insan idilər? Onlar səadətə qovuşmaq, məhəbbətlərini qoruyub saxlamaq, xoşbəxt olmaq üçün nə etdilər!?

«Əlimizi yanımıza salıb oturduq, ah-uf eləməklə, xəlvətə çəkilib göz yaşı tökməklə kifayətləndik. Amma atalar deyib ki, «ağlamayan uşağa süd verməzlər!» Uşağın yaşamaq üçün əlindən gələn yeganə vasitəsi—ağlamaq, südünü, çörəyini tələb etməkdir. Əgər o bunu etməzsə, acından ölə bilər. Gərək insan öz xoşbəxtliyini, səadətini əldə etmək üçün çalışsın, çəkinmədən, qorxmadan vuruşsun! Bu yolda ölsən də eybi yoxdur, məqsəd yolunda can vermək özü də şərəfdir. Amma biz... of... Yusif, mənim doğma qardaşım, məni sevəsevə, əzizləyə-əzizləyə öldürdü, bədbəxt elədi! Lakin... onun nə günahı var?».

[1] Quş adıdır.

Elməddin ağır fikirləri özündən uzaqlaşdırmaq, fikrini dağıtmaq məqsədilə əyilib bir lalə dərdi, qızıl qanla sulanmış kimi görünən ləçəklər arasında qara xala baxdı, sinəsi dağlı lalənin vəsfinə yazılmış şerləri bir-bir xatırladı. Bütün şairlər onun bağrındakı hicran dağından söhbət açırdı. Bəlkə lalənin gözəlliyi elə onun o qara xalında idi. Onsuz bəlkə də o, qələm, zövq əhlinin diqqətini bu qədər cəlb eləməzdi?!

Elməddinin ürəyi dolu idi, hissləri təlatümə gəlmişdi. Lakin bu təlatümdə şadlıq, sevinc yox idi, bu təlatümdə heç vaxt silinib-getməyəcək bir məyusluq və nisgil vardı.

Əlindəki laləyə baxa-baxa yaddaşının hansı səhifəsindəsə həkk olunub qalmış misraları dodaqaltı pıçıldamağa başladı:

Adın düşüb dillərə,
Tək bircə dağla, lalə.
Mənim milyon dağım var—
Halıma ağla, lalə.

Həmdəm oldum sənlə,
Ürək sözümü dinlə.
Məlhəm ləçəklərinlə
Yaramı bağla, lalə.

Taleyim necə döndü,
Bəxt ulduzum da söndü.
Dağlar da ağ büründü—
Çəkdiyim ahla, lalə.

Eşit ahu-zarımı,
İtirmişəm yarımı.
Mənim göz yaşlarımı
Əmanət saxla, lalə.

Elməddin ayaqları altında qalan lalələrə baxır və görürdü ki, hər lalənin ürəyi üstündə bir qətrə saf şeh damcısı — göz yaşı var. Və ona elə gəlirdi ki, onlar şeh damcıları deyil, nakam aşiqlərin, onun özünün göz yaşlarıdır.

Şerin son misralarını təkrar eləyirdi:

...Mənim göz yaşlarımı,
Əmanət saxla, lalə.

Düşünürdü ki, min il sonra da bu çöllərə çıxan olsa, onun göz yaşları belə, almaz danələri kimi parıl-parıl parıldayacaq, çünki lalələr vəfalıdırlar, onun əmanətini qərinələr boyu yaşadacaqlar...

Uzaqdan qulağına gələn yanıqlı tütək səsi Elməddini xəyaldan ayırdı—Zümrəy idi; qoyun-quzusunu yamacın döşünə verib çomağını yerə ataraq tütəyini mələdirdi. Zümrəy Elməddinlə həmyaş idi. Bir kənddə böyümüşdülər. Məktəb açılanda Elməddin dərsə, o isə xəstə anasını acından ölməyə qoymamaq üçün qoyun-quzu otarmağa getmişdi. O vaxtdan Elməddin bircə dəfə də olsa Zümrəyi gündüz kənddə görməmişdi. Onun üçün bayram, istirahət günü olmamışdı. Xəstələnsə də örüşə getmiş, mərəzini çöllərdə keçirmişdi. Beləliklə o, qoyun-quzu dalında böyümüş, həddi-büluğa çatmış, kişiləşmişdi.

Zümrəygil beş qardaş idilər. Hamısı kənddə kimsəyə məlum olmayan bir xəstəlikdən ataları ilə bir gündə ölmüşdülər. Onların balaca daxmalarından bir gündə beş meyit çıxarılmışdı. Anası Cahan uzun müddət xəstə yatıb hansı bnr möcüzə iləsə nəhayət, dirçəlmişdi. Xəstəlikdən sonra qara hörükləri tamam tökülmüşdü, buna görə arvad kənd camaatı arasında «keçəl Cahan» adı ilə çağrılırdı. Əvvəllər bu adı heç cür sinirə bilməyən arvad sonralar öyrəşmiş, qulağı dolmuşdu.

İki nəfərdən ibarət olan bu ailə kənddə elə səssiz, sakit yaşamışdı ki, varlıqları, yoxluqları belə hiss olunmamışdı. Uşaqlıq dostluğu indi də davam eləyirdi. Elməddinlə Zümrəy bəzən axşamlar görüşər, dərdləşərdilər. Elməddin ona kənddə baş verən hadisələrdən, yeni xəbərlərdən danışır, o isə uzaqdan gəlmiş bir adam təki Elməddinin söhbətlərinə maraqla qulaq asardı.

Zümrəy başına iri motal papaq qoymuşdu. Elməddinin yaxınlaşdığını görüb tütəyi ağzından çıxardaraq suyunu çırpdı, çiynindən asdığı çantasında gizlədi.

— Çal, çal. Sənin tütəyinə qulaq asmağa gəlmişəm, — dedi, əl verib görüşdülər.

— Əşi, otur, görək. Daha tütək çalmaqdan da bezmişəm. Nə qədər tütək çalmaq olar? — O, əbasını çıxarıb yaşıl otların üstünə sərdi — otur, görək!!

Elməddin uzanıb sağ qoluna dirsəkləndi. Zümrəy də qabağında oturdu... Onun sağlam, qırmızı sifəti vardı. Çatma qaşları altında parıldayan nüfuzlu gözləri qayır-qayır qaynayırdı. Yaşıd olmalarına

baxmayaraq, Zümrəy ondan canlı-cüssəli görünürdü. Əgər güləşsəydilər, şübhəsiz, Zümrəy asanlıqla onun kürəyini yerə qoya bilərdi.

— Səndən nə əcəb, Elməddin?

— Elə belə. Darıxdım, çıxdım, dedim bəlkə eynim açıldı.

— Yaxşı eləyibsən. Mən də yamanca darıxıram. Əlimə adam düşəndə elə sevinirəm ki... heç buraxmaq istəmirəm. Axı adam nə qədər çöl-biyabanda dilsiz-ağızsız heyvanlarla bir yerdə olar? İnsan olduğumu da bəzi vaxtlar yadımdan çıxarıram. Düz on beş ildi... beləcə çöldə-düzdəyəm. «Ehtiyacın üzü qara olsun, Zümrəy! —deyə Elməddin düşünürdü. — Ehtiyac adamın əl-qolunu zəncirdən də möhkəm bağlayır. Sən ömrünün axırınacan bu sürüdən çətin ayrılacaqsan. Ehtiyac qoymayacaq, bir tikə çörək ehtiyacı qoymayacaq, Zümrəy!!».

— Təzə nə var, nə yox?

— Sağlığın, elə bir yenilik yoxdur.

— Amma məndə var, Elməddin.

— Nədi? Yenə kimin qoyunu quzulayıb?!

— Yox ey. Qoyun-quzu söhbəti deyil...

— Hə?! Nə olub?!

Zümrəy tərəddüd elədi. Desinmi?! Ya... lazım deyil?

— Yox əşşi, zarafat eləyirdim. Bu çöl-biyabanda nə xəbər ola bilər?

Elməddin diqqətlə Zümrəyi süzüb:

— Vallah, sözlü adama oxşayırsan. Danış, gizləmə...— dedi. Zümrəy ha çalışdısa da sirrini dostundan kizləyə bilməyəcəyini hiss edib naçar sözə başladı:

— O keçə çadırları görürsən, Elməddin? — deyə əlini yamacın o tərəfində binə salmış alaçıqlara sarı uzatdı. Elməddin qanrıldı. Yamacın sağ ətəyində dörd-beş köçəri alaçığı yan-yana düzülmüşdü. Alaçıqların ətrafında yarıçılpaq uşaqlar dolanır, azca kənarda isə uzunqulaqlar, dəvələr otlayırdı.

— Hə, gərürəm, necə bəyəm?! Zümrəy utana-utana söylədi:

— O ucqardakı alaçıqda bir su sonası yaşayır, Elməddin!

Elməddin gülümsündü:

— Yoxsa vurulmusan, Zümrəy?

— Vurulub-vurulmadığımı bilmirəm, amma səbrim-qərarım yoxdu. Çiynində səhəng gündə üç dəfə suya gedir. Dünən qoyun-quzunu başsız qoyub çayın qırağına endim. Gəldi. Əvvəl məni görmədi. Necə gözəldi, ilahi. Yaxşı-yaxşı baxdım. Zalımın qızı ay parça-

sı kimi işıq saçır. Məni görüb özünü itirdi. Nə qədər əlləşdimsə dilim açılmadı ki, açılmadı. Heç nə deyə bilmədim.

— Vurulubsan, dostum.

— Nə bilim.

— Uşaqlar bu tərəfə oynamağa-zada gəlmir?

— Yox. Ha vurnuxuram ki, birini tutum, soruşum. Mümkün olmur. Köpək uşağı bəri çıxmır. Onun haqqında hər kəs mənə səhih məlumat desə, vallah, bir quzu bağışlayaram.

Bu sözləri deyib Zümrəy alaçıqlara sarı boylandı. Elməddin onun baxışlarında sönməz bir həsrətin ifadəsinn görüb öz nakam məhəbbətini xatırlayaraq köks ötürdü.

— Mən sənə kömək eləyərəm, Zümrəy.

— Kömək eləyərsən?

— Hə.

— Nə təhər?

— Mən sabahda-biri gündə atlanıb gələrəm obaya, guya ki, məni qəryədar Qulam göndərib, bilim ki, oba kimindi, torpaq haqqını kim verəcək? Öyrənərəm, qız kimin qızıdı, adı nədi.

— Hə. Ağlabatan fikirdi. — Zümrəy uşaq kimi sevindi.

— Di yaxşı, bir çal, ürəyimiz ovunsun, Zümrəy. — Zümrəy çantasından tütəyi çıxarıb çalmağa başladı. Tütək inlədikcə yanıqlı səsi ətrafa yayılırdı. Elməddin bayaqkı fikirlərinin üstünə qayıtdı.

«Zümrəy də dərdli olduğuna görə belə yanıqlı çalır!»

ALTINCI FƏSİL

Elməddin evə qayıdanda Əfsanə damın böyründə çömbəltmə oturub qabağına qoyduğu iri, paxırdan qızarmış teştdə paltar yuyurdu. Su isti olduğundan teştdən buxar qalxır, bir az aralıdakı ocağın burulubucalan tüstüsünə qarışırdı. Ocağın üstündə iri su qazanı qaynayırdı.

Əfsanə islanmış paltarları çəngələdikcə bədəni yırğalanır, su kənara sıçrayırdı. Başı, üzü açıqdı. Ağ dizləri görünürdü. Uzun hörüklərinin biri ağ çiynindən sürüşüb qabağa, o biri isə kürəyindən axıb yerə dəyirdi. Əndamı tərpəndikcə hörükləri də asta-asta yırğalanırdı.

Sifəti qız vaxtındakından da ağ və cazibəli idi. Qaşları düyünlənmişdi; sanki nəyəsə acıqlanmışdı; ya kiməsə qəzəbi tutmuşdu.

Elməddin canlı bir heykəl qarşısında dayanmış kimi nəfəsini də gizlədərək səssiz-səmirsiz ona tamaşa eləyirdi. Çünki, Əfsanəni belə yaxından və açıq-saçıq gördüyü yadına gəlmirdi.

Əfsanə isə, görünür evdə, həyət-bacada kimsənin olmadığını bildiyindən sərbəstcəsinə öz işinə əl qatmış, üzünü örtməmişdi.

Birdən, Elməddin gözləmədiyi halda, Əfsanə həzin və ürəyə işləyən bir səslə oxumağa başladı.

Bu dəqiqə Elməddin dünyada hər şeyi unutmuşdu; onun indi tez-tez çırpınan ürəyi və Əfsanənin qəmli səsini eşidə bilən qulaqlarından başqa heç nəyi yox idi.

Əfsanə oxuyurdu:

Səndən üzüldü əlim,
Ağlaram ürəyimdə.
Eşqini ömrüm boyu
Saxlaram ürəyimdə.

* * *

Mənim nə günahım var?
Bir belə də zülm olar?
Gözümdən qan-yaş axar —
Ağlaram ürəyimdə.

* * *

Fələk mənə cövr elər
Qəlb uşaq tək kövrələr.
Zaman-zaman qövr elər, —
Dağlarım ürəyimdə!

Əfsanə şerin son misralarına vurulmuş təki onları iki-üç dəfə təkrar-təkrar oxudu.

Elməddinin ürəyi uçurdu. Hər şeyi — hətta doğma qardaşını belə unudaraq irəli cummaq, Əfsanəni bağrına basaraq mahnı oxuyan dodaqlarını, sabunlu suyun içində ağ göyərçin kimi çırpınan əllərini hərarətli öpüşlərə qərq etmək və sonra... sonra birdəfəlik bu fani dünyaya göz yummaq istəyirdi. Ancaq insan iradəsi, görünür; hər istehkamdan, hər qaladan da möhkəmmiş! İradə çağlayıb-coşan hisslərin önünə möhkəm sədd çəkdi və onu, Elməddini bu addımı atmaqdan saxladı. Dərindən köks ötürdü və sanki ürəyini çulğamış dəlisov

fikirlər də o ahla birgə onun taqətsiz bədənini tərk etdi. Əfsanə isə oğlanın ahının səsini eşidib başını qaldırdı.

Məftun baxışlarla ona baxan Elməddini görəndə özünü itirdi. Avazımış sifəti göz kimi qızardı. Yadından çıxartdığından, ya özünü itirdiyindən nə üzünü örtdü, nə də tumanını qıçlarının, dizlərinin üstünə çəkdi. Günahkarcasına başını azca qaldırıb davamlı baxışlarını ondan çəkə bilməyən Elməddinə utancaq, ötəri bir nəzər saldı.

Elməddin yerindən tərpənə bilmir, gözlərini də qırpmırdı. Sanki yuxu görürdü, Əfsanə ərə gedəndən sonra ilk dəfə yaxından görən Elməddin nə qədər yersiz olsa da onun dəyişib dəyişmədiyinin fərqinə vardı: qız vaxtı çaydan su gətirməyə kedəndə, dükanda oturanda, mal-qara qabağına çıxanda o, Əfsanəni tez-tez görərdi. Onda Əfsanə sağlam bədənli, mütənasib boy-buxunlu, üz-gözündən məsumluq yağan bir növrəstə idi. Onda da qəmli idi, indi də. Elə bil, ən böyük sevinc, dünyanın ən böyük şadlığı belə üzündə həkk olunub qalmış ələmi pozmağa qadir deyildi. Təsadüfdən-təsadüfə gülümsünəndə belə bu ifadə onun gözəl çöhrəsini tərk etmirdi. İndi onun əri, ev-eşiyi, özünə görə bəlkə səadəti də vardı. «Təkcə mən bu evdə olmasaydım, bəlkə o özünü xoşbəxt sayardı. Asta-asta yaddan çıxardım. O məni unudardı, mən də... mən də onu. Tale bizə əzab vermək üçünmü ikimizi də bir ocaq başında görüşdürdü», — deyə Elməddin ürəyindən keçirirdi.

Hisslərin tufanı ötüb keçdi. Ağıl, mühakimə öz yerində bərqərar olandan sonra o, «şer hardan Əfsanənin əlinə düşüb görəsən?» — deyə narahatlıqla düşündü.

Nəhayət, Elməddin durduğu yerdən qopub asta, qətiyyətsiz addımlarla irəli yeridi. Əfsanə ehmalca dizlərinin üstünü örtdü və baxışlarını endirdi.

Fikri pərişan olduğundan ağzına gələn ilk sözü söylədi:

— Əcəb yaxşı səsin varmış, Əfsanə! Mən heç bilmirdim.

Elməddin istəyirdi ki, hər kəlmə başı «Əfsanə» sözünü işlətsin. Bu gözəl, şairanə adı ürəyində o qədər təkrar eləmişdi ki... Təkcə ürəyində!.. Amma dili ilə demək istəyirdi. Həm də elə ki, bütün dünya bu adı eşitsin, tanısın! Lakin təəssüf ki, buna onun ixtiyarı yox idi. O, hətta cib dəftərçəsinə köçürdüyü şerlərdə də «Əfsanə» sözünü işlətməkdən ehtiyat edirdi. Nə eybi, o əziz ad onun ürəyinin başına yazılmışdı, çünki Əfsanə onun həyatının yarımçıq əfsanəsi idi, şirin, nakam, sonu göz yaşları ilə bitən əfsanəsi idi!

— O şeri hardan götürüb əzbərləmisən, Əfsanə?

Əfsanə Elməddinin sualını eşidəndə gözlərini qıyğacı dolandırıb baxaraq günahkar uşaq kimi gülumsündü:

— Sənin dəftərindən götürmüşəm, Elməddin!

— Hardan tapmısan, Əfsanə, dəftəri?

— Rəfdən. Bağışla ki, səndən icazəsiz...

— Eybi yoxdur. Onu özümdən başqa oxuyan birinci adam sənsən, Əfsanə.

Əfsanə xoşbəxtcəsinə gülümsündü və Elməddinə elə gəldi ki, ömründə sevincin nə demək olduğunu dadmamış bu yetim qız məhz indi, bu saniyə səadət dolu bir an yaşadı.

— O şeri mən novruz bayramı günü ağlaya-ağlaya dəftərçəmə yazmışam, Əfsanə. Səndən həmişəlik əlim üzülən gün, Əfsanə.

— O gecə mən də səhərəcən yata bilmədim. Yasdığımın bir üzü islandı, o biri üzünü çevirdim. — Araya ani bir sükut çökdü, sonra Əfsanə yenə davam etdi, — əvvəl Nazənin gəlib mənə deyəndə ki, Səbihəgil elçiliyə gəlib, sevindim, elə bildim, sənincün gəliblər. Sonra aydın oldu ki, məni sənə yox, Yusifə veriblər. Ağladım, əlimdən nə gələrdi, yetim qız idim. Dayıma dedim ki, məni satdın, hə?! Üstümə çımxırdı: «sus! — dedi, — axmaq. Minnətin olsun ki, səni Yusif kimi bir oğlana vermişəm! Şadlığına şitlik eləmə!» Mən susdum, özün de, neyləyə bilərdim?.. Amma novruz bayramı axşamı yuxumda səhərəcən yanan şam görmüşdüm,

Elməddin ah çəkdi:

— O şamı yandırdım. Ancaq öz adıma yox, Yusifin adına. Çünki elə süfrə başında bu məsələ ortalığa gəldi va mən ürəyimdəkini dilimə gətirə bilmədim. Böyük qardaşdı. Böyüklüyü qabağımı kəsdi, Əfsanə!!

— Eh. Mən allahın bədbəxt bəndəsiyəm. Mənim üçün xoş gün yazılmayıb... İndi mənim yeganə təsəllim sənsən, səni heç olmasa hər gün görürəm, ürəyim təskinlik tapır, özümü xoşbəxt sayıram.

***

Gün əyiləndə Yusif Süleymanşəhrdən gəlib çıxdı. Tozlu, dolama yolları üstü açıq maşında gəldiyindən pal-paltarı, çalması, üz-gözü tamam toz içində idi. Təkcə iri, nüfuzlu gözləri və dişləri ağarırdı.

Səbihə və Elməddin Yusiflə görüşdü, ancaq uzaqdan ərinin gəldiyini görən Əfsanə yerindən tərpənmədi, yaxınlaşmadı, tor pərdə arxasından baxmaqla kifayətləndi,—mövcud adət-ənənəyə görə gə-

lin, qayınana, qayın yanında səfərdən qayıtmış ərinin qabağına çıxmamalı, «xoş gəldin» eləməməli idi.

Səbihə oğlunu təpədən-dırnağa süzüb:

— Bıy, başıma xeyir, bu nə gündü-rüzgardı, gədə? Toz içində itib-batıbsan ki? — dedi.

— Yollarda olub, — Yusif müxtəsərcə cavab verdi və anasına, qardaşına ötəri nəzər saldı. Anası həmişəki kimi gümrah və çevik idi. Elməddin isə sınıxmışdı. Elə sınıxmışdı ki, deyərdin bəs bu günlərdə ən əziz adamını dəfn eləyib oturub.

— Kefsiz-zad deyilsən ki, Elmi?

Sualdan Elməddin diksindi və Yusifin gözlərinin içinə baxmamağa çalışaraq astaca dilləndi:

— Yoxxx...

Səbihə adəti üzrə Yusifə su hazırladı ki, yuyunsun. Sonra onun heybəsini qabağına çəkib töküşdürməyə başladı: — Nə alıbsan? Yusif əl-üzünü qurulaya-qurulaya yaxın gəldi:

— Elə bir şey yoxdu, yarım sir[1] düyüdü, bir sir naringidi, bnr də onun üçün bir cüt ayaqqabı almışam.

Səbihə narınginin birini soyub parçaladı, dişsiz ağzına atıb damağı ilə əzərək udduqdan sonra Yusifin «onun üçün» gətirdiyi yay ayaqqabısına baxdı.

Yusif heç vaxt arvadının adını deməzdi. «O», «bu», deyə haqqında danışardı və hamı da bilərdi ki, «o», «bu» — Əfsanədir.

Ayaqqabı qəşəng idi. Üstünə qızılı haşiyə çəkilmiş və ağ, xırda muncuqlar düzülmüşdü.

— Ay qız, hey, — deyə Səbihə gəlini səslədi, — bir bəri gəlsənə. Gör Yusif sənin üçün nə alıb?!

Əfsanə çadralı halda kölgə kimi onların yanına gəldi. Gözucu Yusifə nəzər yetirdi, lakin heç nə söyləmədi.

Ailədə səmimiyyət, açıq-saçıqlıq tərəfdarı olan Səbihə gəlininə irad tutdu:

— Bəs «xoş gəldin»in hanı, qız?

—…

— Özgə adam deyil ha, öz ərindi də.

Yusif sözə qarışdı:

— Qızı utandırma daha.

[1] Sir — 7 kq-dır.

— Yaxşı, gey görək, necədir? — Səbihə həddindən artıq yaraşıqlı və cazibədar görünən ayaqqabıdan gözlərini çəkməyərək onu Əfsanəyə sarı uzatdı, — baxaq görək?! Əfsanə əyilib ayaqqabını ayağına aldı. Yaraşırdı.

— Mübarəkdi, qız.

— Sağ ol. — Əfsanə yavaşca dilləndi.

— «Sağ ol»u ərinə de, o alıb gətirib!!

— O da sağ olsun.

Elməddin səssiz-səmirsiz dayanıb söhbətlərə qulaq asırdısa da, sanki heç nə eşitmirdi. Fikrən, ruhən elə bil, burada deyildi.

— Acından ölürəm, — deyə Yusif iydənin altındakı həsirin üstündə bardaş qurub oturdu. — Nəyiniz var yeməyə?

— Arvadın dadlı plov bişirib...

— Bəh-bəh, — deyə Yusif dodaqlarını marçıldatdı, — gətir.

— Gətir, ay qız, — Səbihə gəlinə sarı döndü.

— Qızdırım, ya elə belə yeyir?!

— Plovun bayatı yaxşıdı, qızdırma! Əfsanə evə getdi. Səbihə isə gileyləndi:

— Bu köpək oğlu Zümrəy keçimizi üç gündü sağır.

— Necə yəni sağır? —Yusif təəccübləndi.

— Sağır da. Üç gündü heyvan əmcəkləri boş gəlir. Döşündəki süd heç çəpişin qarnını doyurmur.

— Elə şey olmaz, ana, — Elməddin inanmadı, — Zümrəy bizim keçiyə əl vurmaz.

— Əl vurur, lap kefin istəyən. Özüm sağmasaydım, deyərdim hə. Dünən sənə göstərmədim? Yox, yox, Əfsanəyə göstərdim, cəmicümlətanı yarım kasa süd sağmışdım.

— Yəqii kiminsə çəpişi dadanıb əmir. Zümrəyin elə xasiyyəti yoxdur. Sağanda da qəryədar Qulamın qoyun-keçisindən sağır.

— Qələt eləyir. Qorxusundan qəryədarın qoyun-keçisinə əl vurmaz. Kasıb-kusubunkun sağar. Dünən deyirəm, ay bala, bizim tək keçini niyə sağırsan? Deyir ki, mən sağmamışam. Deyirəm gözünün içinəcən yalan deyirsən. Cavab da verməyə söz tapmadı, çıxdı getdi.

Bu ara Əfsanə yemək gətirdi. Yusif sinini qabağına çəkib ağzını marçıldada-marçıldada taxta qaşıqla plovdan iştahayla yeməyə başladı.

Əfsanə ayağındakı ayaqqabıya xəlvəti göz qoyub sevinirdi; onun indiyəcən belə qəşəng və parıldayan ayaqqabısı olmamışdı. Həzrətgülün qızlarının köhnə-gülüşünü əyninə alıb dolanan Əfsanə-

nin təzə paltar geymək arzusu həmişə ürəyində qalmışdı. İndi onun neçə dəst təzə paltarı, ayaqqabısı vardı və bu sevinc üçün o, Yusifə minnətdar idi. Amma Elməddinin onun ayaqqabısına «mübarək olsun» deməməsi Əfsanənin ürəyində nəsə anlaşılmaz bir məyusluq doğurmuşdu...

Elməddin isə cinayət işləmiş adam kimi Yusifin gözünün içinə dik baxa bilmirdi. Qəribə qorxu hissi vücudunu sarmışdı. Ona elə gəllrdi ki Yusif bircə dəfə diqqətlə onun gözlərinə baxsa, ürəyindəki o qara fikirləri dərhal oxuyacaq... və...

«Sən həmişə evdə olsan yaxşıdı, qardaş! Sənin yanında şeytan adamın ürəyinə belə bəd fikirlər gətirə bilməz. Onda Əfsanə də rahat olar, mən də. Onda Əfsanə də cilovsuz-yüyənsiz hisslərin əlində əsir olmaz, mən də. Sən həmişə evdə ol, ailənin yanında ol, Yusif! Dükanın da cəhənnəm olsun, ondan gələn gəlir də. Kömür, taxta-tuxta satmaqdan üzünün rəngi də dəyişib qaralıb», — deyə Elməddin öz daxilinə qapılıb düşünürdü...

Yusif sinini kənara itələyib:

— İlahi, şükür! — dedi və üzünü Əfsanəyə tutaraq:

— Bir qazan su qoy, bədənim çirkin içində yanır, — söylədi, — çimmək istəyirəm. Əfsanə:

— Yaxşı! — deyib getdi.

Yusif toqqasının altını bərkidəndən sonra kürəyini iydənin gövdəsinə söykəyib qıçlarını uzatdı.

— İşin-gücün nə təhər gedir, a bala, şəhərdə? Çaq-çuq eləyə bilirsənmi?

— Əşi, bir şey çıxmır, kasadlıqdır. Srağagün əlli xalvar odun almışam, xalvarı iki yüz əllidən. Qışda dörd yüzə-beş yüzə sata bilsəm, böyük işdi. Camaatda pul yoxdu. Dövlətlilərin bərqi[1] var, onlar odun-kömür almır. Alan ortabab adamlardı, zabitlərdi, məmurlardı, əcnəbilərə də ki, odun, kömür-filan lazım deyil; fikir verirsən, görürsən, burada yaşayan əcnəbilər bizim öz camaatımızdan qat-qat yaxşı dolanırlar.

— Şəhərdə əcnəbilər çoxdu? — Elməddin maraqlandı.

— Çoxdu. Getdikcə də çoxalırlar. Bir dükançı dostum var, deyir Allah onların ömürünü uzun eləsin. Deyirəm niyə? Deyir, onlar olmasaydı, biz dükandarlar acından böyürə-böyürə ölərdik. Az-maz

[1] B ə r q — elektrik işığı.

onlar şey-şüy alır. Ancaq dini-islama ağır zərbə vururlar, ona görə onları görməyə gözüm yoxdur.

— Neyləyirlər ki?! — Səbihə soruşdu.

— Özlərindən çox arvadları. Qol burdan aşağı açıq, baş açıq, tuman da dizdən yuxarı.

— Boy, ayıbınızı qara yer örtsün...

— Bir də görürsən ki, yeniyetmə şəhər qızları da onları yamsılayır —qol, baş açıq, qıç-baldır açıq... Bir qızı şəhərin dəliqanlıları anadangəlmə soyundurmuşdular, buraxmışdılar küçəyə, demişdilər ki, «lüt gəzsən daha yaxşı olar».

— Lap lüt eləmişdilər?!

— Hə.

— Allah! Ayıbınızı qara yer örtsün! Eşidirsən, sən allah, ay qız!

Yusif ayağa qalxıb həyət-bacaya göz gəzdirdi. Təzə çardağı görəndə sevinclə:

— Afərin, Elməddin, yaxşı iş görmüsən. Qışda mal-qaramız ac, özümüz də odsuz-ocaqsız qalmarıq. Çardağın üstünü yaxşı basdırıbsan?!

— Hə. Dammaz.

Səbihə Elməddini tərifləyi:

— Hələ yeri də şumlayıb.

— Doğrudan?

— Bəs nə?

Yusif bostan yerinə boylandı. Torpaq qaralırdı.

— Yoxsa daha qəryədarın mirzəliyindən çıxıbsan? — deyə böyük qardaşı Elməddinin bu qədər işi necə görə bildiyinə təəccübləndi.

— Yox. İşləyirəm. Günortayacan yazı-pozumu qurtarıram, sonra bikaram, öz işimi görürəm.

Elməddinlə qəryədar Qulam arasında qarşılıqlı bir izzət-ehtiram yaranmışdı. Kişinin nəzərində Elməddin etibarlı bir oğlan idi və ona inanırdı, onu öz evinin adamı hesab eləyirdi. Bu ehtiramı, işgüzarlığı, başıaşağı olması ilə qazanmışdı. Yaşı altmışı adlamış Qulamın övladı olmamışdı. Özündən on beş yaş cavan arvadı ilə hündür hasarlı malikanədə tək yaşayırdı. Həyətin ucqarındakı balaca palçıq otaqda nökər-qaravaş güzəran keçirirdi.

Ədnan camaatı qəryədar Qulamdan qorxmur, çəkinmirdi, bəlkə ona hörmət eləyirdi. Çünki o, elə bir siyasət yeridirdi ki, qorxmaq yox, ehtiram eləmək lazım gəlirdi, camaatı başlı-başına buraxmışdı:

— Dolanın. Kəsbkarlığınızı eləyin, — deyirdi. Camaat qəryədarın da payını-püşkünü gətirirdi. Taxılını — taxıl, pulunu — pul, heyvanını — heyvan.

— Yaxşı ki heç olmasa sən yazıb-oxumağı öyrəndin — deyə Yusif köks ötürdü və istədi qabaqlarda olduğu kimi, yenə onun təhsilini davam etdirmək məsələsindən söz açsın, ancaq susdu. Çünki bu, indi tamamilə imkan xaricində olan bir işdi, bunun üçün çoxlu pul lazım idi. Pul isə yox idi.

— Qəryədar Qulam bu qədər pulu yığıb neyləyir? Səbihə hamıdan qabaq cavab verdi:

— Goruna aparacaq.

— Yığır də,— Elməddin dedi — camaatdan yığır, vilayətdəki böyüklərə yedirir. Vilayətdəkilər də yəqin mərkəzdəkilərə yedirirlər. Bircə onu bilirəm ki, qəryədarın həyətindəki ala köpək Ədnan camaatının çoxundan ləziz xörəklər yeyir.

Səbihə giley-güzar dolu bir səslə dilləndi:

— Allah adamı kasıb yaradınca, dövlətlinin itindən, pişyindən yaratsa, mim dəfə yaxşı olar. Yusif:

— Dünya başdan-binadan belə yaranıb. Kimi dövlətli, kimi kasıb. Yoxsa, «sən ağa, mən ağa, inəkləri kim sağa?» — dedi.

— Onu bilirəm ki, kasıbın qənimi çoxdur. — Səbihə yenə keçi məsələsini ortalığa atdı. — Görmürsən, bircə sağmal keçimiz var, onu da Zümrəy ciyəriyanmış tutub sağır, doğramac eləyib vurur bədəninə. Haramı olsun.

Yusif ayağa qalxdı, cibindən balaca, ağ bir qutu çıxardaraq açdı, sol ovcunun içinə azca nəsvar[1] töküb dilinin altına atdı. O, nəsvarsız dayana bilmirdi. Xüsusilə darıxanda, hirslənəndə.

Gün batmış, hava qaralmışdı. Mal-qara kəndə tökülürdü. Elməddin harasa getdi. Səbihə sinini götürüb yumaq üçün səkiyə çıxdı.

Yusiflə Əfsanə tək qaldıqda, o, dilinin altında nəsvar olduğundan pəltək adamlar kimi, sözləri əzə-əzə xəbər aldı:

— Su qoydun?

— Qoydum.

— Böyük qazanda?

— Hə.

— Özün də çiməcəksən!

[1] Nəsvar — məstedici tütün.

— Özüm də?

— Hə. Özün də. Özün də çimərsən, yaxşı-yaxşı.— sonra qoltuq cibindən balaca bir şüşə çıxartdı, arvadına verdi.

— Bu nədir?

— Ətirdi. Sənin üçün almışam.

Əfsanə indiyəcən ətrin adını eşidib üzünü görməmişdi. Şüşənin üzərindəki balaca, dördkünc kağıza çiçək şəkli çəkilmişdi. Ağzını burub şüşəli burnuna yaxınlaşdırdı. Bihuşedici bir qoxu ətrafa yayıldı, Əfsanənin nisgilli-qəmli ruhunu təzələdi: elə bil, həmişə təzyiq altında sıxılan ciyərinə təzə həyat, təzə hava verildi.

Əfsanə bu gün kövrəlmişdi. Ayaqqabı, ətir. Ürəyində xoş duyğular baş qaldırdı: «Yox, sevir, sevir!».

Yenə qoxuladı! Gözlərini yumub məst adam kimi:

— Oxqay, — dedi, — nə gözəldi?!

Qiymətli hədiyyə almış uşaq kimi sevinən Əfsanə sinəsində təzədən isti bir əlin gəzdiyini hiss edib nazla:

— Ya... vaş... uf, — dedi və durub evə qaçdı.

Yusif iydə ağacının altında tək qaldı. Axşam gözəl idi. İlbizlər ağız-ağıza verib özlərinin əsrarəngiz gecə mahnılarını oxuyurdular. Arabir yaxındakı arxlardan qurbağa qurultusu eşidilirdi. Haradasa it hürürdü. Ürəyində gözəl hisslər oyanmış Yusif fikrən tövlənin dalında çimirdi. Əfsanə onu teştin içinə qoyub uşaq kimi yuyundururdu. Sonra, Əfsanö özü çimirdi ... sonra... hər ikisi ətirlənirdi... hər ikisi... ətir qoxuyan təmiz yorğan-döşəyin içinə girirdi...

Yusif darvazanın ağzından eşidilən səsə xəyaldan ayıldı. Anası qəzəbli halda kiməsə deyirdi.

— Ay əlin qurusun sənin. Ədə, köpəkoğlu, bu şoqəribi yenə niyə sağıbsan?

Yusif o dəqiqə məsələni başa düşüb yerindən sıçradı və doqqazın qabağına gəldi.

Zümrəy deyirdi:

— Ay arvad, allaha bax, tanrıya bax, əl çək mənim yaxamdan. Mən sənin keçini sağmıram.

— Yalançının atasına lənət.

— Lap min lənət!

— Buna bax, bu kasadakı südə bax. Mənim keçim bu qədər» süd verərdi? — O, dibində azca süd olan kasanı Zümrəyin gözünün qabağına tutdu, — gözün kordu, görmürsən?

— Mənim xəbərim yoxdur. Vallah xəbərim yoxdur. Səbihə kasadakı südü Zümrəyin üzünə çırpdı.

— Al, bunu da iç.

Zümrəyin səbir kasası daşdı:

— Ay qancıq!!! — onun üstünə yeriyəndə Yusif özünü saxlaya bilməyib irəli cumdu.

— Dayan! — deyə qəzəblə qışqırdı. — Pədərsüxtə, kişi arvada əl qaldırmaz! Kişisən, kişi döşünə çıx! Zümrəy Yusifi görüb özünü itirdi:

— O özü...

Yusif Zümrəyə sözünü tamamlamağa imkan vermədi, əl ataraq yaxasını bürmələdi və qulağının dibinə bir yumruq ilişdirdi. Zümrəy səndələyib yenidən düzəlmək istəyəndə ikinci zərbə onu yerə sərdi.

— Əclaf!

Zümrəy qalxıb çomağı Yusifin başına endirmək istəyəndə o, başını yana əydi və zərbə boşa getdi. Bu zaman qəzəblənib özündən çıxmış Yusif cibindən qaranlıqda tiyəsi par-par parıldayan qatlanmayan bıçağını çıxarıb var gücü ilə naxırçının sinəsinə sapladı.

Zümrəy vəhşi bir səslə bağırdı. Yusif səsdən və əlinə axan isti qandan ayıldı.

Zümrəy kökündən kəsilmiş ağac kimi yerə sərildi.

Camaat səs-küyə yığılmışdı.

— Köpək oğlu, keçimi sağmağı bəs deyil, hələ mənə bir əldə qaldırır... — deyə Səbihə gələnlərə danışırdı. Görünür, o hələ baş vermiş hadisənin dəhşətini anlamır, dərk etmirdi.

Yusifin bədənini soyuq tər basmışdı.

Cahan arvad haya özünü ystirmişdi. Camaatı aralayıb oğluna çatdı, qışqıra-qışqıra Zümrəyin başını qaldırıb dizinin üstünə qoydu:

— Ay bala, sənə nə oldu?

— …

Cahan arvad onu ha silkələdisə də, Zümrəydən cavab çıxmadı. Ana oğlunun bədənini yoxladı, əli sinəsiidə qızıl qana batanda elə bir qiyyə çəkdi ki, qulaqlar cinkildədi:

— Ay allah, balam əldən getdi. Ay haray, ay dad, balam əldən getdi.

Və o, bayılıb Zümrəyin üstünə yıxıldı.

YEDDİNCİ FƏSİL

Zümrəyin meyitini həsirin üstünə qoymuşdular. Səkidə. Üzünə qara parça örtmüşdülər. O, bir də tezdən ayağa qalxmayacaq, heybəsinə pendirdən-çörəkdən qoyub hay-küylə mal-qaranı çölə-örüşə aparmayacaqdı. O, bu doğma həyətdən tək bircə dəfə çıxacaqdır, — çiyinlərdə və bir daha onu nə bu evdə, nə həyətdə, nə dükanda görən olmayacaqdı. Ömrünün gündüzlərini tək-tənha keçirən Cahan arvad, indi və bundan sonra ömrünün gecələrini də bu kimsəsiz, qu deyəndə qulaq tutulan həyətdə tək-tənha keçirəcəkdi. Kənd camaatının çiynində bu həyətdən axırıncı dəfə çıxanacan...

Cahan arvadın ağı deyib ağlayan səsi ilk axşamın qaranlığında uzaqlara, kəndin hər tərəfinə yayılırdı. Qonşu arvadlar da onun dərdinə şərik olub səsinə səs verir, qopan vay-şivəndən adamın tükləri biz-biz qalxırdı.

Cahan arvad üzünün dərisini dırnaqları ilə cırıb qanatmışdı. Sinəsindən qopan ah-nalə ürəyinin yanğısını söndürmür, hərdənbir öz başına ikiəlli qapaz da endirirdi.

Kişilər kənarda səssizcə dayanıb fikrə getmişdilər. Başına araqçın qoymuş, əli təsbehli Molla Qulu acıqlı-acıqlı deyirdi:

— Əşi, zəmanə lap xarab olub gedib. Bir kasa südün də üstündə adam-adamı öldürər?

— Süd üstə öldürməyib ey, — deyə başqa birisi etiraz edirdi, — rəhmətlik, Səbihəyə qancıq deyib, nə bilim, nə deyib, Yusif də eşidib. Bunun üstündə dava düşüb... Axırı da belə. Bıçağı götürüb soxub qarnına.

— Qarnına yox, — Molla Qulu cavab qaytardı, — qarnına soxsaydı, o dəqiqə ölməzdi. Görünür, bıçaq ürəyinə sədəmə yetirib ki, yazıq fövrən ölüb. Zümrəy canlara dəyən oğul idi. Kimsədə işi yox, başıaşağı. Yusif gərək belə insafsız iş görməyəydi.

Cahan arvad ağı deyirdi.

İndi təkcə Cahan arvadın yox, Səbihənin də evində matəm idi. Fərqi bu idi ki, Səbihənin evində hələ ki, ağlayan yox idi. Ailə üzvlərinin hamısının rəngi qaçmışdı, Səbihə səkinin qırağında oturub vaysına-vaysına dizinə vururdu:

— Evimiz yıxıldı. Zəhərə dönəydi o süd də, şöqəribə qalaydı o keçi də. Kaş dilim quruyaydı; mən boynusınmış hardan biləydim ki, iş belə olacaq...

Yusif eyvanın dirəyinə söykənmişdi. Gözlərini bir nöqtəyə zilləyib durmuşdu. Qulaqlarında Zümrəyin dəhşətli bağırtısı səslənirdi və ona elə gəlirdi ki, bu səs heç vaxt susmaq bilməyəcək, elə hey səslənəcək...

Sağ əlini gözünün qabağına gətirib baxdı. Qan qurumuşdu, qaranlıqda qara ləkə kimi qaralırdı.

Əfsanənin qorxudan bədəni titrəyirdi. Hürkmüş, hədəqəsindən çıxmış gözlərlə tor pərdə arxasından Yusifə baxır, ağlamaq istəyirdi. Ancaq bacarmırdı.

— Ədə, niyə dayanıb gözlərini döyürsən? — deyə Səbihə oğlunu xilas etmək yolları axtarırdı.

— Bəs... neyləyim? — Yusifin səsi elə bil, quyudan gəlirdi.

— Neyləyəcəksən? Nə qədər ki qəryədar Qulamın adamları tökülüb gəlməyib, divan-dərə xəbərdar olmayıb, qaç, başını qurtar.

Elməddin anasının sözünü tamamladı:

— Dur, çıx aradan. Deyərəm mən öldürmüşəm.

Yusif başını qaldırıb qaranlıqda qardaşının üzünə baxdı. Gözlərini, sifətini yaxşı seçə bilməsə də, bu sözlərin səmimiyyətini açıq-aydın duydu: çünki, sözlər qardaş ürəyindən gəlmişdi və onların səmimiliyinə inanmamağa Yusifin heç bir əsası yox idi. Ancaq Yusifi qan tutmuşdu. Deyirlər, qatil öldürdüyü adamın yanından qaça bilmir, onun ətrafında fır-fır fırlanır, çünki onu qan tutur. Yusif də özündə buna bənzər bir şey hiss eləyirdi. Qaçmaq, aradan çıxmaq haqqında çoxdan düşünmək lazım olduğu halda o, yalnız indi, anası, qardaşı deyəndən sonra bu məsələni xatırladı və elə bil, beyninin dumanı seyrəlib dağıldı. Böyüyüb qan sağılmış gözlərində ani bir sevinc parladı. O, ayağa qalxdı. Elməddinin qənşərinə gəldi. Elməddin onun çiyinlərini sıxıb dedi:

— Get, aradan çıx. Özündən muğayat ol.

Əfsanənin sakit hıçqırığı eşidildi. Yusif səs gələn səmtə qanrıldı. Nəsə demək istədi, ancaq susdu.

Səbihə elədiyi təklifin mənasını sanki indi, Yusif Əfsanəyə tərəf baxandan sonra anlamışdı. Yusif qaçsa: qətli Elməddin boynuna götürəcək... və onu aparacaqlar... sonrası da... məlum! Qaçmasa... gəlib tutacaqlar. Bundan ölüm iyi gəlir!.. Yusif də, Elməddin də onun ciyərparası...

— Vaxtı itirmək olmaz, Yusif, — Elməddin ətrafa boylanıb dedi.

Yusif dərhal hərəkət etmədi və cavab vermədi. Başını qaldırıb ulduzlu göylərə ani olaraq tamaşa eləyərək birdən dönüb qəti bir ifadə ilə üstlərinə su çilənmiş kimi görünən anasına, arvadına nəzər sdldı:

— Yoxx... heç yerə getməyəcəyəm. Qoy gəlsinlər, aparsınlar. Mən öldürmüşəm... cəzasını da... özüm çəkəcəyəm... —Sözünü tamamlamamış iki nəfər ucaboylu, nataraz adam doqqazdan içəri girdi. İkisinin də çiynində tüfəng var idi. Elməddin gələnləri o dəqiqə tanıdı — bunlar qəryədar Qulamın mühafizləri idi. Elməddin irəli yeridi. Qabaqdakı bığlı mühafiz Elməddinə ədəblə salam verdikdən sonra:

— Bağışlayın, ağa, biz Yusifi aparmağa gəlmişik! — dedi.

O biri mühafiz soruşdu:

— Yusif hanı?

Danışığı eşidən Yusif ağır, daş kimi ağır addımlarla onların yanına gəldi.

Mühafiz cəld bir hərəkətlə onun qolunu burub dəmir qandalla qıfılladı.

Mühafiz əmr elədi:

— Düş qabağıma.

Ancaq Yusif yerindən tərpənmədi, qaranlıqda çönüb həyətbacaya, böyründə dayanıb ağlayan anasına, azca aralıda boynunu büküb duran Əfsanəyə baxdı. Elməddinə sarı da boylandı. Lakin qaranlıqda onun yanaqları aşağı axan yaşı görə bilmədi.

— Haydı. — Mühafiz onu itələdikdə, o, heç nə demədən yola düşdü.

Darvazadan qolları bağlı çıxanda Səbihə özünə əl atdı:

— Ay bala, bizi qoyub hara gedirsən?! — Onun gur, gümrah səsi azca aralıda ağı deyib ağlayan Cahan arvadın səsinə qarışıb itdi. Çünki Cahan arvadın səsi daha yanıqlı və daha əsərli idi!!

Həyəti sakitlik bürüdü. Elə bil, Yusifin gedişi ilə buradan həyat da öz köçünü çəkib getdi.

Damın böyründə iri mis qazanın altı tüstülənirdi. İçindəki suda bir azdan Yusif, Əfsanə çiməcəkdi. Əfsanənin yataq otağında hələ damcısı da istifadə olunmamış ətir şüşəsi dururdu. Bir azdan Yusif, Əfsanə ətirlənəcəkdilər... Lakin...

... Üç-dörd ev aralıda Zümrəyin cənazəsi ortalığa qoyulmuşdu. Elməddin bir daha öz dostunu görə bilməyəcəkdi.

Hətta dəfnə də gedə bilməyəcəkdir. İndi onlar qan düşməni idilər. Elməddin obada Zümrəyin vurulduğu qızın adını öyrənəcəkdi,

ancaq Zümrəy bu adı heç vaxt eşidə bilməyəcəkdi. Çünki ölümün təkcə gözləri kor deyil, qulaqları da kardı.

Zümrəyin aylarla-illərlə arxasınca sürüdüyü sürü, laləli çöllər, qarlı dağlar, çiynində səhəng çaya su gətir-məyə gedən o naməlum gözəl bir də onun tütəyinin yanıqlı səsini eşidə biməyəcəkdi.

Elməddin düşünürdü və tez-tez onun xəyalatının qaranlıq dumanları arasında ikinci bir cənazə də siyrilib çıxır, özünu göstərir və yenə də çəkilib gedirdi. Bu, Yusifin cənazəsi idi — indi onu xəyal adlandırmaq olardı. Lakin sonra... kaş onda da bu, çılpaq həqiqət yox, xəyal olaydı!

* * *

Ertəsi gün, axşam, mal-qara naxırdan qayıdandan sonra, fikir-xəyaldan başı şişmiş, Zümrəyin ölümündə, oğlunun həbs edilməsində özünü müqəssir sayan Səbihə döyülmüş adam kimi əzgin halda kasanı götürüb keçini sağmağa getdi. Hadisədən bəri keçi onun gözünə ayrı cür görünürdü; o, bir kasa süd əvəzinə zəhər versəydi, bundan min dəfə yaxşı idi. Zəhərə dönəydi o bir kasa süd, — iki ailənin, iki cavanın bədbəxtliyinə səbəb oldu. Düşünə-düşünə Səbihə keçinin əmcəklərini əllədi. Qabaqlar dolu, bülöv kimi şüş olan əmcəkləri dünənki, srağagünkü, o biri günkü kimi yenə bomboş idi, torbalaşmışdı. Səbihənin əli süstləşib yanına düşdü: keçini yenə sağmışdılar. «Lənətə gələsən səni, kor şeytan. Nə istəyirlər bizim bu qotur keçinin canından? Bəlkə südü şirindi bu şoqəribin? Deyək Zümrəy dadanmışdı — sağırdı. Bəs təzə naxırçı? Bu gün örüşə çıxıb, bizim keçini sağmağa başlayıb? Özü də bilir ki, onun üstündə araya qan düşüb». — deyə Səbihə ürəyində götür-qoy edə-edə ayağa qalxdı, ala çəpişi anasının altına buraxdı. Ayrı vaxt olsaydı, Səbihə yenə qara-qışqırıq salardı, ancaq indi səsini udub susmağı lazım bildi.

Səhər inəkləri, keçini təzə naxırçının qabağına qatanda istədi əhvalatı astaca ona desin, lakin nə fikirləşdisə dinmədi. Axşam şər qarışıb naxır örüşdən qayıdandan sonra məlum oldu ki, keçini yenə sağıblar.

Səbihə yamanca dilxor olmuşdu: bir yerdə qərar tutub dayanmır, o tərəf-bu tərəfə gəzinir, dərdini kimsəyə açıb deyə bilmirdi, «Bizi bədbəxtlik tutub. Allahın bizə qəzəbi keçib. Yox, bunu qəsdən eləyirlər, mənim balalarımı əlimdən almaq istəyirlər. Bu zülmü kim

götürər, ay allah», Səbihə az qalırdı ağlasın. Bu ara doqqazda səs eşidildi:

— Ay ev yiyəsi.

— Kimdi o? — Səbihə irəli yeridi. Qabağında təzə naxırçını görərkən arvadın qanı cuşa gəldi, kinini-qəzəbini onun üstünə tökmək istədi. Lakin təzə naxırçı ona danışmağa macal vermədi:

— Səbihə xala, gəldim sizə deyim ki, keçinizi ilan əmir!

— Nəə?? — Qaranlıqda Səbihənin gözləri böyüdü.

— Hə. Sizin keçinizi hər gün bir boz ilan əməlli-başlıca əmir. Siz isə naxırçının boynuna yıxırsınız. Xəbərdar eləyirəm sizi, sonra deməyin ki, mən də Zümrəy kimi keçinizi sağıram. Mən hələ ölmək istəmirəm.

— Ədə, belə şey olmaz.... — Səbihə hələ də eşitdiklərinə inanmaq istəmirdi.

— Həzrət Abbas haqqı, düz sözümdür.

— Lap öz gözünlə gördün də?!

— Hə, lap öz gözümlə. — Elməddin də, Əfsanə də yaxın gəlib söhbətə qulaq asmağa başladılar. Çoban deyirdi: — Günorta idi, çomağa söykənib dayanmışdım. Gözüm kənarda dayanan keçiciyəzə sataşdı. Fikirləşdim ki, ay keçi, sənin də üstündə bir cavan öldürüldü. Keçi qıçlarını aralamışdı. Birdən gördüm ki, nəsə, çubuğa oxşar bir şey keçinin əmcəyindən asılıb. Diqqətlə baxdım gördüm tərpənir, yaxın gəldim, gördüm ki, ilandı. Keçinin əmcəyini salıb ağzına sorur. Keçi də dayanıb, tərpənib eləmir. İlan əmdi, doydu, sonra yavaşca sürünüb getdi. Ömrümdə belə şeyi nə eşitmişdim, nə də görmüşdüm deyə matım-qutum qurumuşdu. Bu gün də belə... İlan gəldi, əmdi, getdi.

Naxırçının bu söhbəti ailənin başında ildırım kimi çaxdı.

— İnanmırsınız? — Çoban soruşdu.

— Vallah, heç inanılası şey deyil! — Səbihə astaca dilləndi.

— Sabah Elməddin gələr, öz gözü ilə görər, — deyib çoban darvazadan çıxdı.

Elməddin evə keçdi. Pəncərə ağzına qoyulmuş çırağın şöləsi titrəyirdi. İşığın ətrafında üç-dörd pərvanə fırlanırdı. İki pərvanə yanıb çırağın dibinə düşmüşdü. Ancaq Elməddini indi heç nə maraqlandırmırdı: qardaşının taleyi onun bütün fikrini məşğul eləmişdi. Üçüncü gündü ki, ailə yas içində idi. Nə çörək yeyən vardı, nə ağzını açıb kəlmə kəsən. Sanki hamı bir-birindən küsmüşdü. Əslində isə hər kəs öz daxili aləminə qapılıb götür-qoy eləyir, düşünüb-daşınır,

bu uğursuz işin axırının nəylə qurtaracağını fikirləşirdi. Bu üç günü Həzrətgül beş-altı dəfə gəlib getmişdi. Nazənin isə Əfsanəni tək buraxmamışdı. Nazənin ağlamağını saxlaya bilmirdi. Əfsanəyə ürəkdirək verirdisə də, bunu göz yaşlarını axıda-axıda eləyirdi. Elməddin Nazəninin Əfsanəyə dediyi bu sözləri eşitmişdi:

— Sənin xoşbəxtliyin nə az çəkdi, mənim bacım?! Əfsanə isə qırıq-qırıq:

— Mən nə vaxt xoşbəxt olmuşam ki, Nazı? — demişdi.

— Darıxma, inşallah, xeyir olar axırı. Yusif qurtarar, gələr.

— …

«Gələr». «Gələ bilərmi?» — deyə Elməddin özünə sual vermişdi. Çünki vəziyyət hamıdan çox ona aydın idi: qəryədar Qulamla qardaşı barədə ətraflı söhbət sləmişdi. Qəryədarın fikrincə, vəziyyət çox təhlükəli idi: insan ölmüşdü.

Məmləkətin mövcud qanunlarına görə, qatilin günahı sabit olsa, o, ölü yiyəsinin tələbinə əsasən gərək öz cəzasına çatsın, həmin yerdə, camaatın gözü qabağında öldürülmüş şəxsin atası, anası və ya qardaşı tərəfindən öldürülsün. Əgər Cahan arvad barışmasa...

— Bizim Gülüstan qanunlarını özün yaxşı bilirsən, şükür, oxumuş oğlansan. Ölümə ölüm. Ayrı cür nə təhər ola bilər? — deyə qəryədar Qulam xatirini çox istədiyi Elməddini vəziyyətlə tanış eləmişdi.

— Ağa, — deyə Elməddin az qala yalvarmışdı, — cavandı. Onu bu xatadan xilas eləyin. Təzə evlənib.

— Mən başa düşürəm, oğul. Bir allah şahiddi ki, səni doğma balam kimi istəyirəm. Di gəl ki, neyləyə bilərəm? — qəryədar oturduğu yumşaq tük döşəkcəsinin üstündə yerini təzədən rahlamış, qəlyanına qullab vurandan sonra əlavə eləmişdi, — Bircə çarəsi var, oğul!

— Nədir o, ağa?

— Cahan arvadı dilə tutub barışdırmaq. O bağışlamasa, indidən sənə deyirəm, Yusifi ölüm gözləyir.

— Bağışlayarmı yəni, ağa?!

— Səy eləyərik. Bəlkə bir dil tapdıq. Burda qan pulu da vermək lazımdır. Əgər arvadı yola gətirsək, məsələn, nə qədər qan pulu verə bilərsiniz?!

— Vallah ağa, nəqd pulumuz yoxdur. Olan-qalanımızı Yusif biçarənin toyunda məsrəf elədik getdi. Ancaq torpağımızı, mal-qaramızı, evimizi-eşiyimizi satarıq, verərik. Təki o, bağışlasın, keçsin günahından.

— Xub, fikirləşərik. Məncə, Cahan arvad sözümü yerə salmaz. Belə deyirəm, ancaq buna özüm də o qədər inanmıram. Çünki, balası ölmüş ananın dərdlərini ovundurmaq, kinini, qəzəbini yatırmaq mahal işdi, oğul.

—Ömrün uzun olsun, ağa.

— Mən sizə kömək eləmək məqsədilə Yusifi hələ vilayət həbsxanasına göndərməmişəm. Nədən ki, yaxşı bilirəm, onların əlinə düşdü— işi bitdi, fələk də gəlsə, xilas eləyə bilməz.

— Lütfünüz artıq olsun, ağa.

— Amma axmaq iş görüb, oğul, sənin qardaşın. — deyə qəryədar Məkkədən gətirdiyi yaraşıqlı, qara təsbehi çevirə-çevirə davam eləmişdi. — Elə xırda-xuruş üstündə adam-adamı öldürməz. Keçmişdə kişi-kişini namus, şərəf üstündə öldürərdi. İndiki adamlar cılızlaşıblar, xırdalaşıblar.

— Düz buyurursunuz, ağa.

— Bizim ayağı şəhərə dəyən cavanlar çox korlanıblar. Fisqü-fəsad öyrəniblər. Nədən ki şəhərdə it yiyəsini tanımır. Hərə bir dərədən gəlib. O qabaqlar mən qardaşımın yanına — paytaxta getmişdim. Bir kişi tapılmırdı ki, mən boyda ağsaqqala salam versin. Bu nə deməkdi? Hanı bəs dini-islamın əsasını təşkil eləyən izzət-hörmət, böyüklük-kiçiklik? Axı Məhəmməd peyğəmbər belə buyurmamışdı!

Elməddinlə qəryədar Qulamın söhbəti uzun çəkmişdi. Qərara almışdılar ki, Zümrəyin yeddisi çıxandan sonra başda qəryədar Qulam olmaqla kənd ağsaqqalları yığışıb Cahan arvadın qapısına minnətə getsinlər və Yusifin günahından keçməsini xahiş eləsinlər.

Fikirli-dərdli günlər isə çox ağır gəlib keçirdi. Təzə naxırçının gətirdiyi xəbər isə Elməddini lap məyus etmişdi. Çünki bu, bir daha sübut eləyirdi ki, Zümrəy tamam günahsız öldürülüb: Əvvəl cüzi də olsa yenə bir ilişik yeri vardı. İndi isə o nazik tük də qırılır, Yusif əməlli-başlı müttəhimlər kürsüsündə oturmalı olurdu.

... Elməddin uzunluğu bir metrəyə yaxın olan ilanın günortaüstü ədəb-ərkanla keçini əmdiyini öz gözlərilə görəndən sonra Yusifin xilas olacağına bəslədiyi ümid çilik-çilik olub ayaqları altına tögüldü. İndi bütün Ədnan camaatının yeganə sözü-söhbəti bu barədə idi. Cahan arvadın kininin-küdurətinin üstünə sanki yağ çilənmişdi. Arvad ancaq intiqam hissilə yaşayırdı.

SƏKKİZİNCİ FƏSİL

Zümrəyin yeddisi çıxandan, yasa gəlib-gedənlərin əli-ayağı çəkilib ara seyrələndən sonra, sakit və hüznlü yay axşamlarından birində qəryədar Qulam ağsaqqallarla birgə Cahan arvadın qapısına gəldi. Elməddin də onların arasında idi. Belə yerlərə başıləçəkli getməməli idi. Ona görə Səbihəni götürməmişdilər. Amma Səbihə çox can atırdı ki, minnətə gedən dəstəyə qoşulsun, Cahan arvadın ayağına yıxılsın, yalvarsın, oğlunun günahından keçməsini xahiş eləsin... Lakin qəryədar Qulam məsləhət bilməmişdi. Arvad kəsilə-kəsilə qalmışdı. O biri yandan da Elməddinin Cahan arvadın qapısına getməsi özü də xata idi. Ancaq Elməddin heç nəyə baxmadan getmişdi. Səbihə oğlu qapıdan çıxanda nigarançılıqla dedi:

— Oğlu öldürülmüş ana, balası öldürülmüş ilan kimi, canavar kimi quduz olur, bala. Arvadın əlindən xata-zad çıxar, ehtiyatlı ol.

Elməddin anasının sözlərini sükutla qarşıladı. Bunu görən ana Həzrətgülə üz tutdu:

— Həzrət, sən allah, uşaqdan muğayat ol. Gözün üstündə olsun. Bu, elə şeyləri bilmir, sən dünyagörmüş adamsan.

— Qorxma, ay Səbihə. Bu qədər adamın yanında neyləyə bilər?

— Elə demə. Bizim qaraçuxamız yatıb, nə desən olar, Həzrət, — ana yanıqlı-yanıqlı ah çəkdi.

Elməddin yolda dərin həyəcan keçirirdi. Ayağının biri gedirdi, biri yox. Az sonra qorxu-hürkü sovuşdu. Nə olursa-olsun, o getməli idi. Çünki qardaşının taleyi təkcə bu danışıqdan asılı idi. Əgər Cahan arvadın ürəyi rəhmə gəlsəydi, demək, Yusif ölümün cəngindən qurtarmış olurdu və ən ağır cəzası beş-altı il həbs olardı. Yox, əgər arvadın kini-intiqam hissi cuşa gəlsəydi, onda heç...

Dəstə həyətə girəndə Elməddinin ürəyini acı bir təəssüf hissi yandırdı, həyət ona tanış idi. Zümrəylə o, bir zamanlar bax, burada çox oynamışdı. O illər indi çox uzaqlarda qalsa da, Elməddin fikrən həyətdə oynayan, çayda çimən iki balaca oğlanı yaxşıca təsəvvür eləyə bilirdi. —Biri Zümrəy idi, o biri özü... İndi Zümrəy yox idi. Elməddin onu heç vaxt görə bilməyəcəkdi. Hətta son borcunu verməyə — onu son mənzilinə yola salmağa da imkanı olmadı. Həyətbaca ona bomboş görünürdü.

Cahan arvad donuq, tutqun baxışlarla gələnlərə nəzər saldı — etinasız bir baxış... Sanki arvad gələnləri görməmişdi.

— Salamunəleyküm, həmşirə[1]. — Qəryədar Qulam mehribanlıqla sözə başladı.

Cahan başını qaldırıb onlara diqqətlə fikir verdi vz əzgin, qüssəli səslə:

— Gəlin, oturun, — dedi. Gələnlər səkidə sərilmiş həsirin üstündə əyləşdilər. Arvad düşgünləşmişdi. Yeddi-səkkiz günün içində o, demək olar ki, tamam qocalmışdı. Üzündəki qaysaqlanmış şırımlar qamçı yerinə oxşayırdı. Qızarmış gözləri quru idi. Sakitdi. Elə bil, arvad ağlayıb yorulmuş, qisməti ilə barışmışdı. Başdan-ayağa qara geyinmişdi. Gəzən, nəfəs alan cansız bir heykələ daha çox bənzəyirdi.

Cahan arvadın nəzərləri birdən adamların arasında büzüşüb oturmuş Elməddinə sataşanda sanki o, dəhşətli bir şey görürmüş kimi, nəfəsini udub dayandı. Onun gözləri böyüdü. Qansız dodaqları əsməyə başladı. Bütün dərdi təzələndi — soyumamış, qaysaqlanmamış yarası göyüm-göyüm göynədi.

— Ədə, haramzadə, sən nə üznən mənim qapıma ayaq basmısan?! — Cahan arvad əsəbiliklə qışqırdı. — İtil cəhənnəmə, gözüm səni görməsin. Yoxsa səni bu saat didim-didim eləyərəm. — Cahan ovunun üstünə şığıyıb gözünü deşməyə hazır olan qırğı kimi Elməddinin üzərinə atılanda qəryədar Qulam özünü onun qabağına verdi:

— Həmşirə, o sənin qapına özü gəlməyib, mənlə gəlib!!

— Nahaq gəlib, çox nahaq!

— Cahan, həmşirə, sakit ol, — deyə qəryənin mollası da yastı-yastı sözə qarışdı, — işdi, olub. İndi neyləmək olar?

Elməddin sinəsini qabağa verdi:

— Zümrəy mənim dostum idi. Onun ölümünə mən səndən az yanmıram, Cahan xala. İstəyirsən məni öldür, Cahan xala, ancaq Yusifin günahından keç. Yalvarıram sənə.

— Səni öldürüm, Yusifin günahından keçim? Ay həzarat, bu pədər süxtə mənə nə deyir? Yandım, allah, yandım, Zümrəy, yandım. Məni yandırdılar, — deyə o, əsəbi bir çılğınlıqla qiyyə çəkib oturdu və başına, dizinə döyə-döyə ağlamağa başladı. Qəryədar Qulam pırpız qaşlarını qaldırmaqla işarə elədi ki, işiniz olmasın, qoy ağlayıb ürəyini boşaltsın.

[1] Həmşirə — bacı,

Həqiqətən Cahan arvad az sonra toxtadı. Çılğınlığı əriyib azaldı. Qəribə nəzərlərlə oturanlara baxmağa başlayanda qəryədar Qulam boğazını arıdıb aram, mümkün qədər həlim səslə ona müraciət elədi:

— Cahan, həmşirəm, sənə üz verən bədbəxtlik böyük müsibətdi, biz, şəxsən mən özüm sənin dərdi-müəzzəminə qəlbən şərikik, həmşirəm. Nədən ki, mərhume-cənnətməkan tək sənin balan deyildi, elə bizim də balamız idi. Bütün Ədnan camaatının əzizi, iki gözü idi. Elə bir qeyrətli, başıaşağı oğulun əldən getməsi hamımızı yandırdı. Allah şeytana lənət eləsin, araya girdi, gözəl, nakam bir cavanın ölümünə bais oldu. Vəhalonki, ölməli cavan deyildi. Qatil də özgə deyil, öz camaatımızdandı. Cavandı. Təzə evlənib. Biz sənin qapına ona görə gəlmişik ki, Yusifin günahından keçəsən, onun cavanlığına, oğlunun ruhuna və bizim ehtiramımıza bağışlayasan.

Cahan gözlərini geniş açaraq: — Əbədən, Qulam, əbədən, — deyə qətiyyətlə cavab verdi.

— Nə istəsən verərik, Cahan xala, bütün torpağımızı... Cahan Elməddinin sözünü ağzında qoydu:

— Torpağınız da başınıza dəysin. Mənim bircəciyim, arxam, köməyim, gözümün işığı əldən gedəndən sonra torpaq nəyimə lazımdı, var-dövlət nəyimə lazımdı? Goruma aparmayacağam ki...

— Cahan, həmşirə, fikirləş, təkcə torpağı satmaq, iki yüz min rupi pul elər.

— Mənə pul-zad lazım deyil, Qulam. Mənə oğlum lazımdı, oğlum. Verə bilərsiniz oğlumu? Yox, siznənəm, verə bilərsiniz mənim Zümrəyimi?

— …

— Hə, onda dinmirsiniz? Dinə də bilməzsiniz. Əgər mənim biçarəmin zərrəcə də günahı olsaydı, bağışlardım. Amma yoxdu günahı mənim balamın, yoxdu! Mənim balamı günahsız öldürüblər, günahsız! Balamın qatilinin başını bax, bu əllərimlə Ədnan camaatının gözü qabağında kəsib qanından içməsəm, mən aram ola bilmərəm, Qulam. Mən oğlumun intiqamını almamış ölə də bilmərəm, Qulam.

Elməddinin rəngi kağız kimi ağardı. Sözü keçməyən qəryədar Qulam pərt halda ayağa qalxdı.

***

... Cahan arvad yerə-göyə sığışmırdı. Balaca daxmanın palçıqdan hörülmüş divarları bu dünyada tək-tənha qalmış arvadı məngənə kimi

sıxır, yazıq, canını qoymağa yer tapmırdı. Ciyərparasını öz əlilə dəfn eləsə də, hər axşamçağı, mal-qara örüşdən qayıdıb gələndə Cahan arvad uzun illərin sövqi-təbiisi ilə Zümrəyin də bu saat əlində çomaq, çiynində heybə doqqazdan girəcəyini, çarıq-patavasını soyunub yuyunacağını, süfrə başında oturacağını gözləyirdi. Ancaq qoyun-quzu mələyə-mələyə kənd evləri arasında dağılışır, az keçmiş səs-küy çəkilib yox olur, Cahan arvadın aman-zaman oğlu gəlib çıxmırdı.

... Zümrəyin qırxı çıxmışdı — lakin elə bil, onu dünən zülüm-zülüm öldürmüşdülər. Cahan arvadın kinini-qəzəbini görüb Yusifi bağışlayacağından ümidini üzmüş qəryədar Qulam nəhayət, naçar qalıb vilayət mərkəzinə xəbər göndərmişdi. — Əlbəttə, bu məktubu Elməddinə yazdırmamışdı, ayrı adamdan xahiş eləmişdi. Ertəsi gün isə qara bir maşın gecə saat on ikiyə yaxın gəlib Yusifi vilayət həbsxanasına aparmışdı. Bu xəbəri eşidən Cahan arvad bir-iki gün azca soyuyub toxtamışdısa da, aram olmamışdı. Deyirlər, yara getdikcə köhnəlir, unudulur, Lakin Cahan arvadın ürəyinə vurulmuş dərin yara zaman qanadlı quş kimi uçub getdikcə sağalmır, unudulmur, əksinə, daha da dərinləşir, diş ağrısı, ürək ağrısı kimi dözülməz olurdu. Oğul qanı ananı bir an da rahat buraxmırdı. Övlad məhəbbətilə yaşamış ana gecə-gündüz dörd divar arasında düşündükcə qatil qanına susamış cəllada dönürdü. Yanıb-yaxılan ana fikrində, yuxusunda neçə dəfə Yusifin başını kəsib qanından bnr ovuc içmiş, illərin təşnəsi kimi: «oxay, indi ürəyim rahat oldu, qanını yerdə qoymadım, bala!» demişdi. Beyninin dumanı dağılandan sonra bütün bunların həqiqət deyil, xəyal-yuxu aləmində olduğunu anlayıb, təzədən od-alov içinə düşmüş kimi qovrulur, evdə-eşikdə, küçədə öz-özünə söylənə-söylənə gəzinirdi. Yuxusunu uşağa da, böyüyə də danışırdı. Sonra kirpikləri tökülüb seyrəlmiş gözlərini sıxıb quru-quru ağlayırdı. Bunu görən Ədnan camaatı Cahan arvadın havalandığını düşünür və onun halına acıyırdı.

Hələ bədbəxt ana oğlunun köçəri qızına vurulduğunu bilmirdi. Əgər bilsəydi, bu da onun üçün bir dərd olar, o, «nakam balam» deyib daha artıq inləyərdi. Yaxşı ki Zümrəy bu sirri özü ilə aparmışdı; yaxşı ki Elməddin açılmamış, yerlə-yeksan olan bu məhəbbət haqqında danışmamışdı — danışa bilməmişdi. Gözəl köçəri qızının Zümrəy haqqında düşünüb-düşünmədiyini söyləmək çətindi, ancaq o, sağalması mümkün olmayan bir yara kimi onu ürəyində gəzdirirdi. Ədnan camaatı bir gün Cahan arvadın qapısından iri qıfıl asıldığını gördü. Arvad hara getmişdi — bilən yoxdu. Söz gəzirdi ki, Cahan arvad

oğlunun qatilini cəzasına çatdırmaq üçün vilayətə — Süleymanşəhrə gedib.

DOQQUZUNCU FƏSİL

İçəridə, pəncərənin ağzında yanan çırağın öləziyən işığı səkidə salınmış süfrənin üstünə düşürdü. Kasalara çəkilmiş şorba soyumuşdu. Üzbəüz oturmuş Səbihə və Əfsanəni fikir aparmışdı. Yusifin başına qəza gələni onlar iştahayla, ürəklə bir loğma kəsməmişdilər. Çörək-körək ortalığa gəlirdi, amma doyunca yeyən olmurdu.

İndi də gəlin-qayınananın boğazından tikə keçmirdi. Nigarançılıq üzürdü. Elməddinin getdiyi bir aydan çox idi. Keçini, inəkləri satmış, qəryədar Qulamdan da on beş min rupi borc götürüb Yusifin işinin dalınca Süleymanşəhrə getmişdi. Bu pulun kifayət etməyəcəyini Elməddin irəlicədən bilirdi, — onunla ölüm işini yuyub-təmizləmək mümkün deyildi. Amma Elməddin yenə getməyi, öz qardaşlıq borcunu imkanı daxilində yerinə yetirməyi lazım bilmişdi. Budur, indi Elməddindən də bir xəbər-ətər yoxdu. Nə təhər oldu, məhkəmə Yusifin cinayəti barədə nə hökm çıxartdı. Bəlkə, allah üzünə baxdı, ölüm hökmü kəsmədilər? — Bütün bu suallar Səbihə arvadı, Əfsanəni həlak eləyib əldən salırdı. Şirii yuxu üzünə həsrət qalan gəlin-qayınana bir-birilə danışmaq belə istəmirdi. Vaxtın çoxu sükutla ötüb-keçirdi. Ancaq bu, zahiri sükut idi. Hərəsinin ürəyindən keçənlərdən, düşünüb-danışdıqlarından qalın-qalın kitablar yazmaq olardı.

— Yesənə, xala! — deyə ikinci dəfə Əfsanə qayınanasına müraciət eləyəndə qanıqara Səbihə onun üstünə çəmkirdi:

— Əşi, əl çək a, yaxamdan. Yesənə, yesənə, bəsdi də. Görürsən, boğazımdan tikə keçmir. Götür, yığışdır bu ağıya dönmüşü!!

Əfsanə arvadın qəfil qışqırığından səksəndisə də, günahkar baxışlarla qayınanasını süzüb heç nə demədən əlini dizinə dayaq verərək ayağa qalxdı, qab-qaşığı yığışdırdı. Əfsanə gəlib yenicə oturmuşdu ki, Elməddini başlarının üstündə dayanan görüb birdən soruşdu:

— Elməddin, Elməddin?

Elməddimdən cavab çıxmadı. Səbihə oturduğu yerdə fırlanıb:

— Nə təhər oldu, bala? — deyə xəbər alanda da o susdu.

Əfsanə məsələnin nə yerdə olduğunu başa düşüb süstəldi. Elə bil, içərisində nəsə qırılıb ayaqları altına düşdü.

— Ağzına niyə su alıb durubsan, ədə? — deyə Səbihə təkidlə, hövsələsizliklə soruşduqda Elməddin yanını səkinin qırağına qoyub

oturdu. İşıq yandan onun üzünə düşürdü. Sifətinə meyit rəngi çökmüşdü. İki qaşının arası möhkəm düyünlənmişdi. Qızarmış gözlərini anasından, Əfsanədən gizlətməyə çalışırdı.

Yol boyu dəhşətli sorğu-sual barədə düşünmüşdü; anasına, Əfsanəyə acı, ağır xəbəri necə deyəcəkdi?

Elməddin bu gün qəlbən qocalmışdı. Fikri-düşüncəsi alt-üst olmuşdu. Dərdin ağırlığı altında dizləri titrəməyə başlamışdı. Yusif özünü məhkəmədə dəyanətlə aparmışdı. Başı qırxılmış Yusif məhkəmənin suallarına təmkinlə, dəyanətlə cavab vermiş, ölüm hökmünü də təmkinlə dinləmişdi. Elə bil, burada söhbət onun barəsində yox, yad bir adam barədə gedirdi — ölümə məhkum olunan o deyil, ayrısı idi.

Son sözünü, xahişini soruşmuşdular:

— Nə sözün var?

O ağır-ağır ayağa qalxmışdı:

— Bircə xahişim var, möhtərəm hakim.

— De.

— Məni... öz kəndimizdə, camaatımızın gözü qabağında.., öldür... məyin.

Məhkəmənin bütün gedişində iştirak eləyən Cahan arvad yerindən dik atılmışdı:

— Yox, ağayi hakim, mən onu... oğlumu öldürdüyü yerdəcə öldürmək istəyirəm. Bu haqqı heç kəs mənim əlimdən ala bilməz. Yoxsa bu məhkəməni mən ədalət məhkəməsi saymaram.

Hakim demişdi:

— Müttəhimin xahişi qəbul olunmur. Mərhumun anasının istəyi yerinə yetirilsin...

Sonra Yusifi polis məhkəmə salonundan çıxarıb aparmışdı. Elməddin xeyli müddət oturduğu yerdən tərpənə bilməmişdi. Aralığa çökmüş ölüm sükutu Səbihəni usandırdı.

Arvad əsəbi səslə qışqırdı:

— Di... danış görək... nə oldu? Lal olmamısan ki?! Elməddin başını qaldırıb göz yaşları içində boğula-boğula güclə:

— Ölüm... kəsdilər... — deyə bildi.

Səbihə qəşş edib özündən getdi. Əfsanə ilk dəfə hönkürtü vurub ağlamağa başladı.

***

Günlər ağrılı, əzablı keçirdi. Ruhi sarsıntı, mənəvi gücsüzlük Elməddini də, Səbihə arvadı da, Əfsanəni də üzüb əldən salırdı. Neçə gün idi ki, heç kəs bir-biri ilə danışmırdı; həyət-bacada kölgə kimi gəzib-dolanır, o dəhşətli günün qorxusu-hürküsü ilə yaşayırdılar. Ədalət divanının qarşısındakı acizliklərini dərk edir, qanun qılıncının qabağına durmağın qeyri-mümkünlüyünü görüb çarəsiz-çarəsiz susurdular. Arabir Həzrətgül, Nazənin gəlib təsəlli vermək, dərdlərini azca da olsa yüngülləşdirmək istəyirdilər, ancaq bunun faydasız olduğunu özləri də yaxşı başa düşürdülər. Axır vaxtlar isə gəlib laldinməz oturar, ah-uf eləyər, kəlmə də kəsmədən çıxıb gedərdilər.

Səbihə arvad arıqlayıb qurumuşdu: iti, qaynar gözləri çuxura düşmüşdü. Daha ağlaya da bilmirdi. Tez-tez ürəyi gedirdi. Əfsanə əlayağa düşür, arvadın üzünə, sinəsinə su çiləyir, böyük çətinliklə huşa gətirirdi. Ayılandan sonra Səbihə donuq baxışlarla ətrafdakıları süzür, sanki nə baş verdiyini soruşmaq istəyirdi, lakin danışa bilmədiyindən yavaşca durub otağa keçir və mütəkkənin üstünə baş qoyub hissiz-taqətsiz uzanırdı. Özünü bacardıqca toxtaq aparmağa çalışan, dərdi ürəyinə salıb susan Elməddin bundan sonra tab gətirə bilməyib ağlayırdı: gözlərindən yaş gilələnən təki o da çəkilib iydə ağacının altına gedirdi ki, ağladığını Əfsanə görməsin. Əvvəllər, hadisə baş verməmişdən qabaq Əfsanəyə elə gəlirdi ki, Elməddii qardaşını sevmir və hətta ona nifrət də eləyir. Düşünürdü ki, Yusifin, allah eləməmiş, başına bir iş gəlsə, Elməddin, doğma qardaş olduğuna baxmayaraq, sevinər. Çünki Yusif onun sevgilisindən ayrılmağına bais olmuşdu, yoxsa onlar — Elməddinlə Əfsanə arzularına çatar, xoşbəxt olardılar.

Amma fikrində yanıldığını zaman keçdikcə anlayırdı. Çünki Elməddin qardaşının başına gələn qəzadan sonra tamam dəyişmişdi; qaradinməz olmuşdu. Qardaşını xilas etmək üçün bütün imkanını sərf etmiş, əlindən gələni əsirgəməmişdi. Yusif Elməddin üçün yaxşı qardaş olmuşdu, — o isə haqq-say itirən, qədirbilməz adam deyildi.

Çox cavan olan Əfsanə hələ həyatın dolaşıq və mürəkkəb məsələlərini, insanların hiss və düşüncələrini olduğu kimi anlamaqda, şərh etməkdə çətinlik çəkirdi. Hətta öz daxili aləmini, fikir və hissiyyatını layiqincə anlamaqda, onları saf-çürük etməkdə hələ aciz idi. Bu yaşda o, ağıldan daha çox, hissiyyatın təsiri altında idi. Əfsanə taleyin ona vurduru zərbənin ağırlığını da deyəsən tam aydınlığı ilə dərk eləyə bilmir, hərdən özündə dəhşətli bir laqeydlik görüb təəccüblənirdi. Yusif onun əri idi, üç aya qədər bir yastığa baş qoymuşdular. Ancaq Əfsanəni Yusifə bağlayan tellər möhkəm idimi?

Əfsanəyə elə gəlirdi ki, yox, möhkəm deyildi. Lakin Əfsanə ürəyinin dərinliyində bəzən Yusifə minnətdar olduğunu təsdiq eləyirdi. Əvvələn, ona görə ki, Yusif onu dayısının cəhənnəm kimi əzablı evindən çəkib çıxartmışdı — bunu o, özü üçün ən böyük səadət sayırdı. İkincisi, ona görə ki, Yusif Əfsanəyə heç vaxt geymədiyi ayaqqabı, heç vaxt vurmadığı ətir alıb gətirmişdi. Dünyada kimsədən nəvaziş görməyən bir qız üçün, bu, onun qanuni haqqı olsa da, böyük sevinc deyildimi? Əfsanə hələ Yusifə tamamilə bağlanmamışdı. Keçən az müddət ərzində bağlana da bilməzdi. Hələ sevgi doğulmamışdı. Düzdür, Yusif özündən on yaş kiçik olan arvadını gözəlliyinə, cavanlığına görə çox istəyirdi. Şəhərdə — dükanda oturduğu bikar dəqiqələrdə Yusif Əfsanənin ağ əndamını, qəlbə yatımlı gözəlliyini nəzərində canlandırır, fikrində onunla əylənir, cümə axşamlarını səbirsizliklə gözləyirdi. Ancaq Əfsanə... Əfsanə yox. Bəlkə bu ona görə idi ki, arada Elməddin vardı və Əfsanə onu sevirdi? Axı ilk məhəbbət ilk övlad kimi şirin və unudulmaz olur?!

Əfsanə ruhən, qəlbən Elməddinə daha çox yaxın idi; onu yadından çıxara bilmirdi, qəlbindən silib ata bilmirdi. Bəzən elə anlar olurdu ki, Əfsanə Yusifin əvəzinə Elməddini yanında görmək istəyirdi. Elməddinin dəftərindən tapıb oxuduğu şerlər Əfsanə üçün ana laylası kimi şirin, ata nəvazişi kimi fərəhbəxş idi. Əfsanə xoş xatirələr qucağında isinəndə qız vaxtı, çay qırağında paltar yumaqa, su gətirməyə gedəndə suların arasından çıxan Elməddinin dediyi bu sözləri indi də eşidirdi:

— Ay su pərisi... Ay su pərisi... səni mən alacağam, səni kimsəyə vermərəm...

«Amma verdin, — deyə Əfsanə acı-acı düşünürdü. — Qardaşına verdin. Səsini də çıxartmadın. Bilirəm, ayrı adam olsaydı, qabağına durardın, ancaq Yusifin qabağına keçə bilmədin!»

Onun taleyinin qaranlıq üfüqlərindən boylanan günəş, — az isidən günəş olsa da, — yenicə doğmuşdu. Çox çəkmədi, əsl səadətin nə demək olduğunu anlamağa imkan olmadan, o günəş yenə qara buludlar arasında qeyb oldu. Yenə qaranlıq, qeyri-müəyyənlik.

«Bəs mənim axırım nə olacaq? — indi bu sual onu çox duşündürürdü.

ONUNCU FƏSİL

Deyirlər, gözləmək ölümdən betərdi. Bu, doğrudu. Bəs arzuları, həvəsləri, ümidləri öldürən dəhşətli ölümün özünü gözləmək necə?? Bir var ki, bilməyəsən o qorxulu kabus səni nə vaxt yaxalayacaq, sinənə çöküb şirin canını alacaq — yuxudamı, yoldamı, iş başındamı? Ölüm hələ əsl siması ilə sənin təsəvvüründə canlana bilmir.

Bir də var ki, öləcəyini bilirsən. Bunu sənə rəhmsizcəsinə və ya bəlkə də haqlı olaraq elan eləyiblər. Bax, bu zaman sən ölümün qanla dolu gözlərini aydın görə bilirsən, soyuq, öldürücü nəfəsini üzündə duyursan — rəngin getdikcə ağarır, saralırsan, solursan. Sənin fikrində ancaq bir şey dolanır — ölüm... Məhz bu zamam insan mənən, ruhən, fikrən ölməyə başlayır.

... Ölüm hökmü oxunandan sonrakı birinci gecədə vilayət həbsxanasının xüsusi otaqlarından birinə salınmış Yusifin qara, dən düşməmiş saçı ağardı. Bir kecədə açılan çiçəklər kimi... Əlbəttə, bunu Yusif bilmirdi.

Salındığı hücrə hündür, qalın divarlı, sement döşəməli, nəm bir otaq idi. Yuxarıda, əl-ayaq çatmayan yerdə, səqfə bitişik dəmir barmaqlıqlı tək pəncərədən ulduzlu göyün kiçik bir parçası güclə görünürdü. Dəmir qapının qalınlığı adamın canına vahimə salırdı. Taxta çarpayıdan başqa gözə dəyəsi heç nə yox idi.

Səqfdən asılmış balaca, tutqun şüşəli elektrik lampası otağı güclə işıqlandırırdı. Gecə-gündüz yanırdı. Söndürsələr otaqda qaranlıqda göz-gözü görməzdi.

Yusif çarpayının üstündə uzanıb əllərini başının altına qoymuş, iri, yuxusuzluqdan qızarmış gözlərini tavana zilləmişdi. Hakimin məhkəmədə dediyi sözlərdən ancaq iki kəlmə beynində dolanırdı:

«Qətl edilsin» — bu iki kəlmə elə bil, beynində yazılmışdı. Dünyada gördüyü, bildiyi hər şey pozulmuş, əvəzinə «qətl edilsin» sözləri həkk edilmişdi. Bütün qüvvəsi yox olmuş, sağlam bədəni taqəti, kəlmə kəsməyə belə qüdrəti olmayan sür-sümük, ət yığınına çevrilmişdi. Çox vaxt nəfəs aldığını belə hiss eləmirdi. Amma sinəsində ürək çırpınırdı və təkcə bu həyəcanlı, nizamsız döyüntülər ona sağ olduğunu xatırladırdı. Hələ sağdı — bu ona dumanlı bir təsəlli bəxş eləyirdi. Bəlkə möcüzə olacaq? Bəlkə vəkilin Elməddinlə birgə əlahəzrətin adına göndərdikləri əfv ərizəsinə müsbət cavab gəldi? Olmazdımı? İynə ucu boyda olan bu ümid Yusifi yavaş-yavaş cana gətirir, beyninin dumanını dağıdır, canına qüvvət verirdi.

«Qətl edilsin» sözlərini ehmalca, hiss edilmədən uzaqdan, çox uzaqdan eşidilən «bağışlansın» sözü əvəz edirdi. Azca keçmiş bu fikir yenə alt-üst olur, hakimin qətiyyətsiz dediyi sözlər yenə qüvvəyə minir və, onun əl-qolunu süstəldib yanına salırdı. Peşmançılıq hissi Yusifin bütün vücudunu yandırıb-yaxırdı. Düşünüb-daşınmadan, ölçüb-biçmədən hərəkət etmək ona neçə dəfə çoxlu ziyan vurmuşdusa da, özünün bu xasiyyətindən əl çəkə bilməmişdi. Çılğınlıq, dəlisovluq axır ki Yusifi ölüm ayağına çəkib gətirmişdi.

«İndi Zümrəy torpaq altında çürüyür, sabah mənim də həyatımın sonuna nöqtə qoyulacaq, — deyə düşünürdü. Ölüm addım-addım yaxınlaşdıqca həyat—günəş, torpaq, su—yer üzündə səfil-sərgərdan da olsa yaşamaq Yusifə daha da şirin və ləziz gəlirdi. Elə şirin və gözəl idi ki, bunu indiyəcən nə üçün duymadığının, gözü dolusu görmədiyinin peşmançılığını çəkirdi. İndiyə qədər adi bir qadın kimi yatıb-durduğu Əfsanənin qəşəngliyi dörd divar arasında gözləri qarşısında cilvələnir, o, sanki arvadına təzədən vurulmağa başlayırdı, onu dərin atəşin məhəbbətlə sevdiyini hiss eləyirdi. Yusif Əfsanəni indiki kimi heç vaxt sevməmişdi. Bəli, ölüm ayağında məhəbbət doğulurdu. Heyf ki, onun ömrü çox gödək olacaqdı - bir gün, iki gün, ya bəlkə də bir neçə saat olacaqdı. Amma bu, Yusif üçün əsil məhəbbət idi, — yaxşı-yaxşı dərk etmədiyi, ləzzətini ürək dolusu duya bilməyəcəyi, gec doğulub tez də torpaqlara gömülməli olan, sevgi idi. Kim bilir, bəlkə də, ölümə məhkum edilmiş bir insanın vücudunda zühur edən həyat eşqinin son çırpıntıları, son şölələri idi ki, Əfsanəyə olan sevgisində təcəssüm eləyirdi? Ya bu, ölümqabağının əzab-əziyyəti idi ki, Yusif çəkirdi?

Yusif həyatının ani, köçəri bil çılğınlığın qurbanı olduğunu dəqiqələr, saatlar, günlər ötüb keçdikcə daha dərindən dərk eləyir və bu, onu dirigözlü öldürürdü.

Yusifin oğul-uşaq adına nişanəsi qalacaqdımı? Onu «ata» deyə çağıran yox idi. O bu dünyadan köçüb gedəndən sonra onu «ata» — deyə yad edən dünyaya gələcəkdimi? Yusif bunu da bilmirdi.

«Məni öldürəcəklər, özü də arvad öldürəcək. Aman allah, dəhşətə bax!»

Bu gecəni də diri gözlə açdı. Saat səkkiz radələrində təkadamlığın qapısı döyüləndə Yusif bədənini tir-tir titrədən şiddətli ürək çırpıntısı ilə qalxıb oturdu. Ağır kilidli qapı açıldı. Əyninə uzun, ağ tuman-göynək geymiş kök, çal saqqallı həbsxana nəzarətçisi astanada

göründü. Əlindəki mis qabın içində şorba vardı; bir parça da qara çörək. Ondan iki addım aralı pasiban çiynində tüfəng dayanmışdı.

Nəzarətçi Əbdülqadir kişi quru səslə:

— Dur, çörəyini ye! —dedi.

Yusif yuxusuzluqdan qızarmış gözlərini ona dikib heç nə başa düşmürmüş kimi qımıldanmadı. Əbdülqadir irəli gəlib qabı və çörəyi taxta çarpayının üstünə qoydu:

— Ye.

— Götür, apar. —Yusif əsəbiliklə dilləndi — Yemirəm.

— Acından ölərsən.

— İslanmışın yağışdan nə qorxusu? Necə ölməyin mənim üçün təfavütü yoxdur.

— …

— Məni havaya çıxara bilərsənmi? Burada adamın ürəyi sıxılır.

— İndi yox. Bir saatdan sonra.

Qapı təzədən şaqqıltı ilə bağlandı, Yusif tək qaldı. Əlbəttə, yeməyə əl vurmadı. Ac olsa da ağzı açılmadı, həvəsi gəlmədi.

Xeyli keçəndən sonra onu bayıra çıxartdılar. Əlləri qandallı idi.

Həbsxananın həyətində, xüsusi arakəsmənin içində Əbdülqadir kişi ilə ondan başqa kimsə gözə dəymirdi. Səhər-səhər olsa da hava artıq qızmışdı. Gün adamın canını isidib əzirdi. Yusifin qaranlığa alışmış gözləri gur işıqdan qamaşıb yaşarırdı; əlinin içi ilə gözünün bulağını tez-tez silməli olurdu. Həyətin o başındakı irigövdəli qoz ağacının yaşıl yarpaqları gün altında parlayırdı. Alabəzək bir meynə quşunun uzaqdan uçaraq gəlib ağacın budağına qonduğunu Yusif gördü və köks dolusu ah çəkdi.

Əbdülqadir kişi onunla dabanbasma gəlirdi. Həbsxana qanunlarına əsasən, məhkumu tək qoymağa ixtiyarı yox idi. Yusif kürəyini qoz ağacına söykəyib oturdu.

Taqətsizdi.

Əbdülqadir kişi ağacın o biri tərəfində oturub fikirli-fikirli yeri çöplə eşələməyə başladı. Ölümə məhkum olunmuş adamla üzbəüz dayanmaq, onun qorxu, iztirab, həsrət yazılmış gözlərinə baxmaq maraqlı olduğu qədər də əzablı və dəhşətli idi. Hələ üstəlik onları gəzməyə, «hava almağa» çıxarasan, hələ bu bir yana qalsın ki, bəlkə onun ömrünün son günündə, axır saatlarında görüb danışdığı yeganə adam sənsən. Qatil də olsa, insandır — onun da ürəyi, arzuları var. Onun da ölüm ayağında şirin sözə, təsəlliyə ehtiyacı var. Qatilin halına acımaq lazımdırmı? O, insan öldürəndə onun halına, yetim qalan

övladlarına, qara torpağa gömülən eşqinə, arzularına acıyıbmı? — Bu sual illərdən bəri həbsxanada bir tikə çörək qazanmaq üçün işləyən Əbdülqadir kişinin ürəyini rahat buraxmırdı. Neçə dəfə öz-özünə demişdi: «Yox, bura mənim kimi ürəyiyumşaq adamın yeri deyil. Bu əzablar məni vaxtsız qocaltdı. Gedəcəyəm, buradan gedəcəyəm». — Ancaq heç yerə gedə bilməmişdi. Çörək qazanmaq, böyük gülfətini dolandırmaq qayğısı onu həbsxana divarları arasından uzaqlaşmağa qoymamışdı. Əslində, həyat, çörək əldə eləmək dərdi onu da həbsxanaya atmış, azad məhbus etmişdi. Bəzən o özünü belə adlandırırdı. Həftədə bir dəfə bu cansıxıcı mühitdən çıxıb evinə, uşaqlarının yanına gedə bilirdi. Rəhmdil olduğuna görə, dustaqlar, hətta ölüm kəsilmişlər belə onun xətrini çox istəyirdilər. Həbsxana müdiriyyətindən gizlin, xəlvətdə əlindən gələn köməyi edir, bununla «savab» qazanmaq, «o dünyasının» rahatlığını təmin eləmək istəyirdi.

Təzə dustaq gələn kimi Əbdülqadir kişi maraqlanıb onun nə üstə buraya düşdüyünü öyrənirdi. Namus üstə həbs olunanlara xüsusən çox hörməti vardı. «Əsl kişidir» — dsyirdi. — Nədən ki dünyada namusdan böyük bir məsuliyyət yaranmışların boynuna qoyulmayıb — onu qorumaq istəyən əsl kişidir, əsl qəhrəmandır».

İnsanlıqdan xaric iş tutan, pul-para üçün, xırda hisslər üstündə adam öldürənləri isə görməyə gözü yox idi.

Xüsusən Yusif kimilərini ki, əlləri günahsız insan qanına batmışdı. İndi o, Yusifin tamam ağarmış saçlarına arxadan baxır, ürəyində mərhəmət hissi baş qaldırırdı: «Yazıq lap cavandı. Öldürəcəklər...» — sonra insan öldürdüyünü xatırlayır, içində baş qaldıran hissi boğub deyirdi: «Cəzasıdır, qoy çəksin. Haqq-ədalət məhkəməsinin iti qılıncından hələ heç kəs boyun qaçıra bilməyib. Öldürübsən, səni də öldürəcəklər».

Yusifin ilişikli səsi onu fikirdən ayırdı:

— O kök kişi kimdi?

Əbdülqadir başını qaldırıb Yusifin nişan verdiyi səmtə boylandı və Cabbarı gördü. Cabbar yöndəmsiz, həddən artıq kök, peysəri burum-burum piy bağlamış bir kişi idi. Şəvə kimi qara, uzun bığlarını eşib qulağının dibinə gətirmişdi. Yay-qış başını ülgüclətdirən Cabbar həbsxananın cəlladı idi. Ölümə məhkum edilmiş adamın cəzası təyin olunub hökmü oxunandan sonra — havaya çıxarılanda, Cabbar bir bəhanə ilə onun yanından keçir, — boy-buxununa baxır, vəznini-ağırlığını fikrində ölçüb-biçir, gələcək «işlərini» götür-qoy edir və onu necə öldürmək barədə düşünürdü. Əlbəttə, bunu məhkum bil-

mirdi. Həbsxana qanunları icazə verməsə də, həddən artıq acıqı gələn məhkumlara Əbdülqadir kişi onun kim olduğunu söyləyir və canlarına vahimə, vəlvələ salırdı.

— O, cəllad Cabbardı.

«Cəllad» sözünü eşidən kimi Yusif qeyri-iradi olaraq dartınıb udqundu, rəngi bir az da ağardı.

— Cəl...lad?

— Hə. İyirmi ildi bu həbsxanada işləyir. O, qanunsuz cəlladların qanuni cəlladıdır. Qatillərin qatilidir. Çox namuslu, çox vicdanlı adamdır. — Yusifə qəribə gəldi ki, işi-peşəsi adam öldürmək olan bir pəzəvəngi üz-gözündən rəhmdillik yağan bir kişi ağızdolusu tərifləyir, onu «çox namuslu, çox vicdanlı» adlandırır.

— O, adamları öldürəndə vicdan əzabı çəkmir? Əbdülqadir dikəlib onun qabağında dayandı:

— Bəs sən necə, günahsız cavanı öldürəndə vicdan əzabı çəkmədin?

Yusif başını aşağı salıb susdu, sonra astadan:

— Mən ağılsız iş görmüşəm, elə bir səhv ki, daha düzəltmək mümkün deyil. İndi də əzabını çəkirəm, — dedi.

Əbdülqadirin ürəyində yenə rəhm hissi baş qaldırdı və bacardığı qədər mehribanlıqla:

— Görürəm... — dedi... — vicdan əzabı və qorxu başını ağardıb.

— Başım ağarıb?—Yusif tələsik sağ əlini başına çəkdi, elə bil, başının ağarıb-ağarmadığını yoxlamaq istəyirdi.

— Hə, ağarıb. Onu da bil ki, təkcə sənin başın ağarmayıb. İndi bax, o çobanın da anasının başı ağarıb. Sənin ananın da, arvadının da başı belə ağaracaq. Ağarmasa da sənin ucbatından onların beli büküləcək, dərd-qəm əlindən çürüyəcəklər. Sən gör neçə adamın bədbəxtliyinə səbəb olmusan. Hələ bilmirsən, sənin haqq-hesab çürütməli olan cəllad Cabbar nə qədər əziyyət çəkəcək.

— Cəllad Cabbar mənimlə haqq-hesab çəkməyəcək.

— Bəs kim?

— Cahan arvad... naxırçının anası...

— Məqtulun anası, eləmi? Yusif başı ilə təsdiq elədi.

— Fərqi yoxdur, — Əbdülqadir sözlə, qorxu ilə Yusifi öldürdü. — Hər halda səni öldürəcək adam da insandır, o da fikir, əzab çəkəcək.

Ani sükutdan sonra gözətçi Cabbara tərəf işarə elədi:

— Bax, o cəllad Cabbarı görürsən? O, mən deyərdim, dünyanın ən soyuqqanlı bir adamıdır. İnsanın başını sərçə başı kimi üzür. Amma bununla belə o, bir dəfə az qala dəli olmuşdu.

— Çünki, günahsız bir adamı öldürmüşdü. Hakimlər səhv eləmişdilər, yanlış hökm çıxartmışdılar. Əsl qatilin əvəzinə ayrısını, heç günahı olmayan bir cavanı ölümə məhkum eləmişdilər. Cabbar hökmü yerinə yetirəndən beşcə dəqiqə sonra məlum olmuşdu ki, yazığın günahı yoxmuş. Xəbər gəlib Cabbara çatanda onun isti bədəni hələ çırpınırdı. Lakin gec idi, bədəndən ayrılmış başı təzədən yerinə yapışdırmaq, öləni diriltmək, «bizi əfv edin, ağa, sizi səhv öldürmüşük» demək olmazdı. Cabbar bax, bu zaman yamanca sarsılmışdı. Əslində onun elə bir günahı yoxdu, o, ancaq əmri yerinə yetirmişdi, vəssalam. «Ağa dedi sür dərəyə, sür dərəyə». Bununla belə cəllad Cabbar üç-dörd ay şəfaxanada yatdı. Kişi çox əziyyətlər çəkdi. Elə indi də çəkir. Uzun illər keçməsinə baxmayaraq, Cabbar indi də o günahsız cavanı yad edib köks ötürür, deyir:—Yerim cəhənnəmlik oldu, qardaş! Əlim nahaq qana batıb!.

Bu ara həbsxana müdiriyyətinin yerləşdiyi ağ bina tərəfdən gödəkboylu, gödəkbığlı, eynəkli bir kişi ağacın altına gəldi. Bu, həbsxana rəisinin müavini idi. Salamsız-kəlamsız, onların qabağında dayandı. Eynəyinin qalın şüşələri altından Yusifə ani nəzər yetirib, bilə-bilə müttəhimin adını soruşdu:

— Adın nədir, müttəhim?

— Yusif.

— Sən bağışlanmaq üçün ərizə vermişdin? Yusif:

— Mən verməmişdim, vəkilim və qardaşım vermişdi,— deyə Yusif tərəddüdlə cavab verdi.

— Fərqi yoxdur kim yazmışdı... Sən imza eləmişdinmi?

— Hə.

— Ərizəni ali məhkəmə və əlahəzrət qəbul eləməmişlər...

Aralığa vahiməli sükut çökdü. Müavinin də, Əbdülqadirin də nəzərləri Yusifə zilləndi. Elə bil onlar Yusifin bu xəbəri eşidəndə özünü necə aparacağını görmək, müşahidə eləmək istəyirdilər. Lakin Yusifin sir-sifətində elə bir dəyişiklik yaranmadı; hissləri kütləşmiş, bəlkə də artıq ölmüşdü. Ağarmış başını sinəsinə doğru əydi. Müavin mülayim bir səslə sözünü tamamladı:

— Hökm sabah, Ədnan kəndində saat on bir tamamda yerinə yetiriləcəkdir. Ayrı sözünüz yoxdur ki?

Qabaqda yaşadığı bütün illərdən də uzun, əzablı, ölümlü bir gecə vardı....

ON BİRİNCİ FƏSİL

Qətl meydanına çoxlu adam toplaşmışdı. Ədnan kəndinin məmə yeyəndən pəpə yeyənəcən bütün camaatı bura yığışmışdı. Bu o yer idi ki, burada Yusif Zümrəyi öldürmüşdü. Cahan arvadın ciddi tələbi və təkidi ilə, Yusif gərək burada öldürülə idi.

Əmniyyə idarəsi rəisinin müavini başda olmaqla polis dəstəsi, vilayət məhkəməsinin nümayəndəsi, cəllad Cabbar və həbsxana mollası qətl mərasimini qanun əsasında yerinə yetirmək üçün saat doqquzda gəlmiş, lazımi işləri görmüş, meydanda Yusifin qanı töküləcək çuxuru qazdırmış, polis nəfərlərindəi ibarət dairə yaratmışdılar.

Qəryədar Qulamın həyətindən azca aralı üstüörtülü qara polis maşını durmuşdu. Yusif onun içində idi.

Vidalaşmaq üçün ayrılmış yarım saat artıq qurtarmışdı. Səbihə, Elməddin, Əfsanə, yaxın dost-tanış Yusiflə ağlaya-ağlaya, şivən qopara-qopara öpüşüb ayrılmışdılar. Ayrılıq məqamında Yusif özünü dəyanətlə aparmış, saçını yolub üzünü cıran anasına təsəlli vermiş, qardaşına vəsiyyətini eləmişdi. Elməddin yanaqlarından yaş axa-axa Yusifin son vəsiyyətiii dinləmişdi:

— Əfsanənin oğlu olsa, adımı ona qoyarsan...

Elməddin bu sözlərin əsil mənasını dərk eləməsə də, başını tərpətməklə qardaşının istəyinə əməl edəcəyini bildirmişdi. Ərinin vəsiyyətini ağlamaqdan gözləri qızarmış, çiyinləri tez-tez atılıb-düşən Əfsanə özü də eşitmişdi.

Qəryədar Qulam, Həzrətgül, Yusifin şəhərdən gəlmiş dostu səssiz-səmirsiz onunla öpüşüb vidalaşmışdılar. On birin yarısında cəllad Cabbar ora gəldi:

— Görüş vaxtı qurtardı. — Onun səsi soyuq və qəti idi. Bu sözü eşidən kimi, bayaqdan güclə ayaq üstə dayanan Səbihə arvadın ürəyi getdi. Yerə yıxılanda Əfsanə arvadı tutdu, ehmalca yerə çömbəlib onun başını dizinin üstünə qoydu. Polis nəfərləri Yusifi qabağına qatıb aparanda Əfsanə dizini Səbihənin başı altından çəkərək qalxdı və əlini Yusifə sarı uzatdı... Ancaq ucaboylu, enlikürək polis araya keçib onu yaxın buraxmadı. Elməddin Yusifin dalınca addımladı...

...Bayaqdan arı dəstəsi kimi uğuldayan camaat Yusifin gətirildiyini görüb susdu. Yusif həmişə dik və məğrur tutduğu başını sinə-

sinə endirmişdi. Saçlarının ağardığını görən Ədnan camaatı təəccüblə, heyrətlə içini çəkir, kimi xısın-xısın ağlayır, kimi «cəzasıdır, qoy çəksin»,— deyirdi.

Yusif addımlarını qətiyyətlə atırdı. Var qüvvəsi ilə çalışaraq süstlüyü, taqətsizliyi yaxına buraxmır, qalan ömrünü «ləyaqətlə» yaşamaq istəyirdi.

Onu meydanın ortasına gətirdilər.

Əmniyyə rəisinin müavini ətrafa göz gəzdirib:

— Məqtulun anası hanı? — deyə soruşdu.

Qabaq cərgədən, polis nəfərlərinin arasından irəli çıxan Cahan arvad əlində tutduğu par-par parıldayan xəncəri havada oynada-oynada cavab verdi:

— Mən buradayam, ağa.

Bayaqdan başını sinəsindən qaldırmayan Yusif qeyri-iradi dönüb Cahan arvada kədərli, məhzun nəzərlərlə baxdı. Əlindəki qılıncı görəndə udqundu — boğazında küt ağrı hiss elədi. Gözlərini xəncərdən çəkib Cahan arvadın üzündə gəzdirdi: arvadın simasında təntənəli bir sevinc vardı. Bəli, intiqam saatı yetişmişdi, o, xəncəri çıxarıb madar balasının qatilinin qanına bulayacaqdı—bəlkə bundan sonra Cahan arvadın ana ürəyi toxtayardı, aram olardı...

«Bəlkə,—Yusif düşündü, — Cahan arvada yalvarmaq, ələ ayağına düşüb sürünmək, bağışlamağını xahiş eləmək? Bəlkə ürəyinə rəhm gəldi, bağışladı. Azmı belə hallar olub? Mənən günahkarı öldürəndən sonra son dəqiqədə cəzasından keçən adamlar çox olub, çox olub?..» Yusif qeyri-iradi ağzını açıb nəsə demək istədi, ancaq qurumuş dodaqları bir-birindən aralanmadı; sinəsindən qopub gələn səs boğazında itib batdı. Və o, ani olaraq özünü Cahan arvadın ayaqları altında təsəvvür elədi. Cahan arvad nəinki onun yalvarışlarını eşitmir, hətta onu təpikləyir, söyürdü:

«—Dur ayağa, bişərəf, binamus».

Elə bil, bu sözləri aşkara eşidirdi. Dumanlanmış beynində bu sözlər qığılcım kimi parladı və o, özünü arvad ayaqları altında görməkdən ikrah edirmiş kimi, çimçəşib gözlərini yumdu. Yox, arvaddan aman istəmək özü də arvadlıqdır. Yox, o öləcək, ancaq yalvarmayacaqdır.

Camaat Cahan arvada söz atırdı:

— Ay arvad, o cavanın qanına qıyma.

— Cəllad olma, arvad!!

— Ay kaftar, onu öldürməklə oğlun diriləcəkmi?

Uğultu getdikcə gücləndi.

Rəis camaatı nizam-intizama çağırırdı:

— Sakit! Sakit olun, ay camaat!

Araya sükut çökdü.

Rəis müavini üzünü gödək, qırmızıyanaqlı, saqqalına həna qoymuş kişiyə tutub:

—Ağayi qazi, buyur, hökmü qiraət elə, — dedi. Kişi irəli yeriyib boğazını arıtladı, cibindən dörd bükülmüş kağızı çıxarıb açdı, camaata nəzər yetirib adamların sakit olmasını gözlədi. Sonra hökmü oxumağa başladı. Hökmdə, cinayətin tarixi müfəssəl şərh edilir, məqtulun günahsız olduğu, qatilin öz cürmünü iqrar etdiyi söylənirdi. Qazinin səsi aram və təmkinli idi. Elə bil, ölüm haqqında hökm yox, adi bir məktub və ya əhvalat oxuyurdu. Oxuduqca da səsini ucaldır, adamlar arasında gəzən pıçhapıçı batırırdı.

O, nəhayət, hökmün qərar hissəsini camaata çatdırdı:

— Xudavəndi-aləmin ərşi-əladan yerə nazil etdiyi Qurani-müqəddəsin tələbinə əsasən, ədalətməhkəməsinin ədalətli qərarına binaən, Zümrəyi-bigünahı qətlə yetirən Yusif vələde Səlim sakene-qəryeye-Ədnan ölümə məhkum edilsin. — Qazi sözlərinin təsirini yoxlamaq istəyirmiş kimi, dayanıb cücə gözlərini camaatın üzündə dolandırdı, və ani sükutdan sonra əlavə etdi:

— Məhkumun bağışlanmaq üçün verdiyi ərizəni əlahəzrət və ali məhkəmə qəbul etməmişdir. — Qazi son sözünü deyib ehtiyatla əvvəlki yerinə çəkildi.

İndi söz Cahan arvadın idi. Ölüm hökmü kəsildiyinə baxmayaraq o, oğlunun qatilini bağışlaya bilərdi. Əgər ana oğlunun qanından keçsəydi, hökm, qanun öz kəsərini itirərdi.

Qəryədar Qulam, görünür, axırıncı imkandan istifadə etmək qərarına gəldi. Çünki Səbihənin, Elməddinin yeganə güman yeri qəryədar Qulam idi və ondan bərk yapışmışdılar.

Qəryədar Qulam əlini ağ saqqalına çəkə-çəkə polisləri aralayıb irəli yeridi və iki polisin arasında dayanmış Cahan arvada sarı gəldi.

— Olarmı ağayi-müavin... — deyə o, əvvəlcə müavindən icazə istədi, müavin başı ilə razılığını bildirəndən sonra qəryədar Cahan arvada üz tutdu:

— Cahan, mən də Ədnan camaatı adından bir də səndən iltimas eləyirəm: keç bu cavanın qanından, bağışla onu. Mən bu ağbirçək vaxtında sənin əlinin qana batmasını istəmirəm. Biz hamımız sənin dərdinin böyüklüyünü başa düşürük. Mərhum Zümrəy də bizim

balamızdır. İşdir, olub. Öləni geri qaytarmaq olmur, Cahan. Biz hamımız həqqə qovuşacağıq. İntahası, geci-tezi var. Sənin oğlun şəhid olub -yeri cənnətdir, Cahan. Sən gəl mənim, bu Ədnan camaatının sözünü yerə salma.

Cahan arvad hikkə ilə:

— Yox, Qulam, yox! —deyib dururdu.

Bu vaxt Səbihə arvad camaatın səfini yara-yara başıaçıq, saçları üzünə tökülmüş, divanə halda özünü Cahanın ayaqları altına atdı:

— Cahan, başına dönüm, qurbanın olum...

Yusif anasının onun ayaqlarını qucaqlayıb öpdüyünü və Cahanın isə onu təpiklə vurub kənara itələdiyini görəndə əsəbi səslə qışqırdı:

— Lazım deyil, yalvarma, ana!...

— Onsuz da keçən deyiləm, yalvarsa da keçən deyiləm. — Cahan da əsəbiliklə dilləndi.

— Cahan, üç lək[1] pul verirəm, bağışla Yusifi. — Hamı dönüb sözləri deyən adama baxdı. Buralı deyildi. Araqçın qoymuş kişi yanındakına izahat verdi:

— Bu, Yusifin dostudur, şəhərdən gəlib.

— Mənə heç nə lazım deyil, mənə bir ovuc qatil qanı gərəkdir, qatil qanı ki, içim, ürəyim soyusun.

Qəryədar Qulam, Səbihə çəkilib getdilər. Yusifin dostu susdu.

Müavin Cahana müraciət elədi:

— Bu, sənin son sözündür?

— Bəli, ağa, son sözümdür. Mənə dünya malı gərək deyil. Müavin üzünü seyrək saqqallı mollaya tutdu:

— Onda, Molla Qulu, başla.

Molla Qulu Yusifə yaxın gəldi, qollarının qandalını açdı və qazılmış çuxurdan azca aralı sərilmiş həsir canamazı ona göstərdi:

— Namazını qıl, bala.

Yusif ağır addımlarla canamaza sarı gəldi, aftafanı götürüb təharətini aldı. Tələsmirdi. Arxayın-arxayın tərpənirdi. Sanki, bununla ömrünü uzatmaq istəyirdi. Həsirin üstünə çıxdı, üzünü qibləyə çevirib heykəl kimi dayandı. Sanki namaz qılmağı yadından çıxartmışdı və ya nə etməli olduğunu unutmuşdu.

Molla Qulu bir də xatırlatdı:

[1] L ə k — yüz min rupi.

— Namazını qıl, vaxt keçir...

Yusif neçə müddətdən bəri qandalların sıxıb ağrıtdığı əllərini ağır-ağır yuxarı qaldırdı. O nə deyirdi? Namazmı qılırdı? Ya həyatla səssiz-səmirsiz vidalaşırdı? Bunu bilmək çətindi.

Nəhayət, ucundan daş asılmış dəqiqələr sona çatdı, namaz qurtardı. Yusif özü, əmr gözləmədən, həsirin üstündən düşdü və onunçün ayrılan xüsusi yerə gəldi.

Molla xəbər aldı:

— Sözün varmı?

Yusif ani fikirdən sonra:

— Qardaşımı bura çağırın, — dedi. Elməddin gəldi. Baxışdılar. Sakitlikdi. Milçək uçsaydı, eşidilərdi.

Yusif qolundan saatını açdı, Elməddinə sarı uzatdı:

— Al, məndən sənə yadigar olsun.

Elməddin tələsmədən saatı aldı... Göz yaşları arasından əqrəblərə baxdı. On birə beş dəqiqə qalırdı. Birdən o hönkürdü.

Yusif acıqlandı:

— Kişi ol. Məni öldürürlər, sən niyə ağlayırsan?

Sonra onlar qucaqlaşıb sarmaşdılar. Öpüşdülər, öpüşdülər. Tamaşa eləyənlərin də gözü yaşardı.

Ayırdılar. Ayrılmaq istəmirdilər, ancaq ayırdılar.

Dəhşətli an yaxınlaşırdı. hamının üstünə elə bil, su ələnmişdi. Yığışan adamlar Yusifin, onun anasının halına acıyır, Cahan arvadın qəddarlığına təəccüb edirdilər. Cahan arvad isə dünyada ən yaxşı bir iş görmüş və ya görəcək bir qəhrəman kimi qürurla polis nəfərlərinini arasında dayanmışdı. Yusifə — rəngi ağappaq ağarmış Yusifə baxırdı. Yusif heyrətdənmi, qorxudanmı böyümüş gözlərini dolandırıb izdihamın üstündə gəzdirdi və sonra baxışları ilə arayıb Cahan arvadı tapdı. Nəzərləri bir anlığa toqquşdu; bir-birinə baxdılar. Sanki Cahan arvad bayaqdan Yusifi görməmişdi. Diqqətlə fikir verəndə gördü ki, Yusifin başı ağarıb: enlikürəkli, cüssəli Yusifdən əsər-əlamət də qalmayıb; onun əvəzində arıq, üzünün sümükləri görünən, balacalaşmış bir adam dayanıb mühafizlərin arasında. Qarı əvvəl qışqırmaq istədi ki, yox, bu mənim oğlumun qatili deyil, bu ayrı adamdır, verin mənim oğlumun qatilini. Ancaq özünü saxladı, gözlərini qıyıb ona bir də diqqətlə baxdı. Bəli, indi o idi, özü idi: qarı onu gözlərindən tanıdı. O gözlərdən ki, ölümün qorxusundan iriləşib alacalanmışdı. O gözlərdən ki, indi Cahan arvada yalvarıcı, rəhm-aman diləyən baxışlarla zillənmişdi. Cahan arvadın qulaqlarında ondan xahiş-minnət eləyən adamların səsləri səslə-

nirdi, Səbihə arvadın hıçqırıqları eşidilirdi. Beynində uğuldayan bütün bu səs-küy birdən-birə kəsildi, arvadın gözlərinin önünə Zümrəy gəldi, yerə tökülüb laxtalanmış qan gölməçəsi gəlib təsəvvüründə canlandı. İndi, bax, bir neçə dəqiqədən sonra Yusifin də qanı axıb yerə tökü-ləcəkdi, sonra Zümrəyin qanı kimi laxtalanacaqdı və Yusif də Zümrəy kimi həmişəlik yox olacaqdı. Bəli, yox olacaqdı və Səbihə də onun kimi sinədağlı qalacaqdı.

Arvadı fikir aparmışdı. Onun xəbəri olmamışdı ki, müavinin işarəsi ilə polis nəfəri Yusifin əllərini, ayaqlarını uzun və möhkəm kəndirlə bağlamış, çuxurun yanına gətirmişdilər. Cahan qarı onda özünə gəldi ki, artıq güclə ayaq üstə dayanan Yusifin gözlərini qara dəsmalla bağlayırlar. Birdən, heç kəsin gözləmədiyi halda Cahan arvad əlindəki par-par parıldayan qılıncı göyə qaldırıb taqətsiz, yor-ğun bir səslə dedi:

— Mən onu... oğlumun... ruhuna... bağışlayıram... — Sonra ağır-ağır əlavə elədi. — Qoy... yaşasın...

Ancaq Cahan qarının son sözləri izdihamın uğultulu səsi içəri-sində itib batdı; camaat, Səbihə, Əfsanə, Elməddin Cahan arvadın üstünə yeridi. Səbihə onun ayaqlarına düşdü, Əfsanə əllərini öpdü. Cahan arvad isə sanki heç nə eşitmir, heç nə hiss etmirdi. Eləcə, heykəl kimi dayanmışdı, lal-dinməz... Ancaq gözlərindən yaş axırdı, elə hey axırdı...

— Arvad cənnəti satın aldı.

— Qatil olmaq istəmədi Cahan qarı.

— Yaşa, Cahan arvad.

Bu sözləri bir adam yox, az qala hamı deyirdi. Camaat buraya matəmə gəlmişdi, ancaq axırı yaxşı oldu: arvad Yusifi bağışladı. Bu hay-küy, qışqırtı-bağırtı içərisiidə Yusif yaddan çıxmışdı. Yanında dayanmış cəllad Cabbar sevinə-sevinə ona deyirdi:

— Anan namaz üstə imiş.

Yusif isə key kimi dayanmışdı. Sanki heç nə başa düşmürdü; gözlərini açmışdılar, ancaq hələ heç nə görmürdü. Elməddin adamları aralaya-aralaya qardaşına sarı gəldi, onu qucaqlayıb şadlıqdan hönkür-hönkür ağlayaraq söylədi:

— Sənə qurban olum, ay qardaş, Cahan arvad səni bağışladı.

Sanki Yusif yatmışdı, indi ayıldı, indicə, Elməddin bu sözləri deyəndən sonra yenidən həyata qayıtdı.

Lakin... birdən Yusifin dizləri bügüldü və o, səntirləyib qardaşının qolları arasından üzü aşağı axdı. Elməddin həyəcan və təşviş dolu səslə:

— Yusif, Yusif! —deyə qışqırdısa da, ondan cavab çıxmadı. Elməddin onun başını dizi üstə qoyub tələşlə silgələyir və çığırırdı:

— Yusif, Yusif, sənə nə oldu? Cəllad Cabbar arxayın bir səslə:

— Sevindiyindən ürəyi getdi yəqin, — dedi.

Ancaq cəllad Cabbar səhv eləyirmiş. Yusifin ürəyi partlamışdı... Bu ağır xəbəri adamlar bir-birinə ötürdülər, sevinc, şadlıq səsləri yenidən kəsildi, hamı susdu və sonra Səbihə arvadın «Can bala!»— deyən fəryadı eşidiləndə hamının gözü doldu...

İKİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Bağışlanandan bir neçə dəqiqə sonra Yusifin gözlənilməz ölümü evdə dəhşətli, soyuq, tükürpədən bir boşluq əmələ gətirmişdi. Elə bir boşluq və mənasızlıq ki, adamın canına üşütmə salırdı. Bundan belə həyatın davam edə biləcəyinə şübhə doğururdu. Sanki bu üç nəfər dərdli insanı dünyada maraqlandıracaq heç nə, heç şey qalmamışdı. Hamısı Yusifin ağ kəfəni içərisində qara torpaqlar altında gömülmüşdü.

Günlər, həftələr ötüb keçdikcə Yusifin qəbri köhnəlir, çökürdü; ancaq Elməddinin düzəltdiyi başdaşı qəbiristanlığa gələnləri hüznlə ayaq saxlamağa məcbur edirdi. Doğrudan da Yusifin dərdi adam qocaldan dərd idi: bunu ana da, qardaş da, Əfsanə də dərindən-dərinə duyur, anlayırdı və anlaya-anlaya saatbasaat, günbəgün qocalırdılar.

Qəbir köhnəlir, çökürdü—ancaq dərd köhnəlmirdi. Dərd yandırır, sızladır, ağladırdı. Yusifi Cahan arvad öz əli ilə qətlə yetirsəydi, bəlkə də bu ağrı onları belə göynətməzdi. «Öldürmüşdü, onu da öldürdülər»—deyə bəlkə də bir təskinlik tapmaq olardı. Ancaq belə, bağışlanandan sonra, qəflətən ölməyinə ana da, qardaş da, Əfsanə də heç cür inana bilmirdilər. Onlara elə gəlirdi ki, Yusif doğrudan da, bayılıb, haçansa özünə gələcək və təzədən torpağın altından dikəlib evinə, ailəsinin yanına qayıdacaqdı. Vaxt keçir, ancaq Yusif qayıtmırdı, qayıtmayacaqdı da.

Səbihə arvad atasını, anasını, ərini dəfn edəndə belə göynədici sızıltı, varlığını yandırıb-yaxan, yerə-göyə-nifrət yağdırmağa çağıran ağrı hiss eləməmişdi. Bu ağrını cavan oğlunu öz əllərilə torpağa tapşırmış analar duya bilərlər!!

...Soyuq nəfəsli payız gəlmişdi. Ağaclar yaşıl yarpaqlarını töküb çılpaqlaşmış, adamlar isə qalın geyinməyə başlamışdı. Tez-tez yağışlar yağırdı. Dolu da düşürdü. Ağ noğul dənələri kimi iri, bərk dolu...

Dərdsiz, qayğısız adamlar belə payızda, yağışlı, çiskinli günlərdə qəmlənirlər. Dərdli adamların isə dərdi daha da çoxalır, evlərində kədər, ürəklərində hüzn, ələm yuva salır.

Payızın girməsi ilə Səbihənin dərdi aşıb-daşmışdı. Yusifin yoxluğu daha artıq nəzərə çarpırdı. O biri yandan da ana üçün Cahan arvad ilə üz-üzə gəlmək, səsini-sözünü eşitmək çox çətin idi. Cahan arvadı görəndə o hər şeyi bütün təfərrüatı ilə xatırlayırdı — Yusifin anadan olandan həlak olduğu günəcən bütün həyatı birər-birər gözünün qabağından keçir və arvadın əsəbləri möhkəm gərilirdi. İxtiyarsız olaraq göz yaşları axmağa başlayırdı. Cahan arvadı qınayan az idi. O, ana kimi öz ciyərparasının qanını almaq istəyirdi. Son ana— Yusifi bağışlayana qədər hamı ona bir cəllad kimi baxır, daşürəklikdə qınayırdı. Ancaq lap son anda ürəyində baş qaldırmış insanlıq hissi onu camaatın da, Səbihənin də gözündə ucaltmışdı. Elə ucaltmışdı ki, Elməddin də, Əfsanə də, Səbihə də, Yusifin dostları da ona səcdə eləməyə hazır idilər.

Lakin... Yusifin qəfil ölümü hamını çaşbaş saldı, toy-bayrama çevriləcək bir mərasim yasa döndü.

Səbihə arvad hadisədən xeyli keçməsinə baxmayaraq Cahan arvada münasibətini müəyyənləşdirə bilmirdi. Gah ona yazığı gəlir, oğlu ölmüş bir ana kimi onun halına acıyır, dərdinə qalırdı, gah da öz balasının ölümündə onu günahkar sayır, ürəyində Cahan arvada kin-küdurət hissi coşub-çağlayırdı. Səbihə arvad özünün bu dəyişkən, təzadlı halından baş açа bilmirdi, qətiyyən baş açа bilmirdi.

Sonralar baş vermiş hadisə Səbihənin dərdini azca yüngülləşdirdi. Sən demə, Cahan arvadın öz əsəbləri çox möhkəm deyilmiş, taleyindən ağır zərbələr dadmış arvadın hərəkətlərində, danışıqlarında indiyəcən heç kəsin görmədiyi qəribəliklər meydana çıxdı. Bu, əvvəl Səbihəni acıqlandırdı, ancaq sonra Molla Qulu onu başa salanda nə qədər qəribə olsa da, Səbihə uşaq kimi sevindi.

Molla Qulu ona demişdi:

«Cahan arvad dəli olub!»

...Yusifin ölümündən sonra Cahan arvad hücrəsinə çəkilmişdi. Elə bil arvad oğlunun qatilinin nagahani vəfatından sonra qeyb olmuşdu və ya ağır, çətin döyüşlərdə-qələbə qazanmış qəhrəmanlar kimi istirahətə çıxmışdı.

Amma əslində belə deyildi. Oğlunun ölümündən keçən müddət ərzində əzab-əziyyət, qəm-qüssə, kimsəsizlik əlində yanıb-qovrulan, gecələr səhərəcən göz qırpmayan, öz-özünə ağlaya-ağlaya danışan, intiqam saatını səbirsizliklə gözləyən Cahan arvadın bütün gücü-taqəti itmişdi. Yeməkdən qalmışdı. Gözləri zəiflikdən qaranlıq gətirir, dizləri titrəyirdi. Onu təkcə intiqam eşqi yaşadırmış — bu arzusu-

na çatandan sonra ölsəydi də, eybi yox idi. Amma o günü görməmiş arvad ölmək istəmirdi, əcəllə, əzraillə də-cəng eləyib intiqam gününəcən yaşamaq üçün möhlət almağa hazır idi.

Nəhayət, o gün gəlib çatdı: düzdür, o əlini qana bulamadı, ancaq oğlunun qatilinin ölümünü gözlərilə görüb rahat oldu. Həmin məşum mərasimə gələndə Cahan arvad özünü quş kimi yüngül və qıvraq hiss eləyirdi: süstlük, yorğunluq yerini sevinc qarışıq gümrahlığa vermişdi.

Amma o mərasimdən sonra...

Cahan arvadın ikinci faciəsi sonra başladı. Əsəb telləri taleyin rəhmsiz əllərilə baş tükü kimi qarışdırılıb parakəndə salındı. Və məhz onda arvadın danışığında, hərəkətlərində nizamsızlıq, qeyri-adilik zühur elədi. Görünür, oğlunun ölümündən əlavə, Yusifin ölümü də ona az təsir etməmişdi. Cahan arvad hərdən sevinirdi ki, nə yaxşı, onu bağışladı. Onsuz da o, öləcəkmiş, Cahanın əlində ölmədi. Amma yenə fikri dolanır, özünü Yusifin ölümündə günahkar sayırdı. Yusif xəyala, kölgəyə dönmüşdü, gecə-gündüz, ayıq vaxtı da, yuxuda da Cahan arvaddan əl çəkmir, nəsə anlaşılmaz sözlər deyirdi. Arvad nə qədər çalışırdısa, bu xəyalı özündən uzaqlaşdıra bilmir, qaçmağa yer axtarırdı. Lakin hara gedirdisə, nə eləyirdisə Yusifin şəkli onun gözləri önündən çəkilib getmir, beynindən, ürəyindən çıxmırdı. Belə hallarda o, üz tutub qəbiristanlığa yollanır, oğlunun məzarı üstə oturub ağlayır, öz-özünə danışıb gözlərini də, qəlbini də boşaldırdı. Qəbiristanlıqdan çıxanda sanki Yusif də qəbirdən qalxıb onun dalınca düşür, nəsə deyə-deyə Cahanla birgə kəndə qayıdırdı. Səbihəgilin evinin yanından keçəndə Yusifin xəyalı öz evlərinə dönmür, Cahan arvadın beynində, ürəyində birbaş onlara gəlirdi. Bu zaman Cahan arvad hövllənir, canını qoymağa yer tapmır, dəli kimi ora-bura vurnuxur, nə etdiyini özü də bilmirdi.

Payız səhərlərinin birində Cahan arvad qəbir üstünə getmək məqsədilə evdən çıxdı. Yolunu Səbihəgilin evinin yanından saldı, araya düşmənçilik düşməmişdən qabaq olduğu kimi, doqqazın qabağında dayanıb səsləndi: - Ay Səbihə, ay Səbihə.

Səbihə doqqazın ağzına gəlib Cahan arvadı görəndə, təəccüb içində çaşıb qaldı.

Cahan arvad heç bir şey olmamış təki:

— Səlaməleyküm! — dedi.

— …

— Deyirəm, qəbir üstünə gedirəm, kedək uşaqların məzarını ziyarət eləyək. Haçandı getmirik!—Amma dünən getmişdi.

Səbihəyə elə gəldi ki, Cahan ona acıq verir, yarasının qaysağını qopartmaq istəyir. Odur ki, dəli bir hərəkətlə-özünü saxlaya bilməyib Cahanın üstünə cumdu:

—İtil cəhənnəmə, səni görəndə gözüm ağrıyır.

Səbihənin üstünə şığıdığını görən Cahan arvad ciddiləşdi, tumanının balağını əlinə yığıb qaçmağa üz qoydu. Qaça-qaça ucadan qəhqəhə çəkib gülürdü. Bu, onun ilk qeyri-adi gülüşü idi ki, Ədnan camaatı eşidirdi. Həyət-bacadakı uşaq-böyük küçəyə, darvaza ağzına çıxmışdı, ona baxırdı. Səbihənin daha təqib eləmədiyini görüb qaçmağına ara verdi, ancaq gülüşünə yox.

Saqqalına həna qoymuş Molla Qulu irəli yeriyib Cahanın yanına gəldi, xırda gözlərini geniş açıb arvada diqqətlə fikir verərək bir şey öyrənməyə çalışdı. Lakin heç nə başa düşmədiyinə görə soruşdu:

— Nə olub, ay Cahan? Cahan gülə-gülə:

— Necə yanı nə olub, ay Molla Qulu? Vay sənin Molla Qulu. Ə kişi, qəbir üstünə gedirəm ey, Zümrəy çağırıb, deyir, sənsiz darıxıram, yanıma gəl. Özün bilirsən, Zümrəy Yusifnən danışmır, küsülüdür. Bilirsən də dava eləyiblər axı! Daha kimnən danışacaq? Gedək, sən öz oğlunla görüşərsən, mən də öz oğlumla. Gedək.

«Arvadın başına hava gəlib» — deyə ürəyindən keçirən Molla Qulu mümkün qədər aram səslə dedi:

— Mənim oğlum ölməyib, Cahan.

— Ölməyib? Xa, xa, xa, əşi, nə olsun, ölməyib, öləcək də. Gedək. — Molla Qulu onu qaytarıb evinə gətirmək istədi. Ancaq arvad boyun qoymadı və yola düzəlib getdi. Molla Qulu doqqaz ağzında dayanmış Səbihəyə yanaşdı:

— Arvad dəli olub, Səbihə, — dedi.

— Doğrudan?

— Vallah, danışığını, sözünü bilmir. Səbihə sevincini gizlətmədi:

— Qurban olum Allaha, qəzəb elədi ona. Nəzirim qəbul olundu. Sənə inanmayana lənət, xudaya.

Onlar qanrılıb Cahanın getdiyi səmtə baxanda gördülər ki, kəndin səkkiz-on yaşlı uşaqları onu dövrəyə alıblar: çırtıq çalır, Cahan sol əlini göyə qaldırıb, sağ əlilə də tumanının ətəyindən tutaraq şirin-şirin oynayır, arabir də şaqqanaq çəkib gülür.

Molla Qulu sözü düz çıxmış adam kimi dedi:

— Gördün?!

— Gördüm, Molla Qulu, gördüm!

...Bu xəbər tezliklə butün Ədnan kəndinə yayıldı: «Cahan arvad dəli olub!».

Xüsusən uşaqlar üçün böyük bir əyləncə tapılmışdı. Cahan arvad evdən çıxan kimi onun başına cəmlənir, dövrə vurub çalıb-çağırırdılar, o da oxuyub oynayırdı.

Evdən çıxanda həmişə deyərdi:

—«Qəbir üstünə». — Ancaq başı oynamağa-oxumağa elə qarışırdı ki, qəbiristanlığa getmək yadından çıxırdı. Hamı Cahan arvadın bu halına acıyırdı.

...Bir ay sonra qəryədar Qulamın məsləhəti və köməyilə, Cahan arvadı vilayət mərkəzindən gəlmiş maşında dəlixanaya apardılar.

Ədnan kəndində bir evin qapısından qıfıl asıldı... O qıfıl bir də açılacaqdımı?

İKİNCİ FƏSİL

Ağ dağın başında ötən ildən qalan xarlanmış, qurdlamış qarın üstünə təzə qar yağmışdı, amma ətəklərində yerləşən kəndlərdə, obalarda qızıl payız hökmranlıq eləyirdi. Gündüz havalar mülayim keçsə də, gün əyiləndən sonra soyuyur, gecələr səkilərdə, damlarda yatan adamlar üstlərinə yorğan örtürdülər. Payızın soyuq nəfəsi ağacların saçına daraq çəkmişdi. Qış addım-addım dağların zirvəsindən sürüşüb aşağı enirdi.

Sarsıntılı anlar, günlər, dəqiqələr arxada qalmışdı.

Hamıdan çox Elməddin ötüb keçən o dəmləri ürəyinə salıb unuda bilmirdi. O zaman — neçə ay bundan qabaq hadisələr-elə sürətlə, gözlənilmədən baş vermişdi ki, ayrı-ayrılıqda onların heç biri haqqında əməlli-başlı düşünüb daşınmağa belə macal olmamışdı. İndi, zaman keçdikcə, başqaları bu hadisələrdən uzaqlaşdıqca, unutduqca Elməddin təzədən təkrar-təkrar o günlərə qayıdır, hər kiçik şeyi yenidən götür-qoy eləyir, fikrən o çağlarda yaşayırdı. Sanki onun üçün bu gün yox idi, təkcə dünən vardı, macəralı, əzablı-iztirablı keçmiş vardı. Və bu dünən, bu keçmiş onu elə bil müdrikləşdirmiş, böyütmüş, kişiləşdirmişdi. İndi o, ətrafına— anasına, Əfsanəyə, gündə iki-üç dəfə üz-üzə gəldiyi, zahirən sakit, mülayim, rəhmdil, əslində isə Ədnan camaatının hakimi-mütləqi olan qəryədar Qulama,

pulu hər şeydən çox istəyən Həzrətgülə ayrı bir nəzərlə baxırdı. İndi o, qardaşı Yusifi də «mühakimə» eləyirdi. Elməddinin fikrincə, Yusif ağılsız adam deyildi; xeyrini-şərini, gəlirini-çıxarını ölçüb-biçəndi. Evin, ailənin xatirinə özünü oda-gözə vurmağa da hazır idi. Ancaq... çox cüzi, mənasız bir şeyin üstündə başını bıçaq altına qoydu. Necə oldu ki, o, düşünüb-daşınmadan hərəkət etdi, əlini insan qanına buladı? Elməddin bu qərara gəlirdi ki, insanda həmişə iki xislət, iki təbiət olur: insanlıq və vəhşilik təbiəti. İnsanın ürəyində bardaş qurub oturmuş vəhşilik özünü çox nadir hallarda göstərir — hirslənəndə, müharibələrdə, çılğınlaşanda, gözünü qan tutanda. Yoxsa insan zatən bu qanlı işlərə əl atmaz.

Budur, Cahan arvadın özü. Hamı onu ağıllı, mehriban bir ana kimi tanıyırdı. Kimin ağlına gələrdi ki, Cahan arvad əlinə xəncər götürüb cəlladsayağı insan başı da kəsmək istəyər. Özü də Yusif kimi bir oğlanın... Çünki vəhşilik hissləri insani duyğuları itələyib yerinə keçmək-istəyir, Cahan arvadı cinayətə sövq eləyirdi.

Elməddin fikirləşirdi—insan ən uca, ən ali, yetkin bir məxluqdur; o, eyni zamanda, ən alçaq, ən rəzil işlər də görməyə qadirdir. Bəli, bir tərəfdən uca, əlçatmaz. O biri tərəfdən də ən alçaq, rəzil, nifrətlərə, layiq. Ayağı çirkablarda, başı ucalıqlarda. Bu fikirlər Elməddini yormuşdu. Unutmaq, bu daxili sorğu-suallardan yaxa qurtarmaq istəyirdi. Lakin bacarmırdı, onun üçün düşünməmək lazım idi, — Elməddin bax, bunu bacarmırdı, bacara bilmirdi. Elməddinin fikri göylərdə, keçmişlərdə nə qədər cövlan eləsə də, axırı yerlərə enir, evin yeganə başıpapaqlısı olduğunu dərk edir, boynuna düşən yeni vəzifələri götür-qoy eləməyə başlayırdı. Bəli, Yusifin ölümündən sonra ailənin bütün yükü, dolanışığı, əkin-biçini, mal-qarası, bazarlığı onun boynuna düşmüşdü. Yusifin sağlığında da işlərin çoxunu o özü görürdü. Yusif necə olsa da arxasında bir dağ kimi dayanmışdı: qayğısı az idi. İndi isə... Elməddinin fikri fürsət düşən kimi, bu sakit, ətalət gətirən guşədən qanad açıb uçmaq, qaynar şəhər həyatına qovuşmaq olmuşdu. Bu arzu onun ürəyinin ən böyük istəklərindən idi. Yusifin sağlığında hərdən yolu balaca vilayət mərkəzinə düşəndə özünü xoşbəxt sayırdı. Bu, hələ vilayət mərkəzi idi. Cəmi bir kinoteatrı, bir xudmani parkı vardı. Üç göy günbəzli məscidi uzaqdan adamın nəzərini cəlb eləyirdi. Hər necə də olsa şəhər idi. Ədnan kəndi deyildi. Elməddin balaca şəhərə baxıb paytaxtı xəyalına gətirir, qilü-qallı küçələrini, parklarını, cah-cəlallı imarətlərini fikrində canlandırır, düşüncəsində işıqlara qərq olmuş bir şəhər yaradırdı. Yusif

onu kəndə qaytaranda aqyağının biri gedirdi, biri yox. Ürəyi şəhərdə qalırdı. Neçə gün şəhər havası, xülyası başından çıxmırdı. Sonra yavaş-yavaş hər şey öz adi qaydasına gəlib düşür, Elməddinin başı qəryədar Qulamın yazı-pozusuna, həyət-bacanın işinə qarışırdı.

Bəli, indi isə, yaranmış yeni vəziyyət onun bu arzusunun üstündən rəhmsizcəsinə qələm çəkirdi: şəhərə uzanan yol onun üzünə bağlanırdı; o, anasını, mərhum qardaşının dul qalmış arvadını özü ilə şəhərə apara bilməzdi. Çünki mənzil tapmaq şəhərdə çətin məsələ idi və çoxlu pul tələb eləyirdi. Onları kənddə qoyub getmək də olmazdı. İki başıləçəklini dörd divar arasında kimsəsiz qoyub getməyi öz mənliyinə sığışdıra bilmirdi.

Anası isə iki ayağını bir başmağa dirəyib Elməddini anlamaq nstəmirdi:

— Nə var şəhərdə, ay ömrüm-günüm? — deyirdi. — Ata yurdunu viranmı qoymaq istəyirsən? Səlim kişinin çırağını yandırası bir adam qalıbsa, o da sənsən, canım-ciyərim. O dükanı da yaxşı elədin satdın. Yusifi elə şəhər xaraba əlimizdən almadımı? Ora getməsəydi, çərs-mərs zəhrimarı da çəkməzdi, heç bir şeyin üstündə xalqın uşağını da vurub öldürməzdi, bizi gözüyaşlı qoymazdı! Getmə, bala, şəhərə, şəhər adı tutma mənim yanımda.

Səbihənin yalvarış qarışıq qətiyyətlə söylədiyi bu sözləri Elməddin ağır, ürəyindəki işıqlı arzuları öldürə biləcək bir hökm kimi dinlədi; ala gözlərini qırpmadan, anasının qırışmış sifətinə, dolmuş gözlərinə, ağarmış birçəyinə baxaraq fikrə getdi; onlar ötüb-keçdikcə qabağında oturub cavab gözləyən ana yavaş-yavaş əridi, kiçildi, nəhayət, yox oldu, yerində ondan o tərəfdə işıqları göz qamaşdıran, yaşıllıqlara qərq olmuş şəhər canlandı. Elməddin xəyal aləmindən ayrılanda qənşərindəki anasına baxdı, bədənini soyuq bir rəşə sardı, gözləri alacalandı.. Birdən o, dəli kimi ayağa qalxıb demək olar ki, qışqıra-qışqıra:

— Yox, ana, mən gedəcəyəm, — dedi, — gedəcəyəm, bildin? Ge...də...cəyəm!! — sonra səsini alçaldıb anasını başa salmaq istəyirmiş təki aramla əlavə etdi,—Mən burada qalmaq istəmirəm. Hara baxıram Yusifi görürəm, hər şey mənə onu xatırladır. Evə gəlirəm, Yusifin səsi məni rahat buraxmır; çölə çıxıram, həmçinin. Qəryədar Qulamın yanında işləmək də məni bezikdirib. Onun pambıqla baş kəsməyinə daha dözə bilmirəm.

—Bıy, başıma xeyir, əstəğfürulla de, bala, — Səbihə arvad qəryədar Qulamın barəsində oğlunun indi ucadan söylədiyi sözləri

kənar adamların eşidə biləcəyindən ehtiyat edərək qapıya sarı boylanıb əlini ağzına apardı: —Xamuş ol, bala. Eşidib-eləyən olar, bizi bədbəxt eləyərsən. Özün ki bilirsən onun xasiyyətini, sonra bizə göz verər, işıq verməz. Bir də ki, o yazıq sənə pislik eləməyib ha. İş verib, bir tikə çörək sahibi eləyib. Hələ yazıq Yusifin işində nə qədər çalışdı, minnətə getdi. Bu da onun haqqı-sayıdı ki, ovcuna qoyursan? Adamın başının üstündə allah var, oğul.

— Var, var, ana, təki sən deyən olsun,—deyən Elməddin köks ötürərək bayıra çıxdı. Çöldə heç olmasa təmiz, ciyərdolusu udmaq üçün hava vardı.

ÜÇÜNCÜ FƏSİL

Payızın son günü idi. Duman dağlardan üzüaşağı sallanır, Ədnanın üstünü alırdı. Havadan yağış qoxusu gəlirdi, ara-sıra haralardasa göy guruldayır, uzaqlarda qızılı şimşəklər bulud laylarını yarıb göyləri titrədirdi. Amma güclü yağış əvəzinə çiskin başladı. Sanki payız ömrünün son dəqiqələrini yaşayan qoca kimi ağlayırdı; ürəkdolusu ağlamaq üçün göz yaşı qalmamış qoca kimi...

Səbihə əkin yerindən, bağ-bağçadan yığdığı ələf-əncəri islanmasın deyə çardağın altına yığa-yığa Elməddinin o günkü qəti cavabı barədə düşünürdü: «Gedəcəyəm». O, oğlunun xasiyyətini hər kəsdən daha yaxşı bilirdi: ağlına bir şey düşməsin, düşdümü, onu yerinə yetirməyincə rahat olan deyildi. İnadkarlıq, sözündən dönməzlik onun uşaqlıqdan canına-qanına hopmuşdu.

«Getsə, tək-tənha, dörd divar arasında iki başıləçəkli neyləyəcək? Yox, onu heç yerə buraxan deyiləm. Yusifim də getdi, qəryədar Qulam demiş, şəhər xarabada korlandı. Bıçaq gəzdirmək nə idi. Yusif nə idi. Burada olanda heç nəsvar da çəkmirdi. O xarabada öyrəndi. Yox, öldü var, döndü yoxdur, gözümün bircə ağı-qarası qalıb, onu da o biri kimi bədbəxt eləyib sonra dizlərimi qucaqlayaraq məlul-müşkül otura bilmərəm».

Bu vaxt darvaza ağzında səs eşidildi:

— Allah qonağı istəyirsənmi, ay Səbihə bacı?

Səbihə çardağın altından çıxıb qapıya sarı gələ-gələ:

— Allaha da qurban, qonağına da, — dedi. — Gəlin içəri, ay Həzrətgül qardaş.

Həzrətgül tək deyildi: dalınca iki çarşablı arvad da həyətə girdi. Səbihə onları o dəqiqə tanıdı: Həzrətgülün arvadları idilər.

Səbihə arvad üzünü içəri tutdu:

— Ay gəlin, ay gəlin, bir çölə çıx, gör kimlər gəlib.

Əfsanə qapı ağzında göründü, dayısını və onun arvadlarını görüb irəli yeridi, əvvəl Həzrətgülün əlini öpdü, sonra da Xədicə ilə görüşdü. Nazəninlə isə öpüşdü. Onlar səkidə oturdular. Bir-birindən hal-əhval tutdular, güzəranını soruşdular. Səbihə arvad gah Həzrətgülün, gah da arvadlarının üzünə baxır, bu gəlişin səbəbini öyrənməyə çalışırdı. Lakin hələ onlar o yandan-bu yandan söhbət edir, əsil mətləb üstünə gəlmirdilər. «Bəlkə elə belə, dəyməyə gəliblər? — deyə Səbihə fikrən vurnuxurdu.

Çox keçmədi, Elməddin gəlib çıxdı. Evdəki qonaqlarla ədəb-ərkanla görüşəndən sonra həyətə enib tayanın yanında eşələnən qırmızıpipik xoruzu ağacla vurub sərdi. Səbihə arvad heyfsilənsə də heç nə demədi, üzünü gəlinə tutub:

— Dur ayağa, qızım, o xoruzu tutub təmizlə, yaxşıca qızart, — dedi.

Əfsanə Nazəninə baxıb gülümsəyərək qalxdı, işinin dalınca getdi.

Həzrətgül qara təsbehini çevirə-çevirə neçə gündən bəri götür qoy elədiyi məsələnin üstünə birdən-birə gəlmədi.

— Səbihə bacı, biz qohum olduq, demək olduq birevli. Necə deyərlər, su girdi qaba, oldu içməli. Bizim uşaqlar,— o, arvadlarına işarə etdi, — bir məsləhət üçün sizin yanınıza gəliblər.

Səbihə dikəldi, maraqla qulaq asmağa başladı. — Ürəyindəi keçirirdi: «Dedim axı, bu gəliş bica olmaz. Həzrətgül tacir adamdı, xeyrini-şərini ölçüb-biçməmiş evdən çölə addım atmaz!» Nazənin söhbətin başlandığını görəndə qalxıb Əfsanənin yanına getdi. Əfsanə tövlənin qabağında oturub isti qazandan çıxartdığı xoruzun tügünü yolurdu. Nazəninin gəldiyini görüb əl saxladı.

— Necəsən, qurban olum, Nazı, — deyə bu dünyada ən istəkli adamını görmüş təki məsumluqla güldü.

— Yaxşıyam, bacı. Sənin günün-güzaranın necədir?

— Gördüyün kimi. Qarabəxt imişəm mən, bacı, qarabəxt imişəm.

— Yaxşı, yaxşı, gözün dolmasın. Dünyanın işi belədir. Heç kəsin səadəti, xoşbəxtliyi kamil deyil. Yer üzünü gəzsən, görərsən ki, hərənin bir dərdi, bir qəmi var. Sənə nə olub, şükür allaha, hələ cavansan, qocalmayıbsan, qarımayıbsan. Budur, kişi gəlib, — o, səsini alçaldıb o yan-bu yana baxdı, — gəlib ki, səni evimizə aparsın. Deyəsən istəyən var.

Əfsanənin üzündə qorxuya, təşvişəbənzər bir ifadə yarandı. Ani olaraq nə edəcəyini kəsdirə bilmədi. Handan-hana:

— Məni yenə satmaq istəyir? — dedi.

— Deyəsən, bir pullu, varlı, karlı adam tapıb. Adını birtəhər dedi ey, yadımda qalmadı.

— Yox, bacı, mən heç kəsə ərə gedən deyiləm.

— Onlar səni əvvəl «evimizə gedirsən» — adıyla aparmaq istəyirlər.

— Mən bir daha o cəhənnəmə gedəsi deyiləm. Adam bir dəfə yanar.

Nazənin yavaşdan soruşdu:

— Bəs Elməddin hərəkətə gəlmir? Heç qımıldanmır?

— Yox. Ancaq sevməyinə sevir,

— Yenə əvvəlki məhəbbətlə sevir?

— Nə deyim, vallah. Məndən qaçmağına qaçır, ancaq ürəyimə gəlir ki, mən onun yadından çıxmamışam,

— Sənin özündə də çoxdu ha, — deyə Nazənin bic-bic güldü, — gərək səndə də hərəkət olsun. Kişini gərək özünə tərəf çəkə biləsən. Bir az gərək siyasətin olsun.

— Bacarmıram, ay Nazı. Elə bilirəm artıq bir hərəkət eləsəm, Yusif gəlib deyəcək, utanmırsan? Hələ heç meyitim də soyumayıb. Elməddii özü də qardaşının xətrini çox istəyirdi, indi istəməsin. O, mənə qardaşının arvadı kimi baxır. Çətin başqa gözlə baxa bilsin.

— Darıxma, yavaş-yavaş Yusif unudulacaq. Elməddinin evlənmək məqamı çatanda elin adətincə səni də ona təklif eləyəcəklər. Bəlkə...

— Nə bilim, ay Nazı. Amma o, ölənəcən mənim ürəyimdən çıxmayacaq. Heç yadımdan çıxara bilmirəm. Deyir, şəhərə getmək istəyir. Getsə, heç bilmirəm mən necə qalacağam. Yenə gözüm görür, ürəyim sakit olurdu.

Nazənini səslədilər. O, oturanların yanına gələndə Səbihə deyirdi:

— Bu elə məsələdir ki, mən onu məcbur edə bilmərəm. Deyə bilmərəm ki, mənim evimdən getsin. Gəlinimdi, özü də Allah saxlamış, ağıllı-kamallı uşaqdı. Özünə də demişəm, haçan meylin çəksə, gedə bilərsən. Deyib yox, xala, mən bu evdən heç yerə gedən deyiləm.— Üç-dörd həftə bundan qabaq deyilmiş bu sözləri indi təkrar eləyəndə sanki Səbihə arvadın beynində bir işıq yandı: çoxdan axtardığı çıxış yolunu tapdı: Elməddini evləndirsin, Əfsanəni evdən bu-

raxmasın. Onda oğlu evə bağlanacaq və heç yana getməyəcək. — Arvad səsini qaldırıb dedi:

— İnanmırsınız çağırın, özündən soruşun. — Belə dedi və qorxdu. Birdən Əfsanə «gedirəm!» — dedi. Bəs onda necə?

Əfsanə Həzrətgülün təklifini başıaşağı dinlədi, azca duruxub sakit və qəti bir səslə bildirdi:

— Yox, mən heç yerə getmək istəmirəm.

Səbihə arvadın ürəyi yerinə gəldi. Nədənsə, bayaqdan bu söhbəti oturub dinləyən Elməddin də üstündən dağ götürülmüş kimi rahat nəfəs aldı. Həzrətgülün qara saqqalı-bığı arasında görünən nazik, qırmızı dodağı nar yarpağı kimi əsirdi. Xədicə qapqara bulud kimi dolmuşdu. Nazənin isə sevinirdi...

DÖRDÜNCÜ FƏSİL

Çarə tapılmışdı. İndi Elməddini buralarda saxlamaq üçün yalvarıb-yaxarmaq, əl-ayağına düşmək lazım deyildi. Sadəcə olaraq onu evləndirmək gərəkdi. Səbihə yaxşı bilirdi ki, kişilər (hər halda böyük əksəriyyəti) arvadcanlı olur. Elməddin də artıq kişilik həddinə çatmış bir cavandı. Şübhəsiz, onun da belə bir fikri olmamış deyildi. Bundan əlavə, o gün Həzrətgül gedəndən sonra dəsmalının yadından çıxıb qaldığını bəhanə edərək geri qayıdan Nazənin Səbihə arvadın qulağına pıçıldamışdı: «Sənin deyəsən əsl mətləbdən xəbərin yoxdu, xala».

«Nə mətləb, qız?»—deyə Səbihə maraqla soruşanda Nazənin qayıdıb cavab vermişdi ki, «hələ Yusif rəhmətlikdəi qabaq Əfsanəni Elməddin istəyirdi. Uşaq açıb-ağartmağa imkan tapmadı, Yusif qabağa düşdü, qızı aldı. Daha bu yazıq da səsini çıxara bilmədi. Bildin, məsələ belə olub. İndi... hazır gəlindi, oturub evində. Uşağın əl-ayağını bir yerə yığ, qoy yaşasınlar... Əfsanə də onu istəyirdi. Hətta siz elçiliyə gələndə biçarə elə bilmişdi ki, onu Elməddin üçün alırsınız».

— «Həə?» — deyə təzə xəbəri eşidən ana ağlamsınmışdı.

Səbihə arvad o gündən oğluna, gəlininə, onların oturuşuna fikir verməyə başlamışdı. Onun oğluna yazığı gəlirdi. «Arzusu-muradı ürəyində-gözündə qalan balam» — deyə özlüyündə Elməddinin boyunu oxşayırdı. Lakin ana nə oğlunun, nə də gəlinin hərəkətlərində qeyri-adi bir şey hiss eləmirdi. Elməddin ümumən az danışırdı. İşə gedib-gəlir, əlinə düşən kitabı, qəzeti oxuyur, həyət-bacada qurdalanırdı.

Ana gəlinin iş-kücünə fikir verə-verə düşünürdü: «Sən demə, arada uzun həngamə varmış. Oğlum Əfsanəni istəyirmiş. Deyirəm axı. Yusif evlənəndən sonra uşaq ev-eşiyə sığışmırdı, xəstə adam kimi gündən-günə solub-saralırdı. Dərdi varmış uşaqcığazımın... Soruşuram da, heç nə demir. Mən də dünyadan bixəbər. Nə bilim, mən canıyanmış, hardan bilim? Yox, daha Əfsanəni heç yerə buraxmaram. Hazır gəlindi oturub evimdə. Bir oğlum ölüb, o biri ki, şükür allaha, sağdı. Qoy ili çıxsın Yusifin, kəbinlərini kəsdirərəm. Başqasını almalıdı bu uşaq, ya yox? Buna filan qədər pul lazımdı. Hardan tapacağam? Olan-qalanımızı yığıb verdik Həzrətgülə. Yasa hələ nə qədər getdi. Qoymaram su sonası kimi gəlin başqasının çırağını yandırsın. Allahın əmri, peyğəmbərin buyruğudur: «qardaş öldüsə, o biri qardaş onun övrətini ala bilər». Səbihə arvad indi bu izdivacı əsaslandırmaq üçün söykənəcək axtarırdı. Belə bir söykənəcək isə vardı. «İslam-şərifin qanuni-müqəddəsi buna icazə verir və bizim yerlərdə də bu rəvacdır».

Qəti qərara gəlmiş Səbihə arvad həyətdə toyuq hininin ağzını bağlayan Əfsanəni yanına çağırdı:

— Gəl otur yanımda, bala,—deyə həmişə, hay-küylə danışan arvad, bu dəfə mehriban, mülayim bir ədayla sözə başladı.—Sənə sözüm var, qızım.

Əfsanə gəlib oturanda Səbihə neçə saniyə heç nə demədən gəlinin ağ üzünə, yaraşıqlı gərdəninə, qabarıq-qalxmış sinəsinə diqqətlə baxıb fikrən onun çox gözəl olduğunu bir daha təsdiqləyib boğazını kişi kimi arıdaraq sözə başladı:

— Yusif mənim oğlum idi, sənin ərin. Mənim ağılsızlığım ucundan balam əlimdən getdi və bizim hamımızı cigərxun elədi. Amma atalar deyib ki, ölənlə ölmək olmaz, yaşayanla yaşamaq lazımdı. Sən də cavansan. Sənin hələ nə yaşın var? Ömrün, cavanlığın hələ qabaqdadır. Bu sinnində dul qalmaq, saçının birini ağ, birini qara hörmək müşkül işdi, qızım. Bu, Allah-taalanın qoyduğu qanunlara da müğayirdi. Ona görə Məhəmməd səllalahüəleyhüsəlamın gözəl şəriətində deyilir ki, hər kəs dul qalmış zənən xeylağının başmağını çevirib ərə getməsinə icazə verməsə, o dünyada yeri cəhənnəmdi. Hə, lap elə-belə yazılıb Qurani-şərifdə.

Əfsanə çiynindən dizinin üstünə düşmüş saçının ucunu didişdirə-didişdirə:

— Yox, xala, mən Yusifdən sonra... heç kəsə ərə getmək istəmirəm, — dedi.

— Sağ ol, qızım. Mən səndən bundan başqa bir cavab eşitməyəcəyimə inanırdım. Ancaq mən sənə özgə adama ərə-getməyi təklif eləmirəm ki...

Əfsanənin ürəyi çırpındı. Arvadın mətləbini anladı, qızardı. Lakin dinmədi, söhbətin dalını gözlədi.

— Deyirəm, Elməddinin də əl-ayağını bir yerə yığmaq vaxtıdır.

— …

— Daha vaxtı çatıb uşağın. Özü də «şəhər-şəhər» deyib durur. O getsə, biz — sənlə mən bu damın altında tək qalacağıq. Bu bizim üçün çox müşkül olar, balaBaşa düşürsən nə deyirəm, qızım?

— …

Əfsanə mızıldandı:

— Mən demirəm ki, pis oğlandı.

— Kimin qızından yapışsa, göydə verərlər. Nədən ki, ağıllı, huşdu-guşdudu. Oxumuşdu. Qəryədə də izzəti-hörməti. Amma istəmirəm ki, mənim ocağımın başında başqası otursun. Sən öz evimin uşağısan. Xasiyyətin, iş-gücün, səliqə-səhmanın xoşuma gəlir. İstəmirəm ki, bir də sən Həzrətgülün qoltuğuna sığınasan, ya başqa birisinin çırağını yandırasan. Ürəyim götürməz bunu, qızım.

— Həm də əhvalatdan xəbərdaram, qızım.

— Hansı əhvalatdan? — Əfsanə səksəkəli soruşdu.

— Elməddinlə sənin əhvalatından.

Əfsanə pul kimi qızardı:

— Bizim aramızda heç bir əhvalat olmayıb.

— Əhvalat deyəndə ki, bir-birinizi istəməyinizi deyirəm, qızım.

— …

Səbihə də susdu.

Əfsanə çox həyəcanlanmışdı. Ürəyi elə şiddətlə döyünürdü ki, səsini özü də eşidirdi. Doğrudanmı, bu qədər müsibətdən sonra tale onun üzünə gülmək istəyirdi? Ya bu da növbəti bir oyun-qurğu idi?

Əfsanə Elməddinin onu dəlicəsinə sevdiyini billrdi. O özü də Elməddinə qarşı biganə olmamışdı. Hələ Həzrətgülün evində ikən qəlbində yanmış məhəbbət alovları Yusifə ərə gedəndən sonra ölə-zimişdisə də, tamam sönməmişdi, indi isə əvvəlkindən daha artıq hərarətlə alışmağa başlamışdı. Düzdü, Elməddin ona yad gözü ilə baxırdı, hisslərini zorla da olsa boğurdu, buna balmayaraq hisslər, duyğular gözə görünmədən, duyulmadan iki ürək arasında salınmış görpünü möhkəmləndirirdi. Təkcə Yusifin adı, nəfəsi, məhəbbəti aranı kəsmişdi.

— Nə deyirsən, qızım? — Səbihə nigarançılıqla xəbər aldı.

Əfsanə dinmirdi.

— Utanma, bala. Mən də sənin anan, sözünü de. Əfsanə sıxıla-sıxıla, baxışlarını qaldırıb qayınanasının üzünə baxmadan:

— Nə deyim, xala? Sən mənim böyüyümsən, necə məsləhətdi, elə et.

Səbihə Əfsanəni özünə tərəf çəkib alnından öpdü:

— Sağ ol, qızım, sağ ol.

... Ana həmin gün Elməddini yanlayıb ağzını aramaq istədi:

— Oğul, — dedi, — sənə sözüm var.

Elməddin kitabı dizinin üstünə qoydu:

— Buyur, ana.

Burada Səbihə tutuldu. Məsələni birbaşa oğluna deməyin nə qədər çətin olduğunu o, yalnız indicə dərk elədi. Bir ehtiyatsız söz işi korlaya bilərdi, qaş qayırdığı yerdə vurub göz çıxardardı.

— Nə deyirsən?

— Heç, elə bir şey deyil.

— Nəsə sözlü adama oxşayırsan?

— Düzü, belədi ki, oğul, — deyə Səbihə çətinliklə də olsa sözünü dedi. — İstəyirəm səni evləndirəm.

Elməddin qalın qaşlarını çatıb acıqlı bir ifadə ilə anasına xeyli baxdı:

— Evləndirmək istəyirsən məni?..

— Hə, qadan alım, sənin daha vaxtındı. Elməddinin dodaqları səyridi:

— Yusifi dünən basdırmışıq. Hələ heç qəbri köhnəlməyib, ana. Mən indi evlənsəm, el-oba nə deyər? Səbihə tez «səhvini» düzəltdi:

— Mən indi demirəm ha, bu saatcana demirəm ha. Deyirəm yəni yavaş-yavaş hazırlaşsaq, pis olmaz. Ürəyin istəyəni alacaqam sənincün. Kimə meylin varsa, onu. Baxmayacağam, padşah qızıdı, ya gədə qızıdı, atalı, analı, ya da yetimdi!

Elməddin qətiyyətlə cavab verdi:

— Hələ qoy dərdimizi çəkək, ana.

Səbihə ürəyindən keçirtdi:

«Razı olacaq. Nə deyib razı olmayacaq!».

BEŞİNCİ FƏSİL

Yusifin ili çıxmışdı. Ehsanını da vermişdilər. Səbihə arvadla olan söhbətdən sonra Əfsanənin ürəyində, beynində bir qarışıqlıq, narahatlıq yaranmışdı. Ruhi, mənəvi sıxıntıların əzib-solğunlaşdırdığı, taleyinin həmişəlik qara dumanlara büründüyünü zənn edib düşkünləşən, həyatda hər şeyə qarşı marağını itirən gəlinin tutqun fikirlərinə qayınanasının o vaxtkı sözləri sanki nur səpələmişdi. Demək, hələ hər şey qurtarmamışdı. Bu fikir onun özünün kimsəsizliyi, gərəksizliyi haqqındakı düşüncələrinə son qoymuş və gəlində bir canlanma, dirçəliş əmələ gətirmişdi. Birdən-birə alovlanıb şahə qalxmış, sonra birdən-birə rəhmsizcəsinə üstünə su çilənib söndürülmüş duyğuları, o anlaşılmaz, şirin, əzablı duyğuları yenidən baş qaldırmışdı.

Əfsanə indi vaxt-bivaxt Elməddin barədə düşünməyə başlamışdı. Aşkarda qayınanasının yanında o, Elməddinlə danışıb kəlmə kəsə bilmirdi, amma ürəyində həmişə onunla həsbi-halda idi. Elməddini görən kimi, lap qız vaxtlarında olduğu təki uçunur, özünü itirir, qızardığını hiss eləyirdi. Qeyri-iradi olaraq, ürəyi sevinc qarışıq bir qüssə ilə dolurdu. Elməddindən mehriban, xoş söz eşitmək istəsə də, o, daş kimi susurdu. Susmağı o yana qalsın, kirpik qaldırıb, ona baxmaq da istəmirdi. Dəftərxanaya gedir, evə qayıdır, Əfsanəyə isə məhəl qoymurdu. Elə bil o burada yox idi. Bu, Əfsanəni yamanca sıxırdı. Bəlkə o, qardaşının dul qalmış qadınına evlənməyəcəkdi. Beləcə qeyri-müəyyənlik içində günləri, həftələri, ayları yola salır, gələcək taleyini dumanlıqlar içində görə-görə yaşayırdı.

Əfsanənin evdə yeganə əyləncəsi Elməddinin şer dəftərçəsi idi. O, işə gedəndən sonra, Əfsanə əl-ayağını yığışdırıb içəri otağa çəkilir, taxçadan dəftərçəni götürür, pəncərənin qənşərində oturub onun haradansa buraya köçürdüyü təzə şerləri oxuyur, əzbərləyirdi. Əfsanə səhifələri çevirdikcə, elə bil Elməddinlə üzbəüz oturub danışır, dərdləşirdi. Elməddin evə qayıdıb gələndə o, qeyri-iradi olaraq həyəcanlanır, canını qoymağa yer axtarırdı. Səbihənin də hərəkətlərində dönüş əmələ gəlmişdi. Qabaqlar oğlunun çörəyini özü hazırlayıb qabağına qoyardı. İndi isə bu işi gəlinə həvalə eləmişdi. Elməddin qayıdan kimi o:

— Əfsanə, bala, uşağın çörəyini qızdır, süfrə sal,— deyirdi.

Əfsanə uçuna-uçuna Elməddinin çayını, çörəyini hazırlayıb gətirərdi, sonra kölgə kimi gedəndə qayınanası:

— Özün də acsan, bala. Otur Elməddinlə çərəyini ye! — söylərdi.

Əfsanə dodaqaltı nəsə mızıldanıb süfrəyə yaxın gəlməzdi.

— Ağız, yoxsa utanırsan? Özgə adam deyil ki?

Arvadın təkidinə baxmayaraq Əfsanə süfrə qırağında oturmazdı. Bəlkə də oturardı, əgər Elməddinin ağzından «Gəl otur, ac niyə qalırsan» sözləri çıxsaydı. Lakin o dinmir, başını qaldırmadan iştahasız, bir-iki tikə yeyib ayağa dururdu.

Bir gün Elməddin işdən qayıdana yaxın Səbihə arvad çadrasını başını salıb harasa getdi. Beş-on dəqiqə keçməmiş Elməddin evə qayıdanda gəlin ora-bura vurnuxub çadrasını axtardı, lakin tapa bilmədi.

Qapının ağzında onlar qarşılaşdılar. Əfsanənin uzun kirpikli qara gözləri çaşqın nəzərlərlə Elməddinə zilləndi, ağ, solğunlaşmış yanaqları qızardı. Yerində donub qalmış Elməddin gözlərinə inanmırmış təki bir-iki dəfə kirpik çaldı. Bu, həqiqət idi, yuxu ya xəyal deyildi. Elməddin başını aşağı salıb içəri keçdi.

Az sonra Əfsanə yemək gətirdi. Yenə də üzüaçıq. Bu dəfə oğlan üzünü yana çevirmədi. Hürkək-hürkək, kimdənsə qorxurmuş kimi baxışlarını onun üzündə gəzdirdi. Yanaqları allanmışdı, bu, yəqin xəcalətdəndi. Amma özü sınıxmışdı. Baxışları rastlaşanda bir anlığa ikisi də qeyri-iradi olaraq gülümsündü, ancaq heç biri kəlmə kəsməyə cəsarət etmədi. Bəlkə də danışacaqdılar, ancaq bu zaman qapıda hənirti eşidən Əfsanə özünü bayıra atdı, qayınanasını elə səkinin qırağında yaxaladı:

— Çadramı sən aparmısan?

— Hə, özümünkünü tapa bilmədim. Sənինkini götürdüm.

— Elməddin də gəldi, üzü başıaçıq qaldım.

— Eybi yoxdur-, qızım, — deyə Səbihə arvad gülümsündü. — Daha Elməddindən niyə yaşınırsan? Onun yanında daha üzüaçıq gəzməyinə icazə verirəm. — Arvad bu son sözləri çox ucadan dedi. Qəsdən ucadan dedi ki, içəridə Elməddin də eşitsin. Və o, həqiqətən də eşitdi, elə o dəqiqə anasının məqsədini başa düşdü. O, artıq uşaq deyildi və elin-obanın da adətini çox yaxşı bilirdi. Bu, yadına düşən kimi əlini süfrədən çəkdi, boğazı qurudu, ağzındakı tikəni güclə uddu.

«Yox, bu olan iş deyil. Mən qardaşımın arvadıyla necə bir yastığa baş qoya bilərəm?! Ürəyim qəbul etməz!» — deyə Elməddin nə anasının, nə də Əfsanənin üzünə baxmadan həyətdən çıxıb kənd içinə getdi.

ALTINCI FƏSİL

Günlərin birində, səhər yeməyini yeyib hərə öz işinin dalınca gedəndən sonra Nazənin doqqazda göründü. Qəm-qüssə əlində ürəyi sıxılıb havası çatışmayan, dərdləşmək, məsləhətləşmək üçün yanında canıyananı olmayan Əfsanə Nazənini görəndə anası gəlmiş körpə uşaq kimi sevindi. Kövrəlmiş Əfsanə Nazəninin qabağına qaçdı, qolunu boynuna salıb o üzündən-bu üzündən hərarətlə öpdü; səkidəki həsirin üstünə döşəkcə, mütəkkə atdı, əziz qonağı kimi əyləşdirdi. Əslində ona Nazənin anadan, bacıdan əskik deyildi. Nazənin bu yaşda cavanlar üçün az görünən mehribanlığı, istiqanlığı ilə Əfsanənin ürəyində yetimliyin yaratdığı boşluğu müəyyən dərəcədə doldurmuş, sınıq könlündə işıqlı bir inam doğurmuş və beləliklə onu həyata bağlamışdı.

— Allah səni hayandan yetirdi, bacı? Yamanca darıxmışdım. Ürəyim hövl eləyib partlamaq istəyirdi.

— Yenə nə olub, niyə darıxırsan, ay Əfsanə?

— Həzrətgül gecə yuxuma girmişdi. Görürəm qolumdan tutub zorla, sürüyə-sürüyə məni çəkib aparır. Mən ağlaya-ağlaya ayağımı yerə dirəyib deyirəm ki, getmirəm, getmirəm, səni and verirəm allaha, məni aparma. Kişinin ürəyi elə bil daşmış, yumşalmaq bilmir. Birtəhər sürüşüb əlindən çıxmışam, atmışam özümü çaya. Boğulduğum yerdə qan-tər içində ayılmışam.

Nazənin Əfsanənin yuxusunu yozdu:

— Su aydınlıqdı. Özün də çox yaşayacaqsan. Əfsanə ah çəkdi:

— Allah əgər mənə xoş gün qismət eləməyəcəksə, çox yaşamağıma dəyməz. Yoxsa dərd-qəm içində, bir gözü ağlar, bir gözü gülər yaşamaq istəmirəm, bacı.

— Darıxma, hər şey düzələcək. Yaman günün ömrü az olar, bacım. Təzə bir xəbər-zad yoxdu?

— Hara çıxıram ki, təzə xəbər də eşidəm.

— Evdə deyirəm ey,

— Yox, təkcə bu xəbər var ki, Səbihə arvad mənə Elməddinin yanında başı-üzüaçıq gəzməyə icazə verib. Onun çayını-çörəyini daha mən verirəm.

— Hə?

Əfsanənin gözləri səssiz bir gülüşlə parladı.

— Elə lazımdı. Sən hələ cavansan, çox şeyləri bilmirsən. Amma qayınanan dünyagörmüş arvaddı. Kişilərin xasiyyətini səndən də, məndən də yaxşı bilir. Onu qəsdən elə eləyir ki, aranız açılsın, ortadakı pərdə götürülsün.

— Mən də elə başa düşürəm.

— Bilirsən, — deyə Nazənin əkəc arvad kimi sözə başladı. — Kişi xeylağının allahı arvaddı. Əlbəttə, hər cür arvad yox, gözəli-göyçəyi. Əsil kişi gözəl qız, göyçək qadın görəndə biganə qala bilmir. Elməddin də ki, maşallah, şair ruhlu adamdı. Özü də səni sevir. Onun qabağına heç bir qanun-qayda sədd qoya bilməz!

— Elməddin mənə qarşı çox soyuqdur.

— Ona fikir vermə. Necə deyərlər, hələ yara istidir. Bir azdan hər şey unudulub yaddan çıxacaq. Ancaq sən ona qarşı mehriban ol, bacardıqca xoş üz göstər. Hələ dünyada bir kişi qadın tilsimindən yaxa qurtara bilməyib. Ona ərə kedəndən sonra xoşbəxt olacaqsan. Elməddin cavandı, gözəldi, ağıllıdı. Mənim ərim elə cavan olsaydı, nə dərdim vardı ki? — deyə Nazənin yanıqlı bir ah çəkdi. Əfsanə sual dolu nəzərlərlə ona baxanda Nazənin sözünün dalını udmadı: — Sən təsəvvür eləyirsənmi, Əfsanə, Həzrətgüllə mənim aramda otuz üç il fərq var. Az deyil, azacıq deyil. Mən onun kiçik qızı Süsənlə yaşıdam.

Əfsanə sanki uzaqdan tanıdığı bir adam haqda danışırmış kimi dedi:

— Həzrətgül yaxşı qalıb, cavan qalıb.

— Boyu-buxunu yaxşıdı, görkəmi pis deyil. Amma di gəl ki, qocadı. Səndən nə gizlədim, gecələrini mənim yanımda keçirir. Məni qucağına alıb duz kimi yalayır, öpür, oxşayır. O qoca kaftar da elə bilir ki, — Xədicənin dalınca deyindi. — Biz səhərəcən kef eləyirik. Yuxudan ayılıb həyət-bacaya çıxanda iti, pişiyi görməyə gözü olur, məni yox. İnan ki, əlində imkanı, ixtiyarı olsa, tikə-tikə doğrayıb ətimi həyətdəki köpəyin qabağına atar. Mən də ürəyimdə deyirəm, yan-yaxıl, qoca kaftar. Sənin kimi zalımın cəhənnəmi elə bu dünyadadı. Sən elə bu dünyada yanıb kül olacaqsan.

YEDDİNCİ FƏSİL

Elməddin pəncərənin qabağında dayanıb çölə baxırdı. Hər yan ağappaq ağarırdı. Ağaclar, damlar, hasarlar qar altında qalmışdı... Heç təsəvvür eləmək olmurdu ki, bir gecə ərzində yerə bu hündürlükdə qar

düşsün. Amma düşmüşdü. Ədnan camaatı çoxdan belə yağıntı görməmişdi.

Kənddə ölü bir sükut hökm sürürdü. Elə bil, qış canlı olan hər şeyi dondurub susdurmuşdu. Mal-qara tövlədə idi, adamlar evlərdən çıxmamışdı. Uca çinarların başında oturmuş qarğaların, pəncərə qabağına qonub cikkildəşən sərçələrin səsi Elməddinin ürəyində kövrək bir hiss doğurur, onsuz da soyuq olan evdə onu daha da üşüdürdü Səbihə, Əfsanə əlacsız adamlar kimi əllərini qoynuna qoyub bayır bacağa baxırdı... hərəsi öz aləmində odunun, taxılın və mal-qara üçün ot-ələfin çatıb-çatmayacağını götür-qoy edirdi. Bu məsələlər indi hamıdan çox Elməddini düşündürürdü.

Bu gün Elməddinin görməli işi çox idi. O, qapının dalında tığlanmış qarı kürüməli, tövləyə gedən yolu təmizləməli, tayadan mal-qara üçün yem çəkməli idi; kərmə qalağının içindən evə odun gətirməli idi. Çay-çörəyini yeyəndən sonra qəryədar Qulamın yanına getməli, vilayət mərkəzinə göndəriləcək məktubu yazmalı, yığılan vergilərin ümumi miqdarını hesablayıb Qulama deməli idi. Amma Elməddinin nə qış ayaqqabısı vardı, nə balapuşu[1], nə də qalın paltarı; əynindəki nazik paltarla bayıra çıxmaq olmazdı. Şaxta adamın iliyinədək işləyirdi. Üstəlik sovurma külək də qalxmışdı. Hələ yapıxıb bərkiməmiş yumşaq qarı toz kimi havaya sovurur, adamın üz-gözünə çırpırdı.

— Qurbanı olduğumun bu il qəzəbi tutub. Camaat qırılmasa yaxşıdı. — deyə Səbihə məyus bir səslə arada hökm sürən sükutu pozdu.

— Camaat niyə qırılır, ay xala? — deyə Əfsanə sadəlövhcəsinə soruşdu.

— Soyuqdan, şaxtadan, qızım.

— Kimin qalın paltarı, odun-ocağı, isti yeri-yurdu varsa, niyə qırılır? — Elməddin gözlərini bayırdan çəkmədən sözə qarışdı. — Vay kasıb-kusubun halına?!

Əfsanə əlini övkələyib ağzına yaxın tutaraq hovxurdu: — Üşüyürəm.

— Ev soyuqdur, buxarını qalamaq lazımdır — deyə Səbihə qanrılıb gəlinin üzünə baxdı. Elməddin yerindən tərpəndi, uzun şalını güncdən götürüb başına doladı, köhnə, çırıq ayaqqabısını ayağına çəkdi. Qapıya sarı yeridi:

— Kürəyi hara qoyubsan! — Anasından soruşdu.

[1] Balapuş — palto.

— Tövlədədi, bala. Neyləmək istəyirsən?

— Yolu-rizi açım, odundan-zaddan gətirim.

— Bu nazik paltarda sənə soyuq olar! — deyə Əfsanə çəkinə-çəkinə dilləndi.

— Düz deyir, bala. Soyuq olar naxoşlarsan.

— Olmaz! — o, qapını itələdi.

— Dayan, ədə! Dayan, qalın bir şey geyin.

Səbihə arvad ah çəkərək camaxatana tərəf getdi. Hələ yığılmamış yük yerinin dalından bir bağlama dartıb çıxartdı. Ortalığa qoyub açdı. Elməddin dərhal hər şeyi başa düşdü, ana ona qardaşının paltarlarını geyindirmək istəyirdi. Tutuldu.

— Lazım deyil. Geyməyəcəyəm, — boğuq səslə dedi.

Əfsanə Yusifin kürkünə, nimdaş kostyumuna, yun köynəyinə baxıb üzünü yana çevirdi. Yusifin yadigarları... Səbihə özünü imkanı daxilində sakit aparırdısa da, əslində o da dolmuşdu. Bu paltarlar daha Yusifə gərək olmayacaqdı; onun pəhləvan cüssəsini qışın qarından, şaxtasından qorumayacaqdı,

Amma Əfsanə fikirləşirdi ki, Yusif indi soyuqdan tir-tir əsir yəqin. Ev belə soyuq olanda gör indi torpaq necə də bumbuzdur.

— Ala, gey.

— Dedim, geyməyəcəyəm.

Elməddin qapını çiynilə itələdi və çölə çıxdı.

— Ədə, sənnən deyiləm? — Səbihə səsini ucaldıb Elməddini çağırdısa da, o, geri dönmədi. Külək qarı burub-büküb uğultu ilə içəri doldurdu — Əfsanə tez özünü irəli atıb qapını çəkdi.

— Aman allah, — deyə Əfsanə qışın əsl hökmünü sanki indicə hiss eləyirmiş kimi söylədi, — qiyamət qopub ki, xəstələnəcək, — deyə Əfsanə pəncərənin ağzına gəlib qar tozanağı içində dizəcən qara bata-bata tövləyə sarı çətinliklə addımlayan Elməddinin dalınca baxdı. Beş-altı dəqiqə çəkməmiş Elməddin yel kimi özünü içəri təpdi. Üst-başı tamam qar idi. Sifəti bomboz bozarmış, gözləri yaşarmışdı. Dişləri bir-birinə dəyib şaqqıldayırdı.

— Mən hələ indiyəcən belə soyuq görməmişəm, — deyə əlini övgələyib yerindəcə ayağının birini qaldırıb o birini qoydu.

— Götür, bala, inad eləmə, gey. Özgə adamın paltarı deyil. Öz doğmaca qardaşının geyimidi. Sən geyməmiş ayrısı geyməyəcək ki.

Səbihə asta-asta danışa-danışa paltarı çırpıb taxtın üstünə qoydu. — Qalın geyinməsən, dişarı çıxa bilməzsən. Mal-qaraya yem lazımdı, bizə odundan-kərmədən lazımdı. Yoxsa...

Elməddin otaqda var-gəl edir, anasının dediklərinə qulaq asır, ancaq heç nə demirdi. Ayrı adam olsaydı, bəlkə heç nə düşünmədən götürüb sahibi torpaqlar altında çürüyən libasları geyinərdi. Amma Elməddinə bu, birtəhər gəlirdi. O elə sanırdı ki, qardaşının yadigarlarını əyninə alsa, Yusif həmin gecə hökmən yuxusuna girəcək və ona məzəmmətlə baxacaq.

Əfsanə Elməddinin paltarı götürüb geymək istəməməsinə adi bir qürur kimi baxmırdı. Elməddinin inadı Əfsanəni məyus edirdi. Demək, o, qardaşının paltarına əl vurmaq istəmirsə, onun dul qalmış arvadını ömründə özünə arvad eləməyəcəkdi. Bu, aydın bir məsələ idi.

Uzaq, qaranlıq üfüqlərdə güclə görünən zəif, solğun işıqlı ümid yenə də çəkilib dumanlar içində yox olur, yerində qış soyuğundan da kəsərli bir ümidsizlik, namüəyyənlik baş qaldırırdı.

SƏKKİZİNCİ FƏSİL

Havanın şaxı sınmışdı, çünki külək kəsmişdi. Evlərin arasında, kəndin ortasından keçən küçədə, çaya gedən yolda cığırlar açılmışdı, gəliş-gediş bərqərar olmuşdu.

Elməddin bu gün qəryədar Qulamın yanına gedirdi. O, fikirli-fikirli yeriyirdi: birdən kürəyinə dəyən qartopudan səksəndi və qanrılıb geri baxdı. Çiynində qoşalülə tüfəng, başında qalın, qulaqlı papaq, ayağında uzunboğaz, rezin çəkmə olan bir adam gülə-gülə ona sarı gəlirdi. Bu kim ola? Elməddin əvvəlcə tanıya bilmədi: bura adamına oxşamırdı. Diqqətlə ona sarı gələnə baxmaqda ikən tüfəngli adam dilləndi:

—Deyəsən tanımadın, hə? — Naməlum adam ağzını açıb bu sözləri deyəndə qızıl dişləri göründü və indi Elməddin onu tanıya bildi:

— O, sənsən, Ətiqulla?

— Hə. Mənəm. Necəsən, Elməddin?

Onlar yaxınlaşıb yerli adət üzrə qabaq-qənşər dayandılar, sonra bir-birini sinəsinə sıxıb öpüşdülər. Ətiqulla qəryədar Qulamın yeganə qardaşının oğlu idi. Evləri paytaxtda olan Ətiqulla kefinə düşəndən-düşənə öz maşınına minib əmisinin yanına gəlirdi.

Xüsusən qış aylarında gəlməyi xoşlayardı. Ona görə. Atasının var-dövlətini yığıb-yığışdırmaqla qurtaran deyildi. Neft-benzin şirkətinin sahibi olan qoca Mümtaz paytaxtın sayı çox da olmayan milyonerlərindən biri, bəlkə də birincisi idi. Onun var-dövlətini, ərazisini

təsəvvür eləmək üçün təkcə bunu demək kifayət idi ki, hər il iki yüz əlli min rupi xüms-zəkat verirdi. Hər iki-üç ildən bir isə, məmləkətin padşahına, xəzinəyə bir milyon rupi pul bağışlayırdı. Ona görə, Mümtaz Qarizadələr bütün məmləkətdə məşhur idi və onların kəsdiyi başa sorğu-sual yoxdu, Qəryədar Qulam da öz qardaşının sayəsində uzun illərdi ki Ədnan kəndinin ağası, ağsaqqalı olaraq qalırdı. Kişi əgər azca qoca olmasaydı, yazı-pozusu olsaydı, bəlkə də vilayət mərkəzinə, kim bilir, bəlkə də lap paytaxtın özünə yuxarı çəkilmişdi. Oğul-uşağı olmayan, arvadı ilə baş-başa verib yaşayan Qulamın işi burada da pis keçmirdi. Ətiqullanı öz oğlu kimi sevirdi. Həmişə «oğlum!» deyə çağırırdı.

Elməddin Ətiqulla ilə neçə il qabaq qəryədar Qulamgildə tanış olmuşdu. Ətiqullanın sadəliyi, səxavəti, ürəyiaçıqlığı Elməddinin xoşuna gəlmişdi. Ətiqulla son üç ildə kəndə baş çəkməmişdi. Odur ki, onlar köhnə dost kimi görüşdülər.

— Yaxşıyam, — deyə Elməddin cavab verdi. — Nə əcəb səndən? Neçə ildi gəlib görünmürsən?

— Başım yaman qarışıq idi, — o, gülümsünə-gülümsünə cavab verdi, — bu üç ili demək olar ki, elə xaricdə olmuşam. İranda, Fransada, Amerikada. Kişi daha qocalıb. Şirkətin bütün işini mənim üstümə töküb, Qərardad bağlamaq, nəqliyyə məsələsini həll eləmək hamısı mənim boynumdadı. Bu ölkələr də elə yerlərdi ki, getdin, qayıtmaq, istəmirsən. İki-üç ay işim olursa, dörd-beş ay da özüm artıq qalıram ki, bir bilim, görüm dünyada nə var, nə yox.

— Yaxşı eləyirsən. — Və özlüyündə fikirləşdi ki, xoşbəxt adamdı, — dünyanı gəzib. Mən haranı görmüşəm? Bizim bu kənddən və vilayət mərkəzindən başqa heç yeri. Onlar ağır-ağır addımlaya-addımlaya söhbət eləyirdilər:

— Evlənib eləməmisən ki? — Ətiqulla xəbər aldı.

— Yox.

— Bəs niyə? Deyirlər, tez evlənənlə tez ayrılan peşman olmaz.

— Nə bilim...

— Mən üç ay bundan qabaq dördüncü arvadı da aldım.

— Dördüncü? — Elməddin təəccübləndi. Ümumiyyətlə onun evli olub-olmadığının indiyəcən fərqinə varmamışdı. Təqribən həmyaş olardılar.

— Hə.

— Dörd arvad?

— Bəs nə?

— Necə olub axı...

— Birincini özüm on yeddi yaşım olanda sevmişdim. Atam gördü ki, dəli-divanəyəm, aldı mənim üçün. İki il sonra qardaşım öldü, onun arvadını aldım. Üçüncü arvadım keçmiş baş nazirin bacısıdır, — bunu da atam aldı mənimçün, dedi arxalı yerə söykənmək lazımdı. Dördüncüsünə də bu yaxınlarda rast gəldim. Su sonası kimi bir qızdı. Bunu da özüm aldım.

«Demək belə. Dörd arvadı var. Özü də ölən qardaşının arvadını da alıb!» — deyə düşünən Elməddin dönüb Ətiqulladan xəbər aldı:

— Yaxşı, qardaşının arvadını nə ürəklə aldın, Ətiqulla?

— Başa düşmədim, necə yəni nə ürəklə?!

— Yəni deyirəm, ürəyin necə götürdü?

— Niyə götürməsin ürəyim ki?!

— Mənim də qardaşım ölüb, amma mən onun arvadını almaram.

— Niyə?

— Ona görə ki, o, qardaş arvadıdı.

— Bu, dini-islamın qanunudur, Elməddin!

— Nə olsun? Elə bilirsən islamın bütün qanunları yaxşıdı?!

— Məncə, hə. Xüsusən bu, bu çox yaxşı qanundu.

— Nədi onun yaxşılığı?

— Odur ki, qardaşının arvadını əgər sən almasan, başqası alıb aparacaq, özünə arvad eləyəcək. Ona dözərsən?

—Tələğı veriləndən sonra daha mənə nə dəxli?

— Necə nə dəxli? Axı qardaş arvadıdı.

— Elə ona görə də almaq olmaz. Qardaş arvadı olduğuna görə...

DOQQUZUNCU FƏSİL

Yaranmış vəziyyət elə idi ki, işi təxirə salmaq olmazdı. Həzrətgül Əfsanəni öz evinə aparmaq istəyirdi, fikri də məlum idi: Nazənin kişinin məqsədini Səbihəyə demişdi. Yusifin ölümündən bir ildən çox keçirdi. İndi işə başlamaq olardı.

Bir yay axşamı ana oğlunu başa saldı:

— Ağıllı-kamallı qızdı. Öz evimizin uşağıdı. Gəl daşı tök ətəyindən, kəbininizi kəsdirim.

— Yox, ana.

— Niyə, ay oğul?

— O mənim qardaşımın arvadıdı.

— Mən də bilirəm. Amma Allah-taala görünür, belə məsləhət bilibmiş, oğul.

Elməddinin ürəyində ölmüş hissləri elə bil cana gəldi. Unudulmuş, qara torpaqlar altına kömülmüş duyğular sanki təzədən dirçəldi; odla su arasında qalan Elməddin anasına cavab verə bilmədi. Dili «yox» deyirdi, amma ürəyində kədərqarışıq, tutqun bir sevinc də duyulurdu. O, bu tutqun sevincini imkanı olduqca gizləməyə çalışırdı.

— O kişini mən tanıyıram. Pul üçün arvadını da satar. Razı olma ki, qardaşının arvadı papaq kimi başdan-başa qoyulsun, əldən-ələ keçsin. — Anasının bu sözləri ona təsir etdi: dili sanki yavaş-yavaş kilidləndi, daha «yox» sözü də eşidilmədi.

— Bəlkə Əfsanə heç razı deyil?

— Əfsanə? Ondan arxayın ol, oğlum. Ağzını aramışam, razıdı.

— …

— Səndən artığına verəcək onu, Həzrətgül?

— Nə deyirəm, özün bilən məsləhətdi!!

... Üç gündən sonra kəndin mollası şahidlərin və Əfsanənin vəkili Nazəninin yanında onların kəbinini kəsdi. Yüngülvarı bir qonaqlıq verdilər. Camaat dağılışdı.

... Səbihə Yusifin otağında onlar üçün yer düzəltdi. Otaqda arvadın gözünün yaşı Elməddinin diqqətindən yayınmadı.

— Nə olub, ana?

— Heç, bala. Şadlığımdan ağlayıram.

Ana belə dedisə də, Elməddinə bəlli idi ki, o niyə ağlayır. Elməddin içəri girdi. Otaq işıqlı idi. Xalçanın üstündə yorğan-döşək açılmışdı. Qoşa balış qoyulmuşdu. Bütün bunlar hamısı vaxtilə Yusifin adına düzəldilmişdi. Otaqda hər şey il yarım bundan qabaq — onun zifaf gecəsindəki kimi idi. Yorğan-döşək də həminki idi, bər-bəzək də. Gəlin də. Təkcə bir Yusif yox idi. O indi qara torpaq altında çürümüşdü. Təkcə bir dəyişiklik vardı: onun yerində Elməddin dayanmışdı. Bir də o vaxtkı sevinc, nəşə yox idi bu gecə. Ola da bilməzdi.

Gəlin bir güncə qısılıb oturmuşdu. Onun bir il əynindən çıxarmadığı qara paltarı dünən Nazənin və başqa qız-gəlin çıxartmışdı. O da qəmli idi. O da çaşqın nəzərlərlə Elməddinə baxır, kim bilir, nələri xatırlayırdı?!

Elməddin qorxaq addımlarla gəlib taxtın üstündə oturdu və yorğan-döşəyə — sahiblərini gözləyən yorğan-döşəyə baxdı, baxdı: gözləri yol çəkdi. Bax, bu balış Yusifin idi. O, burda beləcə, pəhləvan kimi arxası üstə yatardı. Yatardı? Bax, indi də yatıb! Görürsənmi,

yatıb! Mışıltısı da eşidilir... Yorğanı sinəsinin üstünə çəkib... Başı, sifəti aydın görünür...

Elməddinin gözlərinin önündən Yusif çəkilib getmirdi. Yox. Elməddin çaşıb qalmışdı. Yusif sağ ola-ola o, nə cəsarətlə Əfsanəyə evlənə bilərdi, Bu, səhvdir, bu ola bilməz, Elməddin «hə» deməyib, deməyib.

Elməddin birdən çevrilib Əfsanəyə söylədi:

— Dur, soyun, gir yerinə.

Və durub çırağı söndürdü.

Qaranlıqda xışıltı eşidildi. Əfsanə lal-dinməz soyunub yerinə girdi. Nəfəsindən uçunduğunu bilmək çətin deyildi. İndi Elməddin gələcək. İndi onun isti nəfəsi sifətində gəzəcək, ürəyini sıxıb əzən kədər, qəm-qüssə onun təmasından uçub yox olacaq. Amma Elməddin yerindən tərpənmirdi. Gəlinin gözü qaranlığa alışandan sonra onun tərpənməz siluetini aydın görürdü. Beləcə çox keçdi.

Bir saatmı — iki saatmı?

— «Yox, mən belə binamus ola bilmərəm». — deyən Elməddin səhərə yaxın Əfsanənin titrək, asta səsini eşitdi:

— Niyə gəlib yatmırsan?

— Sən yat, Əfsanə. Məni gözləmə.

— …

Daha cavab gəlmədi.

... Üç gecə belə keçdi. Əfsanə ayrı, Elməddin ayrı yatdı. Əlbəttə, bu barədə Səbihəyə heç biri heç nə demirdi. Ana isə onların kədərli, qəmli-qüssəli gəzmələrinin səbəbini Yusifin faciəsi ilə əlaqələndirirdi.

... Dörd-beş gün sonra Əfsanə yorğan-döşəyin üstündə dizlərini qucaqlayıb oturmuşdu. Elməddin gəldi. Gəlin başını qaldırıb ona sual dolu nəzərlərlə baxdı:

— Əfsanə, — deyə Elməddin dilləndi.

— …

— Mən səni sevirəm, Əfsanə. Əvvəlkindən də çox. Sən heç təsəvvür edə bilməzdin ki, mən səni nə qədər sevirəm. Sən mənnm həyatımsan, Əfsanə.

— Sən də mənim, Elməddin! — deyə Əfsanə astaca cavab verdi.

— Ancaq, əzizim, mən sənlə yaşaya bilməyəcəyəm. Ürəyim qəbul edə bilmir, Əfsanə. Yusifin xəyalı gecə də, gündüz də məni təqib edir. Acıqlı-acıqlı mənə baxır, heç nə demir, elə hey baxır, baxır. Mən ömrüm boyu bunun əziyyətini çəkəcəyəm, Əfsanə. Ağlayırsan?

— …

— Ağlama, Əfsanə.

— …

Əfsanə hıçqırırdı.

... Axşamçağı Elməddin dəftərxanadan qayıdanda Əfsanəni evdə görmədi. Maraqlanmadı da. Səbihə qonşudan gəlib evə baş çəkəndən sonra oğlundan soruşdu:

— Bəs gəlin hanı?

— Bilmirəm.

— Necə bilmirəm?

— Mən gəldim gördüm yoxdur.

— Bəlkə Həzrətgülgilə gedib?

— Nə bilim.

— Onlara gedən deyildi axı... Bəlkə suya gedib? Qoy baxım görüm səhəng burdadı? — Arvad evə girib tez də qayıtdı.

— Suya gedib. Səhəng evdə yoxdur. Sakitləşdilər.

Gözlədilər — gəlib çıxmadı. Gün dağların dalında batdı. Arvad narahat olmağa başladı:

— Birdən çaya düşüb boğular ha? Dur ayağa, bir çayın qırağına baş çək.

Elməddin cığırla çaya tərəf getdi...

Yarım saat sonra səhəng əlində geri qayıtdı,

— Bəs gəlin hanı?

— Yoxdur. Səhəngi də çayın qırağından tapdım.

— Vay! Daha denən evim yıxıldı də, qız boğuldu, — deya Səbihə arvad əl-ayağa düşdü.

Həzrətgülgilə adam göndərdilər: bəlkə səhəngi suyun qırağında qoyub onlara gedib. «Yoxdur, onlarda da yoxdur» — xəbəri gəldi.

İki gün axtardılar. Çay qırağında gözətçi qoydular. Meyitindən səs-soraq olmadı.

Əli-ayağı yerdən üzülmüş, nə edəcəyini bilməyən Elməddin, taxçada gizlətdiyi şer dəftərçəsini götürərkən arasından kələ-kötür xətlə yazılmış əl boyda bir məktub düşdü. O, əyilib kağızı götürdü və bunu Əfsanənin yazdığını dərhal anladığı üçün qəhərlənə-qəhərlənə oxudu. Orada bu sözlər yazılmışdı:

«Əlvida, əzizim. Dünyaya bədbəxt gəlmiş bir qızı sən xoşbəxt edə bilməzdin. Məni axtarma. Həmişə sənin olan, ancaq heç vaxt sənin olmayan Əfsanən».

ÜÇÜNCÜ HİSSƏ

BİRİNCİ FƏSİL

Əfsanənin yoxa çıxması xəbəri ildırım sürətilə nəinki bütün Ədnan kəndinə, hətta ətrafdakı kəndlərə və yaxında olan köçəri obalarına da yayıldı. İlk günlər heç kəs, hətta Elməddin özü də «Əfsanə yoxa çıxıb» — deyə düşünmürdü, düşünmək istəmirdi. Uşaqlı-böyüklü hamının beynində bir fikir gəzib dolaşırdı: «Əfsanə çaya düşüb boğulub!» Yaxud «özünü suya atıb həlak eləyib!» — Belə fikirləşməyə hamının haqqı vardı; çünki Əfsanənin səhəngi götürüb çaya getdiyini neçə adam görmüşdü; bundan əlavə ən tutarlı dəlil bu idi ki, onun səhəngi çayın qırağında qalmışdı.

Ədnan camaatı bu atasız-anasız qızın taleyinə acıyırdı: «Qızın qaraçuxası yatıb, balam. Bədbəxtinki heç gətirmir. Yusifə ərə getdi — üstündən üç-dörd ay keçməmiş dul qaldı. İkinci toyu da qara gəldi. İkinci toyundan həftə yarım keçməmiş özü balıqlara yem oldu».

Elməddin ayaq üstə ölmüşdü. İki gündü ki, boğazından tikə belə ötmürdü. O, özünü Əfsanənin ölümündə günahkar bilirdi. Təkcə ona məlum idi ki, gəlin bu təhlükəli addımı niyə atıb, niyə öz şirin canına qəsd eləyib, sonra fikri dönürdü; bəlkə ayağı sürüşüb çaya düşüb? Yox, bəs məktub? Bu ki gün kimi aydın məsələ idi. Əfsanə şüurlu surətdə bu işə qol qoyub! Elməddin hər gün səhərdən ta gün batanacan çayın sularına baxa-baxa sahildə gəzirdi. Sulara baxmaqdan gözü yorulmuşdu. Hər dəqiqə ona elə gəlirdi ki, indicə möcüzə baş verəcək — Əfsanə suların içindən baş qaldırıb hüznlü, qəmli səslə deyəcək: «Mən burdayam, Elməddin. Məni axtarma!» Onda Elməddin tez özünü ona tərəf atacaq: «Gəl, Əfsanə, gəl. Bağışla məni. Mən sənə zülm etdim. Qəlbini qırdım, təhqir etdim səni. Gəl, Əfsanə, gəl».

—Yox, daha gecdir, Elməddin! Mən sular pərisi olmuşam. Mən daha sulardan çıxa bilmərəm. Əlvida!» — deyib yenə lilli sularda yox olacaq.

Elməddinin gözlərindən yaş çıxmırdı, o ancaq ürəyində ağlayırdı. Baş vermiş hadisənin dəhşətini də, cəzasını da bütün aydınlığı ilə dərk eləyən Elməddin qəlbən qocalırdı: bu günlər elə düşkün və əzgin olmuşdu ki, yaşayıb-yaşamadığının belə fərqinə varmırdı. Ancaq çayın sahilinə gələndə ürəyində bir tərpəniş yaranırdı; bu saat heç

olmasa Əfsanənin cəsədi tapılacaq... «Qayalıq» deyilən yerdə belə hər daşın, qayanın dibini uzun ağacla yoxlayırdı. Gücü çatsaydı, imkanı olsaydı, suyun qabağını dayandırar, bütün daşları tərpədər, axtarardı; Əfsanəni tapmayınca rahatlıq, dinclik bilməzdi. Əsla bilməzdi. Şey itirmək necə çətindi? O ki insan ola, canlı insan?!

Səbihənin matı-qutu qurumuşdu. Arvadın ürəyinə qara-qara fikirlər gəlirdi, «Yəni bizim ocağa şadlıq düşmür, ya rəbbi?! Bizi qarğayıblar, nədir?» — deyir, gah Həzrətgülgilə, gah çayın qırağına baş çəkirdi. Nazənin — təkcə Nazənin göz yaşı töküb ağlayırdı, çünki o, Əfsanənin necə mehriban, xoşxasiyyət, eyni zamanda, bədbəxt qız olduğunu deyəsən hamıdan yaxşı bilirdi; axı o özü də elə talecə Əfsanəyə az-çox oxşayırdı.

Səbihə üçüncü gün kəndin mollasının yanına getmişdi. On beş gün bundan qabaq Əfsanənin kəbinini Elməddinə kəsmiş molla indi onunçün kitab-quran açırdı.

Uzunsov, qalın, cildinə parça çəkilmiş kitabdan gözünü ayıran molla Qulu sağ əlilə ağ saqqalını tumarlaya-tumarlaya Səbihəyə deyirdi:

— Qurani-şərif deyir ki, bir ağ göyərçin göylərdə qanad açıb uçur... Yəni bu gəlamı-şərifin mənası budur ki, qızın, yəni sənin gəlininin ruhu göylərdədir. Başa düşdün?

Səbihə gözlərini döyəndə molla izah etdi:

— Yəqin ki vəfat eləyib!!!

— Ağa, çaya düşüb boğulsaydı, indi meyiti qayalığa çatmışdı. Çatmaz yəni deyirsən?

— Onu deyə bilmərəm, Səbihə, amma onu deyə bilərəm ki, göyərçin uçur..

Həftə tamam olmuşdu. Lakin Əfsanənin meyitindən əsər-əlamət yoxdu. Burada ayrı söhbətlər ortalığa çıxmağa başladı ki, Elməddinin düşdüyü vəziyyəti daha da gərginləşdirdi. Xəbər yayılmağa başladı ki, Əfsanə çaya düşüb boğulmayıb; boğulsaydı, indi cəsədi qayalıqdan tapılmışdı!! Əfsanəni götürüb qaçıblar. Kim? Azdımı dəliqanlı cavanlar? Ədnan camaatından elə iş edən olmazdı. Bunu hamı bilirdi.

Qocaların, qarıların, qeybətcil gəlinlərin əlinə yaxşıca söhbət düşmüşdü — oturub-durub Əfsanədən danışırdılar.

Biri deyirdi:

— Dininizi-imanınızı yandırmayın. Əfsanə — bir həftənin gəlini başqasına qoşulub qaçmaz.

— Qaçmaz ey! — o biri cavab verdi, — götürüb apararlar.

— Uşaqdı — Əfsanənin nə yaşı, nə canı vardı ki?

— Təki ölməsin, yazıqdı. Qaçırmaqlarının eybi yoxdur, bu kişi olmasın, başqa kişi olsun — onunçun nə tafoutu var.

— Yox, ay qız, tafoutu çoxdu. Deyirlər, lap cavanlıqdan, Yusifdən də qabaq onu Elməddin istəyirmiş, dərdindən lap dəli-divanə imiş!

— Hə??.

— Bəs nə?! Yoxsa... nə vardı ki!!

— Əgər onu götürüb qaçıblarsa, gərək Elməddin başına kişi papağı qoymasın. Bir həftənin gəlinini çəkib aparsınlar, sən də dur bax?!

— Yazıq neyləsin aaz? Bilirmi ki, kim aparıb?!

— Adam gərək daş dəyən yerini bilsin.

Belə söhbətlər demək olar ki, hər güncdə-bucaqda gedirdi. Bir-birinə rast gələn iki adam bu barədə öz fikrini müsahibinə deməsəydi, ötüb keçməzdi. Günlərin birində söz-söhbət gəlib Səbihənin qulağına çatdı, o isə özünü saxlaya bilməyib məsələni Elməddinə çatdırdı.

Oğlan: «götürüb qaçıblar!» sözlərini eşidəndə gözləri hədəqəsindən çıxdı, qalın qaşları dartılıb kirpiklərini yuxarı çəkdi.

«Götürüb qaçırıblar?!.» ...Bu, ağır bir zərbə kimi Elməddinin başına dəydi və onun gözlərinin qənşərində qığılcımlar oynadı.

— Camaat deyir, götürüb qaçıblar, hə?!

— Belə deyirlər, bala!

— Kim axı?

— Bilən yoxdur.

—Yalan sözdür, Əfsanə çayda boğulub,— deyə Elməddin axır günlər özü də şübhə eləməyə başladığı fikrini qətiyyətlə təkrar etdi, — boğulub. Vəssalam. Çünki bu məsələ namus-qeyrətlə bağlı idi. Çox da ki Elməddin ona «sən qardaşımın arvadı olubsan, mən sənlə bir yastığa baş qoymaram!»— deyib. Bunu kim eşidib, kim bilir? Amma bunu hamı bilir ki, Əfsanənin kəbini mənə kəsilib, qonaqlıq olub... Bax, bunu hamı bilir! — bu sözlər onunçun ölüm hökmü kimi səslənirdi. «Qaçırıblar, qaçırıblar...» — sözləri qulaqlarında gecə-gündüz səslənirdi.

— Abrımız töküldü, — deyə Səbihə də bu adı öz mənliyinə sığışdıra bilmir, hirsindən partlayırdı.

— Əfsanə ölüb!—deyə Elməddin astadan danışırdı. — Ölüb Əfsanə!

Nə qədər qəribə olsa da, bu saat gəlib desəydilər ki, gəlinin meyiti çaydan tapıldı, Elməddin buna sevinərdi. Sevinərdi, sonra isə hönkür-hönkür həlak olmuş Əfsanə üçün ağlardı. Çünki, bu ad məsələsi idi, namus məsələsi idi.

—Təki elə olaydı, ay bala! Öləydi bu qarabaxt, ayağı bizim evə dəydi-dəymədi, bədbəxtlik bədbəxtlik dalınca gəldi üstümüzə.

Elməddinin cəhənnəm əzablı günləri çoxdan başlamışdı. — Əfsanəni almaq məsələsi ortalığa çıxandan. Ancaq daha üst-üstə yığılan bu əzablara dözmək getdikcə çətinləşirdi. Küçəyə-bayıra çıxmağa utanırdı. Baxışların hamısına ürəyindəki mənanı verib başını aşağı dikir, gözünü-gözlərdən yayındırırdı. Kənarda, uzaqda tamam başqa şey üçün gülənlərin də gülüşünə ayrı məna vermrdi. «Biqeyrət, binamus, gör necə də arxayın gəzir, arvadını aparıblar, heç vecinə deyil!» — onun baxışlardan, gülüşlərdən çıxartdığı yeganə nəticə bu idi... Qarışıq hisslər içərisində bunu da dərk eləyirdi ki, Əfsanə onun üçün nə qədər doğma, nə qədər yaxın bir varlıq idi... Sən demə, onun həyatını mənalı eləyən (uzaqdan da olsa), onun qəlbini isidən, yaşadan Əfsanə imiş. Qədrini bilmədiyi, qiymətləndirmədiyi Əfsanə imiş! Öləndən sonra qədir-qiyməti bilinən Əfsanə onun həyatının yarısı imiş, sən demə!

Elməddin bunu gec dərk etdiyinə heyfsilənirdi.

Bir axşam o, anasına dedi:

— Mən gedəcəyəm.

— Hara, ay oğul?! — Səbihə təşvişlə soruşdu. Əfsanəni axtarmağa!!

— Elə bil, tapdın, a bala, Əfsanəni, neynirsən daha onu?

— …

— Özgə əli dəymiş...

— O özkə əlini kəsməyə gedirəm, ana!!! Mən camaatın üzünə baxa bilmirəm. Hamı mənə gülür, rişxənd eləyir. Mən getməliyəm. Tapmalıyam... Tapmasam, bu kəndə qayıtmayacağam, ana?!

— Otur yerinə, oğul. Bizi təzədən qana salma.

— Yox, ana. Mən gecəykən getməliyəm.

Elməddini fikrindən daşındıra bilməyən ana Yusifdən qalmış bıçağı və bir dəstə pulu ağlaya-ağlaya gətirib oğluna verdi:

— Allah amanında, bala.

Elməddin anasını öpdü və iti addımlarla həyətdən çıxdı...

İKİNCİ FƏSİL

Neçə müddət idi ki, obaları, kəndləri, irili-xırdalı şəhərləri cavan — sifəti gün altında yanıb-qaralmış, saqqallı bir oğlan gəzib dolaşırdı. Heç kəsdən heç nə soruşmurdu; söhbətlərə, danışıqlara qulaq asır, gözləri ilə itkin düşmüş adamını axtarırdı. Onun hər kənddə, obada, şəhərdə müraciət elədiyi bir şəxs, bir məqam vardı: qəryədar kənddə, polis idarəsi şəhərdə. Əhvalatı müxtəsərcə başa salırdı: qardaşının itkin düşmüş arvadını («öz arvadımı» — deməyə utanırdı) axtarır. Boyu bu, sifəti bu, yaşı bu. Bəlkə sizin kəndə gəlib çıxıb; bəlkə sizin şəhərdə polis bu barədə bir şey bilir.

Qəryədarlar sadəcə olaraq cavab verirdilər ki, bizim kəndə, obaya belə adam gəlib çıxmayıb; gətirən də olmayıb. Şəhərlərdə isə Elməddindən gəlinin şəklini istəyirdilər. Şəkli isə yox idi. Elməddinin bildiyinə görə, Əfsanənin anadan olandan bu günə qədər heç bir dənə də şəkli olmamışdı. Əgər biçarə tələf olubsa, heç vaxt olmayacaq da!! Beləcə, kənddən-kəndə, şəhərdən-şəhərə adlayan Elməddin Əfsanədən heç bir iz-soraq tapa bilməyib məyuslaşırdı. Onu bir daha görə biləcəyinə ürəyində qəti inam qalmırdı. Vaxt ötüşdükcə bütün varlığını yandırıb-yaxan intiqam almaq hissi getdikcə korşalır, Elməddin kəndləri, şəhərləri gəzən bir dərvişə çevrilirdi. Ancaq buna baxmayaraq gözü həmişə soraqda idi. Yanından qadın keçəndə diqqətlə baxmamış sovuşub getmirdi. Qadınların çoxu isə çadra altında olurdu. Bilmirdi ki, çadra örtmüş bu qadın cavandı, yaxud yaşlıdı. Təkcə boyu-buxunu, bir də paltarının rənginə görə axtarırdı.

Elməddin gümanı gələn bütün obaları, kəndləri, vilayət şəhərlərini ələk-vələk elədi; amma gəlindən bir soraq verən olmadı.

Evdən çıxdığının iki ayı tamam olanda Elməddin bu işin boşbihudə olduğunu dərk edib axtrışdan əl çəkdi. Bəs nə etməli? Yenə Ədnana qayıtmalı? Yox, bunu Elməddin edə bilməyəcəkdi. O bir daha Ədnan camaatının gözünə görünmək, tənəli, rişxəndli baxışlar altında başını aşağı dikmək, xəcil olmaq istəmirdi.

... Elməddin ürəyində ağır bir hiss duydu. İndi onun fikri aydın idi: kəndə qayıtmayacaqdı, burdan birbaş mərkəzə - məmləkətin paytaxtına sarı üz tutacaqdı. İrəlidə onu nələr gözləyir? — xoşbəxtlikmi, fəlakətmi?! — bunun indi Elməddin üçün fərqi yox idi.

Günəş qərb tərəfdə ucalan çalmalı dağın başı üstündən aşmaq üzrə idi. Hündürlü-alçaqlı dağların arasında yerləşmiş qədim şəhərin

üzərinə yavaş-yavaş qaranlıq çökürdü, günəş dağın kəlləsindən asta-asta qüruba doğru sürüşdükcə qaranlıq daha da qatılaşır, dağlarla əhatə olunmuş şəhərin işıqları yanmağa başlayırdı. İşıqlar sanki qədəm-qədəm yeriyir, dağlara qalxırdı; hündürlükdə, dağların ətəyində salınmış evlərin işığı yanırdı.

«İnsaf» şirkətinə mənsub köhnə, lakin müxtəlif rənglərlə bəzədilmiş avtobus iki dağın arasından keçib gedən yoxuşu endikcə içəridə yox, avtobusun alçaq məhəccərli damında oturmuş Elməddinin ürəyi naməlum, anlaşılmaz bir titrəyişlə çırpınırdı. Onun qarşısında naməlum, yeni, indiyəcən düz-ağıllı təsəvvür belə edə bilmədiyi birmənzərə, bir aləm canlanırdı. Kitablarda, qəzetlərdə məmləkətin qədim şəhərlərindən olan paytaxt haqqında çox oxumuşdu, lakin bu məlumatların böyük əksəriyyəti şəhərin təmtəraqlı, şanlı-şöhrətli keçmişinə aiddi.

Avtobus uca minarəli Hacı Yaqub məscidinin böyründə dayandı, altı saatlıq yol gəlmiş yorğun-arğın müsafirlər xurcunlarını, heybələrini götürüb düşdülər; avtobusun üstündə oturmuş sərnişinlər də arxa tərəfdəki balaca, dəmir nərdivanla aşağı endilər. Hərə bir səmtə üz tutub getdi.

Bu şəhərə birinci dəfə qədəm basan, heç kəsi tanımayan Elməddin də hara gedəcəyini bilmədən ağır addımlarla avtobusun dayanacağından uzaqlaşdı. Küçələrə asfalt döşənmişdi. Enli, iki qatar maşın keçən yolun o üz-bu üzündə ikimərtəbəli, birmərtəbəli evlər cərgə ilə düzülmüşdü. Bəzi küçələrdə küknar ağacları əkilmişdi. Gözəl, yaraşıqlı maşınlar elədən-belə şütüyürdülər. Hər şeyə diqqətlə baxa-baxa addımlayan Elməddinin burnuna kabab iyi dəydi. İrəlidə, balaca artırması olan kiçik bir binanın qabağında, başına araqçın qoymuş on üç-on dörd yaşlı bir oğlan əlindəki həsir yelpazə ilə manqalın gözünü yelpikləyirdi. Elməddin yaxın gəldi. Şişlər közün üstündə cızıldayırdı. Bərk aclıq hiss eləyən Elməddin oğlanın qabağında dayandı: oğlan tez-tez yelpikləyir, bir əlilə də şişləri çevirirdi. Başının üstündən asılmış elektrik lampasının işığında Elməddin oğlana fikir verirdi: oğlan ona baxmadan öz işini görürdü.

Elməddin içəri girib bir kabab sifariş verdi. On dəqiqədən sonra o, aclığını dəf eləyib ona tanış olmayan şəhərin küçələrinə çıxdı. Gözləri cah-cəlallı binalara, ağzınacan gözəl, xarici mallarla dolu olan mağazaların işıqlı vitrinlərinə baxırdı.

Yayın qızmar vaxtı olsa da, axşamlar havalar soyuyurdu. Elməddinin əynində nazik köynək vardı. Ayaqqabısı köhnəlib əldən

düşmüşdü. Paltarı ümumiyyətlə çirkli və köhnə idi. Cibində qalan pulunu bayaq kababxanada yoxlamışdı. Cəmi-cümlətanı yüz qırx rupi idi. Bir yüzlük, iki dənə də iyirmilik... Bu pul ona nə qədər çatacaqdı? Tanış yox, qohum-əqrəba yox...

Düşüncəli-fikirli gəzirdi. Nə axtarırdı, nə üçün gəzirdi — bunu soruşan olsaydı cavab verə bilməzdi.

Ticarət bankının qabağından keçəndə küçənin o biri tərəfində üstünə işıqla «Hotel» yazılmış ikimərtəbəli «binanı görüb ayaq saxladı; harada gecələmək məsələsi indi yadına düşdü. Doğrudan bu qərib, naməlum şəhərdə harada gecələyəcəkdi? İti addımlarla küçəni keçdi, «Hotel»in qapısına gəldi. Burada çoxlu müxtəlif markalı maşınlar dayanmışdı. Səkidə başına ağ papaq qoymuş, əlində ağ əlcək olan bir polis o tərəf-bu tərəfə gəzinirdi.

Elməddin özünü içəri saldı. Birinci mərtəbədəki çox da böyük olmayan zalda yaxşı geyinib-kecinmiş beş-altı kişi, üç nəfər də avropa qaydasında geyinmiş, əlləri yelpazəli xanım dayanmışdı. Balaca, şüşə pəncərə ağzında qoyulmuş miz arxasındakı eynəkli, çənəsi uzun kişi növbəyə dayanmış adamların pasportunu alır, nəsə yazır və sonra pasportu özünə qaytarırdı. Elməddin diqqət yetirdi, onların verdiyi pasport da başqa cür idi, pul da. O saat anladı: bunlar xaricilər idi. «Hotel»in xidmətçiləri izzət-ehtiramla nömrə alan ağanın çamadanını götürüb «befər-maid, mister!» — deyə yuxarı aparırdılar. İyirmi dəqiqədən sonra eynəkli kişi:

— Sənə nə lazımdı, ağa? — deyə təəccüblə xəbər aldı.

— Gecələmək üçün yer, ağacan.

Eynəkli ağzını doldurub nəsə demək istədi, ancaq hiss olundu ki, sözünü dəyişib soruşdu:

— Təzkirən[1] var?

— Var, ağa. Buyur.—O, cibindən boz cildli, iki vərəqli pasportunu çıxardıb kişiyə verdi.

Eynəkli kişi pasporta gözucu baxıb:

— Yerimiz var, ağayi Elməddin, — dedi. — Ancaq... Sənin pulun varmı?

— Var. Gecəsi neçəyədi ki?

— Gecəsi iki yüz rupiyə. — Neçəyə? — İki yüz rupiyə, dedim!

— İki yüz rupiyə? — Elməddin heyrətlə içini çəkdi...

[1] Təzkir — pasport.

— Bəli...

Elməddin ona diqqətlə baxdı və:

— Xudahafiz, ağa! — dedi və sürətli addımlarla bayıra çıxdı. Arxadan gülüş səsi eşitdi, ancaq əhəmiyyət vermədi...

Elməddin məyus halda gəzə-gəzə bir bağa gəldi. Buranın adı bağ idi — amma cəmisi beş-altı söyüd və yeddi-səkkiz də küknar ağacı basdırılmışdı. Ortada çəmənli-çayırlı təpə ucalırdı. Elməddin özünü təpəyə sarı verdi. Yaxınlaşanda gördü ki, təpənin o biri tərəfində ayaqları yalın, paltarları cır-cındır, üzləri solğun bir dəstə uşaq oturub. Təpənin düz kəlləsində basdırılmış dirəyin başına bərkidilmiş radioda nəsə danışırdılar.

Elməddin dirəyin dibində uzandı və başını da dirəyə söykədi. Buradan uşaqlar aydın görünürdü. Başının tükü uzanıb çiyninə, alnına tökülmüş doqquz-on yaşlı oğlan çəməndə oturmuşdu: böyründə altı-yeddi yaşı ancaq olan uşaq yanı üstə uzanıb əlini qulağının dibinə dayaq vermişdi. İki addım o yanda uşaqlardan bir neçəsi çörək yeyir və nəsə danışırdı. Birdən cılız, qırxıqbaş uşaq ağlaya-ağlaya qalxdı, böyründə oturan kəkilli oğlana dedi:

— Mənim çörəyimi ver. Sənincün dilənmişəm? — Əlini ona sarı uzatdı: —Deyirəm ver mənim çörəyimi, özüm acam. — Kəkilli oğlan çörəyi ağzına təpə-təpə qırxıqbaşı təpikləyib geri itələdi: oğlanın taqəti yoxmuş kimi, yerə yıxıldı.

— Kəs səsini, pedər lənət, — deyə onu hədələdi.

Kəkilli oğlanın xasiyyətinə bələd olan uşaq qorxusundan ağlamağına ara verdi. Ancaq yazıq-yazıq dediyi bu sö? ləri Elməddin eşidirdi:

— Haramın olsun. Gücnən bir qarın çörək tapmışdım.., onu da əlimdən aldın. Səhər bura heç çörək gətirməyəcəyəm o yanda, çayın qırağında tapdığımı yeyəcəyəm, sonra gələcəyəm.

Uşaqların arasından nisbətən iri sümüklü, cırıq şalvarından dizi görünən bir oğlan yerindən sıçrayıb kəkilli oğlanın başının üstünü aldı, əl atıb yaxasından yapışaraq qaldırdı:

— Qaytar o gədənin çörəyini.

— Yedim, — deyə kəkilli udquna-udquna çavab verdi.

— Yalan deyir, yediyini yedi, qalanını da çantasına qoydu — çörəyi alınan uşaq da dikəldi.

— Ver çörəyimi, mən acından ölüm, Səxi? Bütün gün şəhəri ayaqdan salmışam, bir tikə çörək, bir qran pul verən olmayıb.

Səxi elə bil yumşaldı:

— Xoşluqnan istə, Məmməd, verər, yeyərsən, verməz, oturarsan ac, Mənim kimi.

— Oturarsan, canın da çıxar. — Səxi adlanan oğlan yenə səsini ucaltdı. — Burda heç kəs kimsədən bir şey əsirgəmir. Mənim var, sən də ye. Ancaq zornan yox, xoşluqnan.

— Xoşluqnan vermir axı? Sən Həsənin xəsisliyini bilmirsən?

— O vermir, başqası verər. Qaytar, qaytar, deyirəm. O xəstədir, yeməsə...

Məmməd məcburi halda çantasında gizlətdiyi çörəyin parçasını çıxardıb Həsənə verdi. Dodaqaltı deyinə-deyinə Həsən çörəyi acgözlüklə yeməyə başlayanda uşaqlardan biri söz atdı:

— Ay Həsən, az ye, partlayarsan. Bir ayrısı da əlavə etdi:

— Baxarsınız, biz acından ölsək, Həsən toxluğundan öləcək; partlayıb öləcək.

Həsən bu sözləri eşitmirmiş kimi, əhəmiyyət verrmədən ağzındakı son tikəni çeynəməmiş udub uşaqların süfrəsinə göz dikdi.

Bu uşaqlar haqqında kimsə Elməddinə heç nə deməsə də, onların söz-söhbətindən, rəftarından və görkəmindən başa düşmüşdü ki, bunlar yetim, yurdsuz-yuvasız uşaqlardır. Gündüzlər dilənirlər, axşamları «qazandıqlarını» gətirib burada yeyirlər. Deyəsən elə burada da gecələyirlər.

«Məmləkətin yurdsuz-yuvasız, ac-yalavac balaları — deyə Elməddin köksünü ötürdü. — Dilənçilərin də güclüləri-gücsüzləri var, acları-toxları var, adilləri-zalimləri var. Dünyamız kimi. Bu da balaca bir dünyadır — acı var, toxu var, güclüsü, gücsüzü var, haqq tərəfdarı olanı da var...».

Elməddinin başının üstündəki radioda bir qadın danışmağa başladı. O deyirdi:

— Axşamınız xeyir, əziz balalar! Sizin üçün verilişimizə başlayırıq.

Qadın belə deyəndə yeyib doymuş, kefi kökəlmiş Həsən ucadan söylədi:

— Qulaq asın, anamız danışır.

Hamı susdu.

Qadın deyirdi ki, bu gün uşaqların bayramıdır — bütün dünyada uşaqları müdafiə günüdür.

Bəlkə də bu yurdsuz-yuvasız uşaqlar bunu özləri başa düşmürdülər, — ancaq Elməddin anlayırdı ki, bu bayramın onlara heç bir dəxli yoxdur; ümumən hər axşam təkrar olunan bu veriliş də onlar

üçün deyil, evlərdə, ata-analarının yanında nazlanan, şıltaqlıq eləyən, radioları olan xoşbəxt uşaqlar üçündür. Haradasa, radio verilişləri idarəsinin binasında oturan diktor arvad yatmamışdan qabaq onlar üçün hər gecə şirin, maraqlı nağıllar danışır, axırda onlara üz tutub mehriban bir tərzdə «gecəniz xeyrə qalsın, əziz balalar, yuxunuz şirin olsun!» deyirdi. Elməddin indi, dirəyə söykəndiyi halda, təmiz, ağ ipək yorğan-döşəklərdə xumarlanan «əziz balaların» göz qapaqlarının astaca yumulduğunu, ya atanın, ya da ananın ehmalca yorğanı övladının üstünə çəkdiyini, əyilib alnından öpdüyünü aydınca təsəvvür eləyirdi.

Həsən dedi: «Qulaq asın, anamız danışır». — Bu sözlər Elməddinin qulaqlarından getmirdi. Bu uşaqların anaları yox idi. Diktor qadın isə analara məxsus şirin, mehriban səslə danışanda uşaqlara elə gəlirdi ki, bu, onların nə zamansa olmuş, nə zamansa, harasa çıxıb getmiş doğma analarının səsidir. Onlar fikrən, xəyalən başlarını ana dizi üstə qoyub nağıllara, şerlərə qulaq asırdılar. Nağıl danışan qadın, onlara hər gecə şirin bir dillə «balalarım» deyən diktor bu binəsiblərin həyatının bir parçasına çevrilmişdi — doğma anaları olmuşdu. Hər gecə eyni vaxtda onları yada salan, nağıl danışan, bütün günü heç kəsdən eşitmədikləri xoş sözlər deyən, ancaq üzə çıxıb dərdlərinəsərlərinə qalmayan, yuyundurub-geyindirməyən həm yaxın, həm də əlçatmaz bir ana olmuşdu. Yenə yaxşı ki o varmış, yaxşı ki kimlərsə fikirləşib o gözəgörünməz arvadı ora qoyublar ki, bu yetimlərə «əziz balalarım» deyib könüllərini şad eləsin. Bəli, o məhz bu yetimlər üçün danışır. Atalı-analı olanların onun isti-ilıq sözlərinə ehtiyacları yoxdur, bu sözləri o uşaqların öz anaları hər gün deyir. Bəli, o, bu yetimlərin anasıdır ki, qeyb olub harasa çəkilmiş, uzaqdan, o sirli-sehrli ağ qutunun içindən ayrı düşüb itirdiyi balalarına nağıl danışır, onlara şirin yuxu arzulayır. Hər gecə...

Elməddin gecə saat birəcən radio ilə verilən verilişlərə qulaq asdı; uşaqlar bir-birinə qısılıb çoxdan yatmışdılar. Elməddini də yuxu apardı...

ÜÇÜNCÜ FƏSİL

Elməddin səhər ayılanda uşaqları yerində görmədi; onlar şəhərə səpələnmişdilər: hərəsi öz «sahəsinə».

Elməddin bir xeyli yerindən tərpənmədi: bədəninin əzaları, sümükləri sızıldayırdı. Kürəyini torpağa söykəyib yatmışdı — ona görə ciyərlərinə soyuq dəyməyəcəyinə əmin idi. Hələ kənddə olanda

qocalardan eşitmişdi ki, torpağa; kürək söykəyib yatanın soyuqdəymədən qorxusu yoxdur. Üşüməyinə üşümüşdü. Yay gecəsinin ayazı hər necə olsa bədənini yüngülcə silkələyib titrətmiş, tüklərini biz-biz eləmişdi,

Şəhər cana gəlib dirçəlmişdi. Küçələrdə, xiyabanlarda gedişgəliş başlamışdı; bunu o, getdikcə artan səs-küydən aydın hiss eləyirdi. Şəhərin üstünü dağlardan enib gəlmiş duman bürüdüyündən on addımdan o tərəfi görmək mümkün deyildi. Şəhərin ətrafındakı haçabelli dağın arxasından baş qaldıran günəş göyə milləndikcə duman yavaş-yavaş seyrəlir, görüm dairəsi genişlənirdi. Az sonra şəhər üzərindən asılmış duman tamam çəkilib getdi, küləyin qovub apardığı tüstü kimi.

Fikirləşirdi. Neyləməli?! O buraya nə üçün gəlmişdi?, Əfsanənimi axtarırdı?! Axı Əfsanəni beləcə axtarmaqla tapmaq müşkül iş idi... Ürəyində etiraf eləyirdi ki, o, Əfsanəni axtarmaq bəhanəsi ilə kənddən qaçmış adama daha çox oxşayır. Çünki, o, kənddə gözükölgəli dolana bilməyəcəkdi. Yaranan şərait elə idi ki, Elməddinin baş götürüb kənddən çıxmaqdan başqa çarəsi qalmamışdı. Pıçıltılar, eyhamlı baxışlar, tənəli sözlər... Bunları eşitmək, görmək, eşidə-eşidə, görə-görə də qulağını sallayıb durmaq Elməddin üçün ağır idi, çox ağır idi. Birdən yadına düşdü ki, qəryədar Qulamın qardaşı oğlunu tapmaq, ondan bir kömək istəmək olar və lazımdır. Hər necə olsa tanışdı, Elməddinin xətrini də azdan-çoxdan istəyirdi, dövlətli adamdır, geniş imkanları var...

Bu fikir onu gümrahlandırdı. Və o, özünü kinoteatrın böyründəki kababxanaya verib toqqasının altını bərkidəndən sonra ağayi Mümtazın evini soraqlaşmağa başladı. Onun zənnincə, ağayi Mümtazı bu şəhərdə tanımayan adam ancaq gəlmələr ola bilər. Çünki, deyilənə görə, o, məmləkətin padşahından sonra ikinci adam idi — vardövlətdə, şan-şöhrətdə. Günortaya yaxın, nəhayət, ağayi Mümtazın evini tapdı. Şəhərin mərkəzində, «Parke-zənan»ın yanında daş hasara alınmış ikimərtəbəli, bağlı-bağatlı evi ona nişan verib demişdilər ki, ağayi Mümtaz bu binada yaşayır.

Darvazanın ağzında onu çox yaxşı geyinmiş, ortayaşlı xidmətçi qarşıladı:

— Sizə kim lazımdı, ağa?

Elməddin sıxıla-sıxıla cavab verdi:

— Ağayi Ətiqulla lazımdı mənə.

— Ağayi Ətiqulla keçən həftə Londona getdi.

— Londona? — Elməddinin içərisində nəsə qırılıb düşdü.

— Bəli, ağa. Atasını müalicəyə apardı.

Elməddin bir anlığa gözlərini yerə zilləyib hərəkətsiz dayandı. Nə deyəcəyini düşündü, amma ağlına heç bir şey gəlmədi ki, gəlmədi.

Xidmətçi onu təpədən-dırnağacan süzüb:

— Hardan gəlmisən, ağa? — deyə xəbər aldı. Elməddin könülsüz halda cavab verdi:

— Ağayi Qulamın yanından gəlmişəm.

— Sifarişini mənə deyə bilərsən, ağa. Gələndə mən Ətiqullaya çatdıra bilərəm.

— Yox, elə bir sözü-sovu yoxdu. Eləcə, ağayi Ətiqullanı görmək istəyirdim, — deyib fikirli-fikirli göy rəngli darvazadan uzaqlaşdı. Bu qərib, uzaq şəhərdə üzünə açıla biləcək yeganə qapı cırıltı ilə bağlandı.

...Boş-bekar, səfil-sərgərdan şəhərii xiyabanlarını dolaşırdı. Gördüyü hər şeyə beynindəki dumanlar arxasından baxır, küt bir hissiyyatla mühakimə yürüdürdü. Cibində qəpik-quruş pul qran-qran ehtiyacın gözəgörünməz əlləri ilə səssiz-küysüz çıxarılırdı. Pul azaldıqca Elməddinin elə bil, sümükləri də sıxılıb balacalaşır, günəş çıxıb yeri-yurdu qızdırsa da o üşüyürdü. Yavaş-yavaş, addım-addım təhlükə ona yaxınlaşırdı. Günlər keçdikcə Elməddin anlayırdı ki, ehtiyac öz dəhşətli ağzını açıb ona tərəf xəbib-xəbis sürünür. Ötən hər gün onu fəlakətə daha da yaxınlaşdırırdı.

Bir dəfə o, Daş körpünün yanında dayanmış çoxlu adama rast gəldi. Onların əlində kəndir, çiyinlərində palan vardı. Üzləri solğun, paltarları cındır, görkəmləri acınacaqlı idi. Elməddin özünü onların arasına verdi, danışıqlarına qulaq asdı. Anladı ki, bunlar yükdaşıyandılar. Gözləyirlər, kimin yükü olsa, az bir əmək haqqı müqabilində lazımi yerinə aparmağa hazırdılar.

Yastı sifətli bir kişi yoldaşına deyirdi:

— İki gündü, əlimə bir rupi də gəlməyib. Özüm də dünən yediyimin üstündəyəm. Qıçlarım əsir. Əgər indi müştəri də olsa ha, yükünü mənzilinə çatdırmağa taqətim yoxdu, vallah. Allah kəssin belə yaşayışı.

Gödək şalvar geymiş qozbel kişi çənəsinin ucunda bitmiş seyrək saqqalını tumarlayaraq fikirli-fikirli cavab verirdi:

— Bu gün səhər bir zabitin iri un kisəsini Şorbazardan ta evinəcən apardım. Qan-tər tökə-tökə. Nainsaf oğlu çıxardıb on rupi verdi, Qasım. Balalarımın canı üçün. Deyirəm, ağa, insaf dinin yarısıdı,

on rupi azdı. Deyir: «boro, qomşov, pədər lənət[1]» — sonra o, cibindən dəmir pulları çıxardıb qara, qabarlı ovcunu irəli tutdu. — Beş rupisini götür, Qasım, get çörəkdən, noxuddan al ye. Kasıbın olanından. Daha neynəyək? Əlimizdən nə gəlir?

Qasım adlanan kişi beş dənə bir rupilik götürüb özünü tinə verdi.

Elməddin başa düşürdü, bunlar şəhər işsizləri idi? dünyada bircə şeyə – öz qüvvələrini satıb dolanmağa gümanları gəlirdi. Vəssalam. Onu da alan yox, bahasına pul verən yox. İşsizlikdən, deməli, aclıqdan olan-qalan qüvvə də tükənir, onlar ayaq üstə gəzən canlı meyitlərə oxşayırdılar. Elməddin bu işsiz adamların solğun üz-gözünə baxır, düşünürdü.

Bu ara bığ yeri yenicə tərləmiş qəşəng, ancaq sir-sifəti çirkli oğlan arxın qırağındakı daşın üstünə çıxıb əlini yuxarı qaldıraraq həyəcanlı səslə:

— Camaat, — dedi, — qulaq asın. Bu gecə Hüseynəli kişi daxmasında özünü asıb.

— Necə?!

— Hüseynəli özünü asıb?

— Hə. Asıb. Bizim qonşuluğumuzda yaşayırdı. Səhər bir də gördüm ki, uşaqları qapının ağzında yığılıb ağlaşırlar. Dedim, ay qız, Mənsurə, nə olub? Dedi qibləgahım[2] ölüb. Getdim baxdım. Yük daşıdığı rismanla[3] özünü daxmanın tavanından asıb. Dili bir qarış çıxmışdı. Gözləri pırtlamışdı. Qapqara yanıb boğulmuşdu.

— Yazığın üç balası yetim qaldı...

Elməddin bu söhbəti eşidib ürəyində dedi: — «Şəhər yetimlərinin üçü də artdı».

Başının tükü, saqqalı qar kimi ağappaq olan bir yükçü mütəəssir halda dedi:

— Yığışın, gedəyin, kişini dəfn edəyin.

— Gedəyin.

— Hə, lazımdı.

— Bu gündən bizim üçün də var. Hamımız gec-tez öləsiyik, — deyə hamballar ağsaqqal kişinin sözünə qüvvət verdilər və onun ardınca tərpəndilər.

Kənarda dayanmış alnı qırışlı qara kişi Elməddinin böyründəki cavan oğlana yavaşcadan dedi:

---

[1] Rədd ol, lənətə gəlmiş oğlu.
[2] Qibləgah — ata.
[3] Risman — kəndir.

— Biz getməyək, oğul. Qoy bunlar getsinlər. Qəpik-quruş qazanmaq üçün fürsətdi.. Deyir, biri ölməsə, biri dirilməz...

Oğlan atasının üzünə baxıb heç nə demədi, yerindən də tərpənmədi.

Elməddinin ürəyi sıxıldı. Elə bil hava çatışmırdı.

Hər addımda baş verən dəhşətləri, faciələri görməmək üçün burdan qaçmaq, uzaqlaşmaq istəyirdi. Ancaq hara? Onun canını naməlum, müdhiş bir qorxu da alır, onu sıxırdı! Kim bilir, bəlkə o da səhər bu adamların gününə düşəcəkdi?! Hələlik, Elməddinlə onların arasında müəyyən məsafə - fasilə vardı, fərq vardı. Bəs sabah?! Ya birisi gün?!

Elməddin iti addımlarla uzaqlaşdı... Şəhərin ucqarına nə vaxt gəlib çıxdığını özü də bilmədi. Bura yüksəkdi Dağın döşü idi. Bombozdu hər yan. Yaşıllıqdan əsər-əlamət yox idi. Elməddin sal daşın üstündə oturdu. Şəhər burdan əl içi kimi görünürdü. Fikirləşdi ki, hər şeyə kənardan baxmaq yaxşıdı. Çirkabını, kəsafətini, nöqsanını görmürsən. Uzaqdan baxanda şəhərin içində hökm sürən səfaləti, yurdsuzları, dilənçiləri və işsizləri görmürsən. Görmürsən və rahatsan.

Qanrılıb dağlara sarı — yuxarı baxdı. Şəhəri əhatə eləyən dağların belindən çəkilmiş, indi xarabaları qalmış hasar görünürdü. Onun bugünkü acınacaqlı görkəmi belə onun əzəmətli keçmişini adamın xəyalında, təsəvvüründa canlandırırdı. Elməddin bu divarlar barəsində tarix kitablarında, qəzetlərdə çox oxumuşdu. Vaxtlar olmuşdu ki, yadelli istilaçıların yürüşləri bu qədim şəhərin möhkəm divarlarına çatıb dayanmışdı. Möhkəmliyi, ucalığı, əzəmətilə o, düşmənin ümidini topdan, tüfəngdən az qırmamışdı. Divarların çəkilməsi, qurulması haqqında hekayət tam təfərrüatı ilə Elməddinin xəyalında canlanırdı.

... Məmləkətin üzərini fəlakət almışdı. Ərəbistandan çıxıb bütün şərq ölkələrinə qarışqa kimi, çəyirtkə kimi yayılan istilaçı qoşunlar cənub tərəfdən kəndləri, şəhərləri yandıra-yandıra paytaxta doğru hərəkət etməkdə idi. Şəhərin müdafiəsi isə yaxşı təşkil edilməmişdi. Dağlar silsiləsindən başqa yadelli qoşunun həmləsini çətinləşdirəcək, ləngidə biləcək bir maneə yox idi. Məmləkətin padşahı Şahzəmburək şəhərin müdafiəsini möhkəmlətmək məqsədilə dağların belindən tez bir zamanda hündür bir hasar çəkilməsini əmr etmişdi. Əmr dərhal yerinə yetirilməli idi — şəhər əhli böyüklü-kiçikli bu müqəddəs işdə yaxından iştirak etməli idi. Şah əmr vermişdi; kim bu işdə azca soyuqluq göstərsə, süstlük eləsə, hətta daşı-kərpici əlindən

düşsə, özü diri-diri daşlarının içinə qoyulub hörülməli idi. Buna görə də təsadüfi deyil ki, indinin özündə də hasarın xarabalıqlarının içindən insan sümükləri tapılırdı.

Elməddin bu əhvalatı xatırlayıb fikirləşirdi: «bəli, onda düşmən top-tüfənglə, qılıncla gəlirdi, bilirdin ki, düşməndir gələn. Döşünü irəli verib torpağını, yurdunu qoruyurdun. İndi isə... dost adı ilə gəlir. Pasportu da var, icazənaməsi də var. İndi dollarla gəlir, qızılla gəlir. Mənim doğma vətənimin mehmanxanasında onun üçün qalmağa yer var, bu torpağın doğma oğlu ola-ola mənim orada qalmağa imkanım yoxdur. Aman allah, bu nə deməkdir?.. »

DÖRDÜNCÜ FƏSİL

Başı üzərindəki radionun səsinə ayılanda hava işıqlanmışdı. Dikəlib oturdu. Yuxulu, şişmiş gözlərini ətrafa dolandırdı və təbii ki, ilk əvvəl neçə gün kənardan-kənara müşahidə elədiyi, ancaq yaxınlaşıb danışdırmadığı uşaqların yerinə baxdı. Kimsə yoxdu. «Gediblər dilənməyə»— deyə düşündü və xatırladı ki, onun özünün də təkcə bü günlük yüngülvarı yemək üçün pulu qalıb. Bəs sabah nə edəcək? Nə yeyəcək? Şəhər dilənçiləri ilə onun arasında cəmisi bircə günlük məsafə qalıb. Bəli, sabah o da adicə, ancaq təcrübəsiz bir dilənçi ola bilərdi. Bunu o bacarardımı?!—Yox! —dedi öz-özünə.

Ayağa qalxdı... hər səhər qəlyanaltı elədiyi kababxanaya sarı addımladı. Üç-dörd addım atmış əlini cibinə salıb qalan pulunu yoxlamaq istədi. Və heyrətdən donub qaldı. Pul cibində yox idi. Ayaqları yerə yapışdı. Bilə-bilə ki, pulu həmişə qoltuq cibində gizlədərdi, o biri ciblərini də axtardı, yox idi. O geri qayıdıb dirəyin dibini — yatdığı yeri yoxladı. Puldan əsər-əlamət tapmayıb taqəti kəsildi, yerə oturdu. Və xatırlamağa çalışdı ki, axırıncı dəfə pulu harada yoxlamışdı. Axşam, bəli, axşam elə burada, yatmamışdan əvvəl əlini cibinə salıb pulun, axırıncı ümidinin qoynunda olduğunu yəqinləşdirəndən sonra rahat uzanmışdı. Demək, pul burada zavala gəlmişdi. Əlbəttə, aydın məsələ idi ki, pulu dörd-beş addım aşağıda, təpənin ətəyində gecələyən uşaqlar çıxartmışdılar. Sözsüz, bu, onların arasında diribaşlığı, cüvəllağılığı ilə seçilən Səxi adlı oğlanın işi idi. «Ac qılınca gələr» məsəli Elməddinin yadına düşdü və pul oğurlayanı qınamadı. Onsuz da o qəpik-quruş Elməddini bir yerə çıxaran deyildi.

Yarım saatacan halsız-hərəkətsiz yerindəcə oturduqdan sonra nə edəcəyini, hara gedəcəyini bilmədən şəhərə düşdü. Məqsədsiz, ümidsiz küçələri gəzməyə başladı. Kababxananın yanından keçəndə qızarmış ət iyi burnunu qıcıqlandırdı, ağzı sulandı — ac idi. Pulsuz ona heç kəs bir içim su da verməzdi, bunu Elməddin yaxşı bilirdi. Ötüb keçdi. Günortayacan xiyabanları sərgərdan-sərgərdan dolaşdı. «Nə etməli?» sualı beynini, ürəyini gəmirirdi. İş axtarmaq mənasız idi, onsuz da tapmayacaqdı. Dilənmək? — qüruruna sığışdıra bilmirdi. Bədbəxtlik! — bu onun ağlına tez-tez gələn fikir idi. «Mən bədbəxtəm! — deyirdi. — Mənim alnıma xoş gün, rahatlıq yazılmayıb. Atam tez öldü. Ana, qardaş ümidinə qaldım; qardaşım elə bədbəxt oldu. Özüm də belə. İstər-istəməz, heç bir xüsusi səy göstərmədən dodaqaltı bu misraları pıçıldayırdı. həyat, ehtiyac bu sətirləri yazırdı:

Gözümü açandan bir gün görmədim,
Allah, nələr çəkdi zillətdə könlüm.
Olmazın dərdi-qəm axdı üstümə —
Dağlardan ağırdı siqlətdə könlüm...

Bunlar azmış yəni, başına dönüm —
İndi də kömürdən qaradır günüm.
Dünyanı yandırır harayım, ünüm,
Yandı, külə döndü möhnətdə könlüm!

Ümidsizlik par-par parıldayan iti qılıncını Elməddinin üstünə çəkmişdi. O özünü həyata bağlayan hər şeyi yavaş-yavaş itirirdi.

Başını qaldırıb qarşısındakı görkəmsiz, pəncərələrinin layları açıq binaya baxdı və gözünə iri, qara hərflərlə yazılıb qapının üstünə vurulmuş lövhədə «Pərçəm»[1] sözü dəyəndə ayaq saxladı. Elə bil, bu bir kəlmə söz onun artıq dumanlanmış beynində işıq yandırdı. «Pərçəm?» Bəli, «Pərçəm» yazılmışdı. Bu həmin qəzetin redaksiyası idi ki, neçə ay əvvəl kənddən göndərdiyi iki şerini çap eləmişdi. Elməddinin gözlərinə işıq gəldi. Dizlərinə taqət, ürəyinə ümid axıb doldu. Necə də olsa tanıyarlar. Bəlkə bir kömək elədilər, «işdən-zaddan tapdılar mənim üçün» — fikri beyninə dolandı.

[1] Pərçəm — bayraq.

Elməddin cəsarətsiz addımlarla içəri girdi. Balaca, uzunsov dəhlizdən keçib üstünə «Dəftəre-Pərçəm»[1] sözləri yazılmış qapını ehmalca tıqqıldatdı.

— Buyurun! — səsi eşidən kimi Elməddin otağa daxil oldu. Güncdə köhnə stolun arxasında oturan kişi kök, gödəkboylu, saçlarına dən düşmüş qarayanız bir adam nəsə yazırdı. Əl saxlayıb başını qaldırdı və onlar ani olaraq baxışdılar.

— Buyur, ağa, — deyə eynəkli kişi Elməddinə müraciət eləyəndə o, nə cavab verəcəyini, haradan başlayacağını müəyyənləşdirə bilməyib susdu.

— Bir sözünüz vardı, ağa?

— Bəli... Mən sizin yanınıza... gəlmişəm... — Elməddin qırıq-qırıq danışdı.

— Nə məsələdən ötürü?

— …

— Buyur, əyləşin, — deyə eynəkli kişi çaşıb qalmış oğlana baxıb gülümsündü, — oturun. Deyəsən, sözlü adama oxşayırsınız. — Kişinin bu sözləri Elməddinin qırışığını açdı və o, lütfkarlıqla göstərilən stulda rahatlandı.

Elməddin çətinliklə dilləndi:

— Əgər səhv etmirəmsə, siz ağayi Rəhgüzərsiniz?

— Bəli... Tanış olaq. — Qalxıb Elməddinə əl verdi, — Məhəmməd Şəfi.

— Elməddin!

Məhəmməd Şəfi Elməddinin əlini buraxmamış:

— Elməddin? — deyə xəbər aldı.

— Bəli.

— Adınız mənə tanış gəlir.

— Qəzetinizdə bir-iki şerimi dərc etmişdiniz. Bəlkə ordan yadınızda...

— A, yadıma düşdü. Xoş gördük, ağayi Elməddin. — Məhəmməd Şəfi üzündə xoş təbəssüm əlavə etdi, — igidin adını eşit, üzünü gör.

— Lütf edirsiniz, ağa!

Hər ikisi əyləşdi. Elməddinin ağayi Məhəmməd Şəfi Rəhgüzərin onu belə mehriban qarşılamasına görə sevincinin hüdudu yox

[1] «Pərçəm»in idarəsi.

idi. Ürəyinin guppultusunu özü eşidirdi. Azca qabaq bütün vücudunu çulğamış məyusluq, ümidsizlik, üzünü birinci dəfə gördüyü Məhəmməd Şəfinin mehribanlığı qarşısında əriyib yox olmuşdu. Elməddin onun adını çoxdan eşitmişdi. Qəzetlərdə, jurnallarda çıxan şerlərini, kitablarını oxumuşdu. O, şer-sənət həvəskarlarının qiyabi sevimlisinə çevrilmişdi. Şəxsən Elməddin onu adi bir insandan daha çox, ilahi bir varlıq kimi təsəvvür etməyə çoxdan alışmışdı. Bir zamanlar şairi görmək arzusu ilə yaşayan Elməddin indi gözlərinə inanmaq istəmirdi ki, onunla üzbəüz oturub, səsini eşidir, sözlərinə qulaq asır. Bəli, bu, Elməddin üçün gözlənilmədən baş vermiş bir möcüzə idi. Və o, bunun həqiqət olduğuna hələ də inana bilmirdi.

— Məktublar şöbəsinin müdiri sizin şerləri gətirib mənə verəndə düzü, əvvəl baxmaq istəmədim. Çünki bizə o qədər elə məktub gəlir ki, saysız-hesabsız; xüsusilə şer. İndi özün bilirsən, şerə qarşısıalınmaz güclü bir axın var. Bunun özü yaxşı haldır, onların içindən gələcəkdə üç-dörd yaxşı şair çıxsa, ədəbiyyatımız üçün xeyirdir. Bunları seçmək, saf-çürük eləmək gərəkdir. Ona görə ki, bəziləri şairliyi şöhrət hesab eləyib əlinə qələm alır. Açığını deyim ki, şöhrətpərəst adamların şair ola biləcəklərinə mən əsla inanmıram. Amma onların içində əsl sənət eşqi ilə, əsl xalq məhəbbəti ilə yanan adamlar da az deyil. Bax, belələrini seçib üzə çıxarmaq, xalqa təqdim etmək bizim əsl borcumuzdur. Düzünü istəsən, sənin yazıların hələ fikir, əqidə nöqteyi-iəzərdən bitkin deyildi, onları çap etməmək də olardı. Ancaq o yazılarda ürəkdən gələn, ürəyi isindirən bir səmimiyyət duyulduğu üçün mən onları qəzetimizdə üzə çıxartmağı faydalı bildim.

— Mən sizə öz təşəkkürümü, minnətdarlığımı bildirmək üçün söz tapa bilmirəm, ustad.

— Bizim borcumuzdur. Əkər sən bizim qəzeti mütaliə edirsənsə...

— Həmişə, ustad. Düzdür, qəzet-jurnal bizim yerlərə gec gəlib çıxır, ancaq oxuyuram.

— Bəli, bizim qəzetimizin istiqaməti başqa qəzetlərə — məsələn, dövlət qəzetlərinə nisbətən fərqlidir. Dövlət qəzetləri hökumətin siyasətini — yaxşı oldu, pis oldu, əyri oldu, düz oldu, fərqi yoxdur — müdafiə eləyir. Qələm əhli, qəzet, jurnal, radio ki yalan danışdı, həqiqətin üstünə pərdə çəkdi, onların olmağındansa olmamağı yaxşıdır. Mən özüm şəxsən əqidəsi, məfkurəsi xilafına yazı yazan şairləri, yazıçıları, jurnalistləri xain hesab eləyirəm. Belələri bu gün öz əqidəsi-

nə, ürəyinə xəyanət eləyirsə, sabah xalqa, vətənə xəyanət eləyəcək. Mən və mənim qələm yoldaşlarım qarşımıza məqsəd qoymuşuq ki, bu savadsız, kasıb, biçarə millətin gözünü açmaq üçün əlimizdən gələni əsirgəməyək, onlara acı həqiqəti deyək.

— Deyirlər həqiqət qılıncdan iti olur, ustad.

— Həm də zəhər kimi acı olur, Elməddin.

— Qırx ildən yuxarıdır ki, biz azadlıq əldə etmişik. Amma biz azadıqmı? Biz xariciləri qovduq məmləkətimizdən. Amma aclığı, səfaləti qova bilməmişik, alçaqları, xainləri yox edə bilməmişik, rüşvətxorluğu, qohumbazlığı, özbaşınalığı qova bilməmişik, Elməddin.

— Tamamilə düz buyursunuz, ustad.

— Qırx il bundan qabaq ata-babalarımızın xariciləri məmləkətdən çıxartmağa yönəldilmiş qılıncını iidi biz daxili düşmənlərimizə qarşı itiləmişik və nə qədər ki namus, qeyrət bizi tərk etməyib, biz bu mübarizəni davam etdirməliyik.

Məhəmməd Şəfi sözünə ara verdi, papirsu yandırdı və acı tüstünü acgözlüklə sinəsinə çəkdi; sanki içərisi alovlanırdı, atəşini tüstü ilə söndürmək istəyirdi,

Bunu gərək bizim cavanlarımız, rövşənfikirlərimiz başa düşsün, anlasın... — o, ah çəkdi və ani sükutdan sonra: — Nə isə, mətləbdən uzağa düşdük. — dedi.—Yəqin yenə şer gətirmisiniz?

Elməddin bayaqdan Məhəmməd Şəfi danışdıqca fikərləşirdi ki, onun nə böyük ürəyi var, o nələr haqda düşünür.

— Yox, — dedi, — ustad. Düzdü, bir neçə şerimlə rəsmim var. Ancaq mən onları hələ çap etdirmək fikrində deyiləm.

— Niyə?

— Ona görə ki, ustade-möhtərəm, hələ püxtə hesab eləmirəm. Mən onlarda ancaq öz dərdimi qələmə almışam.

— Sənin buna ixtiyarın var, Elməddin. Sən də cəmiyyətin bir üzvüsən. Sənin şəxsi dərd hesab elədiyin hisslər bir yerə yığılanda ictimai dərdə çevrilir. Şəxsi hisslər həmişə qələmə alınıb, indi də yazılır, gələcəkdə də yazılacaq. Bədbəxt o sənətkardır ki, ömrünün axırına qədər ancaq öz dərdlərinə ağlayır...

Bu sözləri eşidəndə Elməddinin bədəninə istilik gəldi. Sanki qarşısında dayanıb dərdli-dərdli, ancaq dəyanətlə danışan şair, Elməddinin cib dəftərçəsindəki intim, şairanə yazıları nəzərdə tutur; çünki onlarda Elməddin ancaq özünə aid, nakam sevgilisinə və qardaşına aid məsələləri qələmə almışdı. Onun şerlərində, kiçik hekayələrində hələ gecələr təpə ətəyində yatan yurdsuz-yuvasız uşaqların,

iş üçün növbəyə dayanan solğun sifətli binəsiblərin, özünü asan və üç yetimini başsız qoyan hambalın faciəsi yox idi; onlarda hələ vətənin şanlı-şövkətli keçmişi, indiki ağır vəziyyəti əks olunmamışdı. Xaricilər paytaxtın cah-cəlallı mehmanxanalarında yaşamağa qadir idi, o, bu torpağın oğlu, öz vətənində gecələməyə yer tapmırdı — bu böyük dərd hələ Elməddinin qəlbindən süzülüb ağ kağıza tökülməmişdi. Bax, buna görə o indi xəcalət çəkirdi. Məhəmməd Şəfi danışıb-danışıb ürəyini boşaldandan sonra Elməddindən xəbər aldı:

— Yəqin gəzməyə gəlibsən?!

— Yox, — deyə o cavab verdi, — iş axtarmağa gəlmişəm.

Elməddin belə düşündü ki, Məhəmməd Şəfidən — o mehriban və qayğıkeş adamdan heç nə gizlətmək lazım deyil; hər şeyi olduğu kimi danışsa, daha yaxşı olar.

— İş axtarmağa?!

— Başağrısı verirəm sizə, ustad.

— Yox, yox, danış.

Elməddin başına gələn qəzavü-qədəri müfəssəl Məhəmməd Şəfiyə nağıl etdi. O, diqqətlə Elməddinin söhbətinə qulaq asdı, bu müddətdə iki-üç papiros yandırıb sümürdü.

— Bilirsiniz, ustad, bu hadisədən sonra kənddə qala bilmədim. Qeyrətimə sığışdıra bilmədim. Məhəmməd Şəfi ah çəkdi:

— Başa düşürəm səni, Elməddin. Bizim mühitimizdə namus-qeyrət məsələsi ciddi məsələ olaraq qalır. Bu, bir tərəfdən yaxşıdır. Öz adının, ailəsinin qeyrətini çəkməyən adam heç millətinin də qeyrətini çəkə bilməz. Qızın şəkli varmı səndə?

— Yox, ustad.

— Bu olmadı. Şəklini götürsəydin yanınca, qəzetimizdə axtarış elan edərdik. Bəlkə görən, bilən oldu, xəbər edərdilər.

— Yazığın indiyənəcən heç bir dənə də olsa şəkli çəkilməyib, ustad. Yetim qız olub.

Ani fikrə gedəndən sonra redaktor qeyd etdi:

— Biz hər halda elan verərik. Yaşını, nəmini-nişanını axşam yazarsan, səhər verərsən, cümə günü nömrəsinə salarıq. Hə, harda düşmüsən, Elməddin?!

Elməddin sıxılıb balacalaşdı:

— Düzü, ustad... heç yerdə.

— Necə yəni heç yerdə? Bəs harda gecələyirsən?

— Parkda... açıq havada... — Elməddin alnında tər damcıları əmələ gəldiyini hiss elədi.

— Neçə gündü şəhərə gəlibsən?

— Bir həftədi.

— Bütün bu günləri elə parkda gecələmisən?

— Bəli, ustad.

— Bəs mehmanxanaya niyə düşmürdün?

— Düzü, — Elməddin dili topuq çala-çala cavab verdi,— mehmanxanaya getdim, bir gecəsinə iki yüz rupi istədilər. Mənim cəmisi yüz neçə rupi pulum var idi. Qalanını da bu gecə parkda dilənçilər cibimdən çıxardıblar...

Məhəmməd Şəfi Elməddinin utana-utana dediyi bu sözləri eşidib köksünü ötürdü:

— Be...lə de!

— İş axtardım, yoxdu.

— Çətindi, Elməddin, iş məsələsi çox çətindi.

— Bir yüngülvari iş olsaydı. Dolanmaq üçün. Ağırlığından qorxan deyiləm. Daş daşımağa da razıyam, ustad, hambal olmağa da. Təki o kəndə bir də qayıtmayım.

— Demək, qəti qərara gəlmisən ki, daha oraya qayıtmayasan?

— Bəli, ustad. Burada acından öləcəyəm, dilənçi olacağam, ancaq qayıtmayacağam.

Elməddinin səmimi-qəlbdən, ürəklə dediyi bu sözləri Rəhgüzər dinləyib gülümsündü:

— Qətiyyətin xoşuma gəlir, oğul. Kişi gərək qətiyyətli olsun, — ayağa qalxdı, — dur gedək nahar eləyək, sonra bir şey fikirləşərik...

— Çox sağ olun, ustad. Siz gedin, naharınızı yeyin. Mən toxam.

Məhəmməd Şəfi xəfifcə gülümsündü:

— Sənin pulunu cibindən çıxaran dilənçilər indi səndən toxdular. Dur gedək... — O, ərkyana Elməddinin qolundan tutub qaldırdı və küçəyə çıxdılar.

BEŞİNCİ FƏSİL

Yaşıl xiyabanın qurtaracağına çatanda iri taxta darvazalı həyətin qənşərində Məhəmməd Şəfi addımlarını yavaşıtdı. Yol uzunu danışmamışdılar. Gələn-gedən, səs küy o qədər çoxdu ki, ağız deyəni qulaq eşitmirdi. Rəhgüzər də, Elməddin də öz aləminə dalıb yanaşı yeriyirdilər. Elməddin belə görkəmli adamla yol yoldaşı olduğuna görə yaman sevinirdi, hər şeyi — aclığını da, dərdi-sərini də unut-

muşdu. Şəhər camaatı, görünür, şairi yaxşı tanıyırdı. Qabaqlarına çıxanlar ayaq saxlayıb hüsn-rəğbətlə ona baxır, çoxu da salam verirdi. Elməddin neçəsinin pıçıltısını da eşitmişdi: «Şair Rəhgüzərdir» — Budur?» «Hə, özüdü ki var. Bizim xiyabanda yaşayır. Böyük adamdır». Üst-başının yaman gündə olduğuna, üzünü qırxmadığına görə Elməddin onunla yanaşı getməkdən utanır, bacardıqca dala qalmaq istəyirdi.

— Dala niyə qalırsan, Elməddin?

— Gəlirəm, ustad, — deyə cavab verirdi.

Məhəmməd Şəfi darvazanın ağzında ayaq saxlayanda Elməddin qapının sol tərəfinə vurulmuş balaca lövhəni oxudu: «Məhəmməd Şəfi Rəhgüzər».

«Demək, məni evinə gətirib!» — deyə düşünən Elməddinin ürəyi əsim-əsim əsdi. Etiraz etmək üçün nəsə demək istədi, ancaq şair ona imkan vermədi:

— Buyur, — dedi və darvazanı itələyib açdı. — Bu bizim evdir! — Həyətin ortasında balaca bir hovuz vardı. Budaqları hovuzun üstünə əyilmiş yaşıl söyüd ağacının altında alçaq, pardaxlanmış stol və üç dənə də stul qoyulmuşdu. Həyəti əhatə eləyən hasarın dibində, dövrələmə güllər əkilmişdi. Üzü gündoğana baxan birmərtəbəli evin pəncərələrinə gün işığı düşüb şüşələri parıldadırdı. Darvazanın cırıltısını eşidən kimi üç uşaq evdən hay-küylə, həyətə qaçışdı. Qabaqda gələn qıvrımsaçlı yeddi-səkkiz yaşlı oğlan uşağı idi, dalınca kilkəbaşlı iki qız—ondan kiçikdilər, — atalarına sarı qanadlandılar. Kənar adam görüb kiridilər.

— Bunlar mənim balalarımdırlar, — deyə Rəhgüzər üzündə xoşbəxt ata təbəssümü Elməddinə sarı döndü.

— Maşallah, — deyə o, şairin balalarına baxıb gülümsündü.

— Yaxın gəlin, əmiynən tanış olun.

Əvvəl oğlan irəli yeridi, kişiyana bir ədayla, yaşına yaraşmayan ciddiyyətlə salam verdi. Elməddin əlini irəli uzatdı.

— Mənim adım Bəbrəkdi. Bəs sizinki nədi? Uşağın sualından Elməddin qızardı, adını dedi. Bu qayda ilə qızlar da yaxın gəlib təzə qonaqla tanış oldular.

— Jalə. — Böyük qızın adı belə idi.

— Rəbiə. — Mırıq dişlərini ağardan kiçik qızın da adı belə idi.

Söyüd ağacının altına toplaşdılar. Elməddin indi baxıb gördü ki, hovuzun içində qızıl balıqlar üzür. Necə də gözəl idilər. Heç yana

tələsmədən, ağır ləngərlə arxayın-arxayın hovuzun bu başından o başına çatır, mayallaq vurub təzədən geri dönürdülər.

— Burda oturaq, ya evdə, Elməddin? — deyə Məhəmməd Şəfi balıqlara uşaq aludəçiliyi ilə baxan qonağa müraciət elədi. Elməddin gözlərini hovuzun aram suyundan çəkib şairə baxdı:

— Bura yaxşıdı, ustad, — dedi.

— Biz yayda burda otururuq. Ev bürkü olur,—sonra o, mizi lap hovuzun qırağına çəkdi, stulları böyrünə düzdü, — əyləş. Harda kefin istəyir, orda da otur...

Elməddin üzü hovuza tərəf əyləşdi.

Bu ara eyvandan bəstəboylu, başına ağ örpək örtmüş, sadə, ağ don geymiş bəyaz sifətli, üzündə gülümsər bir ifadə olan qadın asta qədəmlərlə onlara yanaşdı...

— Xoş gəlibsiz, — yavaşca dilləndi.

— Xoş gününüz olsun, bacı...

— Bu mənim yoldaşımdır. Məleykə xanım.

— Çox şadam, ustad.

— Amma, Məleykə xanım, sən bilirsənmi bu ağa kimdir? Məleykə utancaq nəzərlərlə ilk dəfə gördüyü qonağa ötəri nəzər saldı və «yox» mənasında başını buladı.

— Tanıyırsan, tanıyırsan. Şəxsən olmasa da, qiyabi tanıyırsan. Yadındadı, qəzetimizdə iki şer çıxmışdı. Sən də dedin, hə, bax, buna şer deyərəm, ha.

— A, yadıma düşdü. Ağayi Elməddin.

— Özüdür ki, var.

— Çox gözəl. — Sonra əlavə elədi, — gözəl şerlər idi. Hətta mən onları kəsib saxlamışam da.

Elməddin təşəkkür eləməyə söz tapmırdı. Müxtəsərcə dedi:

— Lütf eləmisiniz, xanım. Çox məmnunam. Məhəmməd Şəfi özü də stul çəkib oturdu:

— Bizim xanım şeri, sənəti, rəsmi özündən də, məndən də çox istəyir. Xüsusən lirik əsərləri, gülməli, mənalı rəsmləri çox sevir. Mənim ilk oxucumdur. Yazılarımı birinci ona oxuyuram.

Məleykə xanım sıxıla-sıxıla dedi:

— Yaxşı, sən allah, az təriflə məni. Yəqin ac olarsınız, yemək gətirim.

— Hə, hə, gətir, görək nəyin var.

— Elməddin qardaş, buna çox ümid olmayın, bu ki şerdən-sənətdən başladı, qurtaran deyil. Qonaqlarına çörəkdən-xörəkdən

çox, söz yedirdir, — deyə Məleykə həlim-həlim gülümsünüb ərinə sataşdı.

— Xoşdur, Məleykə bacı, onun hər sözü mənim üçün qızıldan da qiymətlidir.

Uşaqlar sakit dayanmışdılar. Elə bil, burda heç uşaq yoxdu. Yan-yana durub böyüklərin söhbətinə qulaq asır, kəlmə də kəsmirdilər.

— Əvvəl dur bir yaxşı-yaxşı əl-üzünü yu, Elməddin. Bəbrək, oğul, əmiyə göstər ələüzyuyanın yerini.

— Yaxşı.

Elməddin Bəbrəkin ardınca eyvanın yanında sütuna bərkidilmiş ələüzyuyana sarı getdi. Günün altında qalıb isinmiş ilıq suyla yuyundu — Bəbrəkin evdən gətirdiyi tiftikli dəsmalla qurulandı.

— Oxuyursanmı, Bəbrək?

— Hə.

— Neçənci sinifdə?!

— Birincini qurtarmışam.

— Oxuyub nə olmaq istəyirsən, Bəbrək.

— Kitab yazan olacağam. Elməddin güldü:

— Qibləgahının yoluynan getmək istəyirsən, hə? Bəbrək başını tərpətdi.

— Bərəkallah. Bərəkallah.

Ortalığa xörək gələndə uşaqlar kölgə kimi çəkilib getdilər. Miz arxasında Elməddin və Rəhgüzər qaldı. Məleykə plov bişirmişdi. Əvvəl Rəhgüzər özü bismillah elədi. Sonra qonaq başladı. Ac olduğuna görə, çoxdan belə ləzzətli ev xörəyi dadmadığına görə o, iştahla yeyirdi. Nahar səssiz-səmirsiz keçdi. Süfrəni yığışdıranda Elməddin Məleykəyə dil-ağız elədi:

— Uşaqların toyunda yeyək, Məleykə xanım.

— Sağ olun, nuşi-can olsun.

— Məleykə, bir yaxşı çay dəmləsən, lap olar əla. — Məhəmməd Şəfi əlini yumşaq kağız salfetkaya sildi.

— Elməddin qardaş qara çay içir, ya göy çay?

— Hansından oldu.

— Göy çay gətir. Yanğımızı yatırsın, — deyə Məhəmməd Şəfi əlini saçlarına çəkdi. Məleykə getdi. Elməddin narahatçılıqla dedi:

— Bu gün sizi işdən elədim, ustad. Gərək məni bağışlayasınız.

— Yox, yox. Heç narahat olma. Elə belə, özüm idarəyə getmişdim. Bu gün bizim iş günümüz deyildi. Əməkdaşları da buraxmışam. İstirahətdədirlər.

— Neçə əməkdaşınız var?

— Özümdən başqa üç. Bir nəfər də təypistimiz[1] var. Çox adam götürə bilmərik. Maddi imkanımız yoxdur. Dövlət bizə bir qran da pul buraxmır. Hamısının xərci mənim boynumadır.

— Ağırdı, əlbəttə.

— Ağırlığına dözmək olar — o, ah çəkdi. — Təki çəkdiyimiz zəhmətin millət üçün, vətən üçün bir faydası olaydı.

Məleykə iki çaynik çay gətirdi. Sınmayan qəhvəyi piyalələrin birini qonağın, o birini ərinin qabağına qoydu. Qənddan rəngbərəng konfetlə, noğul və qəndlə dolu idi. Hərəsi özü üçün çay tökdükdə Məleykə çəkilib getdi.

— Ustad, mən fikir vermişəm, camaat rəsmi qəzetlərdən çox qeyri-rəsmi, şəxsi qəzetləri daha çox oxuyur.

— Çünki qeyri-rəsmi qəzetlər həqiqəti yazırlar. O şeyləri yazırlar ki, rəsmi qəzetlər onlar barədə ağzına su alıb susur. Amma biz yazırıq. Çünki yazmamaq mümkün deyil. Susmaq mümkün deyil, susmaq vicdansızlıqdır.

Bəbrəkin qaça-qaça gəlməsi söhbəti yarımçıq qoydu:

— Ata, səni telefona çağırırlar...

— Kimdi?

— Bilmirəm, deyir... sözüm var... Bir kişidi.

Məhəmməd Şəfi evə gəldi. Kimləsə, nə barədəsə danışıb dəstəyi telefonun üstünə qoyanda arvadının yanında dayandığını gördü. Məhəmməd Şəfi əlini onun yaraşıqlı, xallı çənəsinin altına sürtüb:

— Nə təhərsən, mənim Məlaikəm! — dedi. — Sözlü adama oxşayırsan?—Məleykə ərinin ona qarşı həssaslığından məmnun halda gülümsündü:

— Elməddin deyəsən lap kasıbdı hə, Şəfi? Üst-başından... — Məhəmməd Şəfi ciddiləşdi:

— Hə, Məleykə. Onun dərdi böyükdü.

— Nə olub ki?

Məhəmməd Şəfi müxtəsərcə Elməddinin başına gələn əhvalatı arvadına söylədi.

— Belə de. Yazıq. Gərək alaydı, özü də didərgin düşməyəydi, o bədbəxti də təzədən bədbəxt eləməyəydi.

— Qardaşının arvadını alaydı, hə?1

[1] Təypist — makinaçı.

— Nə olardı ki?!

— Bizim millətin bundan da murdar bir adəti olduğunu bilmirəm mən, Məleykə. Çox murdar qaydadı, çox murdar!!! Ani fikrə gedəndən sonra Məleykə də razılaşdı:

— Düz deyirsən, pis adətdi.

— Gəlib çıxıb bura. Nə pulu var, nə üst-başı, nə də qalmağa yeri. Kəndə də qayıtmaq istəmir.

— Əgər camaat elə deyirsə, yazıq nə üznən qayıtsın kəndə?

— İstəyirəm ona kömək eləyim, Məleykə. İstedadlı oğlandı. Arada-bərədə itib-batmasın. Onun şer yazmaqdan savayı, yaxşı əl qabiliyyəti də var, şəkil çəkir. Bizə qəzetimizi bəzəmək üçün hökmən bir rəssam gərəkdir. İndi qəzetimizdə yerimiz yoxdur, başqa yerdə bir iş taparam. İşlər, qəzetlə də əlaqə saxlar. Sonra imkan olanda gətirərəm yanıma.

— Nə deyirəm ki, özün bilən məsləhətdi, Şəfi. Şəfi Elməddinin yanına qayıtdı...

— Darıxmadın ki.

— Yox, ustad. Darıxmadım. Ancaq indi mənə icazə verin yavaş-yavaş gedim.

— Hara?

— Hara gedəcəksən?

— Görüm başıma nə çarə qılıram.

Məhəmməd Şəfi papirosunu yandırdı. Damağına qoyub sümürdü. Elə bil, nəsə demək istəyirdi, ancaq tərəddüd eləyirdi. Nəhayət, söylədi:

— Sən hələlik iş və yer düzəldənəcən bizdə qalacaqsan.

—Yox, ustad. Sağ olun.

— Qulaq as. Bizdə qalacaqsan. Al. — O, cibindən iki dənə göy min rupilik çıxardıb Elməddinin qabağına qoydu, — götür bu pulu. Özünçün kostyum al. Dəlləyə get... Sonrasını fikirləşərik.

Elməddin etiraz edirdi:

— Yox, vallah, ustad. Siz mənə lap xəcalət verirsiniz.

— Borc verirəm, — dedi. — Dövlətlənsən, qaytararsan.

— Götürmərəm.

— Götür, götür! —söylədi və demək olar ki, zorla pulu onun cibinə dürtdü və gülə-gülə əlavə etdi: — Amma ehtiyatlı ol ki, dilənçilər cibindən çəkməsinlər. İndi get, axşama yenə bizə gəl. Eşitdin?..

Elməddin böht, heyrət və xəcalət içində darvazadan çıxdı. Özözünə düşünürdü: «İlahi, bu, peyğəmbərdi, nədi?»

ALTINCI FƏSİL

Elməddinin görkəmi tamam-kamal dəyişmişdi. Uzun, yaşına yaraşmayan saqqalını vurdurmuş, əyninə təzə, ingilis parçasından tikilmiş kostyum geymişdi. Ayağındakı qara ayaqqabılar uzaqdan par-par parıldayırdı. Ağ göynək üstündən vurulmuş qara qalstuk ona necə də yaraşırdı. Xaricən o qədər dəyişmişdi ki, tanıyıb-bilənlər, hətta anası belə qarşısına çıxsaydı, bu şıq geyimli oğlanın Elməddin olduğunu ilk baxışdan ağlına belə gətirməzdi, Məhəmməd Şəfinin və ailəsinin köməkliyi, mehribanlığı sayəsində o, səfalətii, aclığın, dilənçiliyin dəhşətli pəncəsindən xilas olmuşdu. Yatmağı, yeməyi-içməyi onlarda idi. O qədər hörmət, ehtiram eləyirdilər ki, sıxılırdı və onların xəcalətindən ömrü boyu çıxa bilməyəcəyini düşünüb darıxırdı. Xüsusilə Məleykə xanımın qonaqpərvərliyi, ürəyi açıqlığı Elməddini yamanca mütəəssir eləyirdi «Elməddin qardaş» deyəndə ona elə gəlirdi ki, heç vaxt olmamış və yaxud bir zaman itkin düşmüş bacısının səsini eşidir. Ailədə hökm sürən səmimiyyət, qarşılıqlı ehtiram Elməddində xoş, hər cür paxıllıq və həsəddən uzaq bir qibtə hissi doğururdu. Heç kəs ucadan danışmazdı. Kimsə özünün arzusunu, istəyini gizləməzdi və kimsə də bu arzuya-istəyə qarşı qılınc çəkib onu susdurmazdı. Elməddin düşünürdü: Məhəmməd Şəfi xoşbəxt adamdı ki, belə ailəsi var. Təmiz, mehriban. Şair ailəsi məhz belə də olmalıdır.

Elməddin təzə pal-paltarını alıb gətirəndə Məhəmməd Şəfi də, Məleykə xanım da o qədər sevinmişdilər ki, elə bil ata-ana öz doğma oğlunu geyindirib-kecindirmək istəyirdi.

— Bir geyin görək, Elməddin qardaş! — deyə Məleykə xanım yan otağı ona göstərmişdi. — Necə yaraşır görək?!

Elməddin Şəfinin üzünə minnətdarlıqla baxıb o biri otağa keçmiş, paltarını dəyişib çıxmışdı.

Şəfi də, Məleykə də onu təpədən-dırnağa süzüb birağızdan demişdilər:

— Mübarəkdi. Sağlıqnan geyəsən!

— Sağ olun. Minnətdaram.

İş hələ tapılmamışdı. Məhəmməd Şəfinin bütün ciddi səyinə baxmayaraq axtarışlar müsbət nəticə verməmişdi.

«Pərçəm»in redaksiyasında qəzet satan yeri vardı. Məhəmməd Şəfi söhbət əsnasında bunu ağzından qaçırtmışdı. Elməddin buna razı idi:

— Ustad, mən qəzet sata bilərəm.

— Küçə-küçə gəzib qəzet satacaqsan?

— Nə olar, ustad? Təki bekar qalmayım.

— Yox, Elməddin. O, on-on iki yaşlı uşaqların işidir. Sən küçədə qəzet satanları görübsənmi?

— Görmüşəm, ustad.

— Gərək boğazdan saz olasan. Müştəri haylaya biləsən. Sonra gərək utanmayasan. İki rupilik qəzeti iki rupi yarıma, üç rupiyə sata biləsən ki, sənin də çörək pulun çıxa. Bu üz də səndə yoxdu. Ona görə də mən məsləhət bilmirəm...

Söhbətə qulaq asan Məleykə də canıyananlıqla əlavə etmşidi:

— Yox, qardaş, sizə yaraşmaz o iş.

— Deyirsiniz bu paltarda yaraşmaz? Bunları çıxardıb «dava paltarımı» geyərəm, onda yaraşar?

— «Dava paltarı» nədi?

— Öz köhnə-külələrimi də. Gülüşmüşdülər.

— Səbr elə, Elməddin, bir münasib yer tapılar, — deyə Məhəmməd Şəfi yenə onu darıxmağa qoymamışdı.

Bürkülü yay axşamlarının birində Elməddinin yolu parka düşdü. Bağa daxil olan kimi burada, radio vurulmuş dirəyin dibində yatdığı ilk gecələri xatırladı və o səmtə yönəldi. Üç-dörd uşaq çəməndə oturmuşdu. Çörək yeyirdilər. Geyimli-kecimli oğlanın onlara yanaşdığını görən təki cəld ayağa qalxıb ona sarı cumdular:

— Ağa, peysə[1] lazım.

— Ağa, peysə lazım.

Elməddin köhnə-külə paltarda olanda, beş addımlıqlarında gecələyəndə onlar əl açıb sədəqə istəməmişdilər. Ancaq indi istəyirdilər. Çünki Elməddin indi doğrudan da ağaya —varlı, pullu adama oxşayırdı və indi ondan sədəqə istəmək olardı.

— Bəs o biri yoldaşlarınız hanı? — deyə Elməddin çıxardıb hərəsinə iki rupi pul verdi.

— Hələ gəlməyiblər.

— Bəs Məmməd hanı? Sısqa oğlan cavab verdi:

— Onu tutublar.

[1] Peysə — pul deməkdir.

— Nə üçün?

— Bir ağanın cibinə girmişdi. Quldurun biri idi. Hamıdan oğurluq eləyirdi, yeri düşəndə bizim də qəpik-quruşumuzu oğurlayırdı. Siz haradan tanıyırsınız onu, ağa?!

— Mən sizin hamınızı tanıyıram.

— Hardan, ağa?

— Neçə gün burda qonşu olmuşuq. Siz burda yatırdınız, mən orda — o, dirəyi nişan verdi. Uşaqlar bir-birinii üzünə baxdı. Tanıdılar.

— Məmməd sizin də cibinizə girib, ağa.

— Bilirəm, bilirəm. Axırıncı pulumu, ümidimi oğurlamışdı.

Fikirli-fikirli uzaqlaşdı. «Kimdi günahkar, yarəb? Bu başsız yurdsuz-yuvasızlarmı, ya... kim?».

Elməddin bu günlərdə «Pərçəm»i, «Tərcüman»ı, «Pəyame vicdan»ı[1] və sair şəxsi qəzetləri ciddi mütaliə eləyir, dövlət qəzetləri ilə müqayisə eləyir və Məhəmməd Şəfinin dediyi sözlərin nə dərəcədə doğru olduğunu öz ağlı, mühakiməsi dairəsində yəqinləşdirirdi.

«Pərçəm»in son nömrəsində Əfsanə haqqında elan çıxmışdı. Axtarış elanı... Elməddin özü də dördgözlə itkin düşmüş Əfsanəsini axtarırdı. Kaş, o tapılaydı. Elməddin onun ayaqlarına düşər, yalvarar, «mən sənə çox zülm eləmişəm, Əfsanə» deyərdi. Amma günlər qanadlanıb intizarla sovuşur, nə redaksiyaya xəbər verən olurdu, nə də itkin Əfsanə onun özünə rast gəlirdi. İndi-indi o, Əfsanəni çox istədiyini dərk edir və təəccüblənirdi ki, bu hiss nə qəribə hissdir: gah güclənir, ona rahatlıq vermir, gah da sahilə dəyib qayıtmış dalğa kimi zəifləyib ümumi, gündəlik hisslərin axınında əriyib yox olurdu. İndi yenə güclənmişdi, yenə şahə qalxmışdı. Yenə Elməddinin könlünü tələtümə gətirmişdi.

Paytaxtın qaynar, qızğın həyatı Elməddinin başını qarışdırır, onu bu vaxta qədər qapanıb qaldığı məhdud daxili aləmindən çəkib çıxarırdı. O indi hər şeyə ayrı gözlə, ayrı nəzərlə baxırdı. Xüsusən Rəhgüzərin evində vaxtaşırı olan ədəbi-siyasi söhbətlərə o, çox diqqətlə qulaq asır, hər məclisdən bir şey öyrənməyə çalışırdı. Rəhgüzərin evi ədəbi-bədii yığıncaqlar yeri idi. Müxtəlif adamlar — Elməddinin adını eşidib üzünü görmədiyi şairlər, yazıçılar, rəssamlar bura yığışır, çay stolu arxasında qızğın söhbətlər, münaqişələr başlanırdı. Çox vaxt bu söhbətlər gecəyarıdan keçənəcən davam eləsə də,

[1] Qəzet adlarıdır.

axırda yenə qurtarmamış qalırdı. Məleykə xanım təmkinini pozmadan özünə xas olan mülayimliklə çayları tez-tez dəyişir, arabir kənarda dayanıb danışıqlara qulaq asır, ancaq kəlmə də kəsmirdi. Məhəmməd Şəfi gələn qonaqlara Elməddini cavan şer həvəskarı, özünün yaxın dostu kimi təqdim edirdi ki, bundan o çox sıxılırdı. Şairlər şerini oxuyur, oturanlar qulaq asır, sonra müzakirələr başlanırdı.

YEDDİNCİ FƏSİL

Bu cümə axşamı Rəhgüzərin evində yenə şer məclisi olacaqdı. Məleykə xanım ertədən iri rus samovarını doldurmuş, kömür atıb qaynatmışdı. Çayniklərə hil atıb hazır qoymuşdu...

Saat yeddi tamamda qonaqlar gəldilər. Üç nəfərdilər. İkisi ucaboylu, sağlam bədənli cavandı; biri əlində gümüşü haşiyəli çəlik tutmuş yaşlı kişi idi. Elməddin onları artıq tanıyırdı. Keçən həftə də bu günü şairgilə yığışmışdılar. Qoca şairin adı Taqət idi, əsasən qəzəl yazırdı. Cavanlardan qızıldişlisinin adı Müciri, o birisininki isə Fəramuşdu...

Məhəmməd Şəfi onları gülərüzlə qarşıladı: zarafatlaşa-zarafatlaşa qonaqları evinə dəvət elədi. Onlar Elməddinlə köhnə dost kimi görüşdülər...

Taqət çəliyini yerə döyüb dedi:

— Hə, bacıoğlu, bu gün gərək sən də bizə öz sənətini göstərəsən. Yoxsa bu olmadı ki, adını şair qoyubsan, özün də ağzına su alıb susursan. Elə deyil, ağayi Rəhgüzər?!

— Əlbəttə, ustad düz buyurur.

— Sizin hüzurunuzda şer oxumaq mənimçün müşküldü, ustad. Çox müşküldü; həm də elə bir ciddi şerim də yoxdur.

— Yoxsa utanırsan, Elməddin? — deyə Fəramuş da söhbətə qarışdı.

— Yaman utancaqdı bizim Elməddin! —deyə Məhəmməd Şəfi onun qızarıb pörtdüyünü görüb cavab verdi.

— Onda olmadı, — Taqət keçib dairəvi mizin arxasında əyləşə-əyləşə dedi, — sənətkar olmaq istəyən gərək utancaq olmasın, utananın oğlu olmaz, deyiblər. Mən isə deyirəm, utanandan sənətkar olmaz. Necə demişəm, Şəfican?

— Əladır, ustad.

Hamısı oturdu. Məleykə yan otaqdan çıxıb «xoş gəldin!» — deyəndən sonra çəkilib getmək istəyirdi ki, Taqət üzünü ona tutub söylədi:

— Necəsən, qızım?

— Yaxşıyam, ustad, — deyə Məleykə ədəblə, ərinin qocaman şairə müraciət etdiyi kimi cavab verdi.

— Bizim Şəfi səni incidib-eləmir ki, Məleykə?

— Yox, ustad, — o, ərinə mehriban nəzər saldı.

— İncitsə, mənə yavaşca işarə elə, bir balaca qulaqburması verim ona. Necə dedim, Şəfican?

— Böyüyümüzsünüz, ustad!

— Hə, bax belə!..

Kimsə çöl darvazasının zəngini basdı; eyvanda səs eşidildi.

— Bəbrək, get qapını aç. — Məhəmməd Şəfi çönüb aralıq qapıdan oğluna göstəriş verdi. Az sonra qonaq otağına saçları qar kimi ağarmış enli alınlı, gözlərinin altı torbalanmış, altmışa yaxın yaşı olan bir adam daxil olduqda Şəfi də, qonaqlar da ehtiramla ayağa qalxdılar.

— Oho, gör bizə kim gəlib, gör bizə kim gəlib?! — deyə Rəhgüzər qabağa yeriyərək iki əlini də irəli uzadıb qonaqla görüşdü — səndən nə əcəb, ağayi Nəcməddin? Xoş gəlib, səfa gətiribsən!

— Könlümə şer düşdü, Şəfi... Özün bilirsən ki, mən çörəksiz yaşayaram, ancaq şersiz yox.

— Bilirəm, bilirəm.

Ağayi Nəcməddin gözlərini məclisdəkilərin üzündə dolandırdı və gümrah bir səslə:

— Məndən başqa hamı burdaymış ki?! —dedi.

— Elə biz də indicə yığışmışıq, — deyə Taqət ona öz yanında yer göstərdi, — gəl otur yanımda. Qocalar qoy yanaşı otursunlar. Necə deyirəm, sənincün!

— Qoca sözünü işlətmə, ustad! — deyə Nəcməddin etiraz elədi. Özümüz qoca olsaq da, ruhumuz, allaha şükür, hələ cavandı.

Nəcməddin təkcə şəhərin deyil, məmləkətin mötəbər, varlı, adlı-sanlı adamlarından hesab olunurdu. Nə qədər varı-dövləti olduğunu özü də dəqiq bilmirdi. Bu, onu heç maraqlandırmırdı da. Gəncliyini Parisdə, Nyu-Yorkda, Londonda, İsveçrədə eyş-işrətdə keçirmiş Ağayi Nəcməddin daha toxtayıb durmuş, dünyanın naz-nemətindən muradını götürdükdən sonra köhnə, gənclik havavu-həvəsinin, xoş xatirələrin xəyalilə yaşamağa başlamışdı. Qoca zahirən bu günlərdə yaşasa da, fikrən, xəyalən keçmişdə idi: ötən günlərin silinməz,

unudulmaz təəssüratlarını yad edir, onları təzədən yaşayır və beləliklə, günlərini başa vururdu. İki arvaddan beş oğlu olmuşdu, bir qızı. Oğlanlar birinci arvaddan, qız ikinci arvaddandı. Kişinin sümüyü bərk çıxmışdı, özü demişkən, arvadların başını vaxtından qabaq yemişdi. Oğlanlarını oxutmuş, sənət sahibi etmiş, hərəsinə ürəkləri istəyən yerdə ev almış, tikdirmiş, paylarına düşən irsi də bəri başdan ayırıb vermişdi, evləndirib ailə sahibi eləmişdi.

İndi təkcə qızı Zərrintacla ata-baba imarətində yaşayırdı.

Ağayi Nəcməddin şerpərəst idi. Özü ömründə bircə sətir yazmamışdı, ancaq şer üçün hər şeyindən keçməyə hazır idi. Şer sanki onun canı, həyatı idi. Həmişə şersizləyəndə özünü Rəhgüzərgilə verər, ədəbiyyatdan-sənətdən söhbət salar, onun bir neçə şerini dinləməmiş getməzdi.

Ağayi Nəcməddin məclisə göz gəzdirərək Elməddinə baxıb:

— Bu cavan oğlan kimdir? — deyə xəbər alanda Taqət hamıdan qabaq cavab verdi:

— Cavan şairlərimizdəndi, ağa.

— Həə?

Elməddin başını aşağı saldı.

— Təzə bardaq suyu daha sərin! — dedi Nəcməddin. Məleykə altı çaynikdə çay gətirdi. Piyalə gətirdi.

— Adın nədi, oğul?

— Elməddindi, ağa.

— Hə, Elməddin, əsərin-zadın çıxıb heç? Şəfi Elməddinin yerinə dilləndi:

— Bizim ruznamədə[1] bir-iki şeri çıxıb. Duzlu qələmi var, ağa.

— Yəqin yaxşı şer olmayıb, ona görə də nəzərimi cəlb eləməyib.

Nəcməddinin bu sözləri Elməddini yamanca tutdu — pörtüb qızarsa da, özünü o yerə qoymadı.

— Elə bir şey deyildi ki, yadda qalsın — deyə Elməddin astaca mızıldandı.

— Bərəkallah. Bax, xoşum gəldi bu cavabından. Adam yaratdığı haqqında gərək heç vaxt yüksək fikirdə olmasın. Yoxsa bizim bu Taqət kimi, bir beyt, ya bir misra yazır, sonra da soruşur ki, ayə, mən ölüm, necə demişəm? Dərindən axtarırsan, baxırsan, görürsən ki, bizim möhtərəm ağayi Taqətin dediyini min il, beş yüz il, yüz il bundan

[1] Ruznamə — qəzet.

əqdəm qoçağın biri deyib, möhürünü də basıb üstünə. Taqət də onu təkrar eləyir, ya da üzünü çevirir astarına, deyir ki, mən ölüm necə demişəm!! Belədi, ya yox, Taqət?!

Nəcməddinin xasiyyətini bildiyi üçün Taqət hirslənmədən:

— Daha deyirsən də, — deyə cavab verdi. Nəcməddin əlini Taqətin çiyninə vurub:

— Hə, mən ölüm, necə dedim, hə? — dedi.

— Yaxşı dedin, Nəcməddin! — Taqət özü etiraf etdi,— zarafatından qalmırsan da, axır ki!!

— Nə zarafat, ay kişi? Lap düz sözümdü. Zəhər olsun o zarafatın içinə ki, doxsan doqquz faizi həqiqət olmaya.— Nəcməddin, görünür, sözlərinin çox sərt olduğunu və bundan qoca dostunun incıyə biləcəyini fikirləşib sözünü dəyişdi: — Hamı bilir ki, mənim sənninlə zarafatım var.

— Əlbəttə, əlbəttə — Taqət gər səslə Nəcməddinin sözünü təsdiq elədi.

— Zarafatsız yaşaya bilmirəm də. Zarafat dünyanın bəzəyidir.

Müciri gələndən bəri birinci dəfə ağzını açıb dedi:

— Amma ərəblər deyir ki, əzzərafət miqrazul məhəbbət — yəni zarafat məhəbbətin qayçısıdır.

Taqət fürsətdən istifadə edib Nəcməddinə söz atdı:

— Nəcməddinin zarafat qayçısı o qədər köhnəlib ki, daha bizim məhəbbətimizi kəsə bilməz. — Bu dəfə o, əlini Nəcməddinin çiyninə vurub: — mən ölüm, necə dedim? — söylədi.

Nəcməddin güldü:

— Bu dəfə yaxşı dedin.

Məleykə arxada, pəncərənin ağzında oturmuşdu. Oxunacaq şerlərə qulaq asmaq istəyirdi. Rəhgüzər qonaqlara nəzər salıb:

— Hə, kim başlamaq istəyir? — deyə müraciət etdi. Nəcməddin üzünü Elməddinə tutdu:

— Sən başla görək, — dedi.

Elməddin üzünə zillənən baxışlar altında dərhal tərlədi. Ehtiyat eləyirdi. Bu adamlar nəsə onun gözünü qorxutmuşdu. Çəkinmədən, heç nəyi pərdələmədən deməyi xoşlayan bu adamların hücumlarına məruz qalmaq istəmirdi.

— Dur, bir-iki şer de, — deyə Məhəmməd Şəfi ərklə ona müraciət etdikdə o, son günlər yazdığı, ancaq heç kəsə cəsarət edib göstərə bilmədiyi şerlərini oxumaq fikrinə düşdü. Çəkinə-çəkinə ay-

ağa durdu. Məleykənin məclisdə olmağından daha çox sıxılırdı. Kişi məclisi olsaydı, o qədər utanmazdı.

Titrək, həyəcanlı səslə dedi:

— Mən sizə iki balaca şerimi oxumaq istəyirəm. Nəcməddin sözünü kəsdi:

— Şerin böyüyü, balacası olmaz, oğul, mənanın, fikrin böyüyü, balacası olar. Şer var ki, yüz sətirdi, içində bir sətirlik də məna yoxdur. Şer də var ki, bir sətirdi, bir beytdi — bir kitaba yaza bilərsən o məna barədə. Düz demirəm, Şəfi?

— Elədir ki, var.

— Hə, buyur, — Nəcməddin məclisin ağsaqqalı kimi ona icazə verdi.

Elməddin uçuna-uçuna, heç kəsin üzünə baxmadan, astadan başladı:

Öpdüm yanağından, yandı dodağım,
Qəmli gözlərimdə dan üzü güldü.
Sevincdən titrədi əlim-ayağım —
Üstümə şəfəqlər, nurlar töküldü.

Yenə gözlərimdə nur oldu aləm.
Qışda bahar oldu çöl-çəmən bu gün.
Ey tanrım, ey tanrım, nə bəxtəvərəm,
Öpmüşəm yarımın üzündən bu gün.

Sınıq ürəyimdə kökləndi bir saz.
Bir sevinc nəğməsi oxudu könlüm.
Bu gün yer üzünü axtar, tapılmaz,
Səndən bəxtəvəri yox idi, könlüm.

O an bir yuxuydu, incədən-incə...
Hələ ayılmayım qoy ondan, aman.
...Ayna qabağında durub gizlicə,
Öpdüm səni öpən dodaqlarımdan!

— deyə o alnında muncuqlanmış tər damcılarını dəsmalı ilə silib: — Bu bir şer! — söylədi.

Ağayi Nəcməddin çənəsini ovcunun içinə dayayıb qulaq asırdı. Məhəmməd Şəfi də, Taqət də, Fəramuş da gözlərini ona zilləmişdi. Sükutu Nəcməddin pozdu:

— O şeri bir də təkrar elə, oğul. Məni kövrəltdin sən, xəyalımı çəkib cavanlıq illərinə apardın.

Elməddin ikinci dəfə, azca ucadan şeri təzədən söylədi. Rəhgüzər özünü saxlaya bilməyib:

— Afərin, — dedi, — sağ ol, yaxşıdır, Elməddin, xüsusilə sonu çox poetikdir.

«Ayna qabağında durub gizlicə, Öpdüm səni öpən dodaqlarımdan».

— Atan rəhmət, oğul. Dalını de gəlsin, — Nəcməddin söylədi. Elməddin cürətlənmişdi. İkinci şeri də oxudu:

Nurdan yaranmısan, nurdu baxışın,
Ulduzlar göylərə gözündən düşüb.
Sevən ürəyimə bu atəş, bu od,
Sevən ürəyinin gözündən düşüb.

Səndən ayrı düşmək — ən böyük günah.
Ağaran saçıma baxıb çəkmə ah.
Yüz telim həsrətdən ağarıb, vallah,
Bircə dən bir acı sözündən düşüb.

Eşqinlə ucalan uca bir dağam.
Səni sevəcəyəm — nə qədər sağam.
Bir kəsi deməyə qoymayacağam —
Sevgilin qocalıb gözündən düşüb...

Araya ani bir sükut çökdü. Hamı bir-birinin üzünə baxdı. Nəhayət: «Halal olsun, oğul», — deyə yenə Nəcməddin böyük bir vəcdlə onun əlini sıxdı — əladır. Müxtəsərdi, amma dərindi. Hə, ağayi Müciri, bu barədə ərəblər bir şey deməyiblər?!

— Yox, ağa. Deməyiblər. Yaxşı şerdir. Rəhgüzər dedi:

— Onların üzünü köçür ver mənə, bu nömrəmizdə verəcəyəm.

— Lütfünüz artıq olsun.

Ağayi Nəcməddin şerləri dinləyəndən sonra Elməddinlə ətraflı maraqlaqnmağa başladı. Rəhgüzər onun haqqında qısaca məlumat verdi (Əfsanə əhvalatını danışmadı), paytaxta gəlişinin əsl səbəbini söylədi. Nəcməddin çal, pırpız qaşlarını yuxarı qaldırdı və qayğılı-qayğılı soruşdu:

— Demək, iş axtarırsan?

Elməddin sıxıntı içində cavab verdi:

— Bəli, ağa!

Nəcməddin sifətində bir şadlıq ifadəsi əlini sinəsinə qoydu:

— İş məndə!!! Təhsilin nədi, bala?

Elməddin baxışlarını dolandırıb MəHəmməd Şəfiyə baxandan sonra astaca dilləndi:

— On ikinci sinfi bitirmişəm, üç il də qəryədarın yanında katib işləmişəm, ağa!

— Hə. Lap yaxşı Mənim bir mühasibim vardı; üç gün bundan qabaq əliəyrilik elədiyinə görə qovmuşam. Səni onun yerinə götürürəm. Sabah bizə gələrsən.

— Çox sağ olun, ağa. Minnətdaram.

SƏKKİZİNCİ FƏSİL

Elməddin ömründə belə cah-cəlallı imarət görməmişdi. Ucsuz-bucaqsız, yamyaşıl bağ içərisində yerləşən ikimərtəbəli ev kənardan adamın gözünü qamaşdırırdı. Alt mərtəbədə altı, üst qatda da altı otaq elə bəzənmişdi ki, deyərdin indicə gəlin gətirəcəklər. Par-par parıldayan mebel Fransadan, pardaxlanmış qəhvəyi rəngli piano Almaniyadan, naxışlı, alışıb-yanan, çəməni xatırladan xalılar İrandan — Kaşandan gətirilmişdi... Orta otağın küncünə qoyulmuş qızıl suyuna çəkilmiş iri vaza adamın diqqətini özünə cəlb edirdi. Bir sözlə, ağayi Nəcməddinin evi, qapısı hər kəsin üzünə açıq olmayan zəngin muzeyi xatırladırdı.

Ağayi Nəcməddin tək idi—ondan başqa nə həyətdə, nə otaqlarda bir kəs yox idi. Adama elə gəlirdi ki, bir vaxtlar səsli-küylü, qonaqlı-qaralı olan bu imarətin sakinləri bir-bir harasa çıxıb getmiş və bir daha qayıtmayacaq, ağayi Nəcməddin özü isə buranın axırıncı sakinidir və bu cah-cəlalı qoyub heç yerə getmək istəmir.

Onlar ikinci mərtəbənin aynabəndli artırmasında oturmuşdular. Taybatay açılmış pəncərələrin ağzına çiçək dibçəkləri qoyulmuşdu. Hava o qədər saf, ətirli və təmiz idi ki, nəfəs aldığını belə hiss etmirdin. Elməddin gördüyü hər şeyə diqqətlə baxır, heyrətini gizlətməyə çalışır, ağayi Nəcməddinə sual verməkdən çəkinirdi. Düşdüyü yeni şərait, gördüyü cah-cəlal onsuz da böyük ixtiyar sahibi təsiri bağışlayan ağayi Nəcməddini Elməddinin gözündə daha da qaldırır, qeyriadi eləyir, zəhmləndirirdi. Ona elə gəlirdi ki, bu tösmərək, zabitəli adam dünyada nə istəsə eləyə bilər və kimsədə cəsarət, təpər olmaz ki, onun bir sözünü iki edə bilsin. Elməddin özünü ağayi Nəcməddi-

nin yanında heç sayırdı. Bircə şey Elməddinə qüvvət verirdi ki, o da ağayi Nəcməddinin şerə, sənətə qiymət qoyması, əhli-zövq olması idi. Ədəbi söhbətləri xoşlayırdı.

Ağayi Nəcməddin Elməddini aynabənddə oturdandan sonra ağ telefonun dəstəyini götürüb harasa zəng etdi. Elməddin arakəsmədən onun səsini eşidirdi:

— Bizim günorta yeməyimizi bir az tez göndərin. Qonağım da var. Neçə nəfərdi? İki nəfərlik də yemək-içmək əlavə eləyin.

Ağayi Nəcməddin gəlib Elməddinlə üzbəüz oturdu:

— Bəziləri deyirlər ki, əvvəl kəlam, sonra təam; mən bu fəlsəfənin tərəfdarıyam.

— O yaxşıdır, ağa.

— Bəli, onda adamın yediyi-içdiyi də canına yatır. Ona görə də mən sənlə əvvəl kəlamdan başlayacağam.

— Buyurun, ağa... Mən heç bilmirəm ki, sizə necə minnətdarlıq eləyim.

— Minnətdarlıq eləməyə heç vaxt tələsmə. Minnətdarlığı sözlə bildirmək ayrı, işlə, əməllə göstərmək ayrı.

Ağayi Nəcməddin ağ, uzun siqaret qutusundan papiros götürüb yandırdı və qutunu Elməddinin qabağına itələdi.

— Çəkmirəm, ağa.

— İçmirsən də?

— Yox.

— Öyrənərsən, öyrənərsən... Mən də cavan vaxtı nə çəkirdim, nə də içirdim. Sonra yavaş-yavaş öyrəndim. Düşürsən yeyib-içən oğlanların məclisinə, bir gün-iki gün içmirsən, axırı o abi-zəmzəm səni özünə çəkir. Xüsusilə də ki, qəşəng, cavan qızlarla bir yerə düşürsən. Baxırsan, görürsən ki, onlar içir, sən içmirsən. Utanırsan. Başlayırsan bala-bala vurmağa, bir də görürsən ki, şurbi[1] olub gedibsən. Qocalıq da gələndə mənim kimi yavaş-yavaş cavanlığın, gözəlliyin yaxşı sirdaşları olan qadınlar, mey-məzə səni tərk eləməyə başlayırlar. Sənə təkcə xatirələr qalır ki, onların acılı-şirinli tüstüsünə, oduna qızınırsan.

— Siz lap ədib kimi, şair kimi bəlağətlə danışırsınız, — deyə Elməddin qocada xoşuna gələn cəhəti qeyd etdi.

— Mən də ilk cavanlıq çağlarında şair olmaq istəyirdim. Şerlə dünyanı özümə tapındırmaq, barmaqla göstərilmək xəyali-xülyası ilə

[1] Şurbi — içən adam.

yaşayırdım. Amma olmadı, — o, ah çəkdi, — məndən milyoner oldu, amma şair olmadı.

— İstəsəydiniz, çalışsaydınız...

Ağayi Nəcməddin onun sözünü yarımçıq qoydu:

— Yox, Elməddin, quyuya su tökməklə sulu olmaz. Gərək insanda şairlik mayası olsun ki, bunu da ilahi özü verir. Ona görədir ki, əsl, əsl deyirəm ha, şairlə o gözəgörünməz, bizi xəlq eləyən allah arasında nəsə mənəvi bir yaxınlıq olur. Mən deyirdim ki, şair allahdan da qüdrətli bir varlıqdır. Hər ikisi xəllaqdır[1], lakin Allahın yaratdığı ölür, yox olur, dəyişir, amma şairin yaratdığı yaşayır, həmişə yaşayır və yaradanının adını da (özünü yox) yaşadır. Bax, sənətin möcüzəsi bu nöqtədədir, ucalığı, əlçatmazlığı, əsrarəngizliyi bu nöqtədədir, bala! Qədimdə insanlar bunu başa düşdükləri üçün şairə də, allah kimi baxırdılar.

— Bəs bizim zəmanəmizdə necə?

— Bizim zəmanəmizdə hər şey adiləşdiyi kimi, şer də, sənət də, allahın özü də adiləşib, oğul... İndi insanı demək olar ki, heç bir şeylə heyrətə gətirmək mümkün deyil. Şeri, sənəti siyasət korlayıb, korlayıb azdı, deyərdim ki, öldürüb.

— Mənim bildiyimə görə, ədəbiyyat gərək cəmiyyətə xidmət etsin; insanların zövqünü oxşasın, mübarizəsinə kömək etsin.

— Hə, bax, atan rəhmət. Zövqünü oxşasın. Bax, mən də bunu deyirəm. Məsələn, dünən ağayi Rəhgüzərgildə oxunan şerləri götürək. «Köpək azadlığı»da şerdimi ki, o oğlan oxudu...

— Məna dumanlıydı.

— Şer pis idi. Zövq oxşamırdı, Elməddin.

— İnsanların beyninə, şüuruna nəsə demək istəyirdi.

— Ağlım kəsmir ki, bizim camaat ondan, o qəbil əsərlərdən bir şey anlasın.

— Çünki bizim camaat bisavaddır, ağa, ona görə də bədbəxtdir.

— Bizdə təkcə savadsızlar yox, sənin kimi az-çox savadı olanlar da bədbəxtdi, Elməddin. O pərt oldusa da üzə vurmadı:

— Şərikəm.

— Mən bir dəfə ağayi Rəhgüzərə sual verdim: siz ki qəzetinizdə bu qədər hay-küy qaldırırsınız, sözünüzün canı, kütahı nədir axı? Dedi ki, istəyirik hamı sənin kimi firavan yaşasın, ağayi Nəcməddin!

[1] Yaradıcı.

— Bəli, mübarizənin əsl məqsədi budur ki, xalqımız yaxşı yaşasın.

— Dedim ona ki, bu mümkün deyil. Dedi niyə? Söylədim ki, siz hamını mənim kimi milyoner edə bilməzsiniz. Amma məni onların gününə sala bilərsiniz.

— Sən Marksı oxumusan?

— Az-maz tanışlığım var.

— Məndə onun bütün əsərləri var. Verərəm oxuyarsan. Dərin zəkalı adam olub, ancaq «Sərmayə» kitabında bəzi fikirlərlə razı deyiləm.

— Razı deyilsiniz?

— Bəli, sərmayədarlar barədə danışanda onları zəli, qaniçən adlandırır. Məncə bu, düz deyil. Məsələn, mənim müəssisələrimdə, fabriklərimdə, torpaqlarımda düz on min adam işləyir. İşsiz-gücsüz idilər. Mən məgər pislik eləmişəm, onlara iş vermişəm?! Mən olmasaydım indi bizim ancaq bu paytaxtımızda on min işsiz və deməli, acyalavac vardı.

— Əgər məni də işə götürsəniz, bu gündən sizin işçilərinizin sayı olur on min bir nəfər.

— Yox, elə on min nəfər.

— Niyə?

— Köhnə mühasibi çıxartmışam, yerinə səni götürürəm: ona görə işçilərimizin ümumi sayı dəyişmir.

Elməddin söhbətin münasib məqama yetişdiyini hiss edib dünəndən onu narahat eləyən iş məsələsini qəti həll etmək istədi:

— Mənim işim nədən ibarət olacaq, ağa?

— Hə, sənin işin nə o qədər asandı, nə o qədər də balaca... Mən bütün maliyyə məsələlərimi, gəlirimi-çıxarımı sənə həvalə eləyirəm. Bank əməliyyatlarımı da həmçinin. Səndən xahişim budur ki, haqq-hesabın düzgünlüyünə fikir verəsən — bu bir. İkincisi də, bacardığın qədər pulu dollara çevirib banka toplayasan, çünki bizim pul kağız kimi şeydi, bərəkəti yoxdu. Bu gün əlahəzrətin beyninə batdı, səhər bir də gördün ki, fərman çıxartdı ki, pul dəyişilsin. Amma dollar həmişə puldu; qızıldı dollar, qızıldı. Köhnə xəzinədara tapşıracağam səni işin xüsusiyyətləri ilə tanış etsin. Yaxşı işləsən, mükafat verəcəyəm. Maaşın ayda üç min rupidi, köhnəxəzinədara iki min

verirdim, sənə üç min. Sən şairsən, səndən xoşum gəlir. İldə ay yarım rüsxətindir[1].

— Ağa, mənim, özünüz bilirsiniz, qalmağa yerim də yoxdur, — deyə Elməddin utana-utana söylədi.

— Yer? Hm.

— İki həftədi ağayi Rəhgüzərkildə qalıram. Ani fikirdən sonra:

— Mənim Çaharrahidə bir balaca mənzilim var, onu da sənə verirəm. Bağı-bağatı, hər cür şəraiti var, — dedi Nəcməddin.

— Ömrünüz uzun olsun, ağa. Məni müşkülatdan qurtardınız...

Elməddinin neçə müddətdən bəri gülməyən üzü indi şadlıqdan, təbəssümdən işıqlanmışdı. Taleyinə gün doğmuşdu.

DOQQUZUNCU FƏSİL

Saat birə on dəqiqə qalana qədər ağayi Nəcməddin Elməddinlə söhbət etdi: ona gələcək vəzifəsinin incəlikləri, xüsusi məharət və dəqiqlik tələb eləyən cəhətləri barədə danışdı. Elməddin məsul və ağır bir işə iqdam etdiyini başa düşürdü və bəzən canına gizli vahimə lərzə salırdı. Anlayırdı ki, çətin olacaq. Amma nə etməli? Başqa çarə yox idi — o, bu müşkül vəzifəni boynuna götürməli idi. Ağayi Nəcməddinin fikirlərindən anlaşılırdı ki, onun müəssisələrinin, fabriklərinin cəmləşdiyi ümumi şirkət özü-özlüyündə dövlət içində balaca bir dövlət idi. Ağayi Nəcməddin bu dövlətin başçısı, o isə bu gündən etibarən, ağanın zarafatla dediyi kimi, vəzire-maliyyəsi[2] idi. Ticarət əlaqələrinə, alqı-satqı işinə rəhbərlik etmək ona tapşırılırdı.

Ağ xalat geydiyinə görə doktora oxşayan restoran xidmətçisi xüsusi maşında yemək-içmək gətirdi. Ağayi Nəcməddinə baş əyib ehtiramla təzim edəndən sonra işgüzar bir görkəmlə:

— Harada oturacaqsınız, ağa? — deyə xəbər aldı.

— Elə buraya düz, — dedi, — bura həm sərindi, həm də yaşıllıqdı.

Xidmətçi gətirdiyi xörəkləri — bişmiş, qızardılmış toyuqları, göy-göyərtini, ala-bəzək viski butulkasını səliqə ilə stolun üstünə düzdü, keçib mətbəxdən qab-qaşıq gətirdi. İki piyalə qoydu.

[1] Məzuniyyət.
[2] Maliyyə naziri.

— Birini də gətir, — deyə ağayi Nəcməddin xidmətçiyə göstəriş verdi. Elməddin düşündü ki, yəqin qonağı gələcək. Xidmətçi çıxıb gedən kimi həyətdə ağ, yastı «Folksvagen»[1] maşını dayandı. Maşından ortaboylu, şıq geyimli, qəhvəyi saçlarını açıq halda çiyinlərinə tökmüş ağsifətli bir qız düşdü. Alabəzək parçadan tikilmiş donu dizlərindən xeyli yuxarı qalxmışdı. Dünən gecə qonaqlar çəkilib gedəndən sonra Şəfinin təriflədiyi, Məleykənin eyhamla «bəlkə» deyə işarə etdiyi qızı xatırladı. Bəli, hökmən.

— Ağayi Nəcməddinin qızıdı bu!

Pilləkənləri tıqqıldada-tıqqıldada, tələsik addımlarla yuxarı çıxdı, böyük və geniş zaldan keçib aynabəndə gəldi. Tanımadığı adamı görən kimi azca təəccüblənən kimi oldu.

— Tanış ol, Elməddin, bu mənim istəkli, ağıllı, mehriban qızım Zərrintacdır. Elməddin:

— Çox yaxşı, — deyib ayağa qalxdı. Zərrintac ahəstə-ahəstə irəli gəlib kağız kimi ağ, pambıq kimi yumşaq və hərarətli əlini ona uzatdı:

— Xoş gəlmisiniz.—Dişləri qızıl idi. İncə, nar yarpaqı təki qırmızı dodaqları vardı. Gözləri, sürməli kirpikləri sifətinə olmazın bir yaraşıq verirdi. Baxışları iti və nüfuzedici idi. İlk baxışdan adamın ürəyinə baş vurub nə yuvanın quşu olduğunu öyrənmək istəyən qızlara oxşayırdı.

— Ağayi Elməddin mənim təzə dostumdur və bizim vəziremaliyyəmizdir, Zərrintac, — deyə ata təzə qonağını qızına təqdim etdi, — özü də şairdir. Dünən şerləri ilə bizi feyziyab eyləyən cavan oğlan bax budur, qızım. — Zərrintac sınayıcı, davamlı baxışlarını Elməddinin üzündən çəkmədən:

— Çox yaxşı, — dedi. — Elməddin qızın sirayətedici baxışlarından sıxılırdı. Canını qorxu hissi alırdı: «Kişi indi hiss eləyər, məni buradan qovar». — deyə düşünür, Zərrintaca diqqətlə baxa bilmirdi. Amma «gözəl qızdır», — deyə ürəyində etiraf eləməyə vaxt və imkan tapmışdı.

— Əl-üzünü yu, gəl otur, naharımızı eləyək, — deyə kişi qızına sarı döndü. Qız çevrilib getdi, az sonra ayrı paltarda — çin ipəyindən tikilmiş xalatda, yüngül, dəri çəkələklərdə gəlib atasının böyründə oturdu... Elməddinlə üzbəüz...

[1] Almaniyada istehsal edilmiş yüngül minik maşını.

Nəcməddin viski şüşəsinin ağzını açıb üç piyaləyə süzdü. Yemək başlandı. İki-üç tikədən sonra ağayi Nəcməddin badəsini götürdü:

— Qaldırın badənizi, içək ağayi Elməddinin sağlığına. Bizim evə xoş gəlibsən, Elməddin!

Zərrintac da badəsini qaldırdı, Elməddin badəsini onların badəsinə astaca toxundurub yerə qoydu.

Hər ikisi — ata-bala içdi.

— Bəs niyə içmirsiniz?—deyə Zərrintac təəccüblə qaşlarını çatıb Elməddinə baxdı.

— Mən... mən heç içməmişəm.

— İçməmisən?

— Şair olasan, içməyəsən? — sonra o, üzünü atasına tutub, — bu necə şairdi, ata? — deyə soruşdu.

— İç, iç, Elməddin. Bizi biabır etmə.

— Vallah, içə bilmərəm.

— İçərsən, — deyə Zərrintac da təkid etdi: — Mən qızlığımla içə bilirəm, sən kişiliyinlə yox? Özün də ki şairsən!

Söz Elməddini yamanca tutdu. İlk dəfə kirpiklərini qaldırıb diqqətlə Zərrintacın üzünə, gözlərinin içinə baxdı və gülümsündü. Bu sözdən keçmək olmazdı: zəhər içirmiş kimi qorxa-qorxa badənin qırağını dodaqlarına toxundurdu, Əvvəl bir qurtum içdi, sonra hamısını başına çəkdi. Gözlərinin qabağında elə bil, şimşək çaxdı. Başını xəstə toyuq kimi o yan-bu yana silgələdi.

Elməddinin bu hərəkətinə Zərrintacın da, Nəcməddinin də gülməyi tutdu. Özünü ələ alıb o da gülənlərə qoşuldu. Az sonra hər şey adi qaydaya düşdü.

Şirin yemək başlandı.

Zərrintac xəlvəti atasına göz vururdu ki, içkidən süzsün.

Nəcməddin piyalələri doldurdu...

— Daha mən içməyəcəyəm.

— Bu badələri mənim sağlığıma içəcəyik, — deyə Zərrintac badəsini qaldırdı, — elə deyilmi, ata?

— Əlbəttə, əlbəttə. Sənin sağlığına mənə zəhər də versən içərəm, qızım.

Elməddinin beyni dumanlanmışdı. Sifəti qızarmışdı, alışıb-yanırdı.

— Sizə içmək düşür, — Nəcməddin dedi.

— Niyə görə deyirsiniz?

— Adamın ki, içkidən sonra sifəti qızarıb allandı, demək ona içki düşür, o, içsə yaxşıdır. Yox, əgər sifəti bozarıb ağardısa, demək heç. İçməsə yaxşıdır o adam.

— Mən bilmirdim. — Elməddin şit-şit güldü və o anla gülüşünün yersiz olduğunu anladı.

— Götürün badələri, — Zərrintac söylədi. — Mənim sağlığıma. Ya atam, ya siz, ağayi Elməddin, gərək mənim sağlığıma badə qaldırmağı təklif edəydiniz, gördüm sizdən səs çıxmadı, məcbur oldum özüm öz sağlığıma badə qaldıram. Götürün, içəyin mənim sağlığıma.

Nəcməddin bilatəxir içdi, toyuğun budunu dişinə çəkib iştahla yeməyə başladı.

— Mən sizi gözləyirəm, — deyə Zərrintac üzünü Elməddinə tutdu.

Elməddin odla su arasında qalmış kimi duru və şəffaf içki ilə dolu piyaləyə nəzər salıb birdən qəti hərəkətlə badəni başına çəkdi.

— Bax belə. Afərin. İndi ye, — deyə Zərrintac da badəsini boşaltdı.

— Yox, maşallah, yaxşı içə bilirsən, — Nəcməddin qeyd elədi.

Üçüncü badəni də ev sahibinin — Ağayi Nəcməddinin sağlığına içdilər.

Daha məcburiyyət olmadı. Nəcməddin iki badə də qaldırandan sonra əməlli-başlı kefləndi. Durub geyinməyə başladı.

— Hə, necəsən, ağayi vəzire-maliyyə?

— Yaxşıyam, ağacan!!!

— Hə, bax belə. Yaxşı ol. Ağıllı ol, ye də, iç də, amma ağlını əldən vermə. Dünyada ən böyük sərvət, dövlət ağıldı. Bax, mən ağıllı olmasaydım, bu mərtəbəyə çatmazdım. Beş oğul böyütmüşəm, var-dövlət sahibi eləmişəm. Bu saat onların məndən də çox mal-dövləti var. Hərəsi özü üçün bir padşahdı, ağayi Elməddin! Qızım özü də elə padşahdır. Mənim bütün var-yoxum onundur, — qurban olum sənə, qızım. Sən olmasaydın, mənim bağrım çoxdan çatlamışdı. Öpürəm səni, Zərrim mənim. Gəl səni bir öpüm. — Ağayi Nəcməddin səndələyə-səndələyə Zərrintaca yaxınlaşdı, onun pərişan saçlı başını qucaqlayıb enli alnından marçıltı ilə öpdü. Atası onu öpəndə Zərrintaç xumar gözlərini dolandırıb Elməddinə baxdı.

Elməddin sanki cəsarətlənmişdi. Gözlərini ondan çəkmədi. Baxışdılar, baxışdılar.

Ağayi Nəcməddinin yadına birdən nə düşdüsə dayandı və qətiyyətlə dedi:

— Mən gedirəm.

— Hara, ata?

— Bir yer var, dəyib qayıdacağam. Elməddin də qalxdı:

— İcazənizlə mən də gedim.

— Yox, yox, sən otur, mən tez qayıdacağam, — Nəcməddin onu oturtdu, — lap tez qayıdacağam.

— Yenə ora gedirsən? — Zərrintac xəbər aldı. Nəcməddin şəhadət barmağını silkələyərək:

— Ay şeytan, — dedi, — yox, ora getmirəm.

Nəcməddin həyətə düşdü. Uzun, gilənar rəngli şevoreleti qarajdan çıxarıb getdi.

Üzbəüz oturmuş Elməddinlə Zərrintac neçə dəqiqə lal-dinməz dayanmışdılar. Zərrintac fikirli-fikirli çəngəllə toyuq ətini didirdi. Sükutu Elməddin pozdu:

— Atanız hara getdi ki?!

Zərrintac cavab verməmişdan qabaq bir piyalə viski içdi:

— Atam cavan bir qız saxlayır. Baqe-bala tərəfdə... Dilinə ki içki dəydi, hökmən özünü onun yanına verməlidir.

— Bəs, ağa niyə tək yaşayır?!

— Anam beş ildi ki, ölüb. Kişi də qocalıb, daha evlənmək istəmir. O qızı da elə-belə saxlayır...

— Bəs evə niyə gətirmir onu?

— Mən qoymuram.

— Niyə? Qoy kişi qocalığını yaxşı başa vursun. Ona qulluq edən, nazını çəkən lazımdı.

— Bura gəlsə mənə şərik çıxacaq. Ona görə qoymuram. Nazını çəkən lazımdı; atam onunçun hər şərait yaradıb, qoy orda çəksin nazını! Olmaz?

— Olar, əlbəttə!

Zərrintac özü üçün də, Elməddin üçün də içki süzdü. Bu dəfə qonaq etiraz eləmədi. İçdilər.

— Kişilərin hamısı şorgözdü. Qocası da, cavanı da.

— Nədən bilirsiniz, Zərrintac xanım?

— Atamın hərəkətlərindən. O qocalıb, görürsünüz. Ona indi qadın lazım deyil. Amma o, on səkkiz yaşında qızın yanına gedib-gəlir və hər dəfə də ona, neçə min pul məsrəf eləyir.

— Bəlkə ruhən cavandı kişi?

— Nə deyim...

Arada ani sükut oldu. Elməddin birdən soruşdu:

— Sənin neçə yaşın var? — O, özü də hiss etmədən, Zərrintac kimi, «sən»ə keçdi.

— İyirmi bir.

Elməddin məst baxışlarla onun allanmış yanaqlarına diqqət yetirdi. Boğazı ağappaqdı. Xalatının açıq yaxasından mərmər sinəsinin bir parçası görünürdü. Zərrintac sifətində oğlanın iti baxışlarını duyub gözlərini qaldırdı, ona baxıb iltifatla gülümsündü:

— Musiqiyə qulaq asmaq istəyirsən?

— Hə, istəyirəm.

Zərrintac qalxıb o biri otaqdan qara, yaraşıqlı yapon maqnitofonunu gətirib qurdu. Həzin, ahəngdar musiqi otağa yayıldı. Sonra rəqs musiqisi çalındı.

— Oynayaq?

— Oynayaq.

Elməddii qalxıb kinolarda gördüyü təki onun «əlindən tutdu, əli isti idi. O biri əlini incə belinə toxundurub onu fırlamağa başladı. Zərrintacın xurmayı saçları dalğalanırdı. Gözlərini süzdürüb altdan yuxarı ona baxır, şeytan-şeytan gülümsəyirdi.

Elməddinin isti, hərarətli nəfəsi onun üzündə gəzdikcə bədənində xoş bir qımıltı hiss eləyirdi. Oğlanın bədəninin təmasından qızı uçunmaq tuturdu.

— Mən çox şadam ki, sən bizim evə gəlmisən...

— Mən səndən də şadam, Zərrintac xanım.

— Nəyə görə, Elməddin?

— Sən bunu məndən də yaxşı bilərsən. Zərrintac fikrə getdi. Sonra;

— Anladım, — dedi və ürəkaçan, adamı bihuş eləyən bir təbəssümlə qımışdı...

Musiqi çalınırdı, onlar fırlanırdı. Dünya da sanki şadlıq və sevinc içində bu iki cavanla birgə fırlanırdı.

Musiqi çalınırdı, çalınırdı.

ONUNCU FƏSİL

Ağayi Nəcməddin ayaq üstə zorla dayanırdı. Özünü yaşıl rəngli qapıya birtəhər yetirib şişman-kobud barmağını zəngin düyməsinə basdı. Uzun və cingiltili səs otağı başına götürdü. İçəridən tələm-

tələsik tərpəniş, çarpayı cırıltısı eşidildi. Ağayi Nəcməddinin fikrincə, qapı gərək tez açılaydı. Dünya xanımın bu qədər ləngidiyi olmamışdı. Ağayi Nəcməddinin ürəyinin lap dərinliyində gizlənmiş şübhə hissi əcaib bir ağrı ilə yenə baş qaldırdı: «Bəlkə içəridə ayrı adam var?!» Gözləri axan kişi sağ əlini dal cibində gəzdirdiyi balaca tapançaya toxundurdu və ayıq, soyuq bir mühakimə ilə pıçıldadı: «İkisini də öldürrəm». Ağayi Nəcməddinin yaşı altmışı haqlamışdı. Özündə cavanlıq gümrahlığı hiss etdiyi, gündə iki-üç məşuqəsinin yanında olduğu və hamısının da, könlünü oxumayıb aldığı vaxtlar arxada qalmışdı. Bədəninin əzaları uzun middət işlənib sürtülmüş maşın hissələri kimi yavaş-yavaş laxlayıb əldən düşürdü; bədən illərin yağışı-qarı altında qalmış əzəmətli divar təkin quzulayıb uçulur və əvvəlki görkəmini, davamlılığını asta-asta itirirdi. Daha onu heç bir mahir usta heç nəyin gücünə öz əvvəlki halına gətirə bilməzdi, təmir edə bilməzdi. Bu acı və soyuq duyğu özünü büruzə verdikcə ağayi Nəcməddinin əli-ayağı buza dönür, cavanlığı, milyonların da kücünə geri qaytarmaq mümkün olmadığını dərk edir və acı təəssüflə qüruba doğrü əyilən taleyinə dərin bir sükut içində baxırdı.

Dünya xanım məhz bu zaman — ağayi Nəcməddin öz ürəyində doldurulması mümkün olmayan boşluq hiss etdiyi günlərində ona rast gəlmişdi. Üç il bundan qabağın söhbəti idi. Mötəbər bir qonaqlıqda çoxdan tanıdığı ağayi Siracuddövlə yeyib-içib hallanandan sonra ağayi Nəcməddini kənara çəkib söhbətə tutmuşdu:

— Necəsən, ay Nəcməddin?!

— Birtəhər keçir, ağayi Siracuddövlə!

— Daha bizim tərəflərə heç təşrif gətirmirsən?!

— Daha qocaldıq getdik. Mənim ələyim ələnib, xəlbirim də göydə fırlanır, dostum.

— Əşi, özünü qocalığa qoyma, gəl-get. Bu saat əlimin altında elə qəşəng və cavan qızlar var ki, görəndə adamın ağlı başından çıxır.

Nəcməddin əlini onun çiyninə vurub zarafat etdi:

— Deyirəm axı, ona görə ağlın getdikcə azalır. — Aralarında köhnə zarafatları olduğuna görə Siracuddövlə sözdən alınmadı.

— Ağıl pul qazanmaq üçün lazımdı. Sənin lə mən də maşallah, çoxlu pul sahibiyik, bəs dərin surət[1], ağıl bizim nəyimizə lazımdı? — Sonra o, səsinə ciddi bir ahəng verib: — Doğrudan deyirəm, Nəc-

[1] Belə olduqda.

məddin, — dedi. — Bu cavan-cavan qızlarnan bir yerdə olmaq, gül ətri verən nəfəslərini duymaq adamın ömrünü uzadır.

— Yox, daha mənim elə yerlərə getmək vaxtım keçib, dostum.

— Əgər istəyirsənsə, — Siracəddin dəllallığını işə salmaq istədi, — istəyirsənsə, sənə bir pişnəhad[1] eləyim.

— O nədir?

— Əlimə bir qız düşüb. Dəreyi-huriyandandı[2]. Su sonası kimi candı, Nəcməddin. Nəfəsinə kişi nəfəsi toxunmayıb!

— Özün də dəyməmisən?

— Yox. Adamın heyfi gəlir ona toxunmağa. Dedim bunu ən yaxın bir adama... «satacağam» — demək istədi, ancaq sözünü tez dəyişib: — verəcəyəm! — söylədi.

Nəcməddin «Dəreyi-huriyan»da dünya gözəllərinin olduğunu bilirdi. Dağlar arasındakı yaşıl vadidə yerləşən tayfanın əndamlı, qələmqaşlı, püstəağızlı, qaragöz qızları bütün məmləkətdə məşhur idi. Varlı-karlı adamlar evlənəndə, ya oğlanlarına qız alanda bəzən çox baha olduğuna baxmayaraq «Dəreyi-huriyana» gedir, seçib-sonalayıb bəyənirdilər.

Siracəddinin dediyi qızın «Dəreyi-huriyan»dan olması Nəcməddini şirnikləndirdi. Kişinin sönüb öləzimiş hətavəsi közərib işıldamağa başladı. Təbiətən arif olan Siracəddin dilini işə saldı:

— Dosta qismət olmalı şeydi, Nəcməddin. Mənim heyfim gəlir, onu hər itə-qurda yem eləyim. Adamın vicdanı yol vermir.

Nəcməddin ürəyində dedi: «Qoca tülkü, səni tanıyıram. Pul qazanmaq istəyirsən. Sənin pula hərisliyin qadına-qıza olan hərisliyindən qat-qat itidir. Yoxsa indiyə qədər o qızı vəhşi kimi didib parçalamışdın, o bəzəkli otaqlarında çürüyən onlarla qızın-gəlinin tayı etmişdin».

— Yaxşı, neçəyə deyirsən?!

— Ay Nəcməddin, indi burda nə qiymət danışaq səninlə? Gərək malı görəsən, sonra qiymət kəsəsən; elə deyil?! «Şənidən key bovəd manədi didən».[3] Sabah gəl. Tamaşa elə. Sonra danışarıq!

— Yaxşı,—demişdi Nəcməddin. Amma sabaha qədər səbri çatmamış, qonaqlıqdan camaat dağılışıb gedəndən sonra özünü saxlaya bilməyib Siracəddinin yanına gəlmişdi. Gecə yarıdan keçmişdi. Nəc-

[1] Təklif.
[2] Dəreyi-huriyan — hurilər dərəsi (yer adı).
[3] Eşitmək hara, görmək hara?

məddini qapıda görəndə onun çiçəyi çırtlamış, sevindiyindən az qala kişinin boynunu qucaqlayıb öpmüşdü. «Hərifin boş damarını tapmışam. Vurulub deyəsən...» — deyə ürəyində götür-qoy eləyən Siracəddin qonağını içəri dəvət etmiş, xidmətçi qızı yanına çağırtdırıb:

— İçməyə viski aç, meyvə də gətir—demişdi. Şişmiş, yuxulu gözlərini ağasının üzünə zilləyən qız astaca — Beçeşm — deyib gedəndə qapının ağzında onun qulağına nəsə də pıçıldadı, sonra Siracəddin qonağına kreslonu göstərdi.

— Yox, oturmuram

— Oturmasan, inciyərəm, canın üçün. Mənim yanıma gələsən, bir şey içməmiş səni buraxarammı? Özün mənim xasiyyətimi bilirsən.

Nəcməddin doğrudan da köhnə dostunun xasiyyətinə yaxşı bələddi. O buraya istirahət üçün gələnləri əvvəlcə bir piyalə içkiyə qonaq edirdi; adamlardan bunun üçün pul da almırdı. Beyni dumanlanmış müştəri seçib-bəyəndiyi qızın, qadının yanına gedəndə həddən artıq əliaçıqlıq göstərir, yemək-içmək sifariş verir, qıza elə həyətdə, birinci mərtəbədə yerləşən balaca dükandan hədiyyə alırdı. Beləliklə, Siracəddin verdiyi bir piyalə içkinin əvəzini dörd-beş, bəzən hətta on dəfədən də çox çıxarırdı. İçki adamı ürəyiaçıq və səxavətli edir. Bu, Siracəddinə yaxşı məlum idi. Buraya içməyən, necə deyərlər «xalis müsəlman» olan adamlar gələndə Siracəddinin qaşqabağı yer süpürür, imkanı olduqca elələrinin tez çıxıb getməsinə çalışırdı. İndi Siracəddin çalışırdı ki, Nəcməddini də içirtsin; qonaqlıqda içmişdilər. Əvvəlcədən bu qızı ona təklif etməyi planlaşdırmış Siracəddin qənşərində oturmuş Nəcməddinin neçə badə boşaltdığına da diqqət yetirmiş, fürsət düşdükcə özü də bu və ya digər sağlığa badə qaldırmağa məcbur etmişdi. Əsl mətləbdən xəbəri olmayan Nəcməddin badəni-badə dalınca başına çəkmişdi.

Siracəddin qızın gətirdiyi viskidən iki piyalə doldurub:

— Sənin sağlığına, Nəcməddin! — demişdi və hər ikisi içmişdi.

— Bəs nə oldu sənin bu qızın? Onun gəldisi şah gəldisinə döndü ki? — deyə Nəcməddin səbirsizlik göstərməyə başlamışdı.

— Bir dənə də vuraq. Qonaqlıqda adam çox idi deyə, ürəyim istəyən qədər içə bilmədim. Fikir verirdim, sən də doyunca vurmadın.

— Yox, daha bəsdi.

— Birini də içək. Tökdü. İçdilər,

— Bura çağırtdırım, ya otağında baxarsan?!

— Harda olur-olsun.

— Otağı yaxşıdı.

Dəhlizə çıxdılar. Alaqaranlıqda sola yeridilər. Sirac əlində oynatdığı açarların birini seçib qapının ağzında dayandı. Qapını açdı.

— Sən girmə içəri, — Nəcməddin dedi.

— Yox, səni tək buraxmaram.

— Qorxma.

— Sənin sözünə qulaq asmaz.

— Asar.

— Asmaz deyirəm.

İçəri girdilər. Siracəddin işığı yandırdı. Pəncərənin ağzına qoyulmuş ipək yorğan-döşəkli çarpayıda ürkək ceyran baxışlı qız səksəkəli halda başını qaldırdı. Qara saçları balışın üstünə dağılmışdı. Sifətinin ağlığı balışın ağlığından seçilmirdi. Üzündə silinməz qorxu və tələş həkk olunub qalmışdı.

Nəcməddin dumanlı baxışlarını onun sifətinə zillədi — göz qırpmadan baxdı, baxdı. Siracəddin Dünyaya baxmırdı, ona çox baxmışdı. O bu dəqiqə Nəcməddini izləyirdi, müəyyən etmək istəyirdi ki, xoşuna gəlir, ya yox? Nəcməddinin baxışları qızın gözlərindən dodağına, buradan da ağ gərdəninə sürüşəndə Siracın amiranə səsi eşidildi:

— Dur ayağa, qız.

Qız sanki əcnəbi dilində deyilirmiş kimi, bu sözlərdən qımıldanmadı. Siracəddin təkrar etdi:

— Deyirəm dur ayağa. Qızın ağlar səsi eşidildi:

— Paltarım yoxdu, ağa...

Buraya düşən qızlar ilk aylarını alt paltarsız gecələyirdilər. Siracəddin qorxurdu ki, onlar özlərini asıb öldürə bilərlər. Yerə girəndə xidmətçi qadın yanına gəlir, onu anadangəlmə soyundurur, paltarını götürüb gedirdi. Səhər gətirib verirdi.

— Eybi yoxdur, qız. Burda özgə adam yoxdur.

— …

— Çox gözləyəcəyik?

Qızın kölgəli gözlərində yaş gilələndi və güclü çırağın işığı altında almaz dənəsi kimi parıldadı.

— Qorxma, heç bir şey olmayacaq. Kişi sadəcə baxmaq istəyir.

Yaş qızın gözlərinin bulaqlarından yuvarlandı. Bu ara Nəcməddin kəskin bir hərəkətlə Siracəddinə döndü:

— Çıx burdan.

— Mən?

— Hə, sən. Tez çıx burdan.

Siracəddin zabitə ilə deyilmiş bu sözlərin müqabilində heç nə söyləyə bilməyib kəkələyə-kəkələyə çıxdı.

Nəcməddin qapını içəridən cəftələdi... Ovsunlanmış təki ağzında dili hərlənmədi; yox, o belə gözəl görməmişdi. Addım-addım yaxın gəldi.

— Ağa, səni and verirəm allaha, mənimlə işin olmasın.

— Bəs bu qoca qurd sənə toxunmayıb? Qız başını buladı.

— Düzünü de.

— O... hər gecə... camaat yatandan sonra gəlir... məni çarpayımdan qaldırır... tamaşa eləyir... sonra gedir, ağa...

— Mənimlə getmək istəyirsən?

— Hara, ağa?

— Uzağa getməyəcəyik, sənə otaq verəcəyəm. Sən...

— Razıyam, ağa. Təki məni buradan qurtar, apar. Mən burada qala bilmirəm. Ölərəm mən, ağa, ölərəm.

— Dur, geyin.

Qız qulaqlarına inanmaq istəmirdi.

— Paltarımı deyin gətirsinlər.

Nəcməddinin ürəyində gizlənmiş qurd baş qaldırdı:

— Dur ayağa.

Qız yorğanı sinəsinə tutub çarpayıdan düşdü.

Nəcməddin irəli gəlib yorğanı onun əlindən zorla çəkib aldı. Qız anadangəlmə, ağ mərmər heykəl kimi ortalıqda qaldı. Əllərilə bədəninin açıq yerlərini tutmaq istəyir, əyilirdi.

Nəcməddinin ürəyi uçundu. Elə bil, ruhu bədənindən uçub harasa getdi. Ağır və gözlənilməz zərbə almış adam kimi neçə an özünə gələ bilmədi. «Lənət sənə şeytan», deyib ayılan kimi oldu.

— Yaxşı, gir yerinə. — Qız dalı-dalı çəkilib yorğanın altında ağ bədənini gizlətdi...

Ağayi Nəcməddin qapını zərblə itələyib açanda o, Siracın başına tappıltı ilə dəydi.

— Ax...—deyib ufuldadı. Sonra başının ağrısını unudub:

— Hə, xoşuna gəldi? — deyə xəbər aldı.

— Gəldi.

— Çox şadam ki, sənin xoşuna gəldi. Görürsən necə qızdı?

— De onun paltarlarını gətirsinlər.

— Elə indi aparırsan?

— Hə, elə indi!

— Bəs heç danışmadıq?!

— Neçə istəyirsən?

— Bir lək[1], ağa.

— Yaxşı, bir lək olsun.

Siracəddin kişinin belə asanlıqla razı olduğunu görüb az istədiyinə peşman oldu.

— Bir lək lap ucuz oldu ha. Bir az da artır.

— Yox. Kişinin sözü bir olar. Qurtardıq.

Həmin gecə Dünya oradan canını qurtara bildi. Nəcməddin ona çox bərk vurulmuşdu. Elə vaxtlar olurdu ki, o, Dünyanın yanından günlərlə getmirdi. Uşaq kimi ona sığınır, ondan nəvaziş umur, başını dizinin üstünə qoyub qəribə, şirin yuxular görürdü. Dünya bir ər kimi yox, bir hami kimi ondan çox razı idi. Nəcməddin ondan pul əsirgəmirdi, ürəyi istəyəni alırdı. Yeməyi-içməyi yaxşı idi. Dünyanı tapandan sonra onun qəlbindəki, həyatındakı boşluq müəyyən dərəcədə dolmuşdu. O, Nəcməddini dünyaya, insanlara bağlayan yeganə vasitəyə, zəncirə dönmüşdü. Nəcməddin ona hər şeyi verməyə hazır idi, ondan umacağı isə yalnız nəvaziş və məhəbbət idi. Bütün gözəl qadınlar kimi, Dünya da qiymətini yaxşı bilir, özünü ucuz tutmurdu. Nəcməddinlə həlim rəftar edir, onun qocalığını, gücsüzlüyünü üzünə vurub qanını qaraltmır; o, gələn kimi görpə qız sayağı atılıb boynuna sarılır, diqqətlə qırxılıb ətirlənmiş üzündən öpür və tez-tez: «Mənim əzizim». — deyirdi. Bu sözlər Nəcməddinə çox xoş gəlir, onu xoşbəxt edirdi. Nəhayət, qoca çağında, ömrünün qürubunda tale onu yaddan çıxartmamış, ona Dünyanın simasında səadət göndərmişdi. Nəcməddin buna sevinirdi. Dünyanın gözəlliyi onu dünyanın ən xoşbəxt adamı etmişdi. Lakin Nəcməddinin ürəyində həmişə gizli bir qorxu — Dünyanın ona xəyanət edə biləcəyi fikir yuva salmışdı. Buna görə də o, həmişə nigaran, həmişə səksəkəli və şübhəli idi. Var qüvvəsi ilə çalışırdı ki, bundan Dünyanın xəbəri olmasın. Təcrübəsindən bilirdi ki, qadının yadına belə şey salmaq onu xəyanətə öz əllərinlə itələmək, sövq eləmək deməkdir; mərdi qova-qova namərd eləmək deməkdir. Bununçün də o, ürəyində qovrula-qovrula susur, Dünyanın özünə kiçik bir işarə belə eləmirdi. ...Nəhayət qapı açıldı. Saçları çiyninə tökülmüş, ağ xalat geymiş Dünya onu görcək sevincindən bilmədi ki, neyləsin. Onu içəri buraxıb adəti üzrə boynuna sarıldı, Nəcməddinin üzünü isti, hərarətli öpüşlərə qərq etdi. Nəcməddin də onun boyun-boğazını, dodaqlarını öpə-öpə gətirib

[1] L ə k — Yüz min.

çarpayısının üstünə qoydu. Ancaq nəzərləri ilə evi, çarpayının altını gizlincə yoxladı.

— Yenə içmisən, mənim əzizim?

— Azca. Lap azca. Dünya qəmli bir səslə:

— Məni içəndən-içənə yad edirsən, əzizim!! —dedi.

— Yox, əstəqfürulla! Sən həmişə mənim fikrimdəsən, ürəyimdəsən.

— Bəs bu neçə günü haradasan?

— İşim vardı.

— Gecələr ki bikar olursan! Gecələr gələ bilərdin. Mən də dörd divar arasında tək qalıb darıxıram, qapını açıb içəri girən bir nəfər yox, halımı soruşan yox. Sinemaya[1] getmirəm, teatra getmirəm. Mənim gördüyüm və görə biləcəyim bir adam varsa, o da sənsən. Sən də ki yanıma keflənəndən-keflənənə gəlirsən. — Nəcməddin onun haqlı sözləri müqabilində heç nə deyə bilmədi. İri, qalın dodaqlarını onun nazik, solğun dodaqlarına söykəyib əlilə xalatının düymələrini açmağa başladı...

ON BİRİNCİ FƏSİL

Elməddin tamam yeni bir aləmə düşmüşdü; cəmi bir neçə həftə bundan irəli az qala əl açıb dilənmək ərəfəsində olan Elməddin indi külli-ixtiyar sahibi idi; demək olar ki, ağayi Nəcməddinin bütün var-yoxu, gəliri-çıxarı onun əlində idi. Bəzən özünün gözlənilmədən belə bir məqama gəlib çatdığına özü də inanmaq istəmirdi. Hər şey ona yuxu kimi görünürdü. Böyük binada yerləşən «Nəcməddin dəftər»də[2] xüsusi kabinetdə otururdu. Əlinin altında iki telefon qoyulmuşdu. Kabinetin qapısında dayanmış qulluqçu kişi o, içəri girəndə də, çölə çıxanda da baş əyib təzim eləyirdi: Yanına qonaq—müştəri tacir gələndə həmin kişi ədəblə qapını döyüb icazə alandan sonra limonlu çay gətirib ortalığa qoyurdu.

«Dəftər»in bütün işçiləri ona hörmət edirdilər. Çünki ağayi Nəcməddin onu buraya gətirib işçilərə təqdim eləyəndə açıqca demişdi:

— Bu gündən sizin rəisiniz ağayi Elməddindir. Onu sevin və ehtiram edin. Mən şəxsən ona ixtiyar verirəm ki, kim yaxşı işləməsə,

[1] Sinema — kinoteatr.
[2] Dəftər — idarə.

kim dikbaşlıq və etinasızlıq göstərsə vəzifəsindən azad etsin. — Nəcməddinin bu hədəsindən sonra hamı başını aşağı salıb öz işini görməklə məşğuldu. «Dəftər»in qapısı ağzında qara «Mersedes» markalı minik maşını dururdu. Bu, Elməddinin ixtiyarına verilmişdi. Səhər tezdən, saat səkkizdə maşın onun yaşadığı binanın qapısında dayanırdı. O, səhər yeməyini yeyib özünü səliqəyə salandan sonra çıxıb maşına minir, idarəyə gəlirdi.

Ağayi Nəcməddin Elməddin üçün yaxşı bir mənzil ayırmışdı. Hər şeyi vardı — soyuducusundan, yelpazəsindən tutmuş mebelinə, qab-qacağına qədər.

Elməddin üçün gözəl və rahat günlər başlamışdı. Bütün məsələləri o, Rəhgüzərə və Məleykə xanıma danışmışdı. Onlar o qədər sevinmişdilər ki. Xüsusilə Rəhgüzərin sevinci yerə-göyə sığmırdı. Yetim, arada-bərədə itib-bata bilən bir adamı ortalığa o çıxartmışdı. Yaxşılıq eləmişdi. Özü də adi bir adama yox, Elməddin kimi təmiz, qabil və istedadlı gəncə.

Məleykə xanım xəfif bir təbəssümlə gülümsəyərək:

— Zərrintacdan xoşun gəldi, Elməddin qardaş? — deyə soruşdu.

Elməddin Zərrintacın adı gələndə qızardı:

— Nə deyim, vallah.

— Ağayi Nəcməddinlə qohum olarıq, inşallah.

— O mənə qız verməz!

— Niyə vermir?—Rəhgüzər sözə qarışdı, — səndən artığına verəcək?

— Mən kasıb oğlanam.

— Daha kasıb deyilsən. Altında maşının, evin, yaxşı vəzifən. Daha nə istəyirsən?

— Bunların heç biri mənim deyil. Məleykə güldü:

— At kimindi, minənin!

İkinci dəfə görüşəndə Rəhgüzər Elməddinə qəzetin onun şerləri dərc olunmuş nömrəsini bağışladı.

Qara hərflərlə çap edilmiş şerlərini görəndə Elməddinin sevincdən gözləri yaşardı, ürəyi minnətdarlıq hissi ilə doldu və mehriban bir qardaş təki Rəhgüzərin boynunu qucaqlayıb üzündən öpdü:

— Ömrüm boyu sənə minnətdaram, ustad. Siz olmasaydınız mən məhv olub getmişdim. Sağ olun.

İndi onun şerləri tez-tez dərc edilirdi. Bunu görən Elməddin yazıb-yaratmağa daha çox həvəslənir, daha çox yazırdı. Evdə işləmək üçün hər cür şəraiti vardı. Ruhən, mənən sakitlik, dinclik tapmış

Elməddin boş vaxtlarını mütaliəyə, yazı-pozu işinə sərf edirdi. Ağayi Nəcməddinin şer-sənət pərəstişkarı olması, onun əl-qolunu daha da açmışdı. Hərdən ağayi Nəcməddinin özü onun yanına gəlir, təzə şerlərini dinləmək istədiyini bildirirdi. Elməddin həvəslə yeni yazdığı şerlərini və hekayələrini ona oxuyurdu. Bu əsasda onların arasında qəribə yaxınlıq və dostluq yaranmışdı. Bəzi vaxtlar isə o, Elməddini evə dəvət edir, yeyib-içir, şənlənirdilər. Şer, musiqi, rəqs... bir-birini əvəz edir, tam asudəlik və qayğısızlıq içində keçən xoşbəxt dəqiqələr, saatlar ömrün xatirələr dəftərində əbədi həkk olunub qalırdı.

Zərrintacla görüşləri Elməddini həyəcanlandırırdı. Onun şuxluğu, zarafatcıllığı, atasından çəkinmədən ürəyinin sözünü deməsi oğlanın xoşuna gəlirdi. Elməddin həmişə onlara gələndə qızın üzündə sezilən açıq-aşkar sevinc, şadlıq oğlanın nəzərlərindən qaçmırdı. Elə bil o, həmsöhbət axtarırdı — Elməddin əlinə düşəndə evdən buraxmaq istəmirdi, müxtəlif vasitələrlə onun başını qarışdırmağa çalışırdı. Elməddin özü də hiss edirdi ki, bu, onu əyləndirir, ona görə tələsmirdi.

Zərrintac Məlalı litseyini bitirmişdi. Sonra heç yerdə oxumaq istəməmişdi. Atası onu hətta xaricə təhsil üçün göndərməyə çalışmışdısa da, qız razılıq verməmişdi:

— Nəyimə lazımdır? — demişdi. — Ömrümün on yeddi ilini oxumağa sərf etmək istəmirəm. On iki il oxumuşam bəsdi. İndiki ağlım olsaydı, bunu da etməzdim.

Elməddinin şairliyi demək olar ki, onu az maraqlandırırdı. «Şer-filan cəfəngiyatdır»—deyə düşünən Zərrintac Elməddin şerlərini oxuyanda, sakit, durğun baxışlarla onu süzür və heç nə demirdi,

— Qızım bu cəhətdən mənə oxşamayıb! —deyə bu soyuqluğu hiss eləyən Nəcməddin heyfsilənirdi, — şerə, sənətə marağı əsla yoxdur.

Elməddin fikrən onu bədbəxt Əfsanə ilə tutuşdururdu.

Əfsanə azsavadlı idi, lakin şeri sevirdi, Elməddinin yazılarını əzbər bilirdi. Amma bu... bunun üçün dünyanın ən böyük şairinin belə şah misrasını oxu, tükü də tərpənməz. «Nə olsun?» — deyər. Elməddin bu mənada ata ilə qız arasında böyük fərq olduğunu dərindən dərk etdikcə heyrətlənirdi.

Ağayi Nəcməddingildə olarkən Elməddinin qəlbini çulğamış qayğısız, arxayınlıq hissi öz hücrəsinə qayıdıb gələndən sonra tamamilə yox olub gedirdi. Təbiətcə düşünən və həssas olduğundan özündən asılı olmayaraq, tək qalan kimi onu fikir-qayğı götürürdü. Məna-

sız keçən anları, dəqiqələri o öz ömründən saya bilmirdi. Ağlına sığışdıra bilmirdi ki, Nəcməddin kimi, heç bir şey düşünmədən necə yaşamaq olar?

Nəcməddingildə eyş-işrət məclisində olarkən fikrində başladığı şeri evdə, gecəyarıdan keçəndən sonra tamamladı:

«Beynimdə bu gün
Nə bir duyğu, nə də ki, bir sual var!
Ürəyimdə heç bir ağrı hiss etmədən
Keçirirəm dəqiqələrimi.
Mənasız görünür mənə bu anlar.
Baxışlarımı da görən olsa
Yəqin ki, deyər: cansız bir büt baxışıdır.
Beyin qayğılı,
Ürək ağrılı yaxşıdır».

Nədənsə Zərrintacı görəndə, ya da onun barəsində fikirləşəndə Elməddinin yadına Əfsanə gəlib düşürdu. Məhzun siması, gözəl gözləri önündə cilvələnir və ona lal-dinməz halda baxırdı. Bu çöhrə, o baxış Elməddinə həmişə əzab verirdi. Əfsanə yox idi, amma onun dərdi, onun qayğısı Elməddinlə idi, onun ürəyində idi.

Elməddinin evdən çıxdığı altı aydan çoxdu. İndi yəqin Səbihə arvad nigarançılıqla ürəyini yeyirdi. Anasını dörd divar arasında tək qoyub qaçmaq onun üçün bağışlanmaz günah idi. Bunu o özü yaxşı dərk edirdi. Kağız-qələm götürüb anasına məktub yazdı: «Əziz ana!

Bilirəm mənim yolumu gözləyirsən. Əbəs yerə əziyyət çəkmə. Mən daha Ədnana qayıtmayacağam. Əfsanədən heç səs-soraq yoxdur. Mərkəzdə işə düzəlmişəm. Evi-eşiyi, torpağı sat, pulunu da gətir gəl yanıma. Şəraitim yaxşıdır. Səni səbirsizliklə gözləyirəm. Mən də sənin üçün darıxmışam, ana.

Qəryədar Qulama məndən salam söylə. Oğlun Elməddin».

ON İKİNCİ FƏSİL

Rəhgüzərlə Elməddinin dostluğu şəxsi dostluq çərçivəsindən çıxıb yaradıcılıq dostluğuna çevrilirdi. Məhəmməd Şəfinin söhbətlərinə qulaq asmaqdan doymur, hər sözünü yadda saxlamağa çalışır, evə qayıdandan sonra da fikrən, xəyalən Rəhgüzərlə söhbətini davam etdirirdi. Düşünürdü ki, yaxşı eləyib kənddən şəhərə gəlib. Orada,

əldən-ayaqdan, siyasi hadisələrdən uzaq yerdə qalsaydı, elə həmin Elməddin idi; ancaq indi o özündə çoxlu dəyişiklik hiss edirdi. Gözü xeyli açılmışdı; mütaliə dairəsi genişlənmişdi. Təkcə Rəhgüzərin evindəki kitabları, ağayi Nəcməddinin kitabxanasındakı cildləri oxumaqla kifayətlənmir, özü də xoşu gələn əsərləri kitab mağazalarından alıb mütaliə edirdi.

Rəhgüzər qəzetin səhifələrində onun yazılarına geniş yer verirdi. Demək olar ki, qəzetin hər iki-üç nömrəsindən bir Elməddinin yazısı dərc edilirdi. Bu onu yamanca fərəhləndirirdi. Çap olunmuş şerlərini, hekayələrini səliqə ilə kəsir, ayrıca qovluğa yığırdı. Boş vaxtlarında onları qabağına qoyub baxmaqdan özgə ləzzət alırdı. İmzasını gördükcə elə bil, ona dünyanı bağışlayırdılar.

Rəhgüzərin şer və məqalələrinin kəskinliyi hələ bərkiyib bişməmiş Elməddini bəzən qorxudurdu. Onun həmlələri ağır və kəskin idi. Hökumət və böyük dövlət məmurları, senzura əleyhinə yazdığı yazılardan, Elməddinin bir dəfə obrazlı şəkildə dediyi kimi, qan iyi gəlirdi. Onu hər dəqiqə həbs edə bilər, məhkəməyə çəkə bilər, qəzetini bağlaya bilərdilər. Ancaq Rəhgüzər ehtiyat eləmirdi. Həddindən artıq «qan iyi» gələn yazıları o, ayrı imzalarla dərc edirdi. Ad-san, şan-şöhrət dalınca qaçan deyildi. Yeganə məqsədi bu idi ki, söz ürəkdə qalmasın, deyilsin. Xalq eşitsin, ayılsın, oğrular, əyrilər, zəli kimi millətin qanını soranlar heç olmasa utanıb qızarsınlar, əgər utanan üzləri varsa.

Məleykə həmişə qorxu içərisində yaşayırdı. Ərinin şerlərini, məqalələrini oxuduqca qarşısıalınmaz bir nigaranlıq cavan qadının ürəyini sarır və o, qayğılı-qayğılı Rəhgüzərə deyirdi:

— Sənin bizə yazığın gəlmir?

— Mənim hamıya — bütün aclara, yoxsullara, işsizlərə yazığım gəlir, Məleykə!

— Sən hamıdan çox uşaqların, ailən barədə düşünməlisən, Şəfi. Mən demirəm ki, yazma. Yaz. Ancaq bir az yumşaq yaz. Məsələn, sənin sədr-əzəmlə nə işin var?! Hökumət başçısıdır, sən onunla üzbəüz dayana bilməzsən; o nə istəsə sənə eləyə bilər.

— Mən ondan qorxmuram. Bir də, balıq başdan iylənər. Gərək elə başdan, yuxarıdan başlayasan.

Bu söhbəti eşidən Elməddin də Məleykənin sözünə qüvvət vermək istəyirdi:

— Çox tünd gedirsən, ustad.

— Qorxaqlıqla mübarizə tutmur, Elməddin. Ancaq özü, ailəsi, uşaqları haqqında düşünənlər xudpəsənd adamlardırlar. Biz belələrinə qarşı da amansız olmalıyıq.

Elməddin Rəhgüzərə özünü qorxaq kimi qələmə verməkdən ehtiyat edərək daha mübahisə etmədi, Məleykə də «özün bilən yaxşıdır» — deyib kədərli-kədərli köks ötürdü...

Bu söhbətlər Elməddinin əqidəsinin möhkəmlənməsinə səbəb olurdu. Fikirləşirdi ki, doğrudan da mübarizə meydanı qorxaqlar üçün deyil. Rəhgüzərin nəyi yoxdur? Hər şeyi var—evi, torpağı, pulu, vəzifəsi! O nəyin xatirinə özünü oda-közə vurur? Rəhgüzər istəyir ki, hər kəsin evi-eşiyi, dolanmaq üçün pulu olsun. Bax, onu düşündürən budur. — Elməddin götür-qoy elədikcə Rəhgüzər onun nəzərlərində böyüyür və qorxmaz, əqidəsi yolunda ölməyə belə hazır olan insana çevrilirdi. Elməddin ona getdikcə daha çox bağlanırdı.

Bir dəfə Elməddin təzə yazdığı hekayəsini Rəhgüzərə oxumaq istəyirdi. Zəng edib vaxtı olub-olmadığını soruşduqda Rəhgüzər sevinclə cavab verdi:

— Əsər oxumağa iki daş arasında da vaxt taparam, gəl oxuyaq. Allah eləsin ki, yaxşı material olsun.

Elməddin iyirmi dəqiqə keçməmiş Rəhgüzərlə üzbəüz əyləşmişdi və hekayəni oxuyurdu. Məleykə də qulaq asırdı.

— Hekayənin adını qoymuşam: «Sağlardansan, ya sollardan?»

— Əhə, deyəsən ciddi məsələyə oxşayır.

— Bizim camaatın çoxu savadsızdı, çox şeyi başa düşmür. Məncə, mübarizəni savadsızlığa qarşı hücumdan başlamaq lazımdı. Xüsusilə ətraf vilayətlərdə, kəndlərimizdə savadsızlıq bizim ən böyük düşmənimizdir.

— Tamamilə düzdür, Elməddin. Savadsız adamla danışmaq, ona bir şey başa salmaq müşkül işdir.

— Mən bu yazımda istəmişəm bu məsələyə balaca toxunam.

— Oxu görək! Elməddin başladı:

— «Cavan, təcrübəsiz kəndli balası Ramazan şəhərə etdiyi bir neçə günlük səfərdən sonra qayıdıb kəndə gəlmişdi: qəribə-əcaib bir adət gətirmişdi. Onun sözləri kəndlilərin gülüşünə və bəzən də təəccübünə səbəb olurdu. Bəziləri deyirdilər ki, biçarə şəhərə gedib nəbatat yağı yeyib ağlını itirib. Bəziləri də deyirdi: ola bilsin onun sözlərində məna var, ancaq biz başa düşmürük. Lakin atası ondan narazı idi, hər rast gəldiyi adama məyusluqla deyirdi:

— Başqaları şəhərə gedir, beşdən-ondan qazanır, bizimki əliboş qayıtmağı o yana qalsın, özü ilə bir neçə ad və ləqəb də gətirdi ki, heç bir əttarın qutusunda tapa bilməzsən.

Məsələn, şəhərdən dönəndən sonra tanıdığı adamlara qəribə təzə adlar qoymuşdu. Ərbab Xacuya «imperializm», qayınatasına «irtica» və kəndin dükandarı Xəlifə Rəcəbə «feodalizm» adını vermişdi ki, heç kəs bu sözlərin nə demək olduğunu bilmirdi. İzahat istəyəndə də susub heç nə demirdi.

Nəhayət, bir gün şeytanın qıçını qırıb gözdən-qulaqdan uzaq bir yerdə nə üçün belə etdiyinin səbəbini yeganə dostu Barata açıb söylədi:

— Qardaşcan, nə ərz eləyim, şeytan mənə dağ-dağa verdi ki, get şəhərə, bəlkə bir işdən-zaddan tapıb dolana bildin, pul sahibi oldun. Gəldim şəhərə; elə şeylər gördüm ki, əqlim başımdan çıxdı. O qədər maşın vardı ki, az qalmışdım birinin altına düşəm. Şəhərə varid olduğumun birinci günü bir nəfərdən soruşdum ki, qardaş, özümçün harda bir iş tapa bilərəm? Məni başdan-ayağa süzüb xəbər aldı:

— Savadın var? Dedim:

— Ağacan, beş kitab və Xacə hafizin divanını oxumuşam, ancaq yazmağı bilmirəm.

Güldü, dedi:

— Bu sir-sifətlə, bu geyimlə sənə kim iş verər? Get köhnəfüruşdan özünçün bir şalvar, bir pencək al, özünü səliqə-sahmana sal, ondan sonra bəlkə sənə iş verən oldu.

Çox axtardıqdan sonra köhnəfüruş sarayını tapdım, kəmərimdə gizlətdiyim bir neçə rupini verib bir şalvar pencək aldım. Geyindim, hər dəqiqə mənə elə gəlirdi ki, indicə şalvarım belimdən düşəcək. Ehtiyatla yol yeriyirdim. Allah o kişinin atasını behiştlik eləsin- mənə hündür, cah-cəlallı bir binanı nişan verdi və dedi:

— Bu, vəzarətxanadır, get sənə iş verərlər Binaya daxil oldum, uzun pilləkənləri vardı, yuxarı qalxıb hansı otağa baş çəkirdim, görürdüm ki, bir neçə mirzə mizin dalında oturub nəsə yazır. Utanıb içəri girmirdim. Bir otağın da qapısını açdım, gördüm iri şüşəli mizin arxasında bir mirzə tək-tənha oturub. Cürətlənib içəri girdim və dedim:

— Ağayi mirzə, işə adam götürmürsünüz? Acıqla üstümə qışqırdı:

— Çıx bayıra, bitərbiyə. Rəisin otağına icazəsiz girirsən? Piyadə bədbəxt...

Tez çölə çıxdım. Əgər azca geciksəydim, stolun üstündəki iri daşı (yazı qurudanı) başıma vuracaqdı.

Ayrı bir otağın qapısını açdım, sərasimə dedim:

— İcazəəəə varrr?.

Otaqda qarabaş bir kişi oturmuşdu. Utanıb geri qayıtmaq istəyirdim ki, kişi soruşdu:

— Kimi istəyirsiniz, ağa?

Dedim:

— Mən... mən... işim vardı. Siz əziyyət çəkməyin, mən utanıram.

Gülüb dedi:

— Nə məzəli adamsınız? Buyurun, nə işiniz vardı? Mən rəisin sekretarıyam.

Nə qədər fikirləşdim başa düşə bilmədim ki, bu sekretar nəmənədir?! Dedim, sekretar — yəni əyal sahibi olmaqdı?

Cavabında acıqla dedi:

— Rədd ol, tərbiyəsiz.

İki ayağım vardı, ikisini də borc alıb otaqdan hövlnak çıxdım, qapını örtüb qaçdım. Dediyini eşidirdim və öz-özümə düşünürdüm ki, müşkül olar mən burda özümə bir iş tapa biləm. Nə başını ağrıdım, qardaş. Şəhərdə iş tapmaq ən müşkül məsələdi. Xüsusən də nabələd olasan. Gecəni çayxanada səhər elədim, günün qulağı çırtan kimi düşdüm küçələrə. Birdən qulağıma qalmaqal səsi gəldi. Məktəblilərdən ibarət böyük bir dəstə əllərində bayraq irəliləyirdi. Amma bayraqları qəribə idi — iki tərəfdən payaları vardı və parçanın üstünə yazı yazılmışdı, nə qədər çalışdım oxuya bilmədim. Mənim yanıma çatanda əvvəl qorxdum, sonra gördüm mənimlə işləri yoxdur, ürəkləndim. Onlara qoşulub getdim. Hər dəfə uşaqlardan biri nəsə söyləyirdi və başqaları bir ağızdan deyirdilər; «məhv olsun» və ya «yaşasın». Bəzi vaxt əl də çalırdılar.

Mən başa düşmürdüm ki, onların dad-fəryadı nə üçündür. Bir nəfər şer oxuyurdu. Amma mən bu vaxta qədər belə şer eşitməmişdim.

Şalvar-pencəyim məni də məktəblilərə oxşadırdı. Mən də qışqırmağa, «vah, vah» deməyə başladım. Axır ürəyim tablamadı və yanımda durmuş uşaqdan soruşdum:

— Ay qardaş, bu uşaqlar nə edirlər və bu dəstə nə dəstəsidir? Dedi:

— Bu, birlik cəbhəsidir.

Sözündən bir şey anlamadım və yenə soruşdum:

— Bunların məqsədi nədir? Dedi:

— İrtica, imperializm və feodalizm əleyhinə mübarizə. — Yenə heç nə anlamadım, dedim:

— Bu işin faydası nədir? Dedi:

— Siyasi demokratiyanın və iqtisadiyyatın bərqərar olması, irtica ünsürlərinin ifşası, imperializm və kapitalizm əleyhinə olduğumuzu göstərmək üçün bu hərəkət zəruridir.

And olsun allaha, onun dediklərindən bircə kəlmə də qanmadım. Gördüm ki, nə soruşuram, bu qism qəliz cavab verir, naçar qalıb susdum. İlahi, bu şəhərlilərin dililə biz kəndlilərin dili arasında nə qədər fərq varmış?

Yarımca dəqiqə bu söhbətdən keçmişdi ki, yanımdakı uşaqlardan biri soruşdu:

— Səncə, bu etilaf[1] yaxşıdır?

Sözün mənasını anlamadım, amma fikirləşməsin ki, mən onların dəstəsindən deyiləm və heç nə qanmıram deyə söylədim:

— Bəli, yaxşı şeydi. Çox yaxşı şeydi. Dedi:

— Düz deyirsən, yaxşı şeydir. Baxmayaraq ki, bunların arasında bəzi ideoloji ixtilaflar var, amma yenə bu günkü etilafları faydalıdır.

Başımı tərpətməklə cavab verdim.

O yenə soruşdu:

— Sənin fikrincə, bu yaxşıdırmı ki, müxtəlif siyasi dəstələr bu etilafda özlərinin bəzi şəxsi mülahizələrini kənara qoyub birləşiblər, ya o mülahizələrini nəzərdə tutmaları yaxşıdır?

Dediyini başa düşmədiyimdən axırıncı sözləri eynilə təkrar eləyib dedim:

— O mülahizələrini nəzərdə tutsalar yaxşıdır. O acıqla dedi:

— Bəs etilafın əsas şərti bu deyildimi ki, heç kəs gərək xüsusi şüarlar deyib aralığa təfriqə salmamalıdır?

Gördüm ki, pis toqquşdurdum və pis söz dedim, elə söz dedim ki, mənasını özüm də başa düşmürəm. Qərara aldım ki, heç danışmasam yaxşıdır, abrım əldən getməsin. Amma təzə tanış məndən əl çəkmək fikrində deyildi. Təzədən soruşdu:

— Sən özün hansı cərəyandansan? Məqsədini anlamadım, dedim:

— Cərəyandan deyiləm, Dehbala qəryəsindənəm. Dedi:

— Bunu soruşmuram ey, deyirəm ki, hansı məfkurədən və ideolojidənsən?

[1] Etilaf — ittifaq.

Dedim:

— Nə deyirsən?

Dedi:

— Sağlardansan, ya sollardan? Ya bəlkə bitərəflərdənsən?

Ay allah, özün kömək ol, axır elə şey soruşdu ki, başa düşdüm. Kəndçi olanda nə olar, balam, sağımla solumu ki tanıyıram. Amma bu «bitərəf» nəmənə olan şeydi? Yaxşı, allah bəlasını versin, deyəcəyəm ki, sağdanam.

Cür'ətlə ona dedim:

— Sağdanam, sağdan!

Gördüm mənə pis-pis baxdı və uşaqlara pıçıltı ilə nəsə dedi, onlar da mənə pis-pis baxmağa başladılar.

Öz-özümə dedim: «Xudaya, bunlar niyə mənə belə baxırlar? Düşündüm ki, bəlkə mənə inanmırlar... odur ki, dedim:

— Allah haqqı, sağdanam.

Mənim andıma inanmadılar və yenə mənə bəd-bəd baxdılar. Bu vaxt dəstə yol ayrıcına çatdı, iki-üç nəfər yol qırağındakı taxta budkanın üstünə çıxıb danışmağa başladı.

Biri üç-dörd kəlmə deyirdi, o birilər də əl çalırdılar. Mən də əl çalırdım. Hərdən «Kargər», «dehqan», «zəhmətkeş» sözlərini eşidəndə başa düşürdüm ki, məndən danışırlar.

İki saatdan sonra dəstə irəlilədi və mən də onlara qoşuldum, yenə onlardan biri nəsə deyirdi; dəstə bir dəfə «zendebad»[1] deyirdi, bir dəfə «mordebad»[2]. Mən də onların dediyini təkrar edirdim. Sonra isə özümü çaşdırdım, «mordebad»ın yerini «zendebad»la qarışdırdım.

Məsələn, o vaxt ki deyirdilər: «istismar» — deyirdim «zendebad». Deyirdilər: «ziyalılar» —deyirdim «morde-bad». Deyirdilər: «imperializm» — deyirdim «zendebad». Deyirdilər: «mütərəqqi cəbhələr», — deyirdim «mordebad». Deyirdilər: «irtica», deyirdim — «zendebad». Deyirdilər: «həmrəylik», deyirdim —«mordebad».

Uşaqlar mənim «mordebadlarımı», «zendebadlarımı» eşidəndə məni xubluca əzişdirməyə başladılar. Onlardan biri deyirdi:

— Bu mürtəcedir. Başqası söyləyirdi:

— Mərkəzi kəşfiyyat idarəsinin agentidir.

— Təxribatçıdı, — deyirdilər.

[1] Zendebad — yaşasın.

[2] Mordebad — məhv olsun

Böyük bir çətinliklə başa sala bildim ki, baba, mən kəndçiyəm. Başa düşməmişəm, qələt eləmişəm ki, bu paltarı geymişəm. Mən kəndliyəm, zəhmətkeşəm...

Bu vaxt uşaqlar mənim üzümü-gözümü öpməyə başladılar. Məndən üzr istədilər və halıma yandılar.

Qardaş, gərçi məni xubluca döydülər, ancaq anladım ki, nə vaxt «mordebad» demək lazımdır və nə vaxt «zendebad». Bunu da başa düşdüm ki, «imperializm» pis adamdı. «İrtica» da əliəyridi, yeri gəldi-gəlmədi, yalandan and içib aman eləyir. Camaatın ürəyi onun əlindən yanıqlıdır. «Feodalizm» və «istismar» da şübhəsiz, pis adamlardırlar. Hökmən qumarbazlıq və oğurluq eləyirmişlər. Hamısını qəbrə qoyum. «Mordebad», yüz dəfə «mordebad»...

O biri tərəfdən də «ziyalılar», «mütərəqqi cəbhələr», həmrəylik də, heç də şübhə yox idi, nazənin adamlardırlar. Şəksiz, gündə beş dəfə namaz qılırlar. İndi başa düşdünmü ki, nə üçün bu təzə çıxmış adları bir nəfərə vermi-şəm? Ürəyim qayınatamın əlindən yanıqlıdır, ona görə ona «irtica»adı qoymuşam. «Ərbab Xacunu da tanıyırsan və bilirsən ki, bizə, sizə nə qədər zülm eləyir, öz torpaqlarını necə də baha qiymətə bizə icarəyə verir? Ona görə ona «imperializm» adını vermişəm. Keçən il dükandar Xəlifə Rəcəbə altmış beş rupi borc vermişdim. Danmağı o yana, hələ yalandan qurana da əl basdı. Bununçun onu «feodalizm» deyə çağırıram.

Allah eləyə, dostum, bir dəfə sənlə şəhərə gedəm, o qədər təzə şeylər öyrənərik, kəndin camaatının ağzı açıla qalar».

Elməddin alnının tərini silib utancaq nəzərlərlə Rəhgüzərə baxdı. Rəhgüzər sevindiyindən özünü saxlaya bilmədi, onu bağrına basıb öpdü.

— Sağ ol, qardaş, — dedi. — Bax, bizə belə əsərlər lazımdır. Səni təbrik edirəm. Bu, çox adamın gözünü açar.

Elməddin xoşbəxt-xoşbəxt gülümsəyirdi. Məleykənin nəzərlərində rəğbət qığılcımları parıldayırdı.

ON ÜÇÜNCÜ FƏSİL

Havalar isti keçirdi. Səhər saat ondan ta üçə qədər elə bürkü olurdu ki, nəfəs almaq çətinləşirdi. Bütün günü göynəkdə gəzən adamlar günəş qüruba doğru əyilən kimi, hava birdən-birə soyuduğundan pencək geyməli olurdular. Şəhəri üzük təki əhatə eləmiş

dağlardan soyuq axıb üzü aşağı gəlirdi. Gecələr isə adam əməlli-başlı üşüyürdü...

Saat beşə qalmış Elməddin işdən çıxdı. Çoxdan piyada gəzmədiyini xatırlayıb sürücünü qaraja göndərdi, özü isə əlində tutduğu açarları oynada-oynada asta addımlarla yaşıl küçə ilə evə sarı yönəldi. Elə bir təcili işi yox idi, beynində yorğunluq hiss eləyirdi. Şəhərdə gəzib-dolanmaq, azacıq dincəlmək istəyirdi. Anasından cavab almadığına görə həddən artıq nigaran olan Elməddin nə idarədə, nə evdə rahatlıq tapa bilirdi. O biri yandan da Əfsanənin fikri onu kölgə kimi izləyirdi; həmişə gözlərilə onu axtarır, bir gün, bəlkə elə bu şəhərdə rastlaşacaqlarına inanırdı. Məhz bu inam onu üzürdü, qərarını əlindən alırdı.

Ticarət bankının yanından keçəndə çirkli, cır-cındır paltar geymiş qəzetsatan uşaqların qışqıra-qışqıra müştəri çağırdığını eşitdi:

— «Tərcüman», «Pəyame-vicdan»[1].

— Keçmiş sədr-əzəmin yeni sədr-əzəmə həmləsi.

— Elməddinin təzə satirik hekayəsi.

Uşaqlar bu sözləri demək olar ki, aramsız söyləyir, yoldan keçib-gedənlərin qabağını kəsir, tərifləyə-tərifləyə qəzetlərini satmağa çalışırdılar.

Elməddin düşünürdü: «Əgər taleyim gətirməsəydi, mən də qəzetsatan olacaqdım».

İndi onun hekayəsi çıxmış qəzeti satırdılar; ürəyində qəribə sevinc, uşaqlara sarı gəldi. Balacaboylu, başıqırxıq oğlan onun qabağını kəsdi:

— Ağa, «Pərçəm», Elməddinin hekayəsi. Peşman olmazsınız, ağa, alın.

Qəzetin qiyməti iki rupi idi, Elməddin oğlana beş rupi verib bir nüsxə qəzet aldı. Oğlan ona dua elədi:

— Ömrün uzun olsun, ağa!!

— Sən Elməddini tanıyırsan? — deyə o, astaca oğlandan soruşdu.

— Bəli, tanıyıram, ağa. Bizim qonşumuzdu. Elməddin oğlana diqqətlə baxdı: «Bəlkə qonşuluğumuzda yaşayır?»

Yox, oğlan tanış deyildi.

— Cavandı Elməddin?

[1] Qəzet adlarıdır.

— Yox, ağa, ağbaş kişidi. Yaxşı, mehriban adamdı.. Elməddin güldü. Çıxarıb beş rupi də verib dedi:

—Al bunu, amma bir daha yalan danışma. Yaxşımı? Oğlan qızarıb qəbahətini anladı:

— Beçeşm, ağa, — sonra dönüb Elməddindən soruşdu, — siz onu tanıyırsınız?

— Belə... uzaqdan-uzağa... Sən deyən qədər də qoca deyil...

— Mən elə bilirdim...

Elməddin qəzeti açıb öz imzasına baxandan sonra yoluna davam etdi. Oğlan elə müştəri haraylayırdı:

— Elməddinin təzə hekayəsi. Elməddinin təzə... Bu, Elməddinə əvəzsiz, qiymətsiz bir sevinc bəxş etmişdi. Ona elə gəlirdi ki, bu şəhərdə indi ondan xoşbəxt adam yoxdu. Hətta bax, o cah-cəlallı imarətdə yaşayan əlahəzrət — bu məmləkətin böyüyü, başının ağası da onun kimi xoşbəxt deyil və ola da bilməz!!

Başını yuxarı qaldıranda Ətiqullanın ona sarı gəldiyini görüb yerində dayandı. O, küçə aşağı gəlirdi: əynində ingilis parçasından tikilmiş kostyum, başında kapron şlyapa vardı. Qabaqkına nisbətən kökəlmişdi, amma rəngi ağ idi — avazımışdı. Gözünə iri şüşəli eynək taxmışdı. Tələsmədən yerişindən işi-gücü olmayan, gəzməyə çıxmış adama oxşayırdı.«Görək tanıyacaqmı?» — deyə düşünən Elməddin səsini çıxartmadı. Ətiqulla lap yaxınlaşdı, yanından ötüb keçəndə səsləndi:

— Ağayi Ətiqulla?

Ətiqulla səsi eşidib dayandı, onu çağırana diqqətlə baxdı və tanıdı:

— Oho, Elməddin, sənsən?

— Bəli, mənəm, — deyə o, gülə-gülə cavab verdi. Qucaqlaşıb el qaydasınca öpüşdülər.

— Sən hara, bura hara?

— Gəlmişəm, altı aydan çoxdu burdayam.

— Bəs bizə niyə gəlməmisən?

— Gəlmişdim, Londona getmişdiniz.

— Mənim əmim necədir?

— Mən gələndə yaxşı idi, indi bilmirəm.

— İş tapmısan?

— Hə.

— Harda?

— Ağayi Nəcməddinin yanında.

— Hə, özünü yaxşı yağlı yerə vermisən. İndi boş vaxtın var?

— Var.

— Yaxşı oldu, elə mən də boşam. Özü də möhkəm acam. Yoldaş axtarırdım; başımın daşıdı də, tək çörək yeyə bilmirəm. Gedək restorana, bir çörək yeyək.

— Etiraz eləmirəm.

Beş dəqiqə sonra onlar «Spinzər» restoranında, pəncərənin ağzında qoyulmuş mizin arxasında oturmuşdular. Ətiqulla toyuq qızartması, viski sifariş vermişdi. Elməddin öz əhvalatını Ətiqullaya müxtəsərcə nəql etdikdən sonra ondan xəbər aldı:

— Atan necədir?

— İndi yaxşıdır. Müalicəsi gözəl keçdi. Londonun ən böyük və məşhur həkimlərini üstünə gətirmişdim. Bu qənaətə gəldim ki, pul olandan sonra ölünü də diriltmək olar. Amma kişi, — öz atam da olsa gərək deyəm, — yaman xəsislik eləyirdi. Puluna qıymırdı. Mən isə haray-həşirinə baxmırdım, dolları kağız kimi sağa-sola səpələyirdim.

— Varlığa nə darlıq?!

— Yerin məlum yaxşı keflər eləmişəm. Lüks otaq tutmuşdum. Gündə bir xanımla kef eləyirdim... İngilis qızları da ki özün bilirsən, necə olurlar!!! Atam bir dəfə dedi:

— Bala, mən heç vaxt belə pul xərcləməmişəm. Dedim:

— Ay ata, axı sən dəllək Qulam Səxinin oğlu olubsan, mən isə milyoner Mümtazın oğluyam. Sənin lə mənim aramda bir fərq olmalıdı, ya yox?

Viskidən asta-asta vururdular. Ətiqullanın içdiyi o qədər də bilinmirdi, amma Elməddini tez tutdu. Əvvəlkinə nisbətən asan içirdi, ancaq bədəni adət etmədiyindən içki öz təsirini tez göstərdi.

Nəşələnmiş Ətiqulla ona dedi:

— Kefin duruldumu?

— Hə, onsuz da bu gün kefim yaxşı idi.

— Nəyə görə?!

Elməddin sevincinin əsl səbəbini — hekayəsinin çap olunduğunu deməkdən çəkindi. Ona elə gəldi ki, belə adam yazı-pozu ilə əsla maraqlanmaz və Elməddinin sevincini anlaya bilməz.

Ona görə belə cavab verdi:

— Səni gördüyümə çox şadam, Ətiqulla!

— Sağ ol. İndi ki kefimiz sazdı, nəşəmiz yerindədi, dur səni əntiqə bir yerə aparacağam.

— Hara? — Elməddin maraqla soruşdu.

— Cənnətə, hurili-qılmanlı cənnətə.

Elməddin onu başa düşdü. Eşitmişdi ki, mərkəzdə, xüsusən, şəhre-novda belə «hurili-qılmanlı cənnətlər» var. Ancaq getməmişdi və heç bir təsəvvürü də yoxdu. Bəlkə allah eləməmiş, Əfsanə də gəlib belə «cənnətə» düşüb? Olmazdımı? İndiki zamanda bu cür işlər, hadisələr möcüzə deyildi və kimsəni də təəccübləndirmirdi... maraq Elməddinin ürəyini bürüdü. Buna baxmayaraq o, Ətiqullanı bu fikirdən daşındırmaq üçün dedi:

— Sənin elə yerlərə getməyin, məncə, düzgün deyil.

— Niyə?

— Sənin dörd arvadın var, Ətiqulla!!

— Eh, dörd arvad. Nədi dörd arvad? Bezmişəm onlardan...

Adam nə qədər öz arvadının üzünü görər? Ə kişi, yatırsan, — arvad, səhər gözünü açırsan, yenə arvad bu arvadların əlindən qaçıram, keçirəm o biri otağa, orada da arvad. Ordan qalxıram ikinci mərtəbəyə, vay dədə, yenə arvad. O biri otağa keçirəm, aman allah, burda da kiçik arvad. Bir gün deyil, beş gün deyil, ömrü boyu da adam eyni arvadlarla yaşayar? Dəhşətdi, vallah.

— Oradan da qaçırsan «hurili-qılmanlı cənnətə», hə?

— Əşi, ora ayrı aləmdi. Hansını istəyirsən, onu da aparırsan. Həm də oğurluq mal, özgə malı yaman şirin olur, Elməddin... Dur gedək.

— Yaxşı... — Elməddin Əfsanəyə rast gəlmək ümidilə ayağa qalxdı, ancaq qapıdan çıxanda ürəyində allaha yalvarırdı ki, «Əfsanə orda olmasın, ölmüş olsun, ancaq ora düşməsin!»

ON DÖRDÜNCÜ FƏSİL

Maşın təzə şəhərin ucqarında, dar döngəli küçənin tinində dayandı: Ətiqulla taksi şoferinin pulunu verib yola salandan sonra Elməddinə işarə elədi:

— Dalımca gəl.

Elməddinin ürəyi titrəyirdi. Vücudunu anlaşılmaz, qorxulu duyğu sarmışdı. Ayağının biri gedirdi, biri yox. İçdiyi viskinin təsiri azalmışdı; o, tam ayıq idi. Əfsanəyə burada — bu dəhşətlər, əyləncələr məskənində rast gəlmək hissi onun əl-ayağını buza döndərmişdi. Özünü təskin etməyə çalışırdı: «Yox, Əfsanə ölüb. O, burada ola bilməz».

Darvazanın qapısı ağzına, yerə basdırılmış dirəyə «Münsif hotel» sözləri yazılmış lövhə vurulmuşdu.

— Bura mehmanxanadı ki, — deyə Elməddin ayağını sürütləyə-sürütləyə irəlidə gedən Ətiqulladan soruşdu.

— Hə mehmanxanadı. Bizim cəmiyyətdə hər şeyi öz adı ilə çağırmamağa çoxdan öyrəşiblər... Sən hələ bilmirsən?

— Yavaş-yavaş öyrənirəm, — deyə Elməddin kinayə ilə cavab verdi.

— Öyrən, öyrən!! Lazımın olar!!

Həyətə girdilər. Talvarın altında kök, eni ilə uzunu güclə seçilən, yaşı qırxı çoxdan adlamış bir qadın taxtın üstündə oturub piyalədə yaşıl çay içirdi. Müştərinin gəldiyini görən kimi arvadda tərpəniş yarandı. Dizinin böyrünə qoyduğu dəsmalı götürüb dolu, qırmızı sifətindəki tər damcılarını silib üzünü yellədi.

— Uff... istidən bişdik. — dedi. Uzaq da olsalar Elməddin qadının kişi səsinə bənzər səsini eşitdi.

Qadın gələnlərə diqqət yetirdi və Ətiqullanı tanıyıb:

— Hə, sənsən?. Ay qaçaq, hardasan? Heç yoxsan, gəlib eləmirsən, demirsən mənim Həsrət xalam ölüb-itib? — dedi.

— Burda yox idim.

— Deyirəm axı, Ətiqulla ola, ayda iki-üç dəfə bura baş çəkməyə? Bəs bu cavan kimdir?

—Dostumdur.

— Allah saxlasın, görürəm, abırlı-həyalı oğlandı. Amma oğul, bura utananlar gəlmirlər, özünü qız kimi həyalı göstərməyə çalışma. Tanıyıram siz kişiləri.

Bu mehmanxana Həsrətə mərhum ərindən miras qalmışdı. On il qabaq Münsif ağa öz maşınında yol kənarındakı ucu-bucağı görünməyən uçuruma düşüb həlak olandan sonra arvad yeganə gəlir mənbəyi olan mehmanxanaya daha çox fikir verməyə başlamış, özünün yaşadığı ikimərtəbəli evi də «tək adamam, nəyimə lazımdı?» — deyib satmış, bura köçmüş, birinci mərtəbədəki iki xudmani otağa yığışmışdı. Oğul-uşaq yiyəsi olmayan Həsrət o vaxt cavandı, gözəgəlimli idi. Özü demişkən, ömrünün ən qızğın, ehtiraslı çağını yaşayırdı. Səsi onda kişi səsinə bənzəmirdi, saçları uzun, sifəti ağappaq idi. Həmişə sürmə çəkdiyi gözləri ehtiras qığılcımları ilə yanardı. Süzgün baxışlarla mehmanxanada yaşayan qonaqlarına baxmağa bəzən özü də qorxurdu. Çünki bu baxışlar insana nəsə şirin, sehrli vədlər pıçıl-

dayırdı. Beşgünlük, ongünlük qonaqlardan bəziləri müxtəlif bəhanələrlə Həsrət xanımın yanına gəlir, kiçik şeylərdən şikayət edirdilər.

— Su gəlmir.

— Külqabı yoxdur.

— Paltarasan yoxdur.

Bir dəfə o bu cür şikayətlərlə onun yanına gəlmiş cavan, görkəmli kişiyə cavab vermişdi:

— Bəlkə bir arvad da verək sizə? Kişi gülüb demişdi:

— Nə olar, lap yaxşı olar. Şəhərə gəzməyə gələn adam, necə deyərlər, istəyir ki, fürsətdən istifadə edib dişini də dəyişsin. Keçəl halva yeyər, puluna minnət!

Bu fikir Həsrətin ağlına batmışdı və o, əvvəl özündən başlamışdı. Gələn müştəriləri dişinə vurub saf-çürük eləyir, pullusunupulsuzunu müəyyənləşdirir, sonra özünəməxsus incəliklə, cazibədarlıqla pullu müştərini cəlb edir, həm ticarət eləyirdi, həm ziyarət... Belə varlı-karlı adamlar üçün hər şərait yaradır, onları bacardığı qədər şəhərdə çox saxlamağa çalışırdı. İki-üç belə adam əlinə düşəndə, o çətinlik qarşısında qalır, əldən çıxan pulları nəzərində hesablayıb dilxor olurdu. Nəhayət, buna da çarə tapdı və onlarla günün ayrı-ayrı vaxtlarında (bəzisilə öz otağında, bəzisi ilə nömrədə) görüşməyə başladı. Aylıq gəliri ilə bərabər pula olan hərisliyi də artmışdı. İllər keçdikcə dövlətlənirdisə də, qocalırdı da. Ona ayrı bir bəla üz vermişdi — yemək bəlası. Gündə üç-dörd adamın payını yeyirdi, ac qala bilmirdi. Gündüz axşamacan, axşam da yatanacan elə ağzı işləyirdi: əlinə nə düşdü, yeyir, yenə doydum demirdi.

Kökəlir, bədəni qəşəngliyini itirir, ağırlaşır, çətinliklə nəfəs alırdı. Həkimə-təbibə müraciət etdi: «az ye» — dedilər - «idman elə»—dedilər. — Amma o bunların heç birini eləyə bilmədi. Beləliklə o, nəhəng, oturanda dura bilməyən ağır-səngin bir xalaya çevrildi. Təbii ki, gözəlliyini də itirdi; müştərilərini də...

Bu zaman o, mehmanxanada işləyən kişiləri bir-bir qovmağa başladı; yerinə cavan qız, gəlin götürdü. Altı-yeddi ayın içində mehmanxanada bir dənə də olsa başıpapaqlı qalmadı. Hamısı qadındı.

İndi mehmanxanaya gələnləri o, adətən belə qarşılayırdı:

— Qalmağa yeriniz varmı? — deyə soruşana:

— Bəli, varımızdır, — deyirdi, — hər cür şəraitlə!

Qonağı yerləşdirəndə yanınca cavan xidmətçilərdən birini götürürdü; qonaq müştəri gözü ilə qadına baxanda o qımışıb xəbər alırdı:

— Daha nə lazımdı?

— Daha? Daha sənin sağlığın.

— Görürəm qızdan xoşun gəlir deyəsən, hə?

Kişi çaşbaş qalırdı və açıq eyhamı başa düşüb:

— Bəli, qəşəng xanımdan ancaq ölülərin xoşu gəlməz, — deyirdi.

— Könlü balıq istəyən, quyruğunu suya salar, — deyə qadın ikibaşlı söz atardı. Söhbət bu yerə çatanda o, qızı otaqdan çıxardar, özü qonaqla tək qalardı:

— İstəyirsən?

— Əlbəttə.

— Neçə saatlığa lazımdı?

— Bir saatlığa...

Bu sözü eşidəndə Həsrət cırnayırdı:

— Kişilər var ki, əlinə qadın düşdü, səhərəcən əldən buraxmaq istəmir! Sən də...

— Mən də buraxmazdım, amma cibişdan müsaidə eləmir, xanım!!

Həsrət xanım bu minvalla yaşayır, xidmətçilərinə yaxşı baxır, incitmirdi.

Ətiqulla Həsrətlə söhbət eləyəndə yuxarıdan əynində polis paltarı olan tösmərək bir adam aşağı düşdü... Polis nəfərini görəndə Elməddin üşüyən kimi oldu... «Yəqin yoxlayır. Bəs bu qadını niyə tutub aparmır? Bütün bu fisqu-fəsadın günahkarı bax, bu kök ifritədir. Gör indi bu dörd divar arasında nə qədər cavan qız-gəlinin irzi-namusu tapdalanır, gör nə qədər arzular solub yerlə-yeksan olur. Mən də bura gəlmişəm? Ar olsun mənə... heysiyyətsiz, qansız adamların yeridir bura... Xalqın biçarə, ac-yalavac qızları burada məhv olub gedir...» Düşündükcə qızışan Elməddin az qalırdı ki, üzünü polisə tutub desin: «Ey vətəndaş. Səni qanun-qaydaya keşik çəkən qoyublar. Nə üçün susursan? Nə üçün cinayətkarları tutub aparmırsan, bu cinayət ocağını viran qoymursan? Axı sən polissən, səni oğruları, əyriləri, caniləri tutmaq üçün qoyublar!!»

Onun fikrini Həsrət xanımın sözləri qırdı; o, üzünü polisə tutub deyirdi:

— Hə, pəzəvəngi, yaxşı istirahət eləyə bildinmi?

— Bəs necə, elədim.

— Qız səni incidib-eləmədi ki.

— Bir balaca çəm-xəm elədi, amma mənim qabağımda dayana bilər o?

— Elə şeylərə fikir vermə. Hələ cavandı, yaxşı öyrəşməyib. Bir az da—o, şəhadət barmağını gicgahına söykəyib əlavə etdi,— burası xarabdı.

Polis şit-şit hırıldadı:

— Başı xarabdı özü üçün, onun başı bizim nəyimizə lazımdı. — İri, kobud ayaqqabılarını tıqqıldada-tıqqıldada ötüb keçəndən sonra Elməddin bayaqdan bəri ilk dəfə dilləndi və özünə danışıqdan məlum olan mətləbi bir daha soruşdu:

— O da bura... gəlib-gedir?

— Ha. Gəlib-gedir. Həmişə əlinə, özü demiş, axmaq pul düşəndə bura qaçır.

— Axı o, polisdi?.

— Polis olanda nə olar, oğul, polis adam deyil?.. Arvadın işlətdiyi sözü eşidəndə Elməddin qızardı, amma onun ağızdan yava olduğunu bilən Ətiqulla yoldaşının pərtliyini görüb bərkdən güldü.

— Sənin bu dostun lap xam adama oxşayır, ay Ətiq!

— Cavandı hələ. Bu, düzələn şeydi. Hələ bir de görək təzə, xoruz səsi eşitməmiş, nəyin var?.

— Var. Təzə götürmüşəm.

— Neçə yaşındadı?

— On yeddi.

Elməddin sarsıldı. «Bu il Əfsanənin də on yeddi yaşı tamam olurdu. Bəlkə odur?. Özü də deyir təzə götürmüşəm? Aman allah, o olacaq...» Elməddini elə bil, cərəyan vurmuşdu; bədəni, beyni qurumuşdu.

— O mənim, — deyə Ətiqulla indidən bölüşdürdü. — Bəs mənim yoldaşım üçün nə təklif eləyirsən?

— O da seçsin, xoşuna gələnini... götürsün.

— Pulunu mən verəcəyəm, — Ətiqulla arvadın ovcuna iki dənə beşyüzlük basdı.

Həsrət pulu döşəkçəsinin altında gizlətdi, yanındakı yumru, paslı zəngi götürüb çaldı. Arıq, cılız bir qadın içəridən çıxıb qaça-qaça onun yanına gəldi:

— Bəli, xanım.

— Bu uşaqları apar yuxarı; o təzəni bu ağanın otağına sal, bunun üçün də... özü istəyəni... De ki, cəzə-fəzə eləməsinlər, de ki, xanım söylədi ki, öz uşaqlarımızdı.

— Beçeşm, xanım.

— Hə, di gedin...

İkinci mərtəbədə, vestibüldə ölü bir sükut vardı. Dəhlizdəki stolun ətrafında kreslolar düzülmüşdü.

Bələdçi qadın dəhlizin ortasında dayanıb üç dəfə əlini əlinə vurdu. Nömrələrdən birinin qapısı açıldı. Səkkiz qadın ürkə-ürkə dəhlizə çıxdı. Bu işarəyə çoxdan alışmışdılar.

Elməddin ürək çırpıntısı ilə qadınlara baxdı. Əfsanə yox idi. «Şükür ki, yoxdu Əfsanə burada. Bəlkə o biri nömrələrdədi?»

Qızlara müştəri gözü ilə baxan Ətiqullaya əhəmiyət verməyib o, bələdçidən soruşdu:

— Daha yoxdur?

— Yoxdur, ağa.

— O biri otaqlarda qalanı yoxdur?

— Yox, ağa.

Elməddin susdu. Azca rahat oldu. Ətiqulla bələdçinin qulağına nəsə pıçıldadı.

— Keç bura, — deyə o hamıdan xırda, gözləri nəmli, saçları üzünə tögülmüş qıza müraciət etdi. — Ağanı qəbul elə. Xanımın yaxın adamıdı.

Qız dəstədən ayrıldı. Dodaqları arasında siqaret tutub tüstülədən Ətiqullaya ötəri nəzər salıb ayaqlarını sürüyə-sürüyə on nömrəli otağın qapısına sarı getdi.

Ətiqulla qalxdı:

— Mən getdim, — dedi Elməddinə. Və qızın dalınca yollandı. Elməddin heygəl kimi donub qalmışdı. Qızlar hamısı ona baxırdı. O isə hamısına. Hər kəs ürəyində: «kimi seçəcək?» deyə düşünürdü. Yorğun, yuxusuz, həvəssiz olduqları üzlərinə yazılmışdı. Sükutla keçən anların ucundan, elə bil, daş asılmışdı.

Bələdçi qadın ağır sükutu pozdu:

— Hansını, ağa?

Elməddin iztirab və kədər dolu baxışlarını qızlardan çəkib bələdçi qadına zillədi. Baxdı, baxdı, qəti bir səslə:

— Heç birini, — dedi, — hanı sizin o kök böyüyünüz? Qızların arasına pıçıltı düşdü. — Böyüyümuz aşağıdadı. O, ayağa durdu. Qadınlardan kimsə söz atdı:

— Həsrət xanımdan xoşu gəlib. — Gülüşdülər. Səsi eşidən Elməddin döndü, yenə sürəkli baxışlarla onları süzdü.

Elməddin kinayəqarışıq bir tərzdə:

— Zavallılar, — dedi. — Bu qədər adamı bir arvad dörd divar arasında çürüdür. Kimsə cavab verdi:

— Çörəyimizi verir, paltarımızı verir. Ayrısı tamamladı:

— Əgər çörəyimizi, paltarımızı verirsən, sənnən getməyə razıyıq, ağa... Əgər ürəyin yanırsa, bizi yedirt, geydir. Cılız bir səs əlavə etdi:

— Bu şərtlə, gecə yorğan-döşəyimizə də girməyəsən...

Elməddii sarsılmış halda pilləkənləri düşdü. Həsrət xanım oğlanın tezbazar elədiyini görüb piyaləsini yerə qoydu və təəccüblə:

— Xoşuna gələn olmadı? — deyə soruşdu.

— Mənim sənlə işim var...

Sözünü deyib qurtarmamışdı ki, Həsrət arvadı gülmək tutdu. Arvad uğundu. Sallanıb dizlərinin üstünə düşmüş iri qarnı o, güldükcə tuluq kimi yırğalanır, atılıb-düşürdü.

— Ay sənin canınacan, — deyə ət içində itib-batmış gözləri yaşaran Həsrət yırğalanırdı; — o qədər canın içində xoşuna gələn olmadı, məndən xoşun gəldi? Mənim vaxtım çoxdan keçib, bala...

Və yenə uğundu.

Elməddin ona demək istədiyini udub ordan uzaqlaşdı, çünki onunla danışmağı artıq hesab etdi. Əgər qayıdıb dala baxsaydı, o zaman gülən arvadın şəhadət barmağını gicgahına qoyub əlini yırğaladığını görərdi:

— «Başı xarab imiş ki?».

ON BEŞİNCİ FƏSİL

Elməddinin fikri dağınıq idi. Küçədə məst adamlar təki yeriyir, gözü ayağının altını görmürdü. İlk dəfə idi ki, kənddən çıxıb şəhərə gəldiyinə peşmançılıq çəkirdi. Orda həyat sakit idi. Yoxsulluq, səfalət orda da hökm sürürdü; ancaq bu, o qədər də nəzərə çarpmırdı. Hamının güzəranı təxminən bir-birinə oxşayırdı. Qəryədar Qulamdan, imamdan başqa. Hamı «elnən gələn dərd toy-bayramdı», «Allah kərimdi» deyib əlinə düşən yavan çörəyini yeyərək göydəki «gözəgörünməz kişiyə» şükür eləyirdi. Orda insanın ürəyinə hər addımbaşı zərbə-zərbə üstündən dəymirdi; haqsızlıqlar, aclıq, yoxsulluq adamın ürəyini yeyib çürütmürdü.

Lakin şəhər... Şəhər həyatı addımbaşı ürəkyaxan, ürək parçalayan hadisələrlə dolu idi. Başa düşən, anlayan, az-çox ürəyində mil-

lət qanı olan həssas adam üçün burda yaşamaq cəhənnəmdə gün keçirmək, hər gün bir az ölmək kimi bir şeydi. Burada öz dərdin də yaddan çıxır, sən küçələrdə gördüyün kor-şil dilənçilərin, əl açıb dilənən körpələrin dərdini unuda bilmirsən. Yediyin, içdiyin haram olur. Və sənin ürəyin qocalır, saçların vaxtsız ağarır...

Münsif mehmanxanasında eşitdiyi sözlər qulaqlarında səslənirdi:

«Əgər çörəyimizi, geyməyimizi verirsənsə, sənlə getməyə razıyıq». «Bu şərtlə ki, gecə yorğan-döşəyimizə də girməyəsən».

Çörək, geyim, isti sığınacaq. İnsana artıq nə lazımdı? Elməddin şəhər aclarını, yoxsullarını, bir qarın çörək xatirinə namusunu-bədənini satmağa məcbur olanları təmin etmək imkanına malik olmadığını düşündükcə ürəyini acı bir təəssüf hissi yandırıb-yaxırdı. «Çörəyimizi, paltarımızı verə bilərsənsə...» sözləri beynini, qulaqlarını cırmaqlayırdı. O özü kim idi? O da adi bir dilənçi ola bilərdi, əgər xoş bir təsadüf onu ağayi Nəcməddinə rast gətirməsəydi. O da maaşa baxan adam idi, vəssalam. Burada onun arzularına, istəyinə nöqtə qoyulurdu. Həsrət xanımla danışa bilmədiyinə indi təəssüf eləmirdi. Onun suallarına o kök, kötük kimi qadın nə cavab verəcəkdi? O da deyəcəkdi yəqin: «pislik eləmirəm, yeməklərini, içməklərini, paltarlarını, otaqlarını vermişəm. Dünyada əyləncədən, kef çəkməkdən başqa bir dərd-qayğı bilmirlər. Məgər mən pislik eləyirəm?» Şübhəsiz, o belə deyəcəkdi. Burada o, ağayi Nəcməddinlə ilk gün onlarda elədiyi söhbəti xatırladı, O da belə deyirdi: «Pislik eləyirəm? Mən olmasaydım on min nəfər bu şəhərdə ac-yalavac gəzib, gələnə-gedənə əl açmalı olacaqdı».

Həsrət arvad bu cəhətdən ağayi Nəcməddinə çox oxşayırdı. Onlar şəkilcə, cinsiyyətcə başqa-başqa adamlar olsalar da, düşüncə dünyagörüşü etibarı ilə eyni adamlar idi.

Elməddin şəhərdə yaşadıqca onun əsl simasını bütün çılpaqlığı ilə görməyə başlayırdı... Və burada rahat, sakit yaşamağın ona qismət olmayacağı qərarına gəlirdi. Yox, əgər onun yaşayışı ağayi Nəcməddinlərin həyatı kimi təmin olunmuş olsaydı belə, yenə Elməddin rahat yaşaya bilməzdi. O, öz təbiətini yaxşı bilirdi.

Sinema-parkın qabağında cılız, arğaz bir oğlan qabağına qoyduğu qutuda siqaret satırdı. Papiros çəkməyə sinəsində ehtiyac duydu. Ayaq saxlayıb bir qutu siqaret almaq istədi.

— Mənə bir qutu siqaret. Uşaq çevikliklə xəbər aldı:

— Pakistan siqareti istəyirsiniz, ağa, ya Amerikan siqareti?.

— Gülüstan siqareti yoxundu?

— Yox, ağa. O, ah çəkdi:

— Amerikan siqareti ver.

Uşaq ona bir uzun qutulu «Elem» papirosu verdi.

— Kükürd hara kükürdüdü?

— Çin kükürdüdü, ağa.

Elməddin qutunu açıb nazik, ağ kağıza bükülmüş siqaretdən birini damağına qoyub yandırdı: «papirosumuz da, kükürdümüz də xaricdən gətirilir. İlahi, yəni özümüzün heç nəyimiz yoxdu?» deyə düşünə-düşünə yoluna davam elədi.

İstədi Rəhgüzərgilə dönsün, fikrini dəyişdi. Ağayi Nəcməddinin evinin yanından keçəndə çox tərəddüd etdi. Zərrintacı neçə gündü görmədiyini xatırladı. Qız ona xoş təsir buraxmışdı. Zərrintacda nəsə cazibəli, yapışıqlı bir cəhət vardı. Bunun nə olduğunu hələlik Elməddin deyə bilməzdi, amma tutqun şəkildə hiss eləyirdi. Lakin ovqatının təlx olduğunu anlayıb ağayi Nəcməddingilə getmək fikrindən də daşındı. Bu dəqiqə o, evə getməyi, tək otağına qapılıb yatmağı, hər şeyi unutmağı daha üstün tuturdu. Yatmaq və unutmaq.

Həyətində həmişə hökm sürən bir sakitlik vardı. Bura ondan başqa kimsə gəlib-getmirdi. Qu desən, qulaq tutulardı. Otağın qapısını açıb içəri girməmişdən qabaq darvaza ağzındakı poçt qutusuna baxdı. Məktubu görən kimi sevindi. Nəhayət, anasından cavab gəlib. Əsəblərinin gərginliyi boşaldı. Yorğun, qüssəli üzünə ürkək bir təbəssüm qondu. Tez məktubun üstünə göz gəzdirdi. Məktub anasından yox, qəryədar Qulamdan gəlmişdi. Dalağı sancdı. Və nigarançılıqla məktubu tələsik nəzərdən keçirtdi:

«Əziz oğlum Elməddin!

Mənim üçün nə qədər ağır olsa da, sənə bu xəbəri çatdırmağı özümə borc bilirəm. Çünki indiyənəcən sənin ünvanını bilmirdim. Məlumun olsun ki, sənin anana yazdığın məktubu biçarə arvad özü ala bilmədi. Çünki, sən gedəndən iki ay sonra Səbihə — sənin əziz anan Allahın rəhmətinə getdi. Yığışıb el qaydasınca onu Yusifin yanında dəfn etdik. Özünü ələ al, mən sənin dəyanətinə bələdəm, bilirəm ki bu ağır dərdi çəkməyə sənin qüdrətin və iradən çatar. Bir gün yaranan bir gün də öləcək. Bu, Allah-taalanın qoyduğu qanundu.

Qapınızı bağlamışam. Açarı məndədir. Əgər gəlmək istəyirsənsə (mən məsləhət görürəm ki, öz qəryəmizə qayıdasan) qayıt gəl. Yenə gözümün üstə yerin var. Əgər istəmirsənsə, evini-torpağını alan var — icazə ver, satım.

Pulunu sənə göndərrəm, hər halda fikrini mənə yaz!

Ba ehtiram — qəryədar Qulam».

Elməddin məktubun ikinci hissəsini oxudusa da beyninə heç bir şey batmadı. Başı dumanlandı, qeyri-ixtiyari olaraq gözlərindən yaş axmağa başladı. Məktubu stolun üstünə atıb çarpayıya sərildi və birdən hönkürtü vurub uşaq kimi ağladı. Özünü büsbütün tək hiss elədi.

Acı-acı düşündü:

«Bir nəslin yeganə sağ nümayəndəsi» — deyə kədərli inlədi. «Təkəm, tək» — dedi. Və ağladı, ağladı.

ON ALTINCI FƏSİL

Şad xəbər kimi, bəd xəbər də tez yayılır. Bəlkə bir az da tez. Elməddinin anasının ölüm xəbəri səhəri gün onun hələ barmaqla sayıla biləcək qədər az olan dostlarının qulağına çatdı. Bunu Zərrintac elədi.

... Səhər Elməddin ayılanda pal-paltarlı yatdığını görüb təəccüb elədi. Yuxu ona anasının ölümünü elə bil unutdurmuşdu. Otaqda var-gəl elədikdə gözü stolun üstündəki açıq məktuba sataşanda hər şeyi xatırladı. Anası ölmüşdü. Titrək əlini uzadıb kağızı götürdü və təzədən diqqətlə oxudu. Qəryədar Qulamın kiməsə yazdırdığı kağız yalan və zarafat ola bilməzdi. «Anana yazdığın məktubu biçarə arvad ala bilmədi. Çünki sən gedəndən iki ay sonra Səbihə — sənin əziz anan Allahın rəhmətinə getdi». Bu sözləri dönə-dönə oxudu, sanki burada dərk ediləsi çox çətin olan bir məsələ yazılmışdı; onu anlamaq, başa düşmək istəyirdi.

Güzgüdə özünə baxdı. Gözləri şişmiş və qızarmışdı. Bu vəziyyətdə işə getmək çətin idi. Ona görə saat səkkizdə dalınca gəlmiş şoferə açıq pəncərədən ucadan dedi:

— Əhədulla, mən özümü pis hiss eləyirəm, işə getməyəcəyəm, sən get dəftərdə de ki, məni gözləməsinlər!

Zatən qaradinməz, soyuqqanlı adama oxşayan sürücü yaxına gəlib:

— Ağayi Elməddin, bəlkə doktordan, davadan-dərmandan, bir şey lazımdı?! — deyə xəbər aldı.

— Yox, sağ ol, heç nə gərək deyil. Sadəcə yorğunam, keçib gedər!..

Sürücü çıxıb gedəndən sonra o, öz aləminə qayıtdı...

«Anam da öldü demək. Tale məni bu dünyada tək-tənha qoydu. Yazıq arvad dörd divar arasında tək can verib. Yəqin gözünü bağlayan da olmayıb. Yusifin ölümü arvadın belini qırdı, ömrünü gödəltdi...».

Elməddin çarpayıda uzanıb gözlərini tavana zilləmiş di. Özü burda idi, fikri uzaq Ədnan kəndində cövlan eləyirdi. Həyatının dərdsiz, qayğısız illəri orada keçmişdi. Dünyada ən şirin və unudulmaz sayılan ilk məhəbbətin rayihəsini, ətrini orda duymuşdu. İlk sevgisini də orda dəfn etmişdi. Sonra zərbəni zərbə üstündən almışdı. Yusifin ölümü, uğursuz nigah, anasının ölümü. Onu daha nələr gözləyirdi? Bunun indi onun üçün fərqi yox idi. Bu zərbələr onun hisslərini kütləşdirmişdi. Hərdən ona elə gəlirdi ki, yaşamaq çox mənasız şeydir; bu qədər əzab-iztirab çəkməyə məhrumiyyətlərə dözməyə əsla dəyməz. Ancaq bu fikirlər tez ötüb keçirdi. Yaşamaq, kiməsə, nəyəsə yararlı olmaq, özündən sonra bir nişanə, heç olmasa quruca təmiz ad qoyub getmək hissi qara-qorxulu düşüncələri ondan uzaqlaşdırırdı. O hələ doyunca sevməmişdi — gənclik eşqi çiçək açmamış solmalı idimi? Bəlkə Əfsanəni tapdı?. Yox, Əfsanəni tapsa, da onunla evlənə bilməyəcək. «O, qardaşımın arvadıdır, mən ona başqa gözlə heç vaxt baxa bilmərəm» hissi qəlbini tərk etməmişdi. Və görünür, heç vaxt da tərk eləməyəcəkdi. Bəs onda Əfsanəni niyə axtarır? Bu suala, o, indi aydın cavab verə bilərdi: «Tapacağam onu, deyəcəyəm sən mənim bacımsan, yaşa mənim yanımda. Qoymayacağam o, əl açıb dilənsin, qoymayacağam o, «hurili-qılmanlı cənnətlər»də düşsün!».

Elməddin ayıq başla belə düşünürdü. Amma dərindən baxıb görürdü ki, içəridə, ürəyinin lap dərinliklərində zəif, artıq taqətdən düşüb ölməkdə olan bir hiss də var və aram-aram, yalvarıcı bir səslə onun qulağına pıçıldayır:

«Əfsanə sağdı, Elməddin. Ölməyib, o, sadəcə itib. Onu axtar, tap, onu ancaq sən xoşbəxt eləyə bilərsən. Onu xoşbəxt eləsən, özün də səadətini tapmış olacaqsan. O sənin ilk eşqin, ilk sevgindir. Onu ölməyə, pamal olmağa qoyma. O sənsən, sənin xoşbəxtliyin, sənin gələcəyindir!»

Elməddin bu qəribə, bica düşüncələri özündən uzaqlaşdırmağa çalışdı və heyrət elədi ki, insan nə qəribə, anlaşılmaz məxluqdur. Anası vəfat eləyib, o isə gör nələr haqqında düşünür?

Qapı döyüldü. Elməddin əvvəlcə qulaqlarına inanmadı. «Yəqin qulaqlarım səsə düşüb» — dedi. Yox, qapı döyüldü. «Yəqin Əhədulladır» — fikrindən keçirtdi və səsləndi:

— Gəl.

Kandarda Zərrintacı görəndə gözlərinə inanmadı. «Vallah məni qara basır. Başıma deyəsən hava gəlir!»

Yox, bu həqiqətən Zərrintac idi. Başdan-ayağa qədər ağ geyinmişdi; paltarı ağ, ayaqqabısı ağ, sumkası ağ, hətta saçına bağladığı lent də ağ idi. Paltarının fonunda sifəti ağa çalırdı. Əlində tək bircə dənə nərgiz gülü tutmuşdu; burnuna yaxınlaşdırıb iynəyirdi. Nə içəri girir, nə qayıdıb gedir, nə də bir kəlmə kəsirdi. Bu vəziyyətdə o, yuxularda ağ dumanlar içindən sıyrılıb çıxan xəyala bənzəyirdi. Nəhayət, Zərrintacın zərif səsi eşidildi:

— Mənim gəlişimə şad deyilsən, Elməddin? — deyib gözləri ilə xəfifcə gülümsündü.

Elməddin onun sözlərini eşidəndən sonra sanki yuxudan ayıldı və dikəldi:

— Buyurun, Zərrintac xanım. Xoş gəlibsiniz. — Bu sözləri o, çox quru, soyuq söylədi və bu, onun özünü də qorxutdu. Şad olmaq, gülümsəmək istədi, amma bacarmadı. — Xahiş eləyirəm, oturun.

Zərrintac ağ paltarının ətəyini daldan qaldırıb stulda oturdu və davamlı baxışlarla otağı süzdü. Sonra gözlərini dolandırıb Elməddinə baxdı. Ancaq yenə heç nə demədi. Sükut çox cansıxıcı idi və bunu hər ikisi başa düşürdü. Yaxşı oldu ki, sükutu Zərrintac pozdu:

— Sənə nə olub? Gözümə qəmli dəyirsən?.

— Hə, Zərrintac xanım, məktub almışam... — deyə o, stolun üstündəki kağıza işarə elədi.

— Sevgilin yazıb? — deyə o, sifətində istehzaqarışıq bir təbəssüm məktubu götürdü, — tapılıb?

— Ondan deyil, kənddəndi. Anam ölüb, Zərrintac!!

— Anan ölüb?.. — deyə Zərrintac qayğılı bir tərzdə soruşdu.

— Hə. Tək, dörd divar arasında...

Zərrintac səssizcə məktubu götürüb oxudu, stolun üstünə qoyub bu dəfə mehriban nəzərlərlə Elməddinə göz yetirdi. Elməddin doğrudan da sıxılıb balacalaşmışdı. Çox ağladığı gözlərindən bilinirdi. Zərrintacın ona yazığı gəldi. Bu hiss onun özünə də tanış idi, o da anasını itirmişdi.

— Cavan idi?!.

— Əlli bir yaşı vardı.

— Xəstə idimi?!

— Yox. Sağlam arvad idi. Ancaq axır vaxtlarda yaman düşmüşdü. Qardaşımın ölümündən sonra arvadın elə bil, belini qırdılar. Bizi çox istəyirdi. Bizi xoşbəxt görmək istəyirdi.

— O, bütün anaların arzusudur, — Zərrintac ah çəkib əlavə etdi.

— Heç inanmaq istəmirəm ki, o ölüb!!

— Adam gözü ilə görməyəndə inanmaq istəmir. Mən də anamın ölümünü, basdırıldığını görməmişəm. Onda qardaşımla Fransaya gəzməyə getmişdik. Qayıtdım. Anamı evdə görmədim. Atamdan xəbər aldım ki, anam hanı? Dedi, qonaq gedib, qardaşıgildədir. Günlər keçdi, o gəlmədi. Bir gün ailəliklə, qohum-əqrabamızla qəbir üstünə getdik. Mənimlə səfərə getmiş qardaşım təzə bir qəbri mənə göstərib ağlaya-ağlaya dedi ki, ağla, Zərrintac, bu bizim anamızın qəbridir. Bu mənim üçün ən ağır, öldürücü xəbər idi. Bayıldım. Əlim hara çatacaq?! Öləni ağlamaqla qaytarmaq mümkün deyilmiş. O vaxtlardan illər keçib, amma mənə elə gəlir ki, anam dayımgildədir, bir gün qayıdıb gələcək. Amma gəlmir. Gəlmir ki, gəlmir. Gözüm o vaxtdan yoldadır. Mənə elə gəlir ki, ömrümün axırınacan onun yolunu gözləyəcəyəm. Qəbrini görsəm də, inanmaq istəmirəm. — Zərrintac danışdıqca Elməddin ona qulaq asır, özünün də belə hisslər keçirdiyini başa düşürdü. Bu sözlərdə Zərrintacın ürəyi vardı, dərdi vardı, ona görə Elməddin onu başa düşürdü. İlk görüşlərində, o, Elməddinə dayaz, yeyib-içmək həvəskarı olan bir qız təsiri bağışlamışdı. Və bu, doğrusu, onda bir təəssüf hissi oyatmışdı. Gözəldi, xoşagələndi, ancaq ürəksizdi. İndi isə Zərrintac həssas, dərd çəkməyi bacaran bir qız kimi onun qarşısında canlanırdı.

— Mən də anamın ölümünə inanmaq istəmirəm.

— O yaxşıdı, Elməddin, qoy anan sənin fikrində həmişə sağ, canlı kimi yaşasın. Darıxma. Özünü ələ al.

— Darıxcağın əlimdən nə gələcək? Məni bircə bu yandırır ki, arvad tək ölüb. Yanında bir yaxın adamı olmayıb.

— Həyatdır, — sonra o, işgüzar bir görkəm alıb, — yaxşı, qəryənizə getmək istəyirsən? — deyə xəbər aldı.

— Yox, Zərrintac.

— Niyə?! Get ananın qəbrini ziyarət elə.

— Getməyəcəyəm.

— İstəsən mənə de. Maşın, pul... nə lazımsa... düzəldərəm.

— Çox sağ ol, Zərrintac xanım. Minnətdaram. Amma getməyəcəyəm. Məktub yazacağam ki, evimizi, torpağımızı satsınlar...

Araya sükut çökdü. Elməddin siqaret götürüb Zərrintaca da təklif etdi:

— Mən çəkmirəm.

— Çəkmirsən?! Bəs...

— Məclisdə-filanda bir dənə... tüstülədirəm.

— Sizdən nə əcəb Zərrintac xanım? — deyə o, qızın nə məqsədlə gəldiyini aydınlaşdırmaq istədi, — nə əcəb bizə təşrif gətirdiniz?

Zərrintac azca alınan kimi oldu. Ancaq bunu məharətlə gizlətməyə çalışıb dedi:

— Elə belə... Dəftərə zəng vurdum, dedilər işə gəlməyib. Dedim bəlkə xəstəsiniz...

— Lütf eləmisiniz, xanım.

Zərrintac günortaya yaxın Elməddinə təsəlliverici sözlər deyib həyətə çıxdı. Öz «Folksvaken»inə minib tozlu yolda gözdən itdi.

Elməddin qonağını ötürüb evə qayıdanda Zərrintacın əlindəki tək nərgizin yadından çıxıb stolun üstündə qaldığını gördü. Götürüb iylədi və yenə yerinə atdı... Sonra nə fikirləşdisə onu qaldırıb stəkanda suya qoydu.

Zərrintac əvvəlcə atasına qəziyyəni xəbər verdi. Ağayi Nəcməddin Rəhgüzərə zəng çaldı. Axşam altı-yeddi nəfərlik bir dəstə Elməddinin yaşadığı evə başsağlığına gəldilər. Onların arasında Zərrintac və Məleykə xanım da var idi. Zərrintac yadından çıxartdığı nərgizi stəkanın içində pəncərə qabağına qoyulmuş görüb yas yerində olsa da ürəyində qəribə bir sevinc duydu. Bu sevinc onun anası haqqında qəlbinə çökmüş kədəri xeyli azaltdı.

Səhərisi «Pərçəm» qəzetində Elməddinə başsağlığı verilmişdi. O, qara hərflərlə yazılmış sözləri oxudu və ona elə gəldi ki, anası həqiqətən ölüb, bunu rəsmi surətdə qəzet də təsdiq eləyirdi.

Elməddin bu fikirlə heç cür barışmaq istəmirdi!

ON YEDDİNCİ FƏSİL

Elməddinlə Rəhgüzərin ailəsinin dostluğu getdikcə möhkəmlənirdi. Boş vaxtlarında tez-tez əvvəllər utana-utana, sonra ərklə bu səmimi və mehriban ailənin qapısını açıb içəri girən Elməddin getdikcə evin bir üzvünə çevrilirdi. Xüsusilə Elməddin üçün çox ağır olan ötən günlərdə Rəhgüzərlər ailəsi ona böyük dayaq olmuş, darıxmağa qoymamış, hər vasitə ilə fikrini dağıtmağa çalışmışdı. Mə-

leykə xanım ona bacı kimi yanaşır, məsləhətlər verir, hətta, «çirkli paltarlarını gətir, yuyum» deyə ona qayğı göstərirdi.

Rəhgüzərin uşaqları ilə, xüsusən böyük oğlu Bəbrəklə Elməddin yamanca dost olmuşdu. Bəbrək ağıllı, sözü tez başa düşən, mərifətli bir oğlan kimi Elməddinin diqqətini cəlb eləyirdi. Üçüncü sinifdə oxumasına baxmayaraq, mütaliə dairəsi çox geniş idi. Dərs kitablarından başqa macal tapıb evdə, atasının kitabxanasında olan kitablardan da oxuyurdu. Evə gələn qəzetləri ata-anasından qabaq gözdən keçirir, məmləkətdə, xaricdə baş verən hadisələr barədə müxtəlif suallar verirdi. Atasının qələmindən çıxan nə vardısa oxumuşdu; onun şair olması ilə hədsiz dərəcədə fəxr eləyirdi. Məktəbdə yoldaşları, müəllimlərin çoxu ona xüsusi ehtiram göstərirdi. Bəbrək özünü atasının adına-sanına layiq aparmağa çalışırdı, yersiz hərəkətlərə yol vermir, ağır oturub batman gəlirdi. Atasının bütün məmləkətdə məşhur adam olmasına baxmayaraq, Bəbrək lovğalıqdan, təkəbbürdən çox uzaqdı. Məhz buna görə yoldaşları onu çox sevirdi. Atasının isə əzizi idi. Divin canı şüşədə olan kimi, Rəhgüzərin də canı Bəbrəkdə idi. Azca nasaz olanda, ya başı ağrıyanda Rəhgüzər az qala özü də xəstələnirdi; dava-dərman, doktor qalmırdı ki, Rəhgüzər oğlu üçün tapmasın, gətirməsin.

Ata-oğul arasında incə, xoşagələn bir dostluq hökm sürürdü: evdə kənar adam olmayanda, ailə üzvləri miz arxasında oturanda Rəhgüzər Bəbrəklə evin böyük oğlu kimi söhbət edir, bəzi şeyləri onunla məsləhətləşirdi. Məleykə ümumiyyətlə evdə hökm sürən ülfətə, sakitliyə baxıb xoşbəxtcəsinə gülümsünürdü və fərəhdən sanki göyün yeddinci qatına qalxırdı. Ona başqa heç nə lazım deyildi. Təki uşaqlarının, ərinin canları sağ olsun, vəssalam. Qara çörək də yeyib yaşamaq olar, təki cansağlığı olsun, arada mehr və ülfət olsun.

Elməddin Bəbrəkin qapqara, mənalı gözlərinə baxıb fikirləşirdi ki, «gözəl oğlandı, ağıllı oğlandı. Gələcəyinə inanmaq olar!!».

Bir axşam miz arxasında çay içilən zaman Rəhgüzər Elməddinə göz vurub Bəbrəkdən xəbər aldı:

— Oxuyub nə olmaq istəyirsən, oğlum?

Bəbrək atəşli gözlərini qıyıb sınayıcı nəzərlərlə atasına diqqət yetirəndən sonra:

— Sənin kimi şair olmaq istəyirəm!—deyə cavab verdi. Elməddin təbəssümlə dedi:

— Bərəkallah.

Rəhgüzər isə ah çəkdi və ciddi bir tərzdə söylədi:

— Onda heç!

Məleykə təəccübləndi:

— Niyə elə deyirsən, Şəfi?

— Bunun səbəbi var, Məleykə.

Elməddin maraqlı bir söhbət eşidəcəyinə əmin olduğu halda gözlərini Məhəmməd Şəfinin ağzına dikdi. Şəfi dilləndi:

— Mən özüm sənət allahı olmaq arzusu ilə yaşayırdım, oğul. Amma gəlib adi bir şair oldum. Əgər sən mən olmaq istəyirsənsə, deməli, axırda heç bir şey olmaz.

— Elə demə, sən allah. Uşağın qəlbini qırma, — deyə Məleykə tərs-tərs ərinə baxdı.

— Yox, Bəbrək, — deyə Elməddin söhbətə müdaxilə elədi. — Atan heç də adi şair deyil. O, əlbəttə, təvazökarlıq eləyir. Adam çox vaxt öz böyüklüyünü hiss eləmir — dağlar öz əzəmətini duymayan kimi. Dağların əzəməti kənardan baxanlara daha yaxşı məlumdur.

Elməddinin bu sözləri Məleykənin çox xoşuna gəldi. Ürəyində çoxdan bəri gəzdirdiyi narazılığını açıb ortalığa tökdü:

— Kişi o qədər sadədir ki, böyüklüyü-zadı bilinmir. Bizim evə çox adamlar gəlir, Elməddin qardaş. Baxırsan, görürsən eləsi var ki, qabında, başında sən deyən bir şey yoxdu, amma özünü elə aparır ki, elə bil yeri-göyü bu xəlq eləyib. O sarışın oğlanın adı nə idi, Şəfi? hə, Cövdət xan. Cəmisi bir-iki dəfə Şəfinin yanına gəlmişdi, insafən iki-üç, Şəfinin dediyinə görə, yaxşı şer yazmışdı. Bizim kişinin də bir xasiyyəti var ki, yaxşıya-yaxşı, pisə-pis deməsə o gecə səhərəcən yata bilməz. Dedi ki, çox yaxşı şerlərdi. Sonra gələndə Cövdət özünü elə tox, şax tutmağa başladı ki, ayağım yerə yapışdı. Başladı «mənim şerlərim, mənim əsərlərim, mənim yaradıcılığım»—deməyə. Şəfi isə buna dözə bilmədi, dedi: «Oğlan, hələ sənin belə deməyin tezdi».

Küsdü, getdi. O kedəndi, gedib.

Rəhgüzər Məleykənin danışdığı bu əhvalatı xatırlayıb qəmli-qəmli gülümsündü:

— Gedib orda-burda deyirmiş ki, Rəhgüzər mənim paxıllığımı çəkir. Yaxşı şeri görməyə gözü yoxdur.

— Nanəcib adammış, — deyə Elməddin əslində görmədiyi adam haqqında qəti hökm verdi.

— Bizim sənətimizə, ədəbiyyatımıza belə adamlar ancaq ziyan vura bilərlər.

— Onlar olmasa yaxşıdı.

— Gec-tez onlar cərgədən çıxır, Elməddin... Təkəbbür, lovğalıq başlayan yerdə, yadında saxla, sənət həmişə ölür.

— Düz buyurursunuz, ustad.

Bu gün Elməddin Rəhgüzərgilə gələndə onu evdə görmədi. Bəbrək dərslərini hazırlayırdı. Qızlar onun yanına qaçıb: «Əmi» — deyə qıçlarına sarmaşdılar. Elməddin cibindən noğul və saqqız çıxarıb hər ikisinin ovcuna tökdü. Onlar atılıb-düşərək evə qaçdılar və analarına xəbər verdilər ki, Elməddin əmi gəlib, bizə də saqqız, noğul verdi. Əyninə xalat geyinmiş Məleykə xanım eyvana çıxdı:

— Xoş gəlmisiniz, Elməddin qardaş.

— Xoş gününüz olsun.

— Gəlin, oturun, indi Şəfi də gələr. Zəng eləmişdi ki, gəlirəm.

Elməddin həyətdə əyləşdi. Söyüdün altında...

Yay çıxhaçıxda idi. Havalar hiss ediləcək dərəcədə soyumuşdu. Yağmurlu, küləkli payızın nəfəsi duyulurdu. Söyüdün yarpaqlarına sarı xal düşmüşdü; tək-tək yarpaqlar saplağından üzülüb balıqlar olan hovuzun içinə düşüb üzürdü. Əlini vurmasa da Elməddin suyun soyuduğunu bilirdi. Həyətdə qərib bir sakitlik hökm sürürdü...

Məleykə çaynikdə çay gətirib mizin üstünə, Elməddinin qabağına qoydu:

— Nə zəhmət çəkirsiniz?! Belə havalardan xoşum gəlir, Məleykə bacı!

Ani sükutdan sonra Məleykə xəbər aldı:

— İşlər necə gedir, bir çətinliyin-zadın yoxdu ki?!

— Yaxşıdı, Məleykə bacı. Hələ ki bir çətinlik hiss eləmirəm.

— Olsun, olsun. Nəcməddin ağa səni incitmir ki?

— Yox. Mənnən işi yoxdur.

— Qızı nə təhərdi, bizim Zərrintac xanım?.

Bu sözü eşidəndə Elməddin ürəyinin sürətlə döyündüyünü, üzünün azca allandığını hiss elədi və Məleykənin bunu nə məqsədlə soruşduğunu ayırd eləmək üçün qadının üzünə ötəri bir nəzər saldı; Məleykənin hiyləgər bir təbəssümlə gülümsədiyini sezdi.

— Yaxşıdı...—utana-utana cavab verdi. Zərrintacın ona laqeyd olmadığını xatırladı, yanına gəldiyini və qapının ağzında dayanıb: «Mənim gəldiyimə şad deyilsən?» deyə nazla, ərkyana xəbər aldığını yadına saldı. «Qadınlar həssas olurlar. Onların gözündən tük də yayınmır. Bəlkə Məleykə xanım bir şey hiss eləyib?! Zərrintac hisslərini gizlədə bilmir və ümumən buna heç çalışmır da» — deyə o,

sürətlə beynində dolandırdı. «Bəlkə o, məndən qabaq Məleykəyə bir şey deyib?!»

Həyəcanını, utandığını ört-basdır eləmək üçün piyaləyə çay süzdü və soyumağına macal verməmiş içməyə başladı.

— Zərrintac gözəl qızdı, — Məleykə astaca əlavə etdi.

Elməddin onun bu sözünü cavabsız buraxmaq istədi. Dinmədi. Lakin Məleykə təkidlə ssruşdu:

— Sən allah, düz demirəm, Elməddin qardaş?

— Hə, əlbəttə, düz deyirsən...

— Görəsən kimə qismət olacaq? Qardaşım olsaydı, alardım onun üçün.

— Elə qız yerdə qalmaz. Heç olmasa atasının var-dövlətinə görə. Yəqin istəyənləri çoxdu.

— Çoxdur, ancaq heç kəsə «hə» demir. Atasına deyib ki, kimi istəsəm ona da gedəcəyəm.

— Əgər atasına elə deyibsə, cəsarətli qızdır.

— Hə, cəsarətli qızdır.

Burada söhbət qırıldı. Kiçik qız anasını evə çağırdı. Məleykənin bu söhbəti başlamaqda ayrı məqsədi vardı, istəyirdi ki, Elməddinin ağzını arasın, Zərrintac haqqında ürəyini bilsin. Fikri bu idi ki, Elməddin onu — Zərrintacı alsın. Kasıb və kimsəsiz oğlan idi, əli çörəyə çatardı. Qız da artıq yetişmişdi. Düzdü, ərköyün böyümüşdü, ancaq atasının var-dövlətiylə onu elə axıra qədər ərköyün dolandırmaq olardı. Nəcməddin özü qocalmışdı, bu gün sabah köçünü çəkib dünyadan gedəcəkdi. Kişinin mal-mülkünə görə isə Zərrintaca göz dikən çox idi. Lakin qız heç kəsə boyun qoymurdu. Dünyanın ən varlı adamı belə nə atasının, nə də Zərrintacın gözünü qamaşdıra, ağlını oğurlaya bilməzdi. Elməddinin təhər-töhüründən, danışığından, rəftarından yaxşı, təmiz adam olduğunu təkcə Məleykə yox, Rəhgüzər özü də, ağayi Nəcməddin və bəlkə Zərrintac da bilirdi və ya hiss eləyirdi.

Məleykə sadəcə olaraq dünyada tək-tənha, kimsəsiz qalmış Elməddinin halına, taleyinə acıdığına görə bu fikri başından çıxara bilmirdi. Bu barədə o, əri ilə də neçə dəfə söhbət eləmişdi. Rəhgüzər arvadına diqqətlə qulaq asıb:

— Çətin ağlım kəsir, Nəcməddin kürəyini belə tək, kasıb bir adama söykəmək fikrinə düşsün, — demişdi. Məleykə ona etiraz eləmişdi.

— Elməddin ağıllı oğlandı. Nəcməddinə də var-dövlət nəyə lazımdı; yığıb-yığışdıra bilmir, hesabını-miqdarını da itirib. Ona elə adam lazımdı ki, artıq yetişib həddi-büluğa dolmuş qızına yiyə dursun və onu xoşbəxt eləsin. Hər şey qızdan asılıdır, Şəfi.

— Mən bu barədə nə deyə bilərəm? Özləri bilən məsləhətdir.

Məleykə gülümsünə-gülümsünə:

— Əgər oğlan onlara tez-tez gedib-gəlirsə, inanıram ki, axırı yaxşı olar. O qızın gözəlliyi qarşısında az kişi tapılar ki, biganə qala bilsin.

— Elməddin atasının qorxusundan ona əyri gözlə baxa bilməz.

— Məhəbbət belə şeylərdən qorxub çəkinmir, Şəfi!! Bu danışıqlardan Elməddin, əlbəttə, bixəbər idi. Amma hər halda Məleykənin söhbətindən anlayırdı ki, o, sarı simə vurur. Günlər-aylar keçdikcə Elməddin nədənsə Zərrintac haqqında daha çox və daha tez-tez fikirləşməli olurdu. Bu, sanki onun iradəsindən asılı deyildi. Qızla üzbəüz gələndə, danışanda tutqun bir həyəcan keçirir, çaşır və sonra dönüb özü-özünə təəccüb eləyirdi. Elməddin öz yerini, məqamını yaxşı bildiyinə görə, bacardığı qədər bu fikirləri başından çıxartmağa çalışır, ona sahibkarının qızı kimi baxmaq istəyirdi.

«Mən kiməm? Adicə bir qulluqçuyam. Əgər ağayi Nəcməddin mənim belə fikirlərə düşdüyümü bilsə, hətta hiss eləsə məni buradan dərhal qovar və deyər: «çörəyi dizinin üstündə olan adam, itil buradan, gözüm səni görməsin!» Onda mən ölsəm, bundan min dəfə yaxşıdı. Yox, Zərrintac nə qədər gözəl də olsa, mən ona layiq ola bilmərəm», — deyə dəfələrlə Elməddin özünə təskinlik verir, arxayınlaşdırmağa çalışırdı. Zərrintacın nə düşündüyü ona məlum deyildi, lakin ona qarşı həlim, mehriban rəftarını görməyə bilmirdi. Qız oğlanı görəndə açıq-aşkar sevinirdi və bu sevincini hətta atasından da gizlətmirdi. Elməddin onlara gələn kimi, o, atasından qabaq restorana yemək-içmək sifariş verir, şənlik məclisi düzəldirdi. Ağayi Nəcməddinin yanında:

— Bizə nə üçün gec-gec gəlirsən, ağayi Elməddin? — deyə ondan xəbər alırdı. Elməddii qızara-qızara cavab verirdi

— İşim çoxdu, Zərrintac xanım. Gecə-gündüz çalışıram ki, ağayi Nəcməddinin etimadını doğruldam.

— Artıq doğrultmusan, Elməddin — deyə Nəcməddin şad halda dilləndi. — Mənim adamlarım xəbər gətiriblər ki, sən çox candildən işləyirsən. Mən fəxr eləyirəm ki, sənin kimi təmiz işçim var.

— Lütfünüz artıq olsun. Deyirsiniz, adamlarım... hansı adamlardı onlar, ağa? Zərrintac güldü:

— Atamın bütün müəssisələrində xüsusi adamları var, Elməddin. Onlar ayda bir dəfə atama müfəssəl məlumat verirlər.

— Bəli. Elədir, — Ağayi Nəcməddin təsdiq elədi. — Rusların bir yaxşı məsəli var: «Etibar elə, amma yoxlamağı da unutma».

Ağayi Nəcməddin həyətə düşəndə, ya o biri otağa keçəndə Zərrintac gülümsər gözlərilə Elməddinə baxıb deyirdi:

— Bizə tez-tez gəlin, Elməddin. Bilirsiniz, mən də təkəm, darıxıram.

— Çalışaram, xanım. Təkliyin nə demək olduğunu mən də azdan-çoxdan bilirəm.

— Sizin yenə işiniz var. Başınız qarışır. Mən isə... kinoya gedirəm, teatra gedirəm. Ancaq yenə darıxıram. Maşına minib şəhərin küçələrini belədən-belə dolaşıram. Yenə nə isə...

Elməddin ağac altında oturub aram-aram, tələsmədən hovuzda üzən balıqlara baxır, olub keçən hadisələri, söhbətləri bəzən tamam, bəzən də qırıq-qırıq xatırlayırdı. Addım səsləri eşidib darvazaya sarı baxdı. Gələn Rəhgüzər idi. Məhəmməd Şəfi onu görüb gülümsəməyə çalışdı.

Elməddin ayağa durub əl verdi.

— Necəsən, Elməddin?.

— Yaxşıyam, ustad. Siz necəsiniz?!

— Belə, nə yaxşı, nə pis...—deyib yorğun halda Elməddinin yanında oturdu. Ona diqqət yetirdi. Rəhgüzər həmişəki gülən adama oxşamırdı. Rəngi boğulmuş, qaralmışdı.

— Xəstə-zad deyilsiniz ki, ustad?

— Yox, — deyə tutqun cavab verdi. — Qanım bir az qaradı.

— Yoxsa, qəzeti bağlayıblar?

— Yox, təzə qəzet açıblar.

— Təzə qəzet?

— Hə. «Sülh» adlı təzə qəzetin birinci nömrəsi bugün çapdan çıxıb.

— Adı yaxşıdı.

— Adı yaxşıdı, amma məzmunu, mövqeyi pisdir, çox pisdir. Mümtaz adlı bir sərmayədar var — o, pul buraxır və mənə təsir eləyən budur ki, qəzetin redaktoru mənim vaxtilə yaxın olduğum, oturub-durduğum Əli Tüğyandır.

— Şair?

— Hə. Allah onun şairliyini də kəssin. Məsləksiz-əqidəsiz adam imiş.

— Mən görməmişəm.—Rəhgüzər papiros yandırıb sümürdü. Bu vaxt Məleykə gəldi.

— Durun keçin evə, — dedi.

— Bura yaxşıdır. — Rəhgüzər quru səslə dilləndi və Əli Tüğyanı Məleykənin də yaxşı tanıdığını fikirləşib üzünü ona tutdu, — Əli Tüğyan mənim karikaturamı qəzetində çap eləyib.

— Bəyəm, o, qəzet buraxır? — deyə Məleykə təəccüblə xəbər aldı.

— Hə. — Rəhgüzər cibindən dörd bükülmüş kiçik formatlı bir qəzet çıxarıb stolun üstünə atdı. Elməddin tez götürüb açdı. — «Sülh» həftəlik qəzeti. Tərəqqipərvər milli qəzet» — deyə oxudu.

— Bunlar hamısı gözdən pərdə asmaq üçündür, avam, savadsız, biçarə xalqı aldatmaq, mübarizədən yayındırmaq üçündür, — deyə Rəhgüzər papirosun tüstüsünü üfürə-üfürə izah elədi.

— Bəs hanı karikatura? — Məleykə xəbər aldı.

— İkinci səhifədə.

Elməddii açdı. İkinci səhifədə Rəhgüzərin yöndəmsiz şəkli çəkilmişdi. Bir yandan maşın bir yandan imarəti, o biri yandan da torpaq şəkli çəkilmişdi. Karikaturanın altında bu sözlər yazılmışdı: «Ağayi Rəhgüzər, daha nə istəyirsiniz?» — özü izah etdi, — demək istəyir ki, sənin özünün hər şeyin var, daha nə istəyirsən?

— O, elə bilir ki, sən ancaq özün üçün çalışırsan! — Elməddin söylədi.

— Çox təəssüf ki, elə bilir. Onun nə qədər əli aşağı idi, pulu, yaşamağa yeri yox idi, şerlərində «millət, vətən» deməkdən yorulmurdu. Gecə-gündüz ah-fəğan eləyirdi ki, xalq, vətən əldən getdi, məhv oldu. Elə ki əli çörəyə çatdı, hər şeyi unutdu. İndi onun şerlərində gözəl, təmtəraqlı həyatdan söhbət açılır. O indi aclığı, səfaləti, bir ovuc varlının əlində zəlil-xar olan insanları, acından məhv olan uşaqları görmür. Çünki özü toxdur.

— Toxun acdan xəbəri olmaz, — Məleykə söylədi.

— Marks yaxşı deyib ki, ictimai varlıq ictimai şüuru təyin edir!

— Bunu hardan oxumusan? — Rəhgüzər dərdinin ağrısını unudub tələsik xəbər aldı.

— Marksın kitabından. Ağayi Nəcməddinin kitabxanasından götürmüşəm.

— Oxu, oxu, qardaş, bunlar bizə lazım olacaq. Qələm kimi, silah kimi lazım olacaq. Əli Tüğyanlara, onları himayə edib qızışdıraraq ortalığa salanlara qarşı mübarizədə gərək olacaq.

— O bizə çox gəlib-gedib. Əvvəldən nəsə ona qanım qaynamadı, — deyə Məleykə həzin səslə dilləndi.—Yaltaq adama oxşayırdı. Şəfini bir tərifləyirdi ki, kişi utandığından puçur-puçur tər tökürdü, bəhanələrlə söhbəti dəyişirdi. Bu sözü indiki kimi yadımdadı: «millətimiz ölüb, yerdən götürəni yoxdur!».

— Əqidəsini pula satan adamlar mənim birinci düşmənimdir. Belələrindən nə desən gözləmək olar: hər cür alçaqlıq, hər cür xəyanət...

Məleykə ah çəkib:

— Darıxma, Şəfi, — dedi, — it hürər, karvan keçər. Durun, yeməyinizi hazırlamışam. Onlar ayağa durdular.

ON SƏKKİZİNCİ FƏSİL

Elməddin evdə tək-tənha oturmuşdu. İki saatdan çox idi ki, o, Rəhgüzərgildən gəlmişdi, ancaq orada olan söhbətlərin və qanıqaralığın təsirindən hələ də qurtara bilməmişdi. Saat on ikiyə işləyirdi; hər gün o, bu vədə yatağına uzanır, dağı arana, aranı dağa köçürə-köçürə yuxuya gedirdi. Lakin bu gün yuxusu ərşə çəkilmişdi. Rəhgüzər onun gözlərinin qabağından çəkilib getmirdi. Canlı-cüssəli, sağlam, gümrah Məhəmməd Şəfi, Əli Tüğyanın həmləsindən sonra qaralıb tutulmuşdu, tez-tez fikrə gedir, iri, qara gözləri yol çəkirdi. Hərdən qızışıb yana-yana danışır, hərdən də susub durur, beynində nəyisə ölçüb-biçirdi, Məleykə özünü şad göstərməyə və beləliklə də, ərinə ürək-dirək verməyə çalışırdısa da, bu, çox vaxt süni təsir bağışlayırdı. Bunu o özü də hiss etdiyindəndi ki, tez-tez tutulur, sinədolusu ah çəkirdi. Bu gecəki bütün söhbətlər ancaq və ancaq Əli Tüğyanın ətrafında hərlənirdi. Ər də, arvad da onun nəmək-bəharamlığından, dönük və əqidəsiz adam olduğundan danışırdı. Məlum olurdu ki, o da bir vaxt, kasıb və işsiz olanda bu evin açıq süfrəsi başında çox oturmuş, dərdi-dil eləmiş, Rəhgüzərdən yazıları barədə məsləhət almış və onun yaxşılıqlarını heç zaman unutmayacağına söz vermişdi. Rəhgüzərin fikir və görüşlərinə şərik olduğunu bildirmiş, vətəni və bədbəxt milləti barədə çox yanıqlı sözlər demişdi.

Hərdən Elməddinə elə gəlirdi ki, onlar — Şəfi və Məleykə Əli Tüğyan haqqında dedikləri sözləri ona eşitdirmək istəyirdilər; axı o da onların ev adamı olmuşdu, Əli Tüğyan kimi. O da şerlərini, hekayələrini əvvəl Rəhgüzərə oxuyur və məsləhət alırdı. Rəhgüzərin onun boynunda haqq-sayı çox idi. O, demək olar ki, Elməddini uçurumun lap qırağından çəkib gətirmiş, işlə, çörəklə təmin etmişdi. Əslində o, Rəhgüzərin çörəyini yeyirdi. Elməddin düşünürdü ki, bu sözlər ona deyilir: «Qızım, sənə deyirəm, gəlinim, sən eşit...». Axı bir çox cəhətdən indi Elməddinin getdiyi yol da Əli Tüğyanın getdiyi yola bənzəyirdi. Əli Tüğyan milyoner Mumtazın — qəryədar Qulamın qardaşının, Ətiqullanın atasının kölgəsi altına sığınmışdısa və duz-çörək kəsdiyi, ustad adlandırdığı Rəhgüzərlə üzbəüz dayanıb onun məfkurəsinə, özünə atəş açırdısa, o da ağayi Nəcməddinin qanadı altına girmişdi; milyoner Mümtazla Nəcməddinin arasında əslində heç bir fərq yox idi və sanki onlar bir alma idi, yarı bölünmüşdü. Elməddin də Əli Tüğyan ola bilərdimi? Onun kimi üzüdönük çıxıb Rəhgüzərlə əlbəyaxa ola bilərdimi? «Yox, heç vaxt»,— deyə o özünün bu fikrindən dəhşətə gəlmiş kimi bərkdən səsləndi və həyəcanını boğmaq üçün papiros yandırıb sümürdü, — «heç vaxt, ustad. Mən sənin, sənin təmsil etdiyin adamların — yoxsulların, binəsiblərin əleyhinə çıxmaram, ustad. Çünki sənin işin haqdı və mən haqq üçün, heç bir şeyimi, hətta canımı da əsirgəmərəm. Əgər siz mənim haqqımda belə düşünsəniz, məni təhqir etmiş olarsınız».

Onun fikri dolanıb hələ üzünü görmədiyi, adını eşidib, bir neçə şerini oxuduğu Əli Tüğyanın üstünə gəlirdi. Bəli, məsləksiz adamdır. Buna şübhə ola bilməz. Belə adamlar öz dünənini — aclığını, çılpaqlığını tez unudur. Onlar üçün məsləkin, əqidənin qara qəpik qədər qiyməti yoxdur. Rəhgüzər «Pərçəm»in səhifələrindən bir ovuc sərmayədara — xalqın qanını sorub bir tikə yavan çörəyə möhtac qoyan adamlara sərrast atəş açdığı məqamda, Əli Tüğyan arxadan düşmənlər tərəfindən əlinə verilmiş iti bıçağı onun kürəyinə saplayır, səsini batırmaq istəyirdi. Bu satqınlığı, rəzilliyi, alçaqlığı Elməddin təsəvvür etdikcə Əli Tüğyana qəzəbi daha da artırdı. «Bağa qınından çıxdı, qınını bəyənmədi» məsəli yadına düşdü və gözlərinin qabağına həqiqətən qınından çıxmış çirkin, çılpaq bir bağa gətirdi və çimçəşdi. Sonra durub miz arxasına keçdi. Qələmi götürüb ağ səhifə üzərində təsəvvüründə canlandırdığı bağanı rəsm etdi, boynuna bir qalstuk taxdı. Boş qını isə bağa öz təpiyi ilə vurub kənara atırdı. Bağanın üstünə

yazdı: «Əli Tüğyan!» Altında isə bu sözləri həkk etdi: «Nə çirkin qındır bu, tfu!»

Karikaturanı özünə xas səliqə ilə işləyib kənara qoydu. İki-üç dəfə baxdı.

«Verəcəyəm Rəhgüzərə, qoy «Pərçəm»də nəşr etsin. Belələrini cavabsız qoymaq olmaz...» — deyə düşündü. İndicə Rəhgüzərgilə getmək, şəkli ona göstərmək arzusu ürəyində baş qaldırdı. Saata baxdı, gec idi, birin yarısı olmuşdu.

«Səhər göstərərəm!»

Səhəri gözləri ilə açdı, yuxusu gəlmədi ki, gəlmədi. Saat səkkizdə sürücü onun dalınca gələndə o, artıq çoxdan hazır idi. Maşını idarəyə yox, birbaşa Rəhgüzərgilə sürdürdü. Məhəmməd Şəfi tezdən onun gəldiyini görüb qorxdu, nigaran halda soruşdu:

— Nə olub, Elməddin? Elməddin onu sakitləşdirdi:

— Qorxulu heç bir şey yoxdur.

— Bəs gözün-zadın niyə qızarıb. Ağlayan adama oxşayırsan?

— Yox, ağlamamışam, ancaq yatmamışam. — Niyə? Elməddin gülümsündü:

— İçəri keçək, sənə bir şey göstərəcəyəm, ustad?

— Hə?

İçəri keçdilər, Məleykə onu mehribancasına salamladı. Elməddin portfelindən karikaturanı çıxardıb stolun üstünə qoydu. Rəhgüzər diqtətlə baxıb:

— Özün çəkibsən? — deyə xəbər aldı.

— Hə.

Rəhgüzər davamlı nəzərlərini Elməddinin yuxusuzluqdan qızarıb şişmiş gözlərinə zilləyib baxdı, baxdı və birdən qüvvətli qolunu onun boynuna dolayıb üzündən öpdü:

— Əcəb, əcəb. Çox sağ ol, Elməddin. Sən yaxşı rəssam imişsən.

— Elə belə, hərdən özümçün çəkirəm.

— Yox, özünçün çəkməkdən bir şey çıxmaz, Elməddin. Xalq üçün çəkmək lazımdır, qardaşım. Şəklin dili daha anlaşıqlı olur. Bizim qəzetə sənin kimi karlı bir rəssam lazımdı. Axı sən bilirsən ki, bizim xalqın çoxu savadsızdı. Biz belə karikaturalarla daha çox iş görə bilərik.

— Bunu qəzetdə verə bilərsənmi, ustad?

— Əlbəttə. Əgər karikatura şəxsən mənə aid olsaydı, mən bunu etməzdim. Ancaq o, ümumən bizim qrupun məfkurəsinə atəş açdığına görə, cavabsız qoymaq olmaz. Məleykə, bura gəl, gör Elməd-

din nə çəkib? — deyə o, yan otaqdan Məleykəni səslədi. Məleykə şəkli görəndə güldü:

— Elməddin qardaş çəkib?!

— Hə

— Necə də tutarlı deyibsiniz?! «Bağa qınından çıxdı, qınını bəyənmədi!» Əli Tüğyanı elə tutur ki, heç olmayan kimi. Ürəyimdən tikan çıxartdın, Elməddin qardaş, Sağ ol.

Elməddin karikaturanı Rəhgüzərgildə qoydu, ər-arvadın səhər yeməyini onlarla bir yerdə yemək təklifini lütfkarlıqla rədd edib işə yola düşdü.

Gecəni səhərəcən yatmadığına baxmayaraq o, özünü gümrah və şad hiss eləyirdi.

Mubarizə başlayırdı. Elməddinin mübarizəsi.

ON DOQQUZUNCU FƏSİL

Elməddinin sürücüsü yaşı əllini adlamış, olduqca arıq, uzun boğazlı, iri hülqumlu bir kişi idi. Ancaq başı yamanca ağarmışdı, elə ağarmışdı ki, dərdə dərman üçün bir dənə də qara tük tapmazdın. Üzündə iri, uzun qırışlar vardı. Uzaqdan baxanda bıçaq şırımlarına oxşayırdı. Əynindəki rəngini itirmiş nimdaş kostyumu neçə il geydiyini təyin etmək mümkün deyildi.

Dindirsən dinərdi, dindirməsən ağzına su alıb susardı. İlk baxışda adama elə gəlirdi ki, onun sürdüyü qara «Mersedes»dən və getdiyi yoldan başqa fikri-zikri yoxdu. Maşını özününkü imiş təki gündə üç dəfə yaxşıca silib təmizlərdi: səhər qarajdan çıxanda, günorta idarənin qabağında və axşam...

Əhədullanın harada yaşadığını nə ağayi Nəcməddin, nə də Elməddin bilirdi...

Bir yerdə işlədikləri neçə ay ərzində Elməddin çox böyük çətinliklə öyrənmişdi ki, Əhədullanın səkkiz övladı var və səkkizi da qızdı; böyüyünün on iki yaşı var. O, «səkkiz» deyəndə Elməddin təəccübləndi:

— Neynirsən bu qədər övladı?

— Allah verir, mən neyləyə bilərəm?

— Bunları dolandırmaq sənin üçün çətin deyilmi?.

— Çətin oldu-olmadı, neyləyə bilərəm?—deyə Əhədulla ah çəkmişdi.

Yoxsa inanırsan ki, ağız verən yeməyini də yetirər?

— İnanıram, ağa, allah dolandırar.

— Ağayi Nəcməddin sənə nə qədər maaş verir?!

— Min rupi, ağa.

Elməddin fikrində hesablamışdı: «On baş külfət, min rupi. Hərəsinin ayına yüz rupi düşür». Və onun gözləri önündə Əhədullanın yarıçılpaq, ayaqyalın, başıaçıq, acından sap kimi incəlmiş uşaqları canlandı. Hərəsinin ən azı ayda səkkiz yüz, min rupi xərcliyə ehtiyacı olan uşaqlar demək olar ki, ac qalırlar, çılpaq qalırlar. Sonralar Elməddin başa düşdü ki, Əhədulla niyə qaradinməzdi; ərzaq mallarının çətinliklə tapıldığı və getdikcə bahalaşdığı bir mühitdə on baş ailəni yedirib-geyindirmək son dərəcə müşkül idi. Elməddinin kişiyə yazığı gəlirdi. Ona nə yolla kömək etmək barədə çox düşünən Elməddin bir dəfə dedi:

— Məni idarəyə gətirəndən sonra niyə boş-bekar dursan?

— Bəs neyləyim, ağa?!

— Neyləyəsən? Çıx şəhərə, adamdan-zaddan apar, gündəlik çörək pulun çıxar ki?.

Elməddinin canıyananlıqdan dediyi bu sözləri Əhədulla yaxşı başa düşdü, ona təşəkkürünü bildirib söylədi:

— Bunu eləyə bilmərəm, ağa.

— Niyə?

— Ona görə ki, ağayi Nəcməddin bilsə, atamı yandırar. Bu bir, ikincisi, bizim taksi şoferləri bütün günü bikarçılıqdan ağızları ilə milçək tuturlar. Nədən ki, taksiyə minən çox azdı. Pulluların öz maşını var, pulsuzlar da taksiyə minə bilmirlər. Servisə[1] minməyə ancaq gücləri çatır. Eləsi var ki, rupi yarım tapıb servisə də minə bilmir

Bir gün — Elməddin maaş aldığı gün Əhədullaya pul təklif etmək istədi, ancaq onun almayacağını düşünüb bu fikrindən daşındı. Axşamçağı evin qabağında maşından düşəndə özü bilə-bilə sağ cibindən beş yüz rupiliyi oturacağa salıb getdi.

Maşın uzaqlaşandan srnra Elməddin tutduğu yaxşı işdən sevinən uşaq kimi yerə-göyə sığmırdı. «Yazıqdı, qoy balaları ac qalmasın. Hər ay beləcə beş yüz rupi maşında «salıb itirəcəyəm», tək adamam, mənə çatar!»

O gecə rahat yatdı; yetim-yesirə pul bağışlamış adam təki.

[1] Servis — avtobus.

Ertəsi gün evdən çıxanda Əhədullanı qapı ağzında dayanıb maşını silən gördü və gülərüzlə onun salamını aldı, kefini soruşdu. Əhədulla təşəkkür eləyə-eləyə qapını açdı, Elməddin oturandan sonra ehmalca qapını bağladı və sükanın arxasına keçdi. Motoru işə salmamış əlini atıb döş cibinə qoyduğu qırmızı beşyüzlüyü çıxartdı və Elməddinə sarı uzatdı:

— Dünən pulunuz...

— Bu nədir? — Elməddin heyrət edirmiş kimi soruşdu.

— Sizindi, ağa. Dünən maşında salıbsınız!

— Hardan bilirsən ki, mən salmışam? Bəlkə başqa adam...

— Sizdən başqa mənim maşınıma kimsə minməyib, ağa. Pul sizindi!!

Elməddin qəti dedi:

— Mən pul itirməmişəm, Əhədulla.

— Bəs onda? — Əhədulla heç bir şey başa düşmürmüş kimi çaşıb qaldı. — Bəs onda kimindi?!

— Allah yetirib, götür qoy cibinə. — Elməddin gülümsünə-gülümsünə söylədi. — Özün demirdin, ağız verən yeməyini də yetirər?

— Yox, ağa, sizindi pul.

— Mənim deyil. Götür qoy cibinə, yiyəsi çıxar verərsən, çıxmaz axşam evə gedəndə uşaqların üçün ayın-oyun alıb apararsan.

Əhədulla xeyli tərəddüddən sonra pulu maşının kiçik qutusuna atdı. Yola düşdülər...

«Sən onun təmizliyinə, vicdanına bax, — deyə Elməddin təəssüf qarışıq bir qürur hissilə düşündü. — İlahi, bu çirkablar içərisində nə qədər təmiz və pak adamlar məhv olub gedir?!» Axşamçağı, işdən çıxandan sonra evə gələrkən yolda Elməddin Əhədulladan soruşdu:

— Pulun sahibi gəlməyib ki?.

— Yox, ağa. Bu pul məni yandırır, ağa. Səni and verirəm Allaha, pul sənindisə, götür, qoy mən rahat olum... — deyə yalvardı.

— Əvvələn, mənim deyil, ikincisi, mənim də olsa, sənə bağışlayıram. İndi gedərsən bazara, ürəyin istəyəni uşaqların üçün alarsan. Daha bu barədə bir kəlmə də danışmayacağıq.

— Ağa...

— Dedim ki, qurtardıq. Özün də mənə ağa demə. Mən ağa deyiləm. Mən də sənin kimi nökərəm, Əhədulla, bildin? Sənin də, mənim də ağam birdi: Ağayi Nəcməddin. Hamımızın ağası ağayi Nəcməddindi...

Bu əhvalatdan sonra Əhədullanın qırışığı açıldı; indiyəcən canlı bir mexanizm kimi sükan arxasında oturub maşını idarə eləyən kişi yavaş-yavaş danışmağa, dərdi-dil eləməyə başladı.

Elməddin Əhədullanın əvvəl gəzdirdiyi adama əsla bənzəmirdi. O, quru, kobud bir adam idi. Uşağı xəstə olduğuna görə bir dəfə ağayi Həsən xanı aparmağa beş dəqiqə gec gəlmiş Əhədullanı vəhşicəsinə basıb döymüş və işdən qovacağı ilə hədələmişdi. Buna görə Əhədullanın onu görməyə gözü yox idi.

Elə bil, hər gün öz düşmənini gəzdirirdi. Ona da «ağa», deyə müraciət eləyirdi. O, özünü doğrudan da ağa kimi aparırdı. Əhədullanın adından başqa onun haqqında heç nə bilmirdi və bilmək də istəmirdi.

Onu ağayi Nəcməddin işdən qovanda Əhədullanın yanında qovmuşdu.

— Tülkü, — demişdi, — sabahdan səni işdən azad eləyirəm. Sən mənə — ağayi Nəcməddinə kələk gəlirsən?

— Ağa, məni çevir balalarının başına, uşaqlarıma yazığın gəlsin, — deyəndə quru, təkəbbürlü Həsən xan Nəcməddinin qabağında yumağa dönmüşdü.

— Rədd ol. Vəssalam. — Ağayi Nəcməddin qəzəblə bu sözləri deyəndən sonra üzünü Əhədullaya tutmuşdu: — Sabah bunun dalınca getməzsən. Üç gün dincəl, sonra gələrsən yanıma. — Sonra rəngi ağappaq ağarmış Həsən xana dönmüşdü: — Şələ-küləni də mənim evimdən yığışdır, Hara itilirsən itil, bir də gözümə görünmə.

Həsən xan yerində qurumuşdu. Ağayi Nəcməddin gedəndən sonra Əhədulla, «Mersedes»ə minib şad və uca səslə:

— Xudahafiz, Həsən xan deyərək maşını yerindən sürətlə tərpətmişdi. «Allah buynuzsuz qoçun qisasını buynuzluda qoymur!».

Həsən xanı nəzərində canlandırdıqca Elməddin gözlərində böyüyür, ucalırdı: «Mən də sənin kimi nökərəm!» Elməddinin bu sözləri Əhədullanın yadından heç çıxmırdı. Onun Elməddinə rəğbəti getdikcə artırdı. Elə bilirdi ki, doğma qardaşını gəzdirir!!

Bir gün Elməddin işdən kefi kök çıxdı. Maşına minəndən sonra:

— Əhədulla, könlümə yaman gəzmək düşüb, — dedi.

— Hara deyirsən aparım.

— Sür şəhər kənarına. Hava da yaxşıdı. Çiləmə yağış yağır, həm maşının yuyulsun, həm də bir az təmiz hava alaq.

Əhədulla:

— Beçeşm, — deyib maşını yerindən tərpətdi. Asfalt yol islanmışdı. Təkərlər qıjıltı qopara-qopara fırlanır, onları şəhərdən uzaqlaşdırırdı.

— Əhədulla, oxuya bilirsən?! Kişi sualı başa düşmədi:

— Nə cür yəni?!

— Mahnı demirəm ey, savadın var — deyirəm?

— Yoxdu, savadım nə gəzir?

Elməddin susdu. Xeyli gedəndən sonra cibindən qəzet çıxarıb oxumağa, vərəqləməyə başladı. Qəzetdə onun Əli Tüğyana çəkdiyi karikatura verilmişdi. İri planda. Karikaturanın bir güncündə müəllifin imzası vardı: «Elməddin».

Onun kefinin kök, damağının çağ olmasına səbəb bu idi. O da öz sözünü deməyə başlamışdı. Bu arzularla nə qədər yaşamışdı, bu günləri nə qədər gözləmişdi?!

Elməddin şəkli ehmalca Əhədullanın gözünə yaxınlaşdırdı:

— Bu şəkildən nə başa düşürsən?

Sürücü diqqətlə ikinci dəfə baxmaq üçün maşının sürətini azqltdı, nəzərlərini çevirib şəklə xeyli baxandan sonra dedi:

— Yəni bağa qınından çıxdı, qının bəyənmədi? Elə yazılıb?

— Düzdür, Əhədulla, elə yazılıb, — Elməddinin uçmağa qanadı yox idi. — Qınından çıxıb qınını bəyənməyən adamları tənqid eləyiblər. Belələri var, təəssüf ki, az deyil.

Əhədulla Həsən xanı xatırladı: «O da belələrindən idi». Ancaq Elməddinə bu barədə heç nə demədi. Adamların dalınca danışmağı sevməzdi. «Ağam düşünər ki, gedəndən sonra onun da dalınca danışaram».

Payız yağışı maşını tərtəmiz yumuşdu. Qara rəng qara ayna kimi parıldayırdı. Hava elə saf idi ki, nəfəs aldıqca adamın ruhu təzələnirdi. Yol kənarındakı ağacların sarı yarpaqları da yuyulmuşdu.

— Saxla, Əhədulla.

Əhədulla maşını əylədi. Elməddin düşdü. Başı üzərində yağış dolu qara buludlar asılmış dağlara baxdı. Dağın döşündə irili-xırdalı boz daşlar qoyun-quzu kimi yatmışdı. Dəqiqələr ötüşdükcə Elməddinin beyni, ürəyi təmizlənir, o özündə heç vaxt olmamış bir gümrahlıq hiss eləyirdi. Çoxmu, azmı dayandı, bunu özü bilmirdi, bu dəqiqə onu vaxt maraqlandırmırdı. Maşının yanına qayıtdı...

Qapını açıb:

— Bir az o yana otur, — dedi. Əhədulla Elməddinin yerinə çəkildi.

— Neyləmək istəyirsiniz?

— Mənə maşın sürməyi öyrət, Əhədulla... Əhədulla səksəndi və yalvarıcı səslə:

—Allah xatirinə, bu fikrə düşməyin, — dedi. Elməddin onun üzündə bir qorxu duydu.

— Niyə? Qorxursan, aşırdaram?

— Yol yaşdı, ağa. Allah eləməmiş, bir xata-zad olar. Bu söz onun ağlına batdı və qayıdıb öz yerində oturdu..

— Gedək, Əhədulla, düz deyirsən. Qayıtdılar...

Yolda Əhədulla asta səslə dedi:

— Bir söz söyləsəm acığınız gəlməz?!

— Yox. Nə sözdü?. Əhədulla tərəddüd etdi.

— Söylə, çəkinmə!

— Bilirsiniz niyə razı olmadım, siz maşın sürəsiniz?»

— Qorxdun ki, aşıraram, tələf olarıq?..

— Ondan da qorxdum. Başqa bir şeydən də qorxdum, ağa.

— Nədən?

— Əgər ağayi Nəcməddin sizin maşın sürə bildiyinizi eşitsə, həmin gün məni işdən qovar.

— Hə?

— Bəli, qovar. «Bir halda ki, sən özün sürə bilirsən, daha sürücüyə nə ehtiyac?» — deyib məni qovar. İş tapmaq isə, özünüz bilirsiniz, nə qədər müşküldür.—Əhədulla ah çəkib əlavə etdi, — bunu sizə deyirəm, ayrı adam olsaydı, deməzdim.

— Etibar elədiyin üçün sağ ol.

Elməddin, bayaq Əhədullanın sifətində oxuduğu qorxu ifadəsinin əsil mənasını indi başa düşdü. Bu, ölməkdən daha çox işini itirmək qorxusu idi, bir tikə çörəyini itirmək qorxusu idi.

Bu qorxu hissi Elməddinin özünə də tanış idi.

İYİRMİNCİ FƏSİL

Rəhgüzər «Pərçəm»in redaksiyasına gəlmiş məktubları nəzərdən keçirirdi. Kefi kök idi. Əli Tüğyana vaxtında və həm də tutarlı cavab vermişdi. «Tarixi, mədəniyyəti, ədəbiyyatı qədim olan, təmizliyi, mərdliyi ilə şöhrət tapmış vətənimizə, xalqımıza arxa çevirən, şərafətinə dodaq büzən, mənafeyinə xəyanət edən hər kəsə — hətta əlahəzrətin özünə də tutarlı zərbə endirməliyik. Qoy bilsinlər, hiss

etsinlər ki, bu millətin oğulları yatmayıb», — deyə düşünən Rəhgüzər gələn oxucu məktublarını, şerləri, məqalələri seçib ayırır, bəzilərini gözucu nəzərdən keçirir, ciddi və mühüm məsələlərə toxunan məktubları seçib bir kənara qoyurdu. Elməddinin rəssam olması Rəhgüzəri xüsusilə sevindirmişdi. Qəzetə yaxşı bir rəssam lazım olduğunu elə onun birinci nömrəsi çıxanda dərk etmişdi — amma bir etibarlı, münasib adam tapmamışdı. Təkəm-seyrək çıxan şəkilləri o, tanış bir rəsm həvəskarına çəkdirirdi ki, bunların da keyfiyyəti onu təmin etmirdi. Bundan əlavə, o adamın bunlarla həmkarlıq etməyə heç həvəsi yox idi. Qorxurdu. Bir dəfə açıqca Rəhgüzərə demişdi: «Sizin ağzınızdan qan iyi gəlir, qardaş! Mən özümü, gözüm baxa-baxa odun-alovun içinə ata bilmərəm!»

Rəhgüzər isə qəzetin hər nömrəsində şəkil, karikatura vermək və bununla da qəzetini oxunaqlı etmək istəyirdi. Elməddinin şəxsində, indi belə bir imkan tapmışdı.

Məktubların içində markasız bir məktub diqqəti cəlb etdi. Xətti o saat tanıdı. Tələsik kağızı açıb oxudu:

«Ayın 15-də məni Çaharrahiye-Tur Abbasxanda gözlə, saat 9-da, Seyid Mustafa». Seyid Mustafa əslində Seyid Mustafa deyildi. Bu, hələ təzə-təzə yaranmaqda olan dəstənin gizli rəhbəri Bəbrəkin şərti adı idi. Ayda bir dəfə görüşürdülər: O, Rəhgüzərə lazımi göstərişlər verir, hansı məsələləri işıqlandırmaq, dövlətin siyasətinin əsl mahiyyətinin nədən ibarət olduğunu anlatmaq lüzumunu söyləyir, ən ciddi siyasi və nəzəri problemlər barədə yazdığı məqalələrini Rəhgüzərə təqdim edirdi. Onun siyasi dövlət dairələrində adı hamıya məlum idi. Bəbrək! Ancaq onun ikinci adı da vardı ki, bunu ancaq Rəhgüzər bilirdi. Və onun bütün məqalələri bu imza ilə çıxırdı: Şərəfəddin Dərdmənd. Əlbəttə, oxucular, siyasətlə az-çox maraqlananlar Şərəfəddin adlı müəllifin olduğunu anlayırdılar: ancaq bu kim idi, harada yaşayırdı, harda işləyirdi? — bilən yox idi. Nə polisin, nə baş nazirin, nə əlahəzrətin ağlına gələ bilməzdi ki, «Pərçəm»in səhifələrində çıxan odlu-alovlu məqalələrin, siyasi, kəskin çıxışların müəllifi parlamentin hörmətli deputatı Bəbrəkdir. Məclisdə müzakirə olunan bütün məsələlər barədə fəal surətdə çıxış eləyən Bəbrək, əlbəttə, ehtiyatı ölçüb-biçir, öz əsl nöqteyi-nəzərini bəzən orda demir, ancaq məqalələrində şərh eləyirdi. Bu, Bəbrəkin özünə xas taktikası idi. O bilirdi ki, sözün düzünü demək özünü də, bərkiyib ayaq üstə durmamış təşkilatı da zərbə altında qoymaq demək idi. Onun gözünün qabağında məclisin tribunasından əsl həqiqəti deyənlərin indi zindanlar

güncündə çürüdüyünü o unutmamışdı. Hələ açıq mübarizə üçün zaman yetişməmişdi.

Bəbrək — Şərəfəddin şəhərin mərkəzindəki evində tək yaşayırdı. Evlənməmişdi. Yaşı qırxı adlamışdısa da, evlənmək, ailə qurmaq həvəsini boğmuşdu. Qarşısına mübarizə etmək, bu müstəbidlərlə vuruşmaq məqsədi qoymuş adama ailə ancaq mane ola bilər. Rəhgüzər, — o, fikrini Məhəmməd Şəfiyə söyləmişdi, — şəxsən mən belə düşünürəm ki, ailə, arvad-uşaq adamı qorxaq edir, cəsarətini əlindən alır, hamısını da almasa yarısını əlindən alır. Oğul-uşaq lazımdı, deyirsən?.. Vətənin bü ac-yalavac balaları, yarıac, yarıtox, yarıçılpaq yaşayan yavruları mənim balalarımdı — təsəvvür eləyirəm. Onların dərdini, qayğısını çəkmək tək mənim yox, bütün namuslu oğullarımızın borcudur». Rəhgüzər məktubu cırıb zibil yeşiyinə atdı və Bəbrək haqqında düşüncələrini davam etdirdi: «Qəribə adamdır. Həm sərtdi və həm də mehribandı. Bizim vətənin belə savadlı və qeyrətli oğullara ehtiyacı çoxdu, lap çox».

Bəbrək Rəhgüzərlə görüşəndə xüsusi ehtiyat eləyirdi. Çünki Rəhgüzər tanınmış adam idi. Onun ədəbi yaradıcılığı demək olar ki, diqqət mərkəzində idi. Bundan əlavə, onun siyasi istiqaməti və məfkurəsi də həm xalqa, həm də rəsmi dairələrə məlum idi. Məclisin möhtərəm vəkilinin belə «xatalı» bir adamla açıq dostluq eləməyinin özü də qorxulu idi. Burda can qorxusu yox idi. Bəbrəkin bircə canı vardı — onu xalq üçün, vətəni üçün hər vaxt qurban verməyə hazır idi. O, mənasız və məqsədsiz qurban getmək, heç bir iş görmədən mübarizə meydanını tərk etmək istəmirdi. Çünki Bəbrək onun rəsmi dairələrdə dolaşan yeganə etibarlı adamı idi ki, lazımi siyasi məsələlər barədə məlumat verə bilirdi. Əlbəttə, Rəhgüzər belə bir mənbədən məhrum olmaq istəməzdi. Bu, «Pərçəm»i tərk-silah etməyə bərabər olardı. «Demək, Çaharrahiye-Tur Abbas xan küçəsində» — deyə Rəhgüzər fikrində dolandırdı. Və sonra cibindən bloknotunu çıxarıb axırıncı səhifəyə nəzər saldı: «Çaharrahiye-Tur Abbas xan, demək Cadeye Sədarət... Bəli, saat doqquzda asta-asta bu küçəylə gedəcəyəm».

Hava çoxdan qaralmışdı. Şəhərin mərkəzi küçələrində işıqlar yanmışdı. Avtobuslar küçələri tərk edib parklarına gecələməyə getmişdilər. Cadeyi-Sədarət ucqar küçələrdən biri olduğuna görə qaranlıq idi. Bərk külək əsirdi. Göydə bir dənə də ulduz görünmürdü...

Başına yastı, dəri papaq qoymuş, əynində nazik balapuş olan Rəhgüzər Cadeye-Sədarətin sol tərəfi ilə ağır addımlarla yeriyirdi.

Saat doqquzu adlamışdı. Rəhgüzər arxadan maşın səsi eşidəndə qanrılıb geri baxmadı. Səs-uğultu yaxınlaşdı. Maşın dayandı. Rəhgüzər sönüb-yanan işığı görüb özünü maşının içinə saldı. Salamlaşdılar. Maşın «sürətini artırıb qaranlıq küçə ilə üzüaşağı şütüdü. Şəhərdən çıxanacan gəlmə kəsmədilər. Dağların arası ilə uzanıb kedən düz asfalt yola çıxanda Bəbrək sürəti azaltdı:

— Hə, ustad, necəsən?.

— Yaxşıyam, Bəbrək.

— Uşaqlar, Məleykə xanım yaxşıdırlarmı?

— Ömrünə dua eləyirlər. Sənin işlərin necə gedir? Bəbrək köks ötürdü:

— Pisdir, Şəfi.

— Niyə?

— Sən təsəvvür edirsənmi, millət vəkili olasan, millətin nəf'inə bir kəlmə də kəsə bilməyəsən, bu nə deməkdir? Dünyada bundan ağır cinayət və vicdan üçün bundan böyük cəza ola bilməz. Getdikcə daha çox yəqinlik hasil eləyirəm ki, məclis də, vəkillər də, sədr-əzəmin özü də satqındır. Burada millətin mənafeyi müdafiə olunmur. Vəkillərin yarısı əlahəzrətin öz adamlarıdır, xeyli hissəsi sədr-əzəmin adamıdı, cüzi bir hissəsi isə ağzına su alıb «dəymə mənə, dəyməyim sənə» deyir. Təkəm, səsimə səs, dediyimə qüvvət verən yoxdur. Susmaq? Nə qədər susmaq olar? Mən sənin vəziyyətinə qibtə eləyirəm, Şəfi. Heç olmasa sən istədiyini demək imkanına maliksən?.. Bəzən də az qalıram yerimdən qışqıram: «Siz hamınız millət vəkili yox, millət düşmənisiniz?» Ancaq özümü saxlayıram. Çünki ayrı çarəm yoxdur.

— Səbr etmək lazımdır, Bəbrək. Əssəbrül müftəhül fərəcə.[1]

— Vəkillər yaltaqdırlar. Elə bil onları yuxarıdan deyilən hər sözü təsdiq etmək üçün qoyublar. Hərdən mənə elə gəlir sədr-əzəm desə ki, vəkillər, qərar var, sizin hamınız burada güllələnəcəksiniz, — buna da əl qaldırarlar.

— Arxayın ol, ona əl qaldırmazlar.

— Hər halda əl qaldıranı çox olar...

Qabaqdan maşın gəlirdi. Ötüb keçdi. Sonra Bəbrək dedi.

— Ötən iclasda ordunu qüvvətləndirmək, silah almaq məsələsi müzakirə olunurdu. Büdcənin otuz beş faizini ordunu gücləndirməyə, təzə silah almağa ayırdılar.

[1] Səbr müvəffəqiyyətin açarıdır.

— Ordunu kimə qarşı gücləndirirlər?

— Aydın məsələdir. Bizim məmləkətimizə qarşı qonşu məmləkətlərin heç biri qoşun çəkmək fikrində deyil. Ölkədə yaranmış vəziyyət əlahəzrəti qorxuya salıb. Əlbəttə, silah bu üsyanları yatırmaq, sənə-mənə qarşı yönəltmək üçün onlara gərəkdir. Bu fikri pərdələmək üçün sədr-əzəm məmləkətin müdafiə qabiliyyətini yüksəltməkdən, hər hansı bir basqına qarşı hazır olmaqdan ağızdolusu danışdı. Ordu bu zavallı xalqın tikəsini əlindən alıb yeyir. Üstəlik yeni tanklar, təyyarələr də alınır ki, bunlara yanacaq lazımdır. Məmləkətin isə yanacağı yoxdur, demək, neft-benzin də alınmalıdır. Buna bizim iqtidarımız varmı?

— Yoxdur, əlbəttə, heç yoxdur.

— Amma alırıq. Sənin «möhtərəm» hökumətin belə qərarlar qəbul etdi və sənin «möhtərəm» vəkillərin də əl qaldırdılar.

— Bəlkə yenə borc almaq istəyirlər?..

— Borc içində məmləkət qərq olub, Şəfi. Hökumət üç gün bundan qabaq təkcə Amerikaya on dörd milyard beş yüz əlli iki milyon dollar faiz verdi. Barmağını yum, de, hansı məmləkətə borclu deyilik?.. Rəsmən ingilisləri ölkədən qovduq, ancaq biz yenə xaricilərdən asılıyıq. İqtisadi cəhətdən biz yenə köləyik. Fabrik, zavod açmaq, boş-bikar qalıb acından köpük qusan adamların əməyindən istifadə edib məmləkəti dirçəltmək əvəzinə bizim ağalar borc almağı üstün tuturlar.

— Yəqin belə fikirləşirlər ki, onacan ya xan ölər, ya eşşək?..

— Xan da ölə bilər, eşşək də, xalq isə ölmür. Xalq yaşayır. Borcu xalq ödəyir.

— Zavallı xalq.

— Qəzetin gələn nömrələrinin birində borc məsələsini işıqlandırarsan. Yaxşı olar ki, indi dediyin Molla Nəsrəddinin «ya xan ölər, ya eşşək» lətifəsi əsasında. Bu, xalqa daha tez çatar. Bu bir. İkincisi, məclisin rəsmi caridəsi çapdan çıxandan sonra hökumətin silah almaq fikrinə kəskin bir məqalə yazarsan. Bunu, bəlkə mən özüm yazdım. Bu iki məsələni aydın mövqedən işıqlandırmaq lazımdır. «Sülh» qəzetinin çıxmağını mən müəyyən mənada alqışlayıram.

— Alqışlayırsan? — Məhəmməd Şəfi təəccübləndi.

— Bəli... İki müxtəlif cəbhəli qəzetin olması yaxşıdır. İki cəbhə arasında gedən mübarizə xalqa çox şey öyrədə bilər və ona dostunu, düşmənini tanımaqda kömək edər. Əli Tüğyanın sənə həmləsi və

sənin ona cavabın xoşuma gəldi. Yeri gəlmişkən soruşum o, karikaturanı çəkən kimdir?

— Bu barədə mən sənə ətraflı məlumat vermək istəyirdim.

— Eşidirəm.

— Onun müəllifi istedadlı bir oğlandı.

— Oğlandır?

— Bəli, cavan adamdır. Qəzetimizdə onun hekayələri, şerləri çıxır. Özü şimaldandı. Ədnan qəryəsindəndi. Şəhərə gəlib. İş düzəltdim. İşləyir. Həm də yaxşı rəssamdı. Mən istəyirdim sizə təklif edəm ki, onu dəstəmizə götürək.

— Sınamısan?

— Yox, məncə sınamaq lazım deyil.

— Niyə?

— Etibarlı adama oxşayır.

— Yox, Şəfi. Bizim işimiz elədir ki, hər adama etibar edə bilmərik. Kiçik bir səhv bizi məhv edə bilər və işimizi yarımçıq qoya bilər. Biz isə hələ demək olar ki, heç bir iş görə bilməmişik. Buna görə də yüz ölçüb, bir biçməliyik. Sonrakı peşmançılıq fayda verməyib heç vaxt.

— Əlbəttə, düz deyirsiniz...

— Onu mən özüm sınayaram. Sən heç bir şey demə...

— Baş üstə.

— «Pərçəm»in tərəfdarları getdikcə çoxalır. Bu, məni sevindirir. Ancaq elə etmək lazımdır ki, hökumət, qəzeti vaxtından qabaq bağlamağa bəhanə tapmasın.

— Qəzet bizim nəfəsimiz, qəzet bizim silahımızdır. Onsuz biz...»

Bəbrək Şəfinin sözünü tamamladı:

— Sudan çıxarılmış balıq kimi ölümə məhkumuq.

İYİRMİ BİRİNCİ FƏSİL

Külək pəncərələri tərpədir, həyət-bacada fit çala-çala cövlan eləyirdi. Elməddin içəridə, mizin arxasında oturub yazı yazsa da, fikrinin gözü ilə görürdü ki, sərsəri külək artıq çılpaqlaşmaqda olan ağacların son yarpaqlarını necə də yoluşdurub qabağına qataraq aparır. Səhər həyətdə bir yığın xəzəl görəcəyinə heç şübhə etmirdi. Belə havalarda o həmişə darıxardı. Nəhayətsiz bir qəm ürəyini sarır,

fikri bir yerdə qərar tutub qala bilmirdi. Gah qardaşının ölüm səhnəsi, gah kimsəsiz, dörd divar arasında qoyub gəldiyi və bir də heç vaxt üzünü görməyəcəyi anası, gah da əsrarəngiz bir halda yoxa çıxmış Əfsanə yadına düşürdü; şəhərə gəldiyi ilk günlər, çətinliklər, iş tapandan və yazılarını dərc etməyə imkan əldə edəndən sonra duyduğu sevinclər xəyalında canlanırdı. Və sevinclər kənd xatirələrinin üstünə kölgə salır, onun ürəyində inam və ötəri qürur hissi doğururdu. İndi o, əsl yola çıxmışdı. Bu yolda tək deyildi, Rəhgüzər kimi yoldaşı var idi. Bu yolu axıracan başa vurmaq, özü də şərəflə başa vurmaq onun özündən asılı idi. «Yox, tək özümdən asılı deyil, — deyə özü-özünə etiraz edirdi, — təəssüf ki, bizim mühitimizdə insan həyatı daha çox təsadüflərdən asılıdır. Yatıram, bilmirəm ki, sabah nə olacaq, başıma nələr gələcək?!»

Fikrini telefonun cingiltisi qırdı. Tənbəl-tənbəl əlini uzadıb dəstəyi götürdü:

— Bəli, eşidirəm?!

Telefonda incə, tanış qız səsi eşidildi:

— Elməddin, mənəm, Zərrintacdı.

— Zərrintac xanım, salam. Deməsən də səsindən tanıdım, — deyə Elməddin qeyri-iradi sinəsinə axıb dolan sevincə özü də təəccüb etdi və mümkün qədər şadlığını gizlətməyə çalışdı.

Dəstəyin içində səs cinkildədi;

— Doğrudan? Səsimdən tanıdın?

— Əlbəttə.

— Çox şadam, Elməddin. Mən sənə naümid zəng elədim. Dedim yəqin evdə olmazsan.

— Məaim başqa gedəsi yerim yoxdu, Zərrintac xanım.

— Bunu düz demədin, Elməddin.

— Niyə?

— Ona görə ki, üç gün bundan qabaq sənə zəng eləmişdim, cavab vermədnn!

— Üç gün bundan qabaq elə bu vədə?

— Hə.

— Şəhərə kəzməyə çıxmışdım, darıxırdım.

— Darıxanda bizə gəl.

— Onda gərək gecə-gündüz sizdə olam!!

— Az bilmirsən!! — deyə Zərrintac xəttin o başında güldü.

— Yəni demək istəyirəm ki, həmişə darıxıram.

— İndi nəynən məşğulsan?

— Heç, elə belə. Oturmuşam, fikirləşirəm.

— Nə barədə?! Əkər sirr deyilsə!! Elməddin azca sükutdan sonra cavab verdi:

— Hər barədə. Özüm barədə, başqaları barədə...

— Kimdir o başqaları?.. Bilmək olarmı?

— Niyə olmur ki?! Hamı...

— Hamı??

— Hə, təəccüblüdür?..

— Bir az. — Sükut. — O hamının içində mən də varammı?

— …

— Dinmirsən?! Demək yoxam?

— Varsan! — Elməddin həqiqətən axır vaxtlar Zərrintac haqqında az fikirləşmədiyini xatırlayıb qətiyyətlə dedi:— Varsan. — Bu söz, görünür, Zərrintacın xoşuna gəldi və o, bir neçə saniyə nə deyəcəyini bilməyib susdu.

— Ağayi Nəcməddin hardadı?!

— Eh, o yenə içmişdi, getdi.

— Yenə o qızın yanına?

— Deyəsən ora getdi.

— Bəs sən nə edirsən?

— Oturmuşam fikirləşirəm!

— Nə haqda?

Zərrintac cavabını eynilə Elməddinin sözlərini təkrar etməklə verdi:

— Hər şey haqda, özüm haqda, başqaları haqda. Elməddin də onun sualını eynən təkrar etdi.

— O hamının içində mən də varammı? Zərrintac güldü:

— Təəssüf ki, yox...

— Yox?!

— Yox... niyə tutuldun? Elməddin səsini doğrultdu:

— Sən ordan nə gördün ki, mən tutuldum?!

— Səsindən bildim.

— A…

Sükut, sükut...

— Bizə gəlirsən?!

— İndi?!

— Nə olar ki?

— Gec deyil?

— Yox.

— Bir sözün var?! Sükut.

— Var!

— Nədi? Telefonda deyə bilməzsən?

— Deyə bilərəm, ancaq bircə saniyə səbr edin. Elməddin telefonda musiqi səsi eşitdi. Sonra kimsə qəmli bir mahnı oxudu:

«Mən pərişan həstəm,
Mən pərişan həstəm».

Zərrintac:

— Eşidirsən? — dedi.

— Eşidirəm...

Mahnının sözlərini eşidə-eşidə Elməddinin fikri uzaqlara uçdu. Əfsanə gəlib gözlərinin qabağında dayandı, o da bu mahnını sevirdi, bir dəfə Elməddin onun necə yanıqlı və hüzn dolu bir səslə bu mahnını oxuduğunu eşitmişdi. Ürəyi sıxıldı. «Hardasan, Əfsanə?» — deyə o, az qala ucadan dillənəcəkdi, ancaq xəttin o biri başında dayanıb qulaq asan Zərrintacı xatırlayıb sözlərini ürəyində söylədi. Sonra qəlbinə başqa bir hiss hakim kəsildi: Zərrintacın gün görməmiş çiçək təkin solğun və məhzun üzünü görmək, ala gözlərinə baxmaq, üzbəüz dayanıb onun incə belindən tutaraq xalça üzərində ehmalca fırlanmaq və «Mən pərişan həstəm» sözlərini qızın öz dilindən eşitmək arzusu Elməddini ayağa qaldırdı. O, ağzını dəstəyə tutub:

— Gəlirəm, Zərrintac, — dedi.

— Gözləyirəm!

Elməddin həyətə çıxdı. Qəribə idi ki, bu dəqiqə nə Əfsanə, nə də Zərrintac haqqında fikirləşirdi. Onun qulaqlarında nə zamansa Əfsanənin oxuduğu, indi isə Zərrintacın maqnitofonda çaldırdığı mahnının sözləri səslənir, səslənirdi. Küçədə adam azdı. Elməddin fikirli halda ağır-ağır addımlayır, gözlərini qabağına çıxan adamların üzündə gəzdirirdi. Əvvəllər onda belə adət yox idi; Əfsanə itkin düşəndən sonra onda bu, az qala vərdiş halına çevrilmişdi. Həmişə — maşında gedəndə də, piyada gedəndə də itiyi itmiş adam kimi baxışları bir yerdə qərar tutmur, axtarır və inanırdı ki, belə anların birində o, Əfsanəyə rast gələcək, mütləq gələcək.

Fikir-xəyal aləmində getdiyi yerdə birdən çadralı bir qadın böyürdən, dar dalandan qəfil irəli yeridi, onun rəngini itirmiş çadrası-

nın altından balaca, ağ bir əl çıxıb irəli uzandı və məhzun, titrək bir səs eşidildi:

— Ağa, acam...

Elməddinin bu səsdən bütün vücudu uçundu və o, yerə mıxlanmış kimi dayanaraq özünə yad olan bir ahənglə:

— Əfsanə? — deyə qışqırdı. Bu gözlənilməz rəftardan səksənən qadın qorxu içində bir addım geri çəkildi.

Birinci kitabın sonu.

ƏFSANƏSİZ İLLƏR